
AZƏRBAYCAN RESPUBLÍKASI

İLK PEYĞƏMBƏR, DÜNYA TUFANI VƏ NAXÇIVAN



NAXÇIVAN - 2010

63.3(2Rus)
N89

Azərbaycan MEA Naxçıvan Bölməsi
A.A.Bakıxanov adına Tarix İnstitutu
Naxçıvan Dövlət Universiteti

NUH PEYĞƏMBƏR, DÜNYA TUFANI VƏ NAXÇIVAN

(24-25 aprel 2009-cu ildə keçirilmiş beynəlxalq simpoziumun materialları)

M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublika
KİTABXANASI

NAXÇIVAN – 2010

Baş məsləhətçi: Vasif Talıbov
Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri

Redaksiya heyəti:

İsmayıl Hacıyev, Yaqub Mahmudov, İsa Həbibbəyli,
Nailə Vəlixanlı, Nail Tan, Xeyrəddin İvgin,
Əbülfəz Quliyev, Hacıfəxrəddin Səfərli

Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan (24-25 aprel 2009-cu ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan, "Əcəmi". 2010, 300 səh.

4700000000
053-2010

© "Əcəmi"-2010.

MÜNDƏRİCAT

Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı.....5
«Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan» mövzusunda beynəlxalq simpoziumun keçirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı 9
«Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan» mövzusunda keçirilən beynəlxalq simpoziumda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun çıxışı..... 10
Yaqub Mahmudov. Dünya tarixində Naxçıvan: Yer kürəsində həyatın başlandığı yer 17
Yaşar Kalafat. Qanturaoğulları və tufan mərkəzli ümum türk tarixi..... 30
Nizami Cəfərov. Azərbaycan türklərinin təfəkküründə Nuhun tufanı..... 40
İsmayıl Hacıyev. Tarixi mənbələr Naxçıvan şəhərindəki Nuh türbəsi haqqında..... 44

I. NUH PEYĞƏMBƏR VƏ DÜNYA TUFANI

İsa Həbibbəyli. Nuh peyğəmbər və dünya tufanı toplusu..... 55
Bəhlul İbrahimli. Ümumdünya subasmasının Naxçıvana meteoroloji və mədəni təsiri 69
Yusif Səfərov. Naxçıvanda «Nuhun tufanı» və Ağrıdağ əfsanələri..... 78
Vəli Baxşəliyev. Nuhla bağlı əfsanələr və həqiqətlər 87
Firudin Rzayev. Nuh tufanı, Naxçıvan və tarixi həqiqətlər 93
Lütviyyə Əsgərzadə. Klassik ədəbiyyatda Nuh peyğəmbər və dünya tufanı..... 108
Nazim Bababəyli, Fateh İmat. Naxçıvan diyarı Nuh tufanından əvvəl və sonra.....119
Türkan Qədirzadə. Gilançay hövzəsində Nuh peyğəmbər və dünya tufanı ilə bağlı rəvayətlər, inamlar.....127
Zakir Rzayev, Asəf Orucov. Nuhun gəmisi rəqəmlərin dili ilə.....133

II. NUH REYĞƏMBƏR VƏ GƏMİQAYA TƏSVİRLƏRİ

Əbülfəz Quliyev. Gəmiqaya təsvirlərində yazı elementləri.....140
Xeyrəddin İvgin. Nuh tufanında gəmiyə minməyən «ucubılıq»larla bağlı mifoloji rəvayətlər 146
Gülağ Öz. Türkiyə ələvi-bəktaşi rəvayətlərində Nuh tufanı və göyərçin motivi.....160
Hacı Qadir Qədirzadə. Gəmiyə götürülmüş heyvanlar, Gəmiqaya təsvirləri və Naxçıvandakı inamlarla ortaq cəhətlər 168
Nəcəf Müseyibli, Əkbər Bədəlov. Gəmiqaya qəbir abidələri 175
Gülnarə Qənbərova. Orta əsr Azərbaycan memarlıq və xalça bəzəyində Gəmiqaya təsvirlərinin izləri.....181
Məhsəti İsmayıl. Gəmiqaya təsvirlərində dünya tufanı ilə bağlı mifoloji süjetlər..... 197
Səbuhi İbrahimov. Dünya tufanının mifologiyası haqqında 208

III. DÜNYA TUFANI VƏ NAXÇIVAN ABİDƏLƏRİ

Gövhər Baxşəliyeva. Orta əsrlər ərəb mənbələrində Naxçıvan haqqında məlumatlar.....214
Adil Bağırov. Naxçıvanda Nuhla bağlı yer-yurd adlarının tarixi-etimoloji təhlili 220
Nail Tan. Nuh tufanının dünya mətbəx mədəniyyətinə töhfəsi olan bir şirniyyat: aşurə 232
Hacıfəxrəddin Səfərli. Naxçıvan şəhərindəki Nuh türbəsinin inşa tarixinə dair..... 243
Turgut Öcal. Nuh tufanı Naxçıvan (Gəmiqaya) və Ağrı dağı 250
Emin Arif Şıxəliyev. Ermənilərin Nuh peyğəmbərlə bağlı iddiaları və Naxçıvan məsələsi.....262
Qəhrəman Ağayev. Nuh tufanından sonrakı yaşayış məskənləri – Şahtaxtı..... 270
Vaqif Məmmədov. Azərbaycan klassik şeirində Nuh və Nuh tufanı..... 274
Qadir Əliyev. Nuh türbəsinin həndəsi naxışlarının təhlili 281
Nizami Alıyev. Əcəmi memarlıq məktəbinin daha bir yadigarı – Naxçıvanda Nuh türbəsi..... 287

NUH PEYĞƏMBƏRİN NAXÇIVAN ŞƏHƏRİNDƏKİ MƏZARÜSTÜ TÜRBƏSİNİN BƏRPA EDİLMƏSİ HAQQINDA

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Qədim, antik və orta əsr şəhər yerləri üzərində yerləşən Naxçıvan Azərbaycanın və dünyanın ən qədim şəhərlərindən biridir. Daş dövründən bu ərazidə ibtidai insanlar yaşamışlar. Naxçıvanda daş dövrü mədəniyyətinin izləri Qazma, Kilid, Daşqala mağaralarında, Batabat yaylağında və Kültəpədə qalmaqdadır. Azərbaycanda eneolit (eradan əvvəl V minillik), Kür-Araz (eradan əvvəl IV-III minilliklər) və boyalı qablar (eradan əvvəl XIII-VII əsrlər) mədəniyyətinin əsas ocaqları Naxçıvandadır. Bu, bir daha sübut edir ki, Naxçıvan ərazisində minilliklər boyu insanlar ardıcıl və intensiv həyat sürmüşlər.

Eradan əvvəl V-II minilliklərdə Naxçıvan ərazisindəki tayfaların iqtisadi, ictimai və mədəni həyatında böyük təkamül baş vermiş, iri tayfa ittifaqları meydana çıxmış və ilkin şəhərlər yaranmışdır. Belə şəhərlərdən biri də Naxçıvandır.

Naxçıvanın meydana gəlməsi haqqında bir sıra yazılı mənbələr mövcuddur. Qədim yunan, latın, ərəb, İran tarixçilərinin, coğrafiyaşünas və səyyahların verdikləri məlumata görə, Naxçıvan eradan əvvəl II minilliyin birinci yarısında meydana gəlmişdir. Naxçıvan haqqında ilkin məlumat tarixçi İosif Flaviyə (eradan əvvəl I əsr) və yunan coğrafiyaşünası Klavdi Ptolemeyə (eramızın II əsri) məxsusdur. Ptolemey Naxçıvan şəhərinin adını dünyanın 7 böyük şəhəri ilə bir sırada çəkmişdir. İlk orta əsr alban tarixçisi Moisey Xorenski (V əsr) Naxçıvan şəhərinin eradan əvvəl VI əsrdə mövcud olduğunu göstərmişdir. Bəzi qaynaqlarda isə Naxçıvan şəhərinin eradan əvvəl XV əsrdə yaranması fikri söylənmişdir. Orta əsr tarixçisi Stefan Orbelyani Naxçıvan şəhərinin əsasının eradan əvvəl 1539-cu ildə qoyulduğu haqda məlumat vermişdir. Həmin məlumat «Qafqaz» qəzetinin Naxçıvana həsr olunmuş 1882-ci il nömrəsində də öz təsdiqini tapmışdır. Yazılı mənbələri sistemləşdirərək və Naxçıvan ərazisindən əldə olunan arxeoloji materiallara, məşhur Gəmiqaya qayaüstü yazılarına, buradakı di-

gər abidələrə istinad edərək bu fikrə gəlmək mümkündür ki, Naxçıvan şəhərinin 3500-4000 ildən artıq yaşı vardır.

Şəhər adı kimi «Naxçıvan» ən qədim dövrlərdən mövcuddur. Qədim yunan mənbələrində «Naksuana», ərəb-fars mənbələrində «Nəxçuvan», «Nəxçəvan», «Nəqşicahan» kimi göstərilən bu adın müxtəlif dövrlərdə müxtəlif yozumu olmuş, toponimin yaranmasının əsası kimi «Naxç» türk tayfa, elamların «Nahhunte» Allah adlarına istinad olunmuş, bir sıra tədqiqatçılar isə Naxçıvan toponimini Nuh peyğəmbərin adı ilə bağlamışlar.

Tarixdə «Ümumdünya tufanı» barədə rəvayətin ilk yazılı variantı eramızdan əvvəl II minilliyin ortalarına aid edilən şumer əfsanəsidir. Həmin əfsanədə deyilir ki, Ümumdünya daşqınından böyük bir gəmidə yalnız bir qrup insan xilas ola bilmişdir. Bu əfsanəyə görə Naxçıvan dünyanın ən qədim sivilizasiya mərkəzi olmuşdur. Şumer rəvayətinin Naxçıvan şəhəri ilə bağlılığının tarixi əsası vardır. Belə ki, Naxçıvan Mesopotamiya, Babil, Xett və digər bu kimi qədim mədəniyyət mərkəzləri ilə sıx əlaqələr şəraitində inkişaf etmişdir. Eramızdan əvvəl II minilliyin ortalarına aid Bilqamıs haqqında akkad eposunda da «bütün canlıların toxumunu götürülüb» Allahın məsləhəti ilə düzəldilən gəmidə xilas olunduğundan danışılır.

İstər şumer, istərsə də Bilqamıs haqqında akkad rəvayətlərinin yarandığı və yazıya alındığı dövrlə Naxçıvanın yarandığı dövr arasında tarixi yaxınlıq olduğunu əsas götürüb, Ümumdünya daşqınının Naxçıvan ərazisini də əhatə etdiyini və Nuh peyğəmbərin məhz bu ərazidə quruya salamat çıxdığını güman etmək mümkündür.

Qədim dövrlərdən Naxçıvan əhalisi arasında yayılan rəvayətə görə, təxminən 7500 il bundan əvvəl baş vermiş Ümumdünya daşqını zamanı Nuh və ona iman gətirənlərin mindiyi gəmi ilk dəfə Naxçıvanda quruya çıxmış və insanlar burada məskən salmışlar. Beləliklə, yeni nəsil buradan törəyərək artmış, təşəkkül tapmışdır. Bir çox əfsanə və rəvayətlərin yaranmasının elmi əsası olduğu artıq təsdiq edilmişdir. Bunu Naxçıvan ərazisində Ümumdünya daşqını barədə rəvayətlərin yayılması və Nuhla bağlı yer adlarının çoxluq təşkil etməsi bir daha sübut edir. Yer üzündə elə bir ərazi yoxdur ki, orada Naxçıvandakı qədər Nuhla bağlı toponimik vahid (Nuhdaban, Naxçıvan, Nəhəcir, Nehrəm və s.) olsun. Xalq arasında yayılmış və bu gün də mövcud olan inama görə Naxçıvan şəhərinin cənubunda Nuhun, şimal-qərbində isə bacısının qəbri vardır.

XIX əsrin 80-ci illərində Naxçıvan məktəblərində işləmiş maarifçi K.A.Nikitin «Naxçıvan şəhəri və Naxçıvan mahalı» adlı əsərində Nuh tufanının Naxçıvanla əlaqədar olması barədə geniş məlumat verərək yazmışdır: «Rəvayətə görə, əfsanəvi tufandan sonra Ağrı dağı Nuh peyğəmbəri gəmisi ilə birlikdə qəbul etmişdir... Bundan sonra Nuh Naxçıvanda yaşamış və burada dəfn olunmuşdur. Hələ indi də onun buradakı məzarının və türbəsinin yerini göstərirlər... Hətta Nuh peyğəmbərin Naxçıvandakı duz karxanalarındakı fəaliyyəti də xalq arasında dolaşan rəvayətlərdə saxlanmaqdadır. O burada ilk çalışanlardan biri olmuşdur. Rəvayətə görə Kəmki əfsanəvi gəminin dayandığı birinci dağdır. Nuh buradan Ağrı dağına yola düşmüşdür. Yolda gəmi İlanlı dağına toxunmuş və dağın zirvəsinə elə zərbə endirmişdir ki, dağ haçalanmışdır.

Bundan sonra Nuh hazırda Naxçıvan şəhərinin yerləşdiyi yerdə məskən saldı. O, öz ailəsi ilə burada qərar tutdu və gələcək şəhərin əsasını qoydu. Şəhərin ilk məskunlaşma yeri mənasını bildirən adı da buradan meydana gəlmişdir. Nuh peyğəmbər və onun ailəsi uzun müddət Naxçıvanda yaşamışdır. Rəvayətə görə, insan nəsli buradan yayılmışdır. Nuh peyğəmbər özü, bacısı və ailənin digər üzvləri Naxçıvanda vəfat etmiş və burada dəfn olunmuşlar».

K.A.Nikitin Nuhun Naxçıvandakı qəbrini də görmüş və onu belə təsvir etmişdir: «Nuhun qəbri şəhərin cənub tərəfində, qədim qalanın qalıqlarının yaxınlığında yerləşir. Məzarın hazırkı görkəmi VIII yüzillikdə bərpa edilmişdir. İndiki görkəmdə o, yerdən qalxan çox da böyük olmayan türbəni xatırladır... Məbədin pilləkənlərlə aşağı düşmək tələb olunan interyeri dairəvi, çətinliklə keçmək mümkün olan, ortadan daş dirəklərlə möhkəmləndirilmiş mağaraya bənzəyir. Həmin dirəyin altında Nuh peyğəmbərin cənazəsi yerləşir».

Rus tədqiqatçısı V.M.Sısoyev Nuhun türbəsini təsvir edərkən onun mərkəzində diametri 2 metrə çatan səkkizguşəli sütun olduğunu göstərmişdir. Təsvir edilən bu əlamətlər yeraltı və yerüstü hissədən ibarət olan türk türbələri üçün xarakterikdir. Nuhun qəbri olan yerdə aparılan tədqiqatlar zamanı aşkara çıxarılan tikinti qalıqları burada Naxçıvan memarlıq məktəbinə xas üslubda tikilmiş türbənin olduğunu təsdiq edir.

Araşdırmalar göstərir ki, «Ümumdünya tufanı» və Nuhla əlaqədar rəvayətlər daha çox Naxçıvanla bağlı olmuşdur. Qədim

yunan alimi Klavdi Ptolemey ilk dəfə Naxçıvanı Nuh peyğəmbərin məskəni kimi xatırlatmış, XVI əsrin görkəmli ərəb alimi və coğrafiyaşünas Əl-Şərifi nəinki Nuh peyğəmbərin qəbrinin, hətta gəmisinin qalıqlarının Naxçıvanda olması barədə ətraflı məlumat vermişdir. İ.M.Dyakonov Gəmiqaya qayaüstü təsvirlərini və Naxçıvanın Nuhla bağlılığı məsələsini şumerlərdən gələn əfsanə ilə əlaqələndirmişdir. Yəhudi alimi İosif Flavi isə Naxçıvan torpağını Nuhun gəmisinin dayandığı ilk ərazi hesab etmişdir. Rus tədqiqatçısı K.N.Smirnov Nuhun qəbrinin Naxçıvanda olduğunu söyləmiş və onun yerini də göstərmişdir. Azərbaycan realist rəssamlığının banisi Bəhruz Kəngərli ötən əsrin 20-ci illərində Nuh peyğəmbərin Naxçıvandakı türbəsinin rəsmini 6 dəfə naturadan kətan üzərinə köçürmüşdür. Həmin nadir əsərlər Naxçıvandakı Bəhruz Kəngərli muzeyində və Naxçıvan Muxtar Respublikasının Dövlət Tarix muzeyində mühafizə olunaraq nümayiş etdirilir.

Göründüyü kimi, Nuh peyğəmbər Naxçıvanda yaşamış, burada vəfat etmiş, onun qəbri və qəbirüstü türbəsi Naxçıvanda Sovet hakimiyyəti qurulanadək bütöv bir panteon olmuş, minlərlə insanın ziyarətgahına çevrilmişdir.

Sovet hakimiyyəti illərində Naxçıvanın ən qədim dövrlərdən Azərbaycan türklərinə məxsusluğunu sübut edən yüzlərlə tarixi abidə kimi, Nuh peyğəmbərin qəbri üzərindəki türbənin qalıqları da dağıdılmışdır.

Yuxarıda qeyd olunanları əsas götürərək **qərara alıram**:

1. Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüsütü türbəsi bərpa olunsun.
2. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Elmi-Bərpa İstehsalat idarəsi Nuh peyğəmbərin türbəsinin layihəsini hazırlayıb Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə təqdim etsinlər.
3. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.
4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri **Vasif TALIBOV**

Naxçıvan şəhəri, 28 iyun 2006-cı il

«NUH PEYĞƏMBƏR: DÜNYA TUFANI VƏ NAXÇIVAN» MÖVZUSUNDA BEYNƏLXALQ SİMPOZİUMUN KEÇİRİLMƏSİ HAQQINDA

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan dünyanın ən qədim sivilizasiya mərkəzlərindən biridir. Şərur rayonundakı Qazma, Ordubad rayonundakı Kilid, Babək rayonundakı Daşqala və Naxçıvan şəhəri ərazisindəki Duzdağ mağaralarından əldə olunmuş maddi-mədəniyyət nümunələri, Əshabi-Kəhf ziyarətgahı ən qədim dövrlərdən burada insanların yaşadığını sübut edir.

Naxçıvanın qədimliyini sübut edən mühüm amillərdən biri də bu yurdun Nuh peyğəmbər və tərəfdarları ilə bağlı olmasıdır. Ordubad rayonu ərazisində olan və eradan əvvəl IV-I minilliyə aid edilən Gəmiqaya təsvirləri, Nəbi yurdu, Naxçıvan, Nehrəm, Nəhəcir, Nuhdaban, Nuhgədik, Peyğəmbərayağı kimi yer adlarının mövcudluğu Nuh peyğəmbərin bu torpaqda yaşamasının daha bir əyani ifadəsidir.

Son vaxtlar Nuh peyğəmbər, Dünya tufanı və bunların Naxçıvanla əlaqəsi ciddi aktuallıq kəsb etmiş, bir sıra araşdırmalar aparılmış, Cəmiqaya abidəsi kompleks şəkildə öyrənilmiş, tarix və mədəniyyət abidələri yenidən elmi tədqiqata cəlb olunaraq pasportlaşdırılmış, qeyd olunanlarla bağlı 20-dək kitab və monoqrafiya, 120-dən çox elmi məqalə çap olunmuş, «Naxçıvan abidələri ensiklopediyası» hazırlanaraq nəşr edilmişdir. Bundan əlavə Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin yeri dəqiqləşdirilmiş, abidənin qalıqları aşkar edilmiş və həmin abidə yenidən bərpa olunmuşdur.

Yuxarıda qeyd olunanları nəzərə alaraq **qərara alıram:**

1. 2009-cu ilin aprel ayında Naxçıvan şəhərində «Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan» mövzusunda beynəlxalq simpozium keçirilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri **Vasif TALIBOV**

Naxçıvan şəhəri, 10 fevral 2009-cu il

«Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan» mövzusunda keçirilən beynəlxalq simpoziumda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun

ÇIXIŞI

Hörmətli simpozium iştirakçıları!

Bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikasında çox mühüm elmi və tarixi əhəmiyyət kəsb edən beynəlxalq tədbir öz işinə başlayır. «Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan» mövzusunda simpozium keçirilir.

Adından da göründüyü kimi, beynəlxalq simpozium yer üzünün tarixi taleyində həlledici rola malik olan bir məsələyə, daha dəqiq desək, bəşəri mövzuya həsr olunmuşdur. Simpoziumda Azərbaycanın və xarici ölkələrin nüfuzlu elmi müəssisələrini təmsil edən nümayəndələrin, habelə Nuhşünas və Naxçıvanşünas alimlərin, mütəxəssislərin iştirakı əsas verir deyək ki, beynəlxalq elmi forum uğurla keçəcək, qarşısına qoyduğu məqsədə çatacaqdır.

Tarix öz-özünə yaranmır. O, qüdrətli şəxsiyyətlərin, xalqların və millətlərin birgə yaradıcılığının məhsuludur. İkinci tərəfdən, hər bir xalqın tarixi onun dünya birliyində özünəməxsus yer tutması üçün milli kimlik pasportudur. Tarix mahiyyət etibarı ilə beynəlmiləl olduğu qədər də millidir. Milli olmayan tarix beynəlmiləl ola bilməz. Keçmiş Sovet tarix elmində məhz bu amil diqqətdən kənarda saxlanmış, digər xalqlar kimi, Azərbaycan xalqının da tarixi hər cür təhriflərə məruz qalmış, faktik olaraq xalqımız uzun müddət öz gerçək tarixinin sahibi ola bilməmişdir. Azərbaycan tarixinin bir hissəsini təşkil edən Naxçıvan tarixi də lazımi səviyyədə öyrənilməmiş, qədim tariximizə qərəzli münasibətlər göstərilmişdir.

Ölkəmiz müstəqillik qazandıqdan sonra milli dövlətçiliyimizin möhkəmləndirilməsi, ölkə iqtisadiyyatının dirçəldilməsi sahəsində görülən işlərlə yanaşı Azərbaycan tarixinin keçmiş Sovetlər Birliyinə xas olan ideoloji baxışlardan təmizlənməsi, xalqımızın tarixinin, dilinin, ədəbiyyatının, arxeologiya və etnoqrafiyasının, folklor və adətlərinin, milli dəyərlər sisteminin, geniş mənada xalq yaradıcılığının elmi dəlil və konkret faktlar əsasında yenidən araşdırılması sahəsində əsaslı tədbirlər görüldü. Bu tədbirlərin kökündə ulu öndər Heydər Əliyevin rəhbər göstərişləri, tapşırıq və

tövsiyələri dayanırdı. Qısa zaman ərzində mühüm elmi nailiyyətlər qazanıldı. Azərbaycançılıq məfkurəsi formalaşdı. Xalqımızın qədim tarixinə, etnogenezisinə dair sanballı elmi-tədqiqat materialları, xəritələr toplusu hazırlandı.

Ümummilli liderimizin Azərbaycan tarixşünaslığına verdiyi mühüm töhfələrdən biri də regionların tarixinin öyrənilməsidir. Çünki bu olmadan, bütövlükdə Azərbaycan tarixindən danışmaq mümkün deyil. Məhz belə bir yanaşmanın, konseptual baxışın nəticəsidir ki, Naxçıvan tarixinin öyrənilməsi sahəsində də əhəmiyyətli dönüşə nail olunmuşdur.

Lakin bütün bunlar qəti fikir söyləməyə əsas vermir ki, qarşıda dayanan vəzifələr tamamilə həll olunmuşdur. Naxçıvanın qədim tarixinə dair bir sıra məsələlər hələ də tam araşdırılmamışdır. Öyrənilməsinə, tədqiq olunmasına ciddi ehtiyac duyulan bir çox məsələlər qalmaqdadır. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin yaradılması münasibəti ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə ümummilli lider Heydər Əliyev demişdir: **«Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılması haqqında Sərəncam imzalamışam... Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var».**

Hal-hazırda bu ehtiyac nəzərə alınaraq elmi-tədqiqat müəssisələrinin fəaliyyəti gücləndirilir. Ölkə Prezidenti cənab İlham Əliyev Azərbaycanın siyasi, iqtisadi və milli dövlətçilik tarixində mühüm yer tutan Naxçıvan tarixinin ardıcıl öyrənilməsi, «bu olduqca mühüm və səmərəli işin davam etdirilməsi» zərurətindən danışaraq demişdir: **«Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində Azərbaycandan qismən təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq məcburiyyətində qalan, tez-tez bədnam qonşuların ərazi iddiaları obyektinə çevrilən Naxçıvanın tarixinin hələ də tədqiq edilməyə ehtiyacı olan səhifələri açılmalı, Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənə-**

lərinə malik olan bu diyarın tam dolğun, obyektiv tarixi xalqımıza, habelə dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalı, erməni siyasətçilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə tutarlı cavab verilməlidir».

Bu gün qədim Azərbaycan topağı olan Naxçıvanda öz işinə başlayan «Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan» beynəlxalq simpoziumu ulu öndər Heydər Əliyevin və Azərbaycan Prezidenti cənab İlham Əliyevin Naxçıvanın qədim tarixinin öyrənilməsi sahəsində qarşıya qoyduqları vəzifələrin həlli istiqamətində atılan daha bir əməli addımdır.

Beynəlxalq simpoziumun öz işinə başlaması münasibəti ilə Sizin hamınızı təbrik edir, simpoziumun iştirakçılarını və qonaqları salamlayıram!

Hörmətli simpozium iştirakçıları!

Naxçıvan qədim tarixə malikdir. Milli sərvətlərimiz olan abidələrlə zəngin bir diyardır. Tale bu topaqdan öz səxavətini əsirgəməyib. Bu yurdun ən böyük sərvəti isə şübhəsiz ki, onun dünyaya bəxş etdiyi böyük tarixi şəxsiyyət, bəşəriyyətin ikinci atası sayılan həzrəti Nuh peyğəmbərin də vətəni olmasıdır.

Qeyd etmək lazımdır ki, qədim dövrlərdə və orta əsrlərdə Naxçıvanın tarixindən bəhs edən tədqiqatçılar, alim və səyyahlar Nuh peyğəmbər və Naxçıvan bağlılığından danışsalar da, bu məsələ ilə bağlı yazılı mənbələr qoyub getsələr də, Sovetlər Birliyi dövründə «Nuh-Naxçıvan» mövzusu qadağan olmuş, elmi ədəbiyyatlarda işlədilməsinə icazə verilməmişdir. Hətta iş o yerə çatdırılmışdır ki, Naxçıvanda nəşr olunan «Sovet Naxçıvanı» qəzetinin 1986-cı il 30 yanvar tarixli nömrəsində Nuhun gəmisinin Naxçıvan ərazisindəki Gəmiqayada quruya çıxması, buradakı runik yazılarında gəmi təsvirinin verilməsi barədə fikirləri, bütövlükdə Nuh peyğəmbər və Naxçıvan əlaqələrinə dair elmi təhlilləri özündə əks etdirən «Xalqımızın mənlik heykəli» adlı yazının dərc edilməsi mərkəzi hakimiyyət tərəfindən ciddi etirazla qarşılanmış, partiya orqanlarının büro və plenum iclaslarında sərt tənqid olunmuş, «Nuh əyyamı» dövrünün əfsanəvi süjetini milli iftixar mövzusu kimi qələmə verdiyinə görə qəzetin rəhbərliyi cəzalandırılmışdır.

Göründüyü kimi, Sovet tarixşünaslığı Nuh peyğəmbər və Naxçıvan bağlılığını qətiyyətlə təkzib etməyə çalışmış, o dövrün

elmi ədəbiyyatlarında, hətta Azərbaycan müstəqillik qazandıqdan sonra nəşr olunan bir sıra tədqiqat materiallarında da «Naxçıvan» sözünün mənşəyi barədə ziddiyyətli fikirlər irəli sürülmüşdür. Bəzi tarixçilər yunan mənbələrinə istinad edərək «Naxçıvan» sözünün **Naksuana** kimi yazılmasından, digərləri isə qədim ərəb mətnlərində **Nəşəva** kimi işlənməsindən istifadə edərək **Naxçıvan** ifadəsində yad elementlər axtarmağa cəhd göstərmişlər. Bu sözü elamların allahı ilə əlaqələndirənlər, qədim tayfa adından yarana biləcəyini fərz edənlər də vardır. Bir sıra alimlər isə Naxçıvanı «Nəqşi-Cahan», yəni dünyanın bəzəyi kimi başa düşmüşlər.

Mülahizələrin çoxluğuna baxmayaraq, elmi fikir əsasən yad mənbələr üzərində köklənmiş, yalnız az sayda tədqiqatçılar Naxçıvan sözünün Nuh peyğəmbərlə bağlılığını əsaslandırmağa çalışmışlar. Bu söz məhz «Nuh» ifadəsi ilə bağlıdır və Naxçıvan – Nuhçuların, Nuh tərəfdarlarının məskəni deməkdir.

Naxçıvan o yerdir ki, burada Nuh peyğəmbərin, yaxın qohumlarının və tərəfdarlarının məzarları mövcuddur. Araşdırmalar göstərir ki, «Ümumdünya tufanı» və Nuhla əlaqədar rəvayətlər daha çox Naxçıvanla bağlı olmuşdur. Qədim yunan alimi Klavdi Ptolemey bizim eranın II əsrində ilk dəfə olaraq Naxçıvanı Nuh peyğəmbərin məskəni kimi xatırlatmış, XI əsrin görkəmli ərəb alimi, coğrafiyaşünas əl-Şərifi nəinki Nuh peyğəmbərin qəbrinin, hətta gəmisinin də qalıqlarının Naxçıvanda olması barədə ətraflı məlumat vermişdir. Eradan əvvəl I əsrdə yaşamış Yəhudi alimi İosif Flavi Naxçıvan torpağını Nuhun gəmisinin dayandığı ilk ərazi hesab etmişdir. Rus tədqiqatçısı Smirnov Nuhun qəbrinin Naxçıvanda olduğunu söyləmiş, hətta onun dəqiq yerini də göstərmişdir. Azərbaycan rəssamı Bəhruz Kəngərli ötən əsrin 20-ci illərində Nuh peyğəmbərin Naxçıvandakı türbəsinin rəsmini 6 dəfə naturadan kətan üzərinə köçürmüşdür. Həmin nadir əsərlər Naxçıvandakı Bəhruz Kəngərli muzeyində mühafizə və nümayiş etdirilir.

Qeyd olunanlar bir daha göstərir ki, Nuh peyğəmbər Naxçıvanda yaşamış, burada vəfat etmiş, onun məzarı bütöv bir panteon olmuş, minlərlə insanın ziyarətgahına çevrilmişdir.

Dünya xəritəsinə nəzər salsaq, heç bir yerdə Azərbaycanın Naxçıvan Muxtar Respublikasında olduğu qədər Nuh peyğəmbərlə bağlı yer adlarına rast gəlmək mümkün deyil. Naxçıvan

Muxtar Respublikasının Ordubad rayonunda olan və eradan əvvəl IV minilliyə aid edilən Gəmiqaya təsvirləri, Nəbi yurdu, Naxçıvan, Nehrəm, Nəhəcir, Nuhdaban, Nuhgədik və Peyğəmbərayağı, Haça dağ kimi yer adlarının, yaşayış məskənlərinin mövcudluğu Nuh peyğəmbərin bu torpaqda yaşamasının daha bir əyani sübutudur.

Burada haqlı sual doğur: Nuh peyğəmbər və tərəfdarları nə üçün məhz Naxçıvanı seçmişlər? Bu fikrin ən sadə izahı bu günkü Naxçıvanın relyefi, yerüstü təbii sərvətləri, coğrafi mövqeyidir. Arazboyu və dağətəyi zonada əkinçiliyin və sənətkarlığın, dağlıq ərazidə heyvandarlığın inkişafı üçün yaranmış əlverişli şərait, mövcud 11 iqlim qurşağından 9-nun Naxçıvanda olması daş dövründən başlayaraq insanların burada məskunlaşması ilə nəticələnmişdir. Eradan əvvəl IV minilliyə aid Kültəpə, Qazma, Kilid, Oğlanqala, Govurqala, Daşqala mağara-yaşayış yerləri Naxçıvanın qədim sivilizasiyanın əhəmiyyətli mərkəzlərindən biri kimi formalaşmasının canlı nümunəsidir. Burada aparılan arxeoloji qazıntılar nəticəsində aşkarlanmış daş və metal dövrünün abidələri, Nuh peyğəmbərlə bağlı olan Gəmiqaya təsvirləri, mükəmməl sənətkarlıq nümunələri kimi diqqəti cəlb edən boyalı qablar texnologiyası, xalq sənətkarlığının inkişaf etmiş və dövrümüzə qədər gəlib çatmış digər sahələri Naxçıvanın ilkin şəhər mədəniyyətindən xəbər verir. Azərbaycan Eneolit, Kür-Araz və boyalı qablar mədəniyyətinin əsas ocaqları Naxçıvandadır. Bu, bir daha sübut edir ki, minilliklər boyu Naxçıvan ərazisində ardıcıl və intensiv həyat olmuş, eradan əvvəl V-III minilliklərdə burada məskunlaşmış insanların iqtisadi, ictimai və mədəni həyatında ciddi dəyişikliklər baş vermiş, iri tayfa ittifaqları meydana gəlmiş, Naxçıvan şəhəri yaranmışdır.

Qeyd etmək lazımdır ki, müxtəlif dövrlərdə Naxçıvan şəhərinin yaranması barədə də Azərbaycan tarixşünaslığında ziddiyyətli, heç bir elmi əsası olmayan fikirlər irəli sürülmüşdür. Bir sıra tədqiqatçılar Naxçıvanın 2 min, bəziləri 3 min 500 yaşı olduğunu iddia etmiş, lakin yekun elmi nəticəyə gələ bilməmişlər. Səbəb nə idi? Səbəb o idi ki, Naxçıvan şəhərinin yaşı ilə bağlı araşdırmalar lazım olan yerdə aparılmamış, Naxçıvan şəhərinin Nuh peyğəmbərlə bağlılığı elmi tədqiqatlardan kənarda qalmışdır. Yadda saxlamaq lazımdır ki, indiki Naxçıvan qədim və orta əsrlər şəhər

mədəniyyətinin üzərində yerləşir. Deməli, elmi fikir yenidən Naxçıvanın yaşı məsələsinə qayıtmalı, tədqiqatlar bu ərazidə aparılmalı, Naxçıvan şəhərinin indiki ərazisini əhatə etməlidir.

Rus tədqiqatçısı Nikitinin 1882-ci ildə Tiflisdə nəşr olunan «Qafqaz ölkəsi və tayfalarının təsviri üçün materiallar» məcmuəsində nəşr olunan «Naxçıvan mahalı və Naxçıvan şəhəri» adlı irihəcmli məqaləsində deyilir: «Tufandan sonra...Nuh hazırda Naxçıvan şəhərinin yerləşdiyi yerdə məskən saldı. O, öz ailəsi ilə burada qərar tutdu. Və gələcək şəhərin əsasını qoydu. Şəhərin ilk məskunlaşma yeri mənasını bildirən adı da buradan meydana gəlmişdir».

Həmin məqalədə eyni zamanda qeyd olunur ki, Nuh peyğəmbər şəhər əhalisinə duz çıxartmağı öyrətmiş, özü də yaxınlıqdakı duz mədənində ilk çalışanlardan olmuşdur. Nuh peyğəmbərlə bağlı Naxçıvan ərazisində yayılmış digər rəvayətlər kimi, bu fikir də özünün elmi təsdiqini tapmış, XIX əsrin axırlarında Naxçıvan duz mədənində nəzarətçi işləyən Beyer duz şaxtasında qədim daş baltalar aşkar etmişdir. O, həmin baltalardan ikisini Naxçıvan şəhər məktəbinə bağışlamış, qalanlarını isə Peterburq və Tiflis muzeylərinə göndərmişdir. Aydın olmuşdur ki, duz çıxarılması üçün istifadə olunan bu daş baltalar azı beş min il bundan əvvəl düzəldilmişdir. Bu, bir tərəfdən Naxçıvanda duzçıxarma mədəniyyətinin 5 min ildən artıq bir dövrü əhatə etdiyini göstərirsə, digər tərəfdən Naxçıvan şəhərinin yaşı məsələsini yenidən elmi fikrin predmetinə çevirir.

Naxçıvan yaxınlığındakı Duzdağın və ona bitişik ərazilərin Naxçıvan şəhər mədəniyyətinin formalaşmasında mühüm rolu olmuşdur. Həmin ərazidən aşkar olunmuş arxeoloji nümunələrə əsaslanaraq demək mümkündür ki, yerli əhali Eneolit dövründə buradan geniş istifadə etmişdir. Təbii ki, çıxarılmış duz ancaq yerli tələbatı ödəməmiş, digər yerlərə də aparılmış, bu yolla ticarət inkişaf etmişdir. İkinci tərəfdən, bu ərazi insanların məskunlaşması üçün də əlverişli yer olmuşdur. Arazboyu və Duzdağ ətrafı düzənliklərdəki torpaqlar, sututarlar əhalinin tədricən oturaq həyata keçməsi ilə nəticələnmiş, əkinçilik, zəngin təbii imkanlardan istifadə etməklə isə sənətkarlıq formalaşmış, dulusçuluq, sonrakı dövrlərdə metal istehsalı və xalq sənətkarlığının digər sahələri inkişaf etmişdir.

Tarixi mənbələrdə Dünya tufanının ən azı 7 min 500 il bundan əvvəl baş verdiyi qeyd olunur. Deməli, Naxçıvan bu dövrdən etibarən yaşayış məskəni kimi seçilmiş, əlverişli təbii-coğrafi şərait burada əkinçilyin, maldarlığın, sənətkarlığın müxtəlif sahələrinin inkişafına səbəb olmuş, ticarət əlaqələri yaranmışdır. Göstərilən şərtlər erkən şəhər mədəniyyətinin formalaşmasında əsas amillərdən hesab edildiyindən Naxçıvan şəhərinin 5 min il bundan əvvəl yarandığını söyləmək mümkündür.

Dünya tufanının ilk yazılı variantı olan və eradan əvvəl IV minilliyin ortalarına aid edilən Şumer əfsanəsi ilə Naxçıvan arasında bağlılıq da bu qədim şəhərin 5 min ildən artıq yaşı olduğunu göstərməkdədir. Belə ki, Naxçıvan mədəniyyəti Mesopotamiya, Babil, Xett və digər bu kimi antik mədəniyyət mərkəzləri ilə sıx əlaqədar şəraitdə inkişaf etmiş, özünəməxsus formalaşma mərhələsi keçmişdir.

Qeyd olunanların yekunu kimi əminliklə göstərmək mümkündür ki, Nuh peyğəmbər və Dünya tufanı qədim Naxçıvanla bağlı olmuşdur. Bu, Azərbaycanda Nuh peyğəmbər və Naxçıvan mövzusunda aparılan elmi araşdırmaların gəldiyi ən düzgün və məntiqi nəticədir. Müasir Nuhşünasların fikrincə, dünyada yerin və göyün qovuşduğu, Allahın bərəkətli torpaq kimi nişan verdiyi yer Naxçıvandır. Belə olmasaydı, dünya tarixinə Nuh möhürü Naxçıvanda vurulmazdı.

Bu gün «Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan» mövzusu regional yox, qlobal, bəşəri məsələdir. Biz Nuh peyğəmbər və Naxçıvan bağlılığını təsdiq etməklə, öyrənməklə Naxçıvan tarixinin araşdırılmasında yol verilmiş nöqsanları aradan qaldırır, bu yurdun gerçək tarixini yaratmağa çalışır, bununla da Azərbaycan tarixini zənginləşdirir və dünya tarixinə layiqli töhfə vermiş oluruq.

Beynəlxalq simpoziumun öz fəaliyyətini bu istiqamətdə quracağına, forumun gəldiyi nəticələrin elmimiz üçün faydalı olacağına inanır, Sizin hamınıza uğurlar və elmi hesabatlarınızın məhsuldar olmasını arzulayıram.

16
M nsvlqxaИ
AMAXBATИK

YAQUB MAHMUDOV
AMEA Tarix İnstitutu

DÜNYA TARİXİNDƏ NAXÇIVAN: YER KÜRƏSİNDƏ HƏYATIN BAŞLANDIĞI YER

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri hörmətli Vasif müəllim Talıbov!

Hörmətli millət vəkilləri!

Əziz qonaqlarımız!

Əziz soydaşlar!

Hörmətli konfrans iştirakçıları!

Mən buraya – Naxçıvana yola düşməzdən əvvəl Akademiyamızın prezidenti akademik Mahmud Kərimov Tarix İnstitutuna gəlmişdi. Və mən bu konfransla əlaqədar ona məlumat verdim. Hörmətli Vasif müəllim, bu görüş zamanı Akademiyanın prezidenti Mahmud Kərimov Sizə və bu konfransın bütün iştirakçılarına ən səmimi salamlarını, ən xoş arzularını yetirməyi məndən xahiş etdi. Mən hər şeydən əvvəl, məmnuniyyətlə onun salamlarını Sizə və bütün konfrans iştirakçılarına yetirirəm. Mən, eyni zamanda, bütün Azərbaycan tarixçilərinin ən dərin minnətdarlıq hisslərini bu konfransın keçirilməyində çox böyük əməyi olan Vasif müəllimə yetirirəm. Belə bir beynəlxalq simpozium baş tutduğu üçün konfrans iştirakçılarını da ürəkdən təbrik edirəm.

Əziz dostlar! Mənim özümə gəldikdə, son dərəcə əhəmiyyəti olan bu beynəlxalq simpoziumda iştirak etməyi özümə bir qürur mənbəyi hesab edirəm və bura dəvət olunduğum üçün çox dərin minnətdarlığımı sizlərə – konfransın təşkilatçılarına yetirirəm.

Əziz dostlar, bu il biz burada – bizim Naxçıvanımızda, dünya mədəniyyətinin ən qədim mərkəzində, Yer kürəsində həyatın başlandığı məkanda çox böyük bir beynəlxalq tədbir həyata keçiririk. Mən ümid edirəm ki, bu tədbir təkcə bizim Azərbaycanımızla, türk dünyası ilə məhdudlaşıb qalmayacaq, öz əhəmiyyətinə görə dünya elmi tarixində çox mühüm rol oynayacaqdır.

Hörmətli konfrans iştirakçıları! Yeri gəlmişkən, bu böyük elmi məclis bu gün burada birdənbirə keçirilmir və bu mühüm elmi məclisin keçirilməsi üçün uzun bir yol qət olunmuşdur. Ona görə də mən konfransın lap əvvəlində, bir ziyalı borcumu yerinə yetirə-

M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublika
KİTABXANASI

rək sizin hamınıza, hörmətli Vasif müəllimə ən dərin minnətdarlığımı, təşəkkürümü bildirmək istəyirəm. Və birinci növbədə hörmətli Vasif müəllimi və sizin hamınızı səmimi qəlbdən təbrik etmək istəyirəm ki, belə bir konfrans baş tutdu. Onu da qeyd etmək istəyirəm ki, bu konfransa gələn yol çox uzun yol olub. Məqsədyönlü şəkildə aparılmış böyük hazırlıq işlərindən sonra bu konfransa gəlmişik və bu işlərin hamısının yerinə yetirilməsində, beynəlxalq konfransın baş tutmasında Heydər Əliyevin azərbaycançılıq ideyalarının burada – bizim Naxçıvanımızda dönməz icraçısı olan, onu ardıcıllıqla yerinə yetirən, onun dövlətçilik məktəbinin sadiq nümayəndəsi Vasif müəllimin xüsusi xidmətləri var. Bizim ulu öndərimizin layiqli davamçısı İlham Əliyevin yeritdiyi qətiyyətli siyasətin Naxçıvanda həyata keçirilməsində hörmətli Vasif müəllimin xüsusi xidməti var. Mən xüsusi qeyd etmək istəyirəm ki, Naxçıvanda elmin inkişafına, tədrisin inkişafına, maarifin inkişafına Vasif müəllim xüsusi qayğı, xüsusi diqqət göstərir. Və bura – bu konfransa gələnə qədər biz şahidi olmuşuq ki, bizim Naxçıvanımızda Əshabi-Kəhfin və oranın ətraflarının abadlaşdırılması, bu istiqamətdə aparılan tədqiqat işləri, Gəmiqayada keçirilən beynəlxalq forum, bizim Akademiyanın Naxçıvan Bölməsinin apardığı çox qiymətli tədqiqat işləri, Naxçıvan Universitetində gedən araşdırmalar, burada aparılan çox ciddi tədqiqat işləri, çap olunan monoqrafiyalar – nə qədər böyük işlər görülüb! Mən bütün bunları yada salmaq istəyirəm, bunların hamısı bizim çox böyük nailiyyətimizdir, Naxçıvanın çox böyük nailiyyətidir və xüsusi qeyd etmək istəyirəm ki, bir neçə il bundan qabaq bizim hamımızın yadındadır, biz dəfələrlə beynəlxalq forumlarda görüşmüşük və bir neçə il bundan qabaq biz Naxçıvan tarixini yazmağa başlayanda, bu mühüm işi diqqət mərkəzinə götürəndə, həm Akademiyanın buradakı bölməsində – Naxçıvanımızda, həm də bizim A.A.Bakıxanov adına Tarix İnstitutunda Naxçıvanla bağlı bizim irilixırdalı 20-dən çox, təqribən 30-a qədər yazı vardı. Bunların bəziləri xırda broşürlər idi, bəziləri isə məqalələrdən ibarət idi. Və bu gün artıq biz konfrans salonuna daxil olarkən foyedə yaradılmış sərgidən gördük ki, Naxçıvanla, o cümlədən Naxçıvan tarixi ilə bağlı bu illər ərzində aparılmış tədqiqat işlərindən ibarət bütöv bir kitabxana yaradılıb. Təkcə bu bir il ərzində 350-dən çox sanballı monoqrafiyalar və kitablar nəşr olunub. Bunların sayı yeni

çapa təqdim olunanlarla birlikdə 700-ə yaxındır. Bu son dərəcə böyük nailiyyətdir, son dərəcə böyük uğurdur. Və bunların hamısı addımaddım Naxçıvanımızı, Azərbaycanımızı, bizim qədim tariximizi, tarixi köklərimizi dünya ictimaiyyətinə tanıtmaq, bugünkü nəsillərə olduğu kimi çatdırmaqdan ötrü atılan addımlardır. Yeri gəlmişkən, bugünkü konfrans da, heç təsadüfi deyildir ki, indiyədək aparılmış böyük tədqiqat işlərinin nəticəsidir. Həm də real nəticəsidir. Tarix sahəsində aparılan tədqiqat işlərinin birbaşa nəticəsidir. Arxeologiya, etnoqrafiya, epiqrafika, toponimika və bütün başqa sahələrdə Naxçıvanda aparılan elmi araşdırmaların nəticəsidir. Bu baxımdan mən xüsusilə qeyd etmək istəyirəm ki, 24 aprel günündə belə bir konfransın keçirilməsi Azərbaycanımızın dünya elminin bədxahlarına, tarixi saxtalaşdıranlara verdiyi ən tutarlı cavabdır. Bu konfransın ən mühüm əhəmiyyəti ondan ibarətdir ki, bu gün bizim Azərbaycanımız, bizim Naxçıvanımız bütün dünya qarşısında, bütün türk dünyası qarşısında Nuhla əlaqədar çox sanballı bir beynəlxalq məclisə ev sahibliyi edir. Bu ilk məclisdir və bu bir həqiqətdir ki, biz bura nəyi isə sübut etməkdən ötrü toplaşmamışıq. Biz ancaq elmi həqiqəti dünyaya bildirmək üçün toplanmışıq. Yəni bu baxımdan da bu konfransın dünya elminə çox böyük töhfə verəcəyinə mənim heç bir şübhəm yoxdur. Çünki dünya üzrə Nuhla bağlı elmi araşdırmalar demək olar ki, son dərəcə siyasiləşdirilib. Dünya ölkələrinin bəzilərində bir çox «elm» təbliğatçıları, xüsusilə bədxah ermənilər özləri üçün saxta bir tarix yaratmaqdan ötrü minlərlə erməni saxtakarlığı üzərinə Nuhla da bağlı bir saxtakarlıq, daha doğrusu, saxta tarix əlavə ediblər. Və buna görə də xüsusi məqsədlə, bəd niyyətlə araşdırılır bu məsələ. Nuh peyğəmbərlə bağlı tarix xüsusi məqsədlə elə dolaşdırılıb ki, Nuhun qəbri, Nuhun tarixi, Nuhla bağlı Azərbaycan tarixi, Naxçıvanın tarixi bizim Naxçıvanımızdan, Azərbaycanımızdan, bütün türk dünyasından ayrı salınsın və bu torpaqların tarixi saxtalaşdırılsın. Bu torpaqların bütün tarixi ermənilərə bağlanılsın. Elə buna görə də bu torpaqların tarixi harada isə hələ xristianlığın qəbuluna min illər qalmış üzdəniraq xristian «tarixçiləri» tərəfindən xristian dünyası ilə əlaqələndirilib. Bəd niyyət aydındır: təki Azərbaycandan, təki Naxçıvandan uzaqlaşdırılsın bu tarix. Bax, Nuhla bağlı, Naxçıvanın tarixi ilə bağlı bu cür saxtalaşdırmalar aparılıb. Ona görə də əsl elmi həqi-

qəti bu gün biz göndərəcəyik bütün dünyaya! Dünyaya göndərəcəyimiz elmi həqiqətin üzərinə isə indiyədək yüzlərlə son dərəcə böyük kölgələr salınıb və qaranlıq zülmətə qərq edilib Nuhun tarixi. Ona görə də, şübhə etmirəm ki, bu konfrans dünya tarixində elmi həqiqətin ortaya çıxarılmasında çox böyük əhəmiyyətə malik olacaqdır. Saxtalaşdırıcılara çox mühüm cavab olacaqdır. Erməni bədxahlarımıza çox mühüm cavab olacaqdır. Bu baxımdan da mən bu konfransı, bu günü dünya elmi üçün çox mühüm bir başlanğıc dönəmi hesab edirəm. Bizim Azərbaycanımız və türk dünyası üçün bugünkü konfransın çox böyük əhəmiyyəti vardır. Düzünə qalsa, bu gün həm də Türk dünyasının tarixi araşdırılır. Əslində türk dünyasının Nuhun davamı olaraq inkişaf etməsi, onun ayrıayrı mərhələləri bu gün burada araşdırılır. Biz tariximizi bu gün özümüzə qaytarırıq. Nuhla əlaqədar tarixin kökü özəl bir tarixidir, həm də çox qədim tarixdir. Naxçıvanda yaranmış, yaşanmış və bu gün də yaşayan tarixidir. Bu tarixin sahibləri bizik. Bu tarixi bir zaman bizdən ayrı salmışlar. Bu gün biz bu tarixin məhz bizə məxsus olduğunu elmi həqiqətlər əsasında dünyaya bəyan edirik. Bu baxımdan da bu gün bizim Naxçıvanımız, bu gün bizim Azərbaycanımız, Naxçıvanın timsalında bütün türk dünyası bu işə ev sahibliyi edir. Bu münasibətlə, hörmətli Vasif müəllim, çox böyük əməyiniz olduğuna görə Sizi bütün konfrans iştirakçıları adından, bütün tarixçilər adından, ziyalılarımız adından bir daha səmimi qəlbdən təbrik edirik. Bu təbrikin ünvanı məhz Sizsiniz! Məhz Siz uzun tarixi yolu, çətin yolu keçərək, uzun araşdırmalar nəticəsində, burada görülən elmi araşdırmalar nəticəsində bizi bu günlərə qovuşdurdunuz.

Əziz dostlar, mən həmişəki etirafı bu dəfə də elan etmək istəyirəm. Mən Vasif müəllimə bir də minnətdarlığımı ona görə bildirirəm ki, türk dünyası, Naxçıvan, dünya tarixində Naxçıvan, bir sözlə, mən edəcəyim məruzədəki bir çox dəyərli məsələləri, bir az da dəyərli faktlarla, Vasif müəllim söylədi, ona görə də mən bu məsələləri təkrarlamaqdan məmnuniyyətlə imtina edirəm. Elə buna görə də məndən qabaq çıxış edən Vasif müəllimə təşəkkürümü bildirirəm. Lakin bəzi məqamların üzərində bir qədər dayanmağı özümə borc bilirəm. Nələrdir, hansı məsələlərdir bunlar? Burada heç bir saxtalaşdırmaya ehtiyac yoxdur. Burada ancaq həqiqəti etiraf etmək lazımdır. Haradır Naxçıvan? Azərbaycanın

bu diyarı dünya tarixində hansı yeri tutur? Dünya tarixində, bəşər sivilizasiyasında, Yer kürəsində bizim yaşadığımız bu sivilizasiyanın, yəni müasir sivilizasiyanın başlandığı yerdir Naxçıvan. Yəni ən qədim mədəniyyətin beşiyi olan üçbucağa daxildir Azərbaycan: qərbdə Aralıq dənizi hövzəsi, ondan Şərqə doğru Naxçıvan və digər Azərbaycan torpaqları, cənubda isə İran körfəzi. Bu üçbucaqda qədim mədəniyyət, bugünkü sivilizasiya inkişafa başlayıb. Və burada – bu üçbucaqda Naxçıvanın öz yeri var. Bu üçbucaqda məhz Naxçıvanda həyatın başlandığı gün kimi aydın sübuta yetir. Və bu üçbucağa Naxçıvan daxildir. Bu üçbucağa bütün Azərbaycanımız daxildir. Bu üçbucaqda dünya tarixində türkün çox böyük payı var. Yəni həqiqətin başlanğıcı buradandır. Əsl həqiqət burdan başlanır. Mən burada bir həqiqəti xüsusi qeyd etmək istəyirəm. Bu həqiqətin heç bir əlavə əsaslandırmaya ehtiyacı yoxdur. Çünki bu həqiqətin ünvanı «Qurani-Kərim»dir. Yəni bu həqiqəti müqəddəs kitabımız «Qurani-Kərim» sübuta yetirib. Hörmətli Hacı Qadirin tədqiqatını bura gələrkən diqqətlə nəzərdən keçirdim. Bir daha əmin oldum ki, müqəddəs kitabımızdakı «Əshabi-Kəhf» məhz Naxçıvandakı «Əshabi-Kəhf»dir. Deməli, Əshabi-Kəhf Naxçıvandadır. Başqa Əsha-bi-Kəhflərdən fərqli olaraq, bu məhz həmin Əshabi-Kəhfdir, «Quran-i Kərim»də təsvir olunan, həmən yerdir Əshabi-Kəhf. Bundan başqa, Azərbaycan ərazisi dünya tarixinin ən qədim yaşayış yerləri ilə, ən qədim insan məskənləri ilə zəngindir. Onlardan ikisinin – Qazma və Kilid mağaralarının minillərlə tarixi var. Baxın: Qazma mağarası da Naxçıvandadır, Kilid mağarası da Naxçıvandadır. Bizim yüzlərlə qədim arxeoloji abidələrimiz də Naxçıvandadır. Hörmətli Vasif müəllim öz çıxışında bu abidələrdən bir çoxunun adını çəkdi.

Hörmətli konfrans iştirakçıları, bu simpozium «Dünya tufanı, Nuh peyğəmbər və Naxçıvan» probleminin müzakirəsinə həsr olunduğu üçün mən bir məqamı xüsusi vurğulamaq istəyirəm. Nuhun gəmisi ilə bağlı olan yeganə möhtəşəm təbii-tarixi abidə də dünyanın hər hansı başqa ölkəsində deyil, məhz Azərbaycandadır. Bu məşhur Gəmiqaya abidəsidir. Gəmiqaya da Naxçıvandadır. Gəmiqayanın özəlliyi harasındadır? Yəni bütün elmi tədqiqatlar bunu sübut edir. Əlavə bir tədqiqat obyekti isə bu olmalıdır. Əjdər Fərzəli buradadır, yenə də mən bildirmək istəyirəm ki, araşdırmalar aparılıb. Xüsusi qeyd etmək istəyirəm ki, Gəmiqayadakı

araşdırmalar, bu, dəniz səviyyəsindən 4000 metr yüksəklikdə olan ucа zirvədə – Nuhun gəmisinin quruya çıxdığı yerdə uzun sürən yaşayış yeri olmuşdur və bu zirvədə, bu yüksəklikdə çox qiymətli qaya təsvirlərinin olması dünya tarixini öyrənmək üçün misilsiz dəyəri olan faktdır. Özü də bu fakt başqa yerdə təkrar olunmayan faktdır. Hələ onu da deyim ki, bu zirvədə, bu yüksəklikdə yuxarıda bəhs etdiyim qaya təsvirlərinin yanında Peyğəmbər yurdu, yəni «Nəbi yurdu» adlanan bir ulu qəbiristanlıq da var. Yəni qəbir abidələri var. Və burada elmi araşdırmalar da aparılıb. Burada «Gəmiqaya forumu» adlı beynəlxalq simpozium da keçirilib. Bütün bunlardan əlavə, Naxçıvanda Nuhla bağlı çoxsaylı toponimlər də var. Vasif müəllim bunların hamısını sadaladı. Mən bunları təkrar etmək istəmirəm. Kim inkar edə bilər Nuhla bilavasitə bağlı olan bu adları: Nəbi yurdu, Nəbi qalası, Nuh dağı, Nuh dərəsi, Nehrəm, Nəhəcir və s. Bunların hamısının ardınca Dədə Qorquddakı tarixi həqiqətlərin hamısı Naxçıvanda təkrar olunur. Bunların heç birisi təsadüf ola bilməz.

Əziz dostlar! Bütün bunların içərisində bir şah tarixi abidəmiz, bir şah yaşayış məntəqəsi də vardır ki, bu da bilavasitə Naxçıvanın özüdür. Və biz bu gün xüsusi olaraq qeyd etməliyik ki, Naxçıvanın tarixi, buradakı yer adları erməni saxtakarları tərəfindən xüsusi niyyətlərlə təhrif olunur. Uydurma, yalançı terminlər yaradılır. Lakin bütün bunları tarix özü rədd edir. Çünki Naxçıvanın tarixi xalqın yaddaşında yaşayır. Və bizim xalqımız öz Naxçıvanını həmişə Nuhla bağlı olaraq «Nuhçıxan», «Nuh çıvan» adlandırıb. Bu Naxçıvanın əsl adıdır. Nuhla bağlı adıdır. Xalqımız tərəfindən verilmiş adıdır. Çünki Naxçıvan ən qədim insan məskəni kimi Nuhla əlaqədar yaranmış yaşayış yeridir. Bu adı məhz bizim xalqımız yaşadıb. Məhz bizim xalqımız bütün bu yerlərin, o cümlədən Naxçıvanın ən qədim aborigen – yerli əhalisi olub. Biz məhz bu həqiqəti bu gün buradan bütün dünyaya bəyan edirik. Və bu gün mən tarixçilərin adından demək istəyirəm ki, hörmətli Vasif müəllim, biz Akademiyanın Naxçıvan Bölməsi ilə, Naxçıvan Universiteti ilə apardığımız elmi tədqiqatların nəticəsi olaraq, A.A.Bakıxanov adına Tarix İnstitutu olaraq Sizdən xahiş edirik ki, bizim ümumi rəyimizi nəzərə alaraq Naxçıvanın dünyanın ən qədim yaşayış məskəni kimi yubileyini qeyd etmək haqqında məsələ qaldırasınız. Həm də Naxçıvan dünyanın ən qədim şəhəridir.

Və təsadüfi deyildir ki, yuxarıda göstərilən arxeoloji, həmçinin etnoqrafik abidələr araşdırılmadan, ancaq yazılı mənbələrə əsaslanaraq, xüsusi məqsədlə tərtib edilmiş yazılarda Naxçıvanın eradan qabaq 1539-cu ildən şəhər kimi mövcud olduğu qeyd edilir. Və bu rəqəm hələ bizə qarşı olan saxtalaşdırıcı fikirlərin kökündə dayanan məlumatdır. Amma bundan sonra çox elmi araşdırmalar aparılıb. Elə Naxçıvanın özündə nə qədər tədqiqatlar, arxeoloji qazıntılar aparılıb?! Hələ bundan sonra da çox işlər görüləcək. Ona görə də çox arxayınlıqla əlimizi ürəyimizin üstünə qoyub, elmi həqiqəti etiraf edə bilərik, Naxçıvanın 5000 illiyini, özü də ən azı 5000 illiyini qeyd edə bilərik! Və bunu da konfrans adından Sizdən xahiş edirik, bu məsələni qaldırasınız, tarixçilər Sizinlədir. Və bunun artıq vaxtı çatıb. Mən onu da etiraf etmək istəyirəm ki, bu məsələ çoxdan qaldırılanda, elə Vasif müəllimin özü səbr etməyi, tələsməməyi təklif elədi ki, gəlin hələ tələsməyək, aparılan tədqiqatlar genişləndirilsin, gəlin çalışaq ki, qoy hələ əvvəlcədən əsərlər çap olunsun! Etiraf edək ki, bu düzgün yol idi. Çox işlər görülüb bu müddət ərzində. Bayaq dediyim kimi, Naxçıvanşünaslıq artıq bir elmi istiqamətə çevrilib. Naxçıvana dair çap olunan əsərlərdən artıq bütöv bir elmi kitabxana yaranıb. İndi biz arxayınlıqla bunu deyə bilərik. Ona görə də bu məsələ qaldırılmalıdır. Ən əsas da ona görə ki, Nuhla bağlı deyimlər, Nuhla bağlı xalqın yaratdığı, yaşatdığı tarix Naxçıvandadır, Azərbaycandadır. Nuhla bağlı xalqın yaratdığı tarix Azərbaycandan başqa dünyanın heç bir ölkəsində, heç bir yerində yoxdur. Ermənilərə gəldikdə isə, onların Nuhla, Naxçıvanla bağlı iddiaları, yazdıqları, yaydıqları qondarma, uydurma, saxta tarixdir. Mən bir azdan bunun üzərində dayanacağam. İndi isə bəzi məsələləri çox qısa şərh etmək istəyirəm, Naxçıvan dünya tarixində yeganə bir yerdir ki, yeganə bir yaşayış məskənidir ki, yeganə bir şəhərdir ki, Nuhla bağlı həyatın başlandığı bu yerdə yaşadığımız günlərə qədər aramsız həyat davam edir, yaşayış davam edir, Naxçıvan bir yaşayış məskəni olaraq, tarixi şəhər olaraq yaşayır, inkişaf edib. Bu cür tarixi məskən dünyanın, demək olar ki, heç yerində yoxdur. Və dünya mədəniyyəti tarixinə Naxçıvan bir hadisə olaraq daxil olub. Baxın Naxçıvanın, bizim Naxçıvanımızın ərazisinə baxın, onun sahəsinə baxın və bu sahədə artıq, mən minnətdarlığımı bildirirəm Akademiyanın Naxçıvan Bölməsinə ki, iki il ərzində cahanşümul bir iş gördü. Bu ərazidə

1173 abidə qeydə alınıb. Baxın, dünyanın öz tarixi ilə, mədəniyyəti ilə öyünən ölkələrinin hansında bu cür az bir vaxt ərazidə 1173 tarixi abidə iki ilin içərisində qeydiyyata alınıb?! Bunların hələ 782-si yenidən qeydiyyata alınıb. Özü də bunlar keçmiş qeydiyyatlarda olmayan abidələrdir. Bunların 600-ü dünya miqyasında tanınan, yəni dünya miqyaslı, həmçinin ölkə miqyaslı abidələrdir. Qoy Naxçıvan tarixini saxtalaşdıranlar axtarıb nümunə tapsınlar və bizə desinlər görüm, dünyanın hansı yerində bu qədər bir-birini tamamlayan və bir yerdə yaşayış yeri kimi, insan məskəni kimi aramsız olaraq davam eləyən bu cür abidələr var?! Ona görə də bu cəhətdən də Naxçıvanın 5000 illiyi hökmən qeyd olunmalıdır. Və tarixin başqa sahələrində də Naxçıvan öz sözünü deyib. Nə qədər ədəbiyyat, incəsənət, maarifin bütün sahələrində Naxçıvan dünya elminə, dünya maarifinə, ədəbiyyatına, incəsənətinə misilsiz töhfələr veribdir. Mən burada bəzi faktları xüsusi olaraq səsləndirmək istəyirəm. Dünya tarixinin nadir şəxsiyyətinin, memarlıqda məktəb yaratmış, dünya memarlığına təsir edən bir məktəbin banisi, Əbubəkr Əcəmi Naxçıvaninin memarlıq məktəbi məhz Azərbaycanın Naxçıvanında yaranıb. Harada, dünyanın hansı ölkəsində bu cür bitkin və qədim memarlıq məktəbi olub? Dünyanı maarifə səsləyən Nəiminin yaradıcılığı da bura ilə, bizim Naxçıvanımızla bağlıdır, Nəiminin türbəsi Naxçıvandadır. Nəsirəddin Tusi xüsusi dörd sistemli rəqəmlər nəzəriyyəsinin banisidir. Bu dahi azərbaycanlı Heliosentrik sistem nəzəriyyəsinin ilkin banilərindən biridir. Dahi astronomdur. Avropada riyazi fikirlərin, astronomiyanın inkişafına təkan verib. Kolumbun kəşfləri məhz bizim bu dahi həmvətənimizlə bağlıdır. Onun da genetik kökü gəlib Naxçıvana çıxır, Naxçıvanla bağlıdır. Heydər Əliyev kimi dünyanın azərbaycanlı dahisi Naxçıvanın yetirməsidir. Yəni bu cür misalları biz bütün başqa sahələrdə də göstərə bilərik. Mən dövlətçilik tarixində Naxçıvanın rolunu xüsusi qeyd etmək istəyirəm. «Dünya tarixində Naxçıvan» – belədir mənim mövzum. Və bu mövzu ilə əlaqədar olaraq yada salmaq istəyirəm, bir zamanlar böyük Atabəylər dövlətinin, böyük Azərbaycan imperiyasının paytaxtı olub Naxçıvan. Bütün Azərbaycan torpaqları, İran körfəzinə qədər bütün qonşu ərazilər Naxçıvandan idarə olunub. Və bu qədim şəhər bütün Azərbaycanın paytaxtı olub, bizim tariximizi yaşadıb. Çünki eramızdan əvvəl IV minilliyin sonları-üçüncü

minilliyin əvvəllərində Azərbaycanın qədim tayfaları məhz həmin o haqqında danışdığımız dünya mədəniyyətinin yaradıcıları olub, həmin o dünya mədəniyyətinin beşiyi olan Babil torpaqlarını, Dəclə-Fərat vadisini, İran körfəzinə qədər çox geniş əraziləri məhz bizim tayfalarımız, bizim Azərbaycan tayfaları yüz illərlə idarə ediblər. Başqa sözlə, bu qədim dövlətçilik tarixinin davamıdır Naxçıvanın dövlətçilik tarixi. Və mən bu gün xüsusi yada salmaq istəyirəm Araz Türk Respublikasını, Naxçıvanın bizim hərb tariximizdəki, vətənpərvərlik tariximizdəki rolunu. Naxçıvan camaatı, bizim buradakı azərbaycanlılarımız, Kəngərli generalları, buradakı bizim soydaşlarımız tarixin bütün çətinliklərinə, bütün mühasirə vəziyyətlərinə, bütün qanqadalarına, dəhşətli soyqırımlarına sinə gərərək bu torpağı tərk etməyiblər. Dara düşəndə bir Araz Türk Respublikası yaradıblar, bir Cənub-Qərbi Qafqaz (Qars) Cümhuriyyəti yaradıblar. Kürək-kürəyə verərək Andranikələrə qarşı qəhrəmancasına mübarizə aparıblar. Vətən torpağının bir qarışını belə düşmənə verməyiblər. Özü də yaradılan bütün bu dövlətləri Böyük Azərbaycanın, Azərbaycan Xalq Cümhuriyyətinin tərkib hissəsi kimi yaradıblar. Bütün qırğınların, soyqırımlarının acılarını qəbul ediblər. Lakin Naxçıvan camaatı, buradakı azərbaycanlılarımız, buradakı kəngərli igidləri bu torpağı heç kəsə verməyiblər. Bu dövlətçilik tariximizə çox böyük töhfədir. Mənim, əlbəttə, Əlincəqalanın 14 illik qəhrəmancasına müdafiəsi barədə də danışmalı çox sözüm vardı. Lakin çox təəssüf ki, vaxtım sona yaxınlaşır, mən erməni saxtakarları ilə bağlı bəzi fikirlərimi konfrans iştirakçılarına çatdırmalıyam. Odur ki, Naxçıvanın qəhrəmanlıq tariximizdəki rolu barədə bir çox faktların üzərindən keçirəm. Bununla bağlı ancaq yeganə bir arzumu sizlərə çatdıram: təki bütün türk dünyasının hər yerində, şimallı-cənublu bütün Azərbaycanın hər yerində doğma torpağa bağlılıq, vətənpərvərlik, vətən uğrunda canını fəda eləmək dərsini biz Naxçıvandan alaydıq! Mən Azərbaycanın hər yerində bunu deyirəm. Onda biz torpaq itirmərik. Və bu baxımdan mən xüsusi qeyd etmək istəyirəm ki, bu gün bu beynəlxalq simpoziumun məhz aprelin 24-də keçirilməsinin xüsusi əhəmiyyəti bundan ibarətdir ki, bu həqiqəti – Nuh həqiqətini, Naxçıvan həqiqətini bütün dünyaya bəyan etməyimizlə erməni saxtakarlığına çox ciddi bir cavab veririk. Biz 24 aprellə əlaqədar burada heç bir çıxış etmirik. Konfransımızı da

24 aprelə həsr etməmişik. Lakin saxtakarlara və saxtakarlığa cavabımızı bildirmək istəyirik. Ermənilərin Nuhla, bu torpaqla heç bir əlaqəsi yoxdur. Ermənilər bu torpağa XIX əsrin əvvəllərində köçürülüb gətiriliblər. Həmin dövrə qədər ermənilərin bu torpaqla heç bir əlaqələsi yoxdur və Nuh peyğəmbəri də heç cür özləri ilə əlaqələndirə bilməzlər. Çünki bu tarixi həqiqətin, real tarixi gerçəkliyin ziddinədir. Ermənilər Asiya qitəsinə gəlmə etnosdurlar. Bu torpaqların aborigen əhalisi deyillər. Bizik – Azərbaycan türkləriyik və bizim ulu babalarımızdır bu torpaqların aborigenləri, yəni ən qədim yerli əhalisi!

Hörmətli konfrans iştirakçıları, ziyalılar. Açın Herodotu oxuyun. Herodot ermənilərdən bəhs eləyəndə göstərir ki, onların ulu babalarının ehtimal olunduğu, güman edildiyi tayfalar bura – Asiya qitəsinə, yəni Van gölü sahillərinə Balkan yarımadasından köçüb gəliblər. Onlar frigiyalılardır, Frigiyadan gəliblər. Özü də onların ulu babalarının məhz friqlər olması ehtimal edilir. Onlar eradan qabaq XII əsrin ortalarında köç edə-edə Van gölü sahillərinə gəlib çıxıblar. Təkrar edirəm – Van gölü sahillərinə! Eradan qabaq XII əsrin ortalarında, yəni ermənilər Asiya qitəsinə – Van gölü sahillərinə gələndə artıq Naxçıvan şəhəri 2000 ildən çox yaşı olan qədim yaşayış məskəni idi. Bizim ulu babalarımız burada qədim mədəniyyət yaratmışdılar. Erməni köçləri isə, yuxarıda dediyimiz kimi, Kiçik Asiyaya hələ təzə-təzə gəlib çıxmışdılar. Təkrar edirəm: Naxçıvana yox, Van gölü sahillərinə! Buyursunlar Dyakonovu oxusunlar. Buyursunlar antropologiyaya müraciət etsinlər. Bizim bu yerlərdə, xüsusilə indiki Ermənistan ərazilərindəki qəbiristanlarda **braxisefallara** – qısabaşlılara, başqa sözlə ermənilərin kəllə sümüklərinə ancaq 200 il bundan qabaq təsadüf edilir. Yəni ermənilərin kəllə sümükləri Çar Rusiyasının köçürmə dövrünə – XIX əsrin əvvəllərinə aiddir. Ondan qabaqkı qədim kəllə sümükləri, qədim qəbiristanlar uzunbaşlılara – **dolixosefallara** aiddir, yəni türklərə – bizim babalarımıza aiddir. Yeri gəlmişkən, təqribən 200 il əvvəl ermənilər bu yerlərə köçüb gəldikdən sonra qədim türklərə – bizim ulu babalarımıza aid olan bu qəbiristanlıqlar erməni vandalları tərəfindən dağıdıldı, əkin yerlərinə çevrildi. Və mən xüsusi qeyd etmək istəyirəm ki, qədim Nuh dövründən bu yerlər turukkilərin, hürrilərin, daha sonra kimmerlərin, iskitlərin, sakların vətəni idi. Onlar ermənilər hələ Van gölü

sahillərində peyda olandan çox qabaq bu yerlərdə qədim oturaq mədəniyyət yaratmışdılar. Naxçıvanda və Şərqi Anadoluda türk xaqlarının qədim oturaq mədəniyyəti var idi. Konkret fakt demək istəyirəm sizə: 1826-1828-ci illər Rusiya-İran müharibəsi başa çatarçatmaz ermənilərin İran ərazisindən bura köçürülməsi Çar ordusunda xidmət edən erməni zabiti Qazaros Lazaryana (Lazarevə) tapşırılmışdı. 1828-ci ilin əvvəllərindir. Lazaryan İran ərazisindən erməniləri bu torpaqlara, yəni Azərbaycanın Rusiya tərəfindən işğal olunmuş İrəvan və Naxçıvan xanlıqlarının ərazisinə köçürməkdən ötrü onlara yalvarır. Yalvarışın da məzmunu bundan ibarət idi: «Tələsin, bir azdan rus ordusu buradan çıxıb gedəndən sonra biz sizi buradan köçürə bilməyəcəyik. Sizi sağ-salamat köçürüb aparacağıq. Narahat olmayın. Siz az itki verəcəksiniz. Lakin az bir zaman ərzində bu itkilərin əvəzində siz daimi vətən əldə edəcəksiniz». «Daimi vətən!» – bunu XIX əsrin əvvəllərində – 1828-ci ildə erməni zabiti ermənilərі İrandan Şimali Azərbaycan torpaqlarına köçürərkən deyib. Müraciətin mənası gün kimi aydındır: «Sizi (yəni ermənilərі) daimi vətən əldə etməkdən ötəri biz işğal olunmuş İrəvan ellərinə, İrəvan xanlığına, Naxçıvan xanlığına köçürürük». Bu 1828-ci ilə aid bir fakt. Həmin ilə aid digər bir fakt: o zaman 500 erməni ailəsini də Naxçıvana köçürmüşdülər. Lakin o zaman Naxçıvan camaatı ayağa durdu. Qoymadılar ermənilərі Vətən torpağında yurd salmağa! Ona görə də bu faktı mən bir tarixçi minnətdarlığı ilə Naxçıvan camaatına bildirmək istəyirəm. Eyni zamanda, gəlin o zamankı ulularımıza da rəhmət oxuyaq! O zaman təpədən dırnağadək silahlanmış rus qoşunları da, onun komandanı Paskeviç də Naxçıvan camaatının öhdəsindən gələ bilmədi. Həmin 500 erməni ailəsi Naxçıvanda qərar tuta bilmədi. Onların hamısını ötürdülər İrəvan xanlığının ərazisinə – Dərələyəzə. Və beləliklə, ermənilər XIX əsrin əvvəllərində Naxçıvanda yurd sala bilmədilər. Ona görə də mən ermənilərin bu gün Naxçıvanla bağlı ərazi iddialarını, Nuhla bağlı saxtakarlıqlarını əsassız hesab edirəm, uydurma hesab edirəm. Bütün bunları əfsanə hesab edirəm. Mif hesab edirəm. Naxçıvanda heç zaman ermənilər məskən sala bilməmişlər. Onların burada heç bir abidəsi olmayıb. İrəvan xanlığı ərazisində isə XIX əsrdən əvvəl nə kompakt yaşayış məskənləri, nə də tarixidünyəvi abidələri olub. Yəni bu tarixi həqiqətdir. Və digər tərəfdən mən bir məsələyə də

qısaca münasibətimi bildirib, fikrimi tamamlamaq istəyirəm. İndi sifarişlə yazılan əsərlər meydana çıxır. Çox qəribədir. Azərbaycanda da bəziləri ermənilərin səsinə səs verirlər. Belə əsərlərin bəziləri Rusiyada çap olunur. Bu işlərdə keçmiş imperiya generallarının ruhu hiss olunur. Bəziləri isə Dağlıq Qarabağa, Naxçıvana olan erməni iddialarına «elmi əsaslar» hazırlayırlar. Belələrinin sayıqlamalarına görə guya qədim «erməni-türk xalqı» deyilən bir xalq olub. Yəni guya «Biz ermənilərlə vahid bir xalq olmuşuq». Məna aydındır: «Ermənilərin Nuhun qəbrinə, Naxçıvana iddiaları var. Qoy olsun. Burada pis nə var ki, onlar da qədim türklərdir. Verin getsin Naxçıvanı ermənilərə!» Və yaxud guya «Azərbaycanlıların damarlarında erməni qanı axır, ermənilərin damarlarında da azərbaycanlı qanı! Hər ikiniz türksünüz. Verin getsin Dağlıq Qarabağı ermənilərə!» Və yaxud da ki, götürək, «Slavyan-türk» xalqının olması haqqında iddiaları. Bunların hamısı sifarişlə yazılan əsərlərdir. Xüsusi məqsədlə yazılan «əsərlərdir». Digər tarixi fakta müraciət edək. XVI əsrdə Krımda olan bəzi qıpçaq-türk tacirləri qriqorianlığı qəbul etmişdilər. Lakin onlar bu dini qəbul etmələrinə baxmayaraq, erməni əlifbasında yazıb-oxumalarına baxmayaraq, öz Allahlarına – ulu Tanrıya sitayiş edirdilər. Qriqorian əlifbası ilə dini kitablar nəşr edirdilər. Bu, qriqorianlığı qəbul edən XVI əsr qıpçaq türklərinin abidələridir. Bu, ermənilərin qədim türklər olması demək deyil. Və ya ermənilərin türklərlə eyni xalq olması demək deyil! Başqa sözlə, bunların hamısı saxta tarixdir. Mən bunu burada deməyi özümə borc bildim. Çünki Murad Acı kimi xristian missionerləri və başqaları gəlib bu yerlərdən material toplayıb, gedib sonra Azərbaycanın əleyhinə çıxış edirlər. Və belə saxtakarlara qarşı yekdilliklə mübarizə aparmağı mən tarixçilərimizin ümumi borcu, ümdə vəzifəsi hesab edirəm.

Hörmətli konfrans iştirakçıları! Məruzəmi yekunlaşdıraraq mən bir daha xüsusi olaraq qeyd etmək istəyirəm ki, bir neçə il bundan qabaq Naxçıvan tarixinə dair irili-xırdalı cəmi 30 əsər yazılmışdı. Onların da əksəriyyəti məqalə və broşürlərdən ibarət idi. Bu gün isə Naxçıvanın tarixinə həsr olunmuş 700-dən çox tədqiqat işlərinin sahibləriyik. Bu bütöv bir kitabxanadır. Fərəhlə qeyd edə bilərik ki, ingilis və Azərbaycan dillərində «Naxçıvan: tarixi və abidələri» kimi fundamental tədqiqat əsəri, 2 cildlik «Naxçıvan Ensiklopediyası» nəşr olunub. Bu enisklopediya Azərbaycan

elminin çox böyük nailiyyətidir, çox mükəmməl bir əsəridir. Naxçıvanın abidələrinin siyahıya alınması çox böyük uğurdur. Bu yaxınlarda çıxan «Naxçıvan abidələri» ensiklopediyasını mən xüsusi olaraq qeyd etmək istəyirəm. Mən bunu burada – Naxçıvanda aparılan elmi-tədqiqat işlərinin zirvəsi hesab edirəm. Və bütün bu tədqiqat işlərinin ərsəyə gəlməsinə görə mən, Vasif müəllim, Sizə, bir ziyalı olaraq dərin minnətdarlığımı bildirirəm. Akademiyanın Naxçıvan Bölməsi az vaxtın içərisində qazanılmış bu böyük uğurlara görə ən xoş sözlərə layiqdir. Mən bu işdə görkəmli alimimiz akademik İsmayıl Hacıyevin böyük elmi-təşkilatçılıq fəaliyyətini xüsusi olaraq qeyd etməyi özünə borc bilirəm. Universitetdə də böyük işlər gedir. Naxçıvan Universiteti sözün əsl mənasında klassik universitetdir. Və ümumiyyətlə, Akademiyanın Naxçıvan Bölməsi Azərbaycan üçün çox iş görür, bizim başımızı hər yerdə uca edir. Və sonda, əziz dostlar, bu gün Naxçıvan özünün yeni intibah dövrünü yaşayır. Xalqımız üçün nə qədər xoşdur ki, Naxçıvanın orta əsr intibahı daha yüksək səviyyədə yeni oyanış dövrünə daxil olub. Özü də bu intibahın xüsusiyyəti ondan ibarətdir ki, dünya tarixinin nadir hadisəsidir. Bu intibaha, bu oyanışa Naxçıvan blokada şəraitində nail olub. Ağır blokada şəraitində olan Naxçıvan türkün düşmənlərinə, Azərbaycanın düşmənlərinə nümunə göstərir. Və bədxahlarımızın gözünü kor edir ki, bu şəraitdə, blokada şəraitində Azərbaycan xalqı öz dühası ilə, öz bacarığı ilə bu Nuh diyarının qədim tarixini nəinki yaşadır, onu hətta intibah dövrünün zirvəsinə qaldırır. Buna görə də bugünkü simpozium münasibətilə, əziz konfrans iştirakçıları, Sizin hər birinizi, bütün naxçıvanlı soydaşlarımızı bir daha təbrik etmək istəyirəm. Və öz məqsədyönlü təşkilatçılıq bacarığı ilə bizi bu günə, bu konfransa gətirib çatdırdığı üçün Vasif müəllim Talıbova bir daha öz ziyalı minnətdarlığımı bildirmək istəyirəm. Hamınızı ürəkdən təbrik edirəm. Bu çox böyük hadisədir. Biz bu hadisə ilə, əslində, Nuhla bağlı aparılan bütün tədqiqatlara, beynəlxalq elmi məclisə bu gün artıq ev sahibliyi edirik. Arzu eliyərəm ki, bu ev sahibliyini həmişə əlimizdə saxlayaq! Və yaxın zamanlarda Naxçıvanın 5000 illiyini bayram edək! Diqqət üçün sağ olun!

YAŞAR KALAFAT

QANTURAOĞULLARI VƏ TUFAN MƏRKƏZLİ ÜMUMTÜRK TARİXİ

«Bizim Türk milletimiz eski ve şerefli bir millettir. Zaten Orta Asya'nın Altay aylasında yetiştiği için kartalların meziyetlerini daha gençliğinde kazanmıştır. Ta uzakları görür, hızlı bir uçuşu vardır ve bu ruhu barındıracak kadar kuvvetli bir beden sahibidir».

Mustafa Kemal Atatürk

GİRİŞ:

Biz bu bildirimizle, yaklaşık olarak 5-6 yıldır üzerinde çalıştığımız «**Türklük**» kavramını yeni bir milli ve inşaacı anlayışla ele alıyoruz. Buna göre Türklük, muhakkak ve sadece bir ırkı, kavmi değil, aynı zamanda ve hatta insanın resmi-sivil çevresi ve mutlak olan ile ilişkiler bütünüdür. Şüphesiz bu ilişkiler yapılanmasının sözlü veya yazılı bir seri kuralları ve bize göre de bu kuraların semavi, ilahi, mistik bir boyutu vardı. Türkler ve Türklükle ilgili açık ve örtülü ayetler ve hadisler bize bunu düşündürmektedir. Bu anlamda Türklüğün bir başlangıç dönemi ve tarihi seyri olması gerekirdi. Aynı zamanda tarih sahnesine çıkışı ile yayıldığı coğrafyası da izah edilebilmeliydi. Neden bu kavim, ırk veya millete «**Türk**» denilmişti? İsmin bir kaynağı olmalıydı. Türklüğün bu başlangıç tarihi, yayılmış olduğu coğrafi alan ve ad alışı ile ilgili ileri sürülen iddiaları derleyici toplayıcı bir içeriği olmalıydı. Nihayet ilişkileri belirleyen kuralların da, izahı mümkün olabilen bir çıkış şekli olmalıydı.

Çok farklılıklar gösterebilen fiziki antropolojiye sahip bu milletin farklılıklarının da bir izahı gerekiyordu. Farklı beden ve kafa yapılarının yanı sıra farklı ten renkli Türklerin olmasının bir izahı olmalıydı. Türklükle ilgili yapılacak açıklamalar bu noktaya da açıklık getirebilmeli idi. Bu noktanın açıklığa kavuşması Türk fiziki farklılıklarına gerekli izahı getirmiş olacaktır.

Keza Türkçe diye bilinen dil nasıl olmuştu da bu derece geniş bir coğrafyada konuşma aracı olabilmiş ve bu derece çok lehçeye sahip olabilmiştir. Asgari 4-5 bin yıl gibi uzun bir ömür biçilebilen bu dilin bir çıkış ve gelişme seyri olmalıydı. Bu dil oto

dinamizmini nereden alıyor olabilirdi. Matematiksel yapısını ona kazandıran ne idi? İlahi bir boyutu üzerinde durulamaz mıydı?[1]

Farklı isimli ilahi uyarıcılara ümmet olunabilirken[2] değişmeyen ve varlığında devamlılık arz eden, anadili farklılığına rağmen insan, çevre ve yaradan ilişkilerdeki esasları belirleyen ve çok kere karşımıza töre olarak çıkan bu sözlü yasanın mahiyeti ve kaynağı ne idi?

Bu ve benzeri sorular karşımıza «**Türklük**» Türklüğün belirleyicisi olan «**Türk kültürü**» bu kültürün yapıcısı ve sahibi olan «**Türk kültürlü halklar**», Bu halkların yaşamakta oldukları «**Türk Kültür Coğrafyası**» bu kültürün dili ve Bu coğrafyanın kültür tarihi, kavramlarını karşımız çıkarmaktadır.[3]

Biz bu çalışmamızda bu tanımlardan Türk tarihini merkeze alarak Türk dili ve Türk dinini irdeleyerek, Türk coğrafyasında da kısa bir tur atacağız. Türk Tarihi, İslam Tarihi, İslam Türk Tarihi, Anadolu Tarihi, Anadolu Türk Tarihi, Anadolu İslam Tarihi, Anadolu İslam Türk Tarihi kavramları üzerinde duracağız. Türklüğün genel İslam'dan ve Muhammedi İslam'dan evvelki inancına veya inançlarına yer vereceğiz.

Bütün bunların tufan ile ilgisine gelince genel Türk tarihi içerisinde Tufan bir genel miadıdır. Özel miatlar veya mihenk taşları; **Türk Ata, Ergenekon, Kantura Olayı, Sümerler**[4] ve benzeri gibi bir iki olaydır. Bu noktanın anlaşılması Türk tarihinin zaman zaman ve farklı coğrafyalarda batıp çıkan hanedanlar tarihi itibariyle bir bütün olduğunu ortaya çıkaracaktır. Hatta Türk devletleri tarihini batı ve doğu şeklinde ayırmak bile bütünün bütünlüğüne aykırı bir tutum olur. Yapılan tarih tanımları esasen bir birinden pek de farklı olmayan bir bütünün safhaları gibidirler. Biz

---

[1] «(...) şiddetle karşı çıkan bir topluluğu uyarsın diye senin dilinle (indirip okutarak) kolaylaştırdık». Meryem, 96.

[2] «Senden önce gönderdiğimiz peygamberler hakkındaki kanun (da budur) Bizim kanunumuzda hiçbir değişiklik bulamazsın». İsra, 77.

[3] Türk Tarihinin başlangıç dönemi, tarih sahnesine ilk çıkışı (Ahmet Ali Askarov, Egen Atagarriev). Türk kavramının ilk belirme dönemleri (Tuncer Baykara, Ata Çikiev). Türk kültür coğrafyası (Abrar Karımullın, Bahtiyar Kerimov). Türk dili tarihi ve coğrafyası (B.Kerimov, A.B.Ercilasun) gibi konular için «**Tarih Dünyası Tarih Araştırmaları Kongresi**» **(5-9 Eylül 1994, Ankara)** bildirilerine bakılabilir.

[4] Sümerlerde ve Şaman metinlerinde de Nuh Tufanı Efsaneleri vardır. Sadi Bayram. **Kaynaklara Göre Güney-Doğu Anadolu'da Proto-Türk İzleri.** İstanbul: Türk Dünyası Araştırmaları Vakfı, s. 20-25, Nevruz-Türk Ata bağlantılı tespitlerde hayvan sürüleri bağlantısı vardır.

izahımızda da değineceğiz üzere Türklük ile tevhit inancı, Hak dini anlamında İslam'dan farklı değildir. Muhammedi İslam'a girerek Müslümanlıkla tanışan Türklük Hak dini ile Hz. Türk Ata döneminde, onun vasıtası ile onun akaidine göre iman ve amel ederek tanışıp mümin olmuşlardı. Bu tanışıklık Türk lehçeleri ve akraba dillerle birlikte Türk dilini ve onun yani Türk dilinin coğrafyasını oluşturdu. Bu coğrafya Türk coğrafyasıdır.

METİN

Mutlak olanın dini bir tanedir. Bir tek olan ve ismi İslam olan dinin, farklı ilahi tebligatçılar tarafından değişik tarihlerde tebliğ edilmesi ile onun sayısı artmış olmaz. Bir olan din peygamber sayısınca artmış olamaz.[5]

Türk Tarihi, Hz. Türk[6] ile başlayıp günümüze kadar gelen ve sonsuza kadar sürebilecek olan bir tarihtir. Bu tarihi süreç kapsamına coğrafya olarak yakın çevresi ile Türkistan'ı büyük bir bölümü ile Ortadoğu, Balkanlar ve Kafkasya'yı da kapsamına alan Anadolu'yu içerir.. Belirtilen bu coğrafi alan ve başlangıcı ile sınırlanan tarihi devre, Türk coğrafyası ve Türk tarihinin alanıdır. Geniş anlamda İslam, "la ilahe İllallah" ile Hz. Adem'le birlikte başlarken, ilahi tebligatın Hz. Nuh[7] (a.s.) Yüce Allah'ın nübüvvetle görevlendirdiği ilk resul peygamberdir.[8] Hz. Yafes/Yafeth – Hz. Türk tebligat sürecinde Türkler tevhit inancına girerek o tarihten itibaren bu bütünün bir parçası olurlar.[9] Bu esaslan-

---

[5] Gönderilen peygamberlerin sayısını Alah'tan başkasının bilemediği muhakkak ol-makla beraber Yüce Allah'ın 124.000 peygamber gönderdiği rivayeti vardır.

[6] Hz. Türk, Türk kültür coğrafyasında halen «Türk Ata» olarak halk kültürünün her vasatında yaşamaktadır. Efsanelerde, toplu kimliği tanımlamalarında, halk ozanlarının «Hoş Geldin» deyişlerinde bol örnek bulmak mümkündür. Türk Ata takvimdeki de-ğişikliği baharın gelişi ile belirlemiştir. İnanca göre «...Yüce Göktanrı'nın ilk defa gürlediği, yağız yer, altmış türlü çiçeklerle ilk defa bezendiği, altmış türlü hayvan sü-rülerinin ilk defa kişnediği ve melediği zaman sen (Türk'ün Atası) yaratıldın».
Dünya Türklerinin Ortak Bayramı Nevruz. **Sagopa Kamer Fan.**
http://64.233.183.10488f3NU18pi4j:www.sagocuy

[7] Nuh Tufanı'nın M.Ö.5.000 ile 4 000 seneleri arasında gerçekleştiğini söyleyenler olabildiği gibi, M.Ö. 2 700 yıllarında meydana geldiğini söyleyenler de vardır. Bahat-tin Dartma. **Dini Tarihi Arkeolojik Veriler Bağlamında Nuh Tufanı.** İstanbul: Rağbet, 2005, s. 44.

[8] Kur'an, Şu'ara (26), 107.

[9] «Nuh Peygamber üç oğlunun her birini bir yere gönderdi (...) ve Yafes adlı oğlunu kuzey Kutbu tarafına gönderdi» «Yasef'e bazıları peygamber idi demişler ve bazıları peygamber değil demişler. Yasef babasının emri ile Cûdi Dağı'ndan gidip itil ve yayık Suyu'nun yakasına vardır. İkiyüzelli yıl orada durdu, sonra vefat etti. Sekiz oğlu var idi. Çocukları pek çok olmuştu. Çocuklarının adı şunlardır; Türk, Hazer, Saklap, Rus, Ming, Cin, Kimeri/Tarih» «Yasef öleceği sırada, büyük oğlu Türk'ü yerine oturtup diğer çocuklarına dedi ki; Türk'ü kendinize padişah bilip, onun sözünden

dırmadır ki, İslam Tarihi ile İslam Türk Tarihi örtüştürür. Böylece, İslam Türk tarihi ile Türk tarihi'nin farklı olmadıkları gerçeği ortaya çıkar. Aynı esaslandırmadan hareketle Anadolu Tarihi, Anadolu Türk Tarihi, Anadolu İslam Tarihi, Anadolu İslam Türk Tarihi tanımlarına bakılabilir.

İslam'ın Hz. Adem ile başlayıp Hz. Muhammed ile en tekamül etmiş ve son halini aldığı gerçeğinden hareketle meseleye bakınca yukarıda da değinildiği gibi Türkler, İslam ile Muhammedi İslam'dan 4.000-4.100 yıl önce tanışmış o tarihten beri İslam oldukları için, o tarihten günümüze geniş anlamda İslam tarihi aynı zamanda Türk tarihi olduğu için Anadolu İslam tarihi, Anadolu Türk tarihi, Anadolu İslam Türk tarihi bu anlamda eş ifadelerdir. Ta ki, tevhit inancı döneminden evvel Anadolu veya onun bir bölümü birilerine yurt oldu ise veya Hz. Adem'in akaid evladı olmayan birileri bu coğrafya da tarih oluşturdular ise, Söz konusu bu tarih ile Türk tarihi arasında aynılık hükmü vermek olası değildir.

Bu noktada açıklık kazandırılması gereken inanç içerikli bir husus vardır. Hz. Türk ile birlikte Türk adını alan giderek Türk milleti olacak olan toplumun Hz. Türk'ten evvelki dini ne idi? Bu bilinmelidir. Hiçbir toplumun tebligatçısız bırakılmayacağını, her topluma kendi dili ile açıklama gönderdiğini, bu kapsama girmeyen toplumların sorumlu tutulmayacağını açıklayan Allah buyruğu esas alınarak,[10] bu topluma Hak Yolunun kimin vasıtasıyla hangi dilden ne zaman gönderildiği irdelenebilir.

Bu sorunun cevabı, Türk Ata'dan evvelki ilahi tebligatçıların kim oldukları, tebligat coğrafyaları ve tebligat dönemlerinde aranılabilir. Bunun için de peygamberler kronolojisine bakılmalıdır..[11]

çıkmayın, dedi. Türk'e Yasef oğlu diye lakap taktılar. Çok edepli ve akıllı insan idi. babasından sonra birçok yerleri gezdi ve gördü. Sonra bir yeri beğenip orada oturdu. Bugün o yere Isığ Köl derler. Çadır Evi (Otağı) o çıkardı. Türklerin içinde bazı adetleri var, ondan kaldı». Ebulgazi Bahadır Han. **Şecere-i Terakime Türklerin Soy Kütüğü** / Tercüman 1001 Temel Eser, s. 22-24; Bahaeddin Ögel. **Türk Mitolojisi, Selçuklu Tarih ve Medeniyeti**. C. I, Ankara: Enstitüsü yayınları, 1971, s. 381-382; Sadi Bay-ram. **Kaynaklara Göre Güney-Doğu Anadolu'da Proto-Türk İzleri**. İstanbul: Türk Dünyası Araştırmaları Vakfı.

[10] «(...) Biz peygamber göndermedikçe azap edecek değiliz». İsra, 15.

[11] Hz. Adem, Hz. Nuh, Hz. İbrahim, Hz. Musa, Hz. İsa, Hz. Muhammed konuyla doğ-rudan ilgilidirler.

Bu toplumun duyurucusuz ve sorumlu tutulmayan toplumlardan birisi oldukları mı kabul edilmeli?[12]

Din ve devlet yönetimini üzerinde toplayan[13], Kağanları Miraca çıkan[14], kut alabilen ve bunu idareciliğe yansıtmak durumunda olan Türk devlet liderleri nereye konulmalı.[15]

Bilinen kadarı ile Türk Ata'dan evvel veya O'nun döneminde Tengricilik inancı vardı. Bu İnanç'ta da tek Tanrılık hakimdi.[16] Elimizde bu inanca dair yazılı ilahi bir metin yoktur. Ancak ilahi tebligat metinlerin sayısı peygamber sayınsınca da değildir. Suhuf sahibi veya ona sahip olmayan Allah elçileri de vardı.

Şamanizm'e gelince bize göre Türk kültür coğrafyasında da hüküm sürebilen bu inanç sistemi dinden ziyade bir büyücülük ve falcılık bütünü idi.[17] Faaliyet alanı ruhlarla ilgili idi. Hem Gök Tengri İnanç Sisteminde ve hem de Şamanizm'de bir takım kültler ve iyeler vardı. Ancak her ikisi aynı şey değildiler. Bize göre Şamanizm Atlantis kültür coğrafyasının Mu kavmine mahsus bir din idi. Kıta batıp halkı boğulunca bu coğrafyanın yakın çevresindeki izleri günümüze kadar ve daha ziyade diğer dinlerin kapsamında günümüze kadar geldiler[18] Mu Uygarlığı ve Atlantis konusunda bu görüşü doğrulamayan çalışmalar da vardır.[19] Mu ülkesi sadece Şamanizm itibariyle değil Uygur Türklüğü itibariyle de Türk medeniyet tarihi ile ilgilidir.[20] J.Churchward'ye göre Uygurların

---

[12] «Ayetler insan neslinin yalnız Nuh (a.s.) ın neslinden değil, inandıkları için gemiye alınarak boğulmaktan diğer insanların soyundan da geldiğini ortaya koyacak nite-liktedir». Bahattin Dartma. **Dini Tarihi Arkeolojik Veriler Bağlamında Nuh Tufanı**. İstanbul: Rağbet, 2005, s. 59. Bu tespit bize başka Ademler fikrini verme-limidir.

[13] «Biz onların her birine hüküm (hükümranlık, peygamberlik) ve ilim verdik (...)». Enbiya, 79.

[14] Sait Başer. **Kutadgu Bilig'de Kut ve Töre**. Ankara: Kültür Bakanlığı, 1990.

[15] **«Tanrı bahşettiği için, ben kazandığım için Türk Milleti kazanmıştır».** Denil-mektedir Prof. Muharrem Ergin. **Orhun Abideleri**. İstanbul: Milli Eğitim Bakanlığı Basımevi, 1970, s. 17, 61.

[16] Hikmet Tanyu. **İslamlıktan Önce Türklerde Tek Tanrı İnancı**. İstanbul, 1986.

[17] Yaşar Kalafat. **Altaylardan Anadolu'ya Kamizm Şamanizm**. İstanbul: Yeditepe, 2004.

[18] Sebahattin Güngör. **Tasavvuf Notları**. Burhaniye, 2004-6.

[19] «İmparatorluğun altında, hem bilim adamı hem de rahip olan «Naacaller» bulu-nuyordu ve bunlar yönetici sınıfı teşkil ediyordu. «Kutsal Sırlar Kardeşliği»nin üyesi olan Naacallerin tüm dünyaya yaymış oldukları «Mu Dini» belki de insanlığın tanıdığı ilk Tek Tanrılı dindi». Cihangir Gener. **Ezoterik-Batıni Doktrinler Tarihi, Felsefe**. Ankara: Yurt Kitap-Yayın, 2007 s. 23-24.

[20] «Mu ülkesi, Pasifik Okyanusu'nda Amerika ile Asya'nın arasında yer almış büyük bir kıtadır. Merkezi ekvator'un biraz güneyine düşer. Toprakları, bugün hala su üzerinde kalmış bazı kara parçalarını da içine almaktadır. Büyüklüğü yaklaşık doğu-dan batıya 9 500, kuzeyden güneye de 4 800 km çıvarındadır». James Churchward, a.g.e., s. 21. «Atlantis Kuzey Atlantik Okyanusu'nda büyük bir kıtaydı. Batısında Kuzey ve Orta Amerika doğusunda ise Avrupa ve Kuzey Afrika yer alıyordu» a.g.e., s. 106.

tarihi Ari ırkın tarihidir.[21] Bu görüşe itibar edilmesi halinde Turani olan Türklerin tümüyle Ari ırktan kabul edilmeleri gerekecektir. Bu nokta da arilik ve Turaniliğin anlamı kalmaz. Maya dilinde Türkçe kelimelerin tespitinden sonra M.Ö. 200 000 ile 70 000 arasında yaşamış Mu medeniyetinde Atatürk Türk izlerini araştırtmıştı.[22]

Şüphesiz muradımız din, dil ve millet farklılığına rağ-men bütün halkları bir şemsiye altında toplayıp onlara dar anlamda bir Türk yaftası yapıştırmak, buradan hareketle kültürümüz adına çıkar aramak değildir. Ancak birileri halkları diller, dinler ve yapay geçmişler imal ederek farklılaştırıyorlar ise ve buradan hareketle çıkar üretiyorlar ise buna da gerçeğe sözcülük yapma adına seyirci kalmamız beklenilmemelidir.

Post modern zamanlar adına akraba dillerin akrabalık bağlarını yok etme pahasına ölü dillerden biteviye dil üretme arayışlarına birlikte yaşayan halkların ortak menfaatleri adına tepki göstermenin bize göre saygın bir yanı özü vardır. İlahi duyurulardan oluşan kutsal metinlerin, hepsinde ortak olan yön bunlara ait kelime hazinelerinin bölge dillerinden oluşmalarıdır. Aynı zamanda kutsal kitaplar tebliğleri ile yayıldıkları yeni coğrafyalarda dillerindeki özü muhafaza ederek varlıklarını sürdürürler. Bu özellikleri din coğrafyası halkları arasında ortak bir din dili oluşturur. Adeta kutsal kitabın dilinin yanı sıra gelişen bir de meal dili oluşur ki komşu diller arasındaki akrabalık gücünü büyük ölçüde bu kaynaktan alır.

Böylece diyebiliyoruz ki, Hz. Türk Ata'nın tebliğ dili Türkçe idi. Veya O'nun bir duyuru dili vardı ki bu dil büyük ölçüde içinden çıktığı halkın veya tebliğin yapılacağı ilk halkın dili idi. Bu halk ismini tebliğcisinden alan Türklerdi. Tebligata ilk olumlu cevabı veren bu halk Hz. Türk'ün tebliğ coğrafyasının merkezini oluşturdu. Böylece Kavm-i Necip'-ten gelen Türk Ata'nın belinden ve elinden gelen Türklük ilk adım olarak oluşmaya başladı. Bu dil Türk Ata'nın atalarının tebligat dilinden çok da farklı de-

---

[21] «Büyük Uygur İmparatorluğu, Güneş İmparatorluğu Muya ait en büyük ve en önemli koloni imparatorluğu idi. Uygur İmparatorluğu Mu'dan sonra, dünyanın gelmiş geçmiş en büyük imparatorluğu olma özelliği de taşır... Uygurların tarihi, Arî ırkların tarihidir, çünkü gerçek Ari ırklarının tümü, Uygur atalardan gelmektedir...», a.g.e., s. 220.

[22] Ergün Candan. **Gizli Sırlar Öğretisi**. İstanbul: Sınır Ötesi yayınları, 1998, s. 24.

ğildi. Bu dil Türk Ata'nın «peygamberlik ömrü» süresinde altın devrini yaşadı.[23]

Türk Ata'nın ilahi tebligatının ömrü O'nun beşer olarak yaşadığı ömründen çok uzun sürdü. Ümmetine verdiği dini tebligat etrafında bir medeniyet oluştu. Bu medeniyet Atlı Göçebe Bozkır Medeniyeti ve ilahi akaidi ise Töre idi. Töre zamanla coğrafyanın da etkisi ile az çok şekillendi ama hep vardı[24]. Türk kültürlü halkların arasındaki en güçlü ortaklığı veya Türk kültür coğrafyasındaki kültür harcını hep töre oluşturdu. Bu gerçeği yaşayan halk inançlarını irdeleyerek görebiliyoruz. Inancın özünü teşkil eden töre, dili olan bölgesel Türkçe ile yeni coğrafyalara girerken yeni dillerle tanışıyordu. Bu süreçte özünü yitirmiyor ama tanıştığı yeni dillerle de yeni dil sentezleri geliştiriyordu. Bu süreç bir anlamda Türk lehçelerinin doğma sürecidir. Bu süreçte yeni coğrafyaların eski dilleri tamamen ölmüyor ancak tedrici de olsa az-çok ikinci plana kayıyorlardı.

Kantura'ya gelince, Kantur, Türklerin kılıçtan geçirilmesi ile sahneye çıkar. Bazı metinler genelde Türklüklerinden bahsederlerken, Türk olan Kantur Oğullarının ayrıca varlıklarından da bahsedilir. Türkün izah şekillerinden birisi O'nun Nuh'un 2., 3. göbekten torunu olmayıp, 7-15. kuşaktan torunu olabileceklerini açıklarlar. Kantur'un isim değil lakap olduğu görüşüne itibar edilmesi halinde evveliyatının olması gerektiği kabul edilmeli.[25]

Tasavvuf bilgini Türkologlar «Allah'ın ordusu» tanımlamasını açıklarken Kantura konusu üzerinde de dururlar. Buna göre Kantura Türklerin diğer adı değil, Kanturalılar da Türklerdir.

Kanturalılarla ilgili bazı hadislerde, «Sonuç Kantura Oğullarınındır», «Arap bendendir ben Arap'tan değilim», «Türk kadar ikramı seven yanında emin olunan bir kavim yoktur» şeklindedir. Araplar Türklere neden Kantur dediler. Acaba katliamdan bu tek kişiye verilmiş göksel bir lakap mı idi?[26]

---

[23] Peygamberlerin peygamberlik ömürleri fiilen yaşadıkları biyolojik ömür değil tebliğ ettiği tevhit metodunun süresi olduğu düşünülmelidir. Nuh Peygamberin 950 yıl yaşamasından onun tebliğ ettiği tavhid metodunun ömrüdür. Bahattin Dartma. **Dini Tarihi Arkeolojik Veriler Bağlamında Nuh Tufanı**. İstanbul: Rağbet, 2005, s. 29.

[24] Sait Başer. **Kutadgu Bilig'de Kut ve Töre'den Sevgi Toplumu'na**. İstanbul: Sey-han, 1995.

[25] S.Güngör, a.g.e.

[26] S.Güngör, a.g.e.

Kantura Oğulları ile ilgili hadislerden anlaşılan kadarı ile manevi halifelik Kantur Oğullarına geçmiştir. Bu arada Hz. Muhammed döneminin insanı kamil'i olan Aliyyul Karanı bir Türk'tür. Müteakip yüzyıllardaki insanı kamillerinin de büyük çoğunluğu Türk'tüler.

Üzerinde durulan Kanturlar mertebe sahibi, içlerinden veliler çıkan Türklerdi. «**Ahıra ben-ı Kantur**» diye bir hadis vardı ki, bu hadisten dünyanın son döneminde Türklerin tümüyle dünyaya hakim olacakları anlatılmıştır.

Biz durumu izah ederken şöyle algılıyoruz. Türk olmak, Kantur Oğlu olmak kut bulmuşlukla izah edilir. Kutlu bir ailenin kutluluğunun devamı kut verenin elindedir. Yani kutu Allah verir ve Allah sorgular ve isterse Allah alır. Allah da bu uygulamayı kendi koyduğu bazı kurallardan hareketle yapar. Verilmiş kutu taşıyamayan yaratılmıştan alabilen yaradandır. Hakan da, kutlu aileden de olsa kutu kullanabilmenin kurallarına uymak durumundadır. Sade vatandaş kut mutluluğuna eremez mi bize göre erer. Kut bir takva olayıdır. Amel ve imanla edinilir. Takva yolu hiçbir yaratılmışa kapalı değildir. İnsanı kamil olmak da hiçbir yaratılmışın üstünlüğünde değildir. Bu kadar farklı ademlerden insanların bu derece yayılıp karışmışlıkları karşısında bunun izahı nasıl yapılabilir. Ehli Beyit'in kut bulmuş olması geçen 14 asra rağmen imam zadelerin devam eden tüm neslini vizeli kılar mı? Taifeyi Necat'tan ilahi tebligatçıların çıkması da onlardan da bir seçmeyi bir nasipliliği gerektiriyor olmalı.

Buradan hareketle Türk olmak bir anadil farklılığı, bir resmi kayıtlarla anlamlandırma, bir telkin ile edinilmiş beşeri ve zahiri bir kimlik değildir. Nice Türk olarak bilinmeyenler vardır, zahiri Türk'ten içeri ve nice zahiri Türk bilinenler vardır Türklüğü de Kanturluğu da bunlar söz konusu olunca tenzih etmek gerekir. Anadiline bakılarak Müştak Baba veya İbrahim Hakkı Türk değildir demek mümkün mü dür? Başka bir ifade ile Türk olarak doğmuş olmak muhakkak Türk olarak ölme hakkını kimseye vermez töreye veya ilahi tebligat neyi gerektiriyor ise ona uyulmasını da gerektirir.

Türkolog ve tasavvuf ehli Sabahattin Güngör bu konuda; Kur'an da olduğu gibi Kantur da bir şeyin kısalmışı mıdır? Kantur

neyin kısaltılmışı olabilir? Bu arada **Aba-Kan,** muhtemelen Kantur'un bir türevi olmalıdır[27]

Türklük büyük ölçüde bir ruhaniyet işidir... Hun'un Türk olup olmadığı, dinin faslında benim dinim odur ki o atalarımın dinidir. Ben eğer Hz. Muhammed (a.s.)'e ve Oğuz Han'a Türk dersem diğerlerine Türk diyemem. Biri var bunun adı ya Türük lakabı Kantur veya adı **Kantur** lakabı **Türük**. Benim kanaatim birinci olandır. ...Türük'ün 100 çocuğu olsa içlerinden biri veya birkaçı babasının hasletlerini götürür, yaşatır....İyi dikkat edilirse bu Türkün bir vasıf olduğu ayet ve hadislerle anlaşılır. O çocuğa da bu vasıflarından dolayı bu isim verildi.[28] Demektedir.

SONUÇ:

Biz incelememizde ayrıntılı Tufan sunumu yapmadık Nuh ve Tufan, Ağrı ve Cıdi Dağları, bu konudaki dini, tarihi, Arkeolojik, coğrafi/fiziki ve dil verileri ayrıntılı incelenmiştir.[29] Bu bilgi şöleni bildirileri arasında da Nahcivan'ın 5.000 yıllık Türk yurdu olduğunu yer adları, efsaneler, arkeolojik verilerden hareketle inceleyen bilgi ve belgeler var. Bizim çalışmamız, Türkizm içerikli ve özgün formatında büyük ölçüde yararlandığımız Sadi Bayram'ın çizgisinde olmuştur.[30] Nahcıvan 5.000 yıldır tarihin her döneminde Türk kültür coğrafyasının merkezinde olmuştur.

Mitoloji tarihi geçmişi anlamlandırmak için tek başına yeterli olmayabilir. Ancak mitolojik verilerde tarihin dillendirilmesinde yok sayılamaz. Türk tarihinin mitolojik derinlikleri adeta maksatlı olarak yok sayılmış, bu ilmi disiplin Türk araştırıcısının ilgi alanından kaçırılmak istenilirken, Türklük bilimi çalışmalarının karşısında olanlar bu bilim dalından hareketle Türklüğe cephe açmış mevziler kazanmaya çalışmışlardır.

---

[27] S.Güngör, a.g.e.
[28] S.Güngör, a.g.e.
[29] Bahattin Dartma, a.g.e.
[30] Sadi Bayram, a.g.e.

KAYNAKLAR

1. Başer S. Kutadgu Bilig'de Kut ve Töre. Ankara: Kültür Bakanlığı,1990.
2. Bayram S. Kaynaklara Göre Güney-Doğu Anadolu'da Proto Türk İzleri. İstanbul: Türk Dünyası Araştırmaları Vakfı.
3. Candan E. Gizli Sırlar Öğretisi. İstanbul: Sınır Ötesi yayınları, 1998.
4. Churchward J. Kayıp Uygarlıklar I, Batık Kıta Mu'nun Çocukları / çeviren Ercan Arısoy. İstanbul: Ege Meta yayınları,1998.
5. Dartma B. Dini Tarihi Arkeolojik Veriler Bağlamında Nuh Tufanı. İstanbul: Rağbet, 2005.
6. Ergin M. Orhun Abideleri. İstanbul: Milli Eğitim Bakanlığı Basımevi, 1970.
7. Fan S.K. http://64.233.183.10488f3NU18pi4j:www.sagocuy
8. Güngör S. Tasavvuf Notları. Burhaniye.
9. Han E.B. Şecere-i Terakime Türklerin Soy Kütüğü / Tercüman 1001 Temel Eser.
10. Kalafat Y. Altaylardan Anadolu'ya Kamizm Şamanizm. İstanbul: Yeditepe, 2004.
11. Ögel B. Türk Mitolojisi, Selçuklu Tarih ve Medeniyeti. C. I, Ankara: Enstitüsü yayınları, 1971.
12. Tarih Dünyası Tarih Araştırmaları Kongresi (5-9 Eylül 1994, Ankara). Bildirilerine bakılabilir.

NİZAMİ CƏFƏROV

AZƏRBAYCAN TÜRKLƏRİNİN TƏFƏKKÜRÜNDƏ NUHUN TUFANI

Azərbaycan türklərinin dilində, ümumən dil təfəkküründə kifayət qədər möhkəm yer tutan ifadələr var: Nuh əyyamı, Nuh Nəbidən qalma, Nuhun tufanı, Nuhun gəmisi...

Öz mənşəyini qədim (ümumbəşəri!) mifoloji yaradıcılıqdan alsa da, həmin ifadələr Azərbaycan türklərinə, bizim milli düşüncə mədəniyyətimizə mənsubdur; bu isə o deməkdir ki,

a) Azərbaycan türkləri, bütövlükdə türklər öz təfəkkürləri etibarilə ümumbəşəri «yaddaş»ın daşıyıcılarıdır;

b) ümumbəşəri yaradıcılıqda türklərin ən qədim zamanlardan kəsilməz iştirakı vardır;

c) türklərin, o cümlədən Azərbaycan türklərinin ümumdünya mədəniyyəti tarixində öz «pay»ları, «üslub»ları mövcuddur.

Ona görə də Nuh (və onun tufanı) barədə Azərbaycanda yaşayan linqvistik, bədii, tarixi-coğrafi informasiyanı Azərbaycan türklərinin yaddaşının ümumbəşəri qatına aid etməklə yanaşı, həmin informasiyanın milli sistemliliyi, milli mənəvi irs elementi olaraq əhatə zənginliyi, bədii-tarixi kompleksliliyi də unudulmamalıdır.

Azərbaycanlı üçün «Nuh əyyamı» xronologiyası müəyyən olmayan ən qədim keçmişdir. Və bu əyyamdan daha qədimi təsəvvür etmək mümkün deyil. Həm «Nuh əyyamı», həm də «Nuh Nəbidən qalma» ifadə-frazemlərində bu gündən keçmişə ünvanlanmış səmimi bir ironiya da mövcuddur ki, həmin ironiyanın formalaşmasında islam düşüncəsinin təsiri olmamış deyil.

Azərbaycanlılar «böyük», «əzəmətli» mənasında Nuhun gəmisi, hay-küy, iğtişaş, və ya münaqişənin miqyasının genişliyi mənasında isə Nuhun tufanı ifadəsini işlədirlər.

Mesopotamiya (Şumer) kitabələrindən Bibliyaya, oradan Qurana keçən, bəşəriyyətin mifolojidini təfəkküründə mühüm yer tutan «Dünya tufanı» hadisəsinin vətənlərindən ən azından biri də Azərbaycan, daha dəqiq desək, Naxçıvandır. Və Naxçıvan sözünün xalq etimologiyasında «Nuh çıxan» variantının geniş yayılması təsadüfi sayıla bilməz. Əlbəttə, elmi baxış həmin etimoloji

izaha o qədər də ciddi baxmır, bununla belə xalqın düşüncəsində bu cür «izah» cəhdi varsa, hətta onu (həmin «izah»ı) əsaslandırmaq üçün müxtəlif əfsanələr yaratmışsa, deməli, buna ehtiyac duymuş, Nuh tarixinə sahib çıxmağa çalışmışdır.

Nəzərə almaq lazımdır ki, Naxçıvan regionunda Nuhu, onun mifik tarixi missiyasını xatırladan çox şeylər vardır. Və bunlar bütöv bir sistem, bütöv bir kompleks təşkil edir... Naxçıvanın əhalisi ən qədim zamanlardan vətənlərinin məhz Nuh yurdu olmasına, Nuhun gəmisinin Naxçıvanda quruya çıxmasına və peyğəmbərin ömrünün sonuna qədər məhz burada yaşamasına inanmışlar. Dünyanın Nuhla bağlı heç bir yerində onun məzarının olduğuna naxçıvanlılar qədər dərindən inam bəslənilmir. Maraqlıdır ki, bu inam yalnız tarixi mənbələr tərəfindən diqtə olunmaqla qalmır. Regionun ictimai təfəkküründə canlı olaraq bu günə qədər gəlir. Və həmin «inam canlılığı»nın nə qədər yüksək səviyyədə olmasını, coğrafi kompaktlığını görmək üçün naxçıvanlı tarixçi Hacı Qadir Qədirzadənin «Nuh peyğəmbər, Dünya tufanı və Naxçıvan» (Naxçıvan, 2008) kitabına, burada öz əksini tapmış zəngin «Çöl» materiallarına müraciət etmək kifayətdir. Gəmiqaya, Haçadağ, Qaranquş yaylağı, Nəbi yurdu və s. yer adları müxtəlif rəvayətlər, mərasimlər, frazeloji ifadələr göstərir ki, Naxçıvanı «Nuh əyyamı»ndan qıraqda təsəvvür etmək olmaz...

Əlbəttə, Nuhun (və onun tufanının) tarixinə ilk növbədə mifoloji tarix kimi yanaşmaq lazım gəlir: o ya bütövlükdə, ya da əsasən bəşər övladının (o cümlədən də azərbaycanlıların) bədii-fəlsəfi təfəkküründün, insanlıq tarixinə verdiyi yaradıcı şərhin məhsuludur. Bununla belə hər bir mifin, hətta ən fantastik mifik təsəvvür-süjetin dərinliyində gerçək tarixi hadisəni də görmək ehtiyacı vardır. Min illər bundan əvvəl olduğu kimi, bu gün də insan inanır ki, baş verən təbii fəlakətlər cəmiyyəti bürümüş disharmoniyanı aradan qaldırmaq, günahkarları cəzalandırmaq, harmoniyanı bərpa etmək üçündür. Min illər bundan əvvəl olduğu kimi bu gün də cəmiyyətin ekologiyasını bərpa etmək üçün seçilmiş insan, lider, düha kultu mövcuddur... Adəmdən başlayaraq bütün peyğəmbərlər dünyaya ya fikrən, ya da faktiki olaraq öz missiyalarını icra etmək üçün gətirilmiş, yaxud gəlmişlər ki, Nuh da onlardan biri, Adəm övladlarının xalqlara bölünməsinin, cəmiyyətin etnik diferensiasiyanın mifik başlanğıcıdır.

Etiraf etmək lazımdır ki, yunan, yəhudi, İran tarixşünaslığının qazandığı böyük bir təcrübədən biz o qədər də faydalana bilmirik – ictimai təfəkkürümüzdə çox canlı olan mifik tarixi gerçək tarixə, ümumiyyətlə, mifologiyanı tarixə çevirmək işi bizdə çox sistemsiz, çox ləng gedir. Və onu da nəzərə alsaq ki, müasir dünya gerçək tarixin məntiqsiz xronologiyasından, «hesabdarlıq»dan daha çox mifin məntiqinə, emosiyasına və hətta konyunkturasına inanır, onda bu sistemsizlik, bu ləngliklə nə qədər çox şey itirdiyimizi təsəvvür etmək o qədər də çətin deyil. Odur ki, Naxçıvanda – tarixin hər addımda bu günlə qovuşduğu bir regionda – «Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan» mövzusunda beynəlxalq simpoziumun keçirilməsi, mifin tarix kimi oxunulmasına intellektual-metodoloji bir cəhd edilməsi olduqca təqdirəlayiqdir. Məruzəçilərin əksəriyyətinin məhz naxçıvanlı olması, regionun həm maddi, həm də mənəvi coğrafiyasına bələdlikləri ilə yanaşı, yüksək səviyyəli mütəxəssislər olmaları elmi məclisin dəyərini daha da artırır.

Biz simpoziumun açılışından öncə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun rəhbərliyi ilə yenicə bərpa olunmuş Nuhun türbəsini ziyarət etdik. Mən əminəm ki, bu gün Naxçıvanda görülən işlərə, xüsusilə zaman-zaman xalqın əlindən alınmış tarixin ona qaytarılmasına, öz miqyası etibarilə elə Azərbaycan türklərinin intellektual təfəkküründə «Nuhun tufanı» kimi baxmaq olar.

Naxçıvan təxminən beş yüz min kvadrat kilometrə qədər ərazisi olan tarixi Azərbaycanın mərkəzində yerləşir. Coğrafi strateji mövqeyinə görə çox önəmli bir regionun bütöv üzvü əlaqədə olan tarixinin öyrənilməsi milli ictimai yaddaşımızın bərpa edilməsi hərəkatının mühüm tərkib hissəsidir. Və mən qətiyyən şübhə etmirəm ki, Naxçıvanda şəhər mədəniyyətinin ən azı beş min illik bir tarixi vardır – məhz bu cür qədim tarixə malik olan bir mədəniyyət Nuh peyğəmbərin vətəni olmaq iddiası ilə çıxış edə bilər. Və etməlidir... Əminəm ki, ardıcıl olaraq aparılan araşdırmalar bundan sonra yadellilərin Naxçıvanın şərəfli tarixinə göz dikmələrinə bir daha imkan verməyəcəkdir.

Naxçıvan MR AM-in Sədrinin «Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında» 26 aprel 2001-ci il, «Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin

bərpa edilməsi haqqında» 28 iyun 2006-cı il tarixli sərəncamları Naxçıvanın, ümumən Azərbaycanın öz tarixinə sahib çıxmasında milli dövlətçilik təfəkkürünün nə qədər böyük addımlar atdığını göstərir. Və keçirilən simpozium da həmin milli dövlətçilik təfəkkürünün təzahürüdür ki, elmi-intellektual mühiti canlandırmaqda, hətta aktual problemlər ətrafında koordinasiya etməkdədir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Azərbaycan MEA-nın Naxçıvan Bölməsini yaradıb regionun elmi-intellektual potensialının gücləndirilməsini təmin edərkən, hazırda görülən və bundan sonra daha inamla görüləcək işlərin təməlini qoymuşdu. Biz indi həmin təməl üzərində dayanaraq, həmin potensiala istinad edərək Naxçıvan tarixinin mifoloji qədimliyinə enə, unudulmuş və ya unutdurulmuş keçmişimizin bərpasına, yada salınmasına çalışa bilirik.

Əminliklə deyə bilərik ki, Naxçıvanın tarixi yalnız Azərbaycanın, yalnız türk dünyasının deyil, bütövlükdə dünyanın tarixinə işıq salır; təsadüfi deyildi ki, qədim yunan coğrafiyaşünası Klavdi Ptolemey II əsrdə Naxçıvanın adını dünyanın yeddi möhtəşəm şəhəri sırasına daxil etmişdi. Bu gün dünyanın ən müasir şəhərlərinə oxşayan Naxçıvanın qədim tikililərinin qalıqlarına ötəri nəzər yetirmək kifayətdir ki, onun nə qədər əzəmətli keçmişi olduğuna inanasan. Dünyada çox az sayda belə şəhər var ki, müxtəlif dövrlərin tikinti mədəniyyətini eyni məkanda qədimdən bəri ardıcıllıqla qoruyub saxlamışdır. Və tarixinin bu cür kəsilməzliyi Naxçıvan şəhərinə unikallıq, özünəməxsusluq verir.

Naxçıvan toponiminin tayfa adı, «Nuh çıxan», «Nəqşi-cahan» və s. kimi çoxlu etimologiyalarının mövcud olması təsadüfi deyil; ən qədim zamanlardan bəri regionun yaşadığı ən müxtəlif tarixi dövrlər, təfəkkür mədəniyyəti epoxaları bu möhtəşəm şəhərin adına öz interpretasiyasını verib keçmişdir.

Nuhdan qalma bu müqəddəs, qonaqpərvər şəhərdə, təbiətini Nuhun öz gəmisi ilə gətirdiyi gül-çiçəklə rövnəqləndirdiyi bu məkanda Naxçıvan tarixinin əsatirlərlə, əfsanələrlə dolu bir dövrü barədə düşünmək, fikir mübadiləsi aparmaq və beş min illik bir tarixi həmin tarixin bilavasitə vətənində vərəqləyərək qürur hissi keçirmək şəxsən mənim üçün çox xoşdur.

İSMAYIL HACIYEV
AMEA Naxçıvan Bölməsi

TARİXİ MƏNBƏLƏR NAXÇIVAN ŞƏHƏRİNDƏKİ NUH TÜRBƏSİ HAQQINDA

Qədim Azərbaycan torpağı, bəşər sivilizasiyasının beşiklərindən, dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biri kimi şöhrət tapmış Naxçıvan diyarı həm də dünyanın ən qədim insan məskəni kimi tanınmışdır. Daş dövründən Naxçıvan ərazisində ibtidai insanlar yaşamışlar. Naxçıvanda daş dövrü mədəniyyətinin izlərinə Qazma, Kilid, Daşqala mağaralarında, Batabat yaylağında, Naxçıvan çayı vadisindəki II Kültəpə qədim yaşayış yeri yaxınlığında, Əlincə çayı vadisindəki Ərməmməd piri və onun ətrafında və b. ərazilərdə rast gəlinir.

Naxçıvan diyarı öz qədimliyi və bu ərazidən tapılmış çoxlu maddi-mədəniyyət nümunələri ilə də diqqəti cəlb edir. Əldə edilmiş qaşov tipli obsidian alətlər, çapacaqlar, daş lövhələr, itiuclu qaşovlar, daş bıçaqlar, daş çəkiclər bu ərazidə ən qədim insanların yaşadığını təsdiq edir. Qədim Şərq sivilizasiyaları ilə sıx bağlı olan Naxçıvan tarixi inkişafın gedişində dərin iz qoymuş və diyarda xalqımızın zəngin tarixi və mədəni irsi yaranmış və formalaşmışdır.

Naxçıvanın qədimliyini sübut edən mühüm amillərdən biri də bu yurdun Nuh peyğəmbər və tərəfdarları ilə bağlı olmasıdır. Bununla əlaqədar «...xalq arasında geniş yayılmış rəvayətə görə, «Naxçıvan» toponimi Nuh peyğəmbərlə, daha doğrusu, «Dünya tufanı» ilə bağlı olub, «Nuhçuvan» – «Nuh tərəfdarlarının məskəni», «Nuhun diyarı» deməkdir» [5, s. 9]. Naxçıvanın təşəkkül tarixindən bəhs edən yunan, ərəb, fars, türk qaynaqlarında, orta əsrlər dövrünə aid salnamələrdə də Naxçıvanın «Nuhçıxan», «Nuhcahan», yəni Nuh şəhəri adlandırılması haqqında məlumatlara hədindən çox rast gəlinir. Xalq arasında yaşayan rəvayətlərdə Azərbaycanın qədim şəhərlərindən biri olan Naxçıvan bəşər övladının ilk beşiyi, insan nəslinin ulu əcdadı hesab edilən Nuhun dayanacaq yerlərindən biri kimi təsvir edilir və onun adını daşıyır. Qeyd etməliyik ki, Naxçıvan toponiminin izahı ilə bağlı çoxlu sayda məlumatlar mövcuddur ki, bunlardan bir qismi də qeyd etdiyimiz kimi Nuh peyğəmbərin adı ilə əlaqələndirilir.

«Ümumdünya tufanı» barədə şumer rəvayətlərinin ilk yazılı variantına əsasən Naxçıvan dünyanın ən qədim sivilizasiya mərkəzi olmuşdur. Qədim şumer əfsanələri, «Bilqamış» haqqında akkad eposunun yaranma dövrü ilə Naxçıvanın meydanagəlmə tarixi arasında tarixi əlaqəyə əsaslanaraq, habelə qədim yazılı mənbələrə istinad edərək, alimlər belə hesab edirlər ki, Naxçıvan ərazisi də bunlar içərisində «Ümumdünya tufanı»na düçar olmuş və Nuhun gəmisi quruya bu ərazidə çıxmışdır. Nuh ona iman gətirmiş insanlarla birlikdə məhz burada məskən salmışdır. Bunu dolayısı ilə həm də o sübut edir ki, yer üzərində digər elə bir ərazi yoxdur ki, orada Naxçıvandakı qədər Nuh peyğəmbərin adı ilə bağlı toponimlər olsun. Belə ki, regionda Nuhdaban, Naxçıvan, Nehrəm, Nəhəcir, Nuhgədik, Nürgüt, Nəbi yurdu, Qaranquş yaylağı, Peyğəmbərayağı və onlarla bu kimi yer adlarının mövcudluğu Nuh peyğəmbərin bu torpaqda yaşamasının daha bir əyani sübutudur. «Cənubi Azərbaycanın Naxçıvandan çox da uzaq olmayan ərazilərində tərkibində Nuh elementi olan Nəhənd, Nehran, Nehram, Nəhqan kimi toponimlərin olması həmin ehtimalı gerçəkliyə daha da yaxınlaşdırır» (2009, 12, 15 aprel).

Toponimlərlə yanaşı, Naxçıvan və onun ətraf ərazilərində Nuh peyğəmbər və Dünya tufanı hadisəsini yaşadan əfsanə və rəvayətlər də çoxluq təşkil edir. Haqlı olaraq qeyd edilir ki, «Dünya tufanı hadisəsinin əhatə etdiyi coğrafiyada, heç bir ərazidə Naxçıvandakı qədər bu hadisə ilə səsləşən çoxsaylı mifoloji motivlərin, əfsanə və rəvayətlərin, etnoqrafik materialların olması qeydə alınmamışdır» (2009, 12, 15 aprel).

Naxçıvan ərazisi həm də tarix və mədəniyyət abidələri ilə zəngindir. «Ərazicə kiçik, məzmunca böyük olan Naxçıvanda» (Ə.Şərif) dünya, ölkə və yerli əhəmiyyətli yüzlərlə abidə qeydə alınmışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qeyd etdiyi kimi, «Naxçıvan ərazisini götürsək, bu kiçik ərazidə həddindən çox dünyamiqyaslı tariximemarlıq abidələri yaşayıb və bu gün də yaşayır. Onların hər biri Azərbaycan xalqının həm tarixini, həm də adət-ənənələrini göstərən abidələrdir» [8].

Bu abidələr dövlət tərəfindən qorunur və öyrənilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov «Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında»

sərəncam (2005, 6 dekabr) vermişdir. Bu sərəncamdan irəli gələn vəzifələrə uyğun olaraq Naxçıvan ərazisindəki tarix və mədəniyyət abidələri tədqiqata cəlb edilmiş və pasportlaşdırılmışdır. 2006-2007-ci illərdə Naxçıvan MR ərazisində 1173 abidə qeydə alınmışdır ki, bunun da 600-ə yaxını dünya və ölkə əhəmiyyətli tarix və mədəniyyət abidələridir [7, s. 5].

Belə abidələrdən biri də Naxçıvan şəhərindəki Köhnəqala adlanan ərazidə yerləşən Nuh peyğəmbərin məzarüstü türbəsidir. «Müsəlman türklərinin böyük hörmət və ehtiram bəslədiyi bu məzar Naxçıvanda Sovet hakimiyyəti qurulanadək, bölgənin məşhur ziyarətgahlarından biri idi. Ancaq Sovet hakimiyyəti illərində Azərbaycanın digər məşhur inam yerləri kimi, bu müqəddəs yer – qəbir də xalqa zorla unutdurulmuş, üzərindəki türbə özülünədək dağıdılmışdır» [10, s. 24].

Son illərə qədər əhalinin böyük əksəriyyətinin Nuh türbəsi haqqında məlumatı yox idi və onun yerləşdiyi yer də məlum deyildi. Milli-mənəvi dəyərlərimizə, maddi-mədəniyyət nümunələrəmizə ehtiramla yanaşan və bu sahədə qayğısını əsirgəməyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun tapşırığı ilə türbənin yeri müəyyənləşdirilmiş, həmin ərazidə arxeoloji tədqiqat işləri aparılmışdır. Türbənin bünövrəsi aşkar olunduqdan və arxeoloji tədqiqat işləri başa çatdıqdan sonra Naxçıvan MR Ali Məclisinin Sədri 28 iyun 2006-cı il tarixdə «Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında» Sərəncam imzalamışdır [8, 2006, 29 iyun].

Sərəncamdan irəli gələn vəzifələrə uyğun olaraq Naxçıvan MR Nazirlər Kabineti yanında Elmi-Bərpa İstehsalat İdarəsi Nuh peyğəmbərin məzarüstü türbəsinin layihəsini hazırlamış, bərpa və abadlıq işlərinə başlamışdır. Artıq burada bərpa işləri başa çatmış, Naxçıvanın memarlıq abidələri sırasına yeni bir türbə daxil olmuşdur. Vaxtı ilə dağıdılan Nuh peyğəmbərin məzarüstü türbəsi yüksək səviyyədə, Naxçıvan memarlıq üslubuna uyğun olaraq bərpa edilmişdir.

Nuh peyğəmbərin məzarüstü türbəsi, onun yerləşdiyi ərazi, tikilmə tarixi, oynadığı rol və əhəmiyyəti haqqında xalq arasında və bir sıra tarixi qaynaqlarda məlumatlar vardır.

Həzrəti Nuh peyğəmbərin, onun ailə üzvlərinin, nəsli və tərəfdarlarının Naxçıvanda və bu bölgəyə yaxın ərazilərdə yaşama-

sı, fəaliyyət göstərmələri və qəbirlərinin də burada olması haqqında bilgilər vardır. Xalq arasında yayılan məlumatlara görə, Naxçıvan şəhərinin cənubunda Nuh peyğəmbərin, şimal-qərbində bacısının, Cənubi Azərbaycanın Mərənd şəhərində isə arvadı Nuhəmzənin (Nuhəmzərin) və anasının qəbirləri yerləşir [2, s. 110-111].

Yuxarıda qeyd olunan tarixi faktlar tarixi qaynaqlarla da təsdiq olunur.

Yəhudi alimi İosif Flavi Naxçıvan torpağını Nuhun gəmisinin dayandığı ilk ərazi hesab etmişdir.

Qədim yunan alimi Klavdi Ptolemey ilk dəfə Naxçıvanı Nuh peyğəmbərin məskəni kimi qeyd etmişdir. Ptolemey Naxçıvan şəhərinin adını dünyanın yeddi böyük şəhəri ilə bir sırada çəkmişdir.

XVI əsrin görkəmli ərəb alimi və coğrafiyaçısı Əl-Əşrəfi hələ o dövrdə nəinki Nuhun qəbrinin, hətta gəmisinin qalıqlarının Naxçıvanda olmasını yazmışdır [10, s. 25].

Nuhun qəbrinin Naxçıvanda olması haqqında bir sıra əcnəbi səyyahların qeydlərində, rus müəlliflərinin əsərlərində maraqlı məlumatlar verilmişdir. XVII əsrin 30-60-cı illərində şərq ölkələrinə dəfələrlə səfərə çıxmış fransız səyyahı və taciri Jan Batist Tavernye bir neçə dəfə Azərbaycanda olmuş və 1664-cü ildə son səfərində Naxçıvanda, Qarabağlar şəhərində, Culfada olmuş və öz müşahidələrini qələmə almışdır. Tavernye Naxçıvan şəhəri barədə yazır: «Naxçıvan dünyanın ən qədim şəhərlərindən biridir. Nuh gəmisinin yan aldığı dağın 3 livliyində bir şəhər bina edilibdir. Naxçıvan olduqca böyük şəhər idi. Lakin Osmanlı Soltanı Murad oranı dağıtdırmışdır» [9, s. 88-89]. Bölgənin bir sıra yaşayış məskənləri, eləcə də şəhərləri haqqında məlumatlar verən səyyah Naxçıvan şəhərində olarkən buranın qədim abidələri arasında böyük bir məscid binasının qalıqlarını da müşahidə etmişdir. Səyyah yazır ki, «bu Asiyanın ən yaxşı və ən görkəmli məscidlərindən idi. Deyirlər ki, Nuhun qəbrinə yadigar olaraq bina edilmişdir» [9, s. 90]. Tavernye sözünə davam edərək yazır: «Çox ehtimal ki, ... Teymurun tikdirdiyi binadır ki, İranı fəth edərkən onu peyğəmbərin qəbrinə yadigar olaraq tikdirmişdir» [9, s. 90].

Tavernyenin qeyd etdiyimiz və etmədiyimiz qeydlərindən Naxçıvan şəhərindəki iki abidə haqqında – Nuh peyğəmbərin türbəsi və Came məscidi haqqında məlumat əldə edirik. Tavernye

Nuh peyğəmbərin Naxçıvan şəhərindəki qəbrini təsdiq etsə də, ona yadigar olaraq tikdirilmiş məscid haqqında dəqiq məlumat verməmişdir. «Səyyahın Naxçıvan şəhərində gördüyü və haqqında məlumat verdiyi məscid Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvaninin XII yüzillikdə inşa etdiyi Came məscididir» [10, s. 25] ki, o bunu Əmir Teymurla əlaqələndirir.

Başqa bir fransız coğrafiyaşünası və səyyahı olan Dübüa-De-Monpere də öz yol qeydlərində Naxçıvan, Culfa, Ordubad və b. şəhərlər və yaşayış yerləri haqqında çox maraqlı fikirlər söyləmişdir. Şərur düzündən Naxçıvana doğru hərəkət edən səyyah yazır: «Nuh şəhəri də buradadır. «Nuh» Sözü ilk yaşayış məskəni deməkdir». Dübua de Monpere şəhər qalasından və burada yerləşən Nuhun qəbrindən də bəhs edərək bildirir ki, «Dağılmış divar qalıqları bir qəbri sanki qoruyub saxlayır. Buraya hər gün müxtəlif millətlərdən, bizim hamımızın ümumi atası sayılan Nuha ehtiram etmək üçün dəstə-dəstə axışıb gələnlər çoxdur.

Bu məqbərənin tikilmə üslubu və materialı Naxçıvanın digər abidələrinə bənzəyir. Rəvayətə görə, həmin türbə sonralar padşahların hakimiyyəti dövründə bərpa edilmişdir».

XIX əsrin 20-ci illərində Naxçıvan xanlığı çar Rusiyası tərəfindən işğal edildi və 1828-ci il Türkmənçay müqaviləsinin şərtlərinə uyğun olaraq bölgəyə xeyli sayda ermənilər köçürüldü. Həm də rus çarizmi işğal etdiyi əraziləri öyrənmək üçün ora tədqiqatçılar, mütəxəssislər göndərirdi. Çox vaxt həmin tədqiqatçılara bələdçilik və tərcüməçilik edən ermənilər fakt və hadisələri öz maraqlarına uyğun şəkildə rus tədqiqatçılarına çatdırırdı. Onlar da bu hadisələrin, faktların mahiyyətində dərinə getmir, çox halda ermənilərdən eşitdiklərini olduğu kimi qələmə alırdılar. Lakin həmin tədqiqatçılar öz müşahidələrini və gördüklərini də əsərlərində yazırdılar. XIX əsrdə Naxçıvanda olan rus tədqiqatçıları öz əsərlərini erməni bələdçilərinin verdikləri məlumatlar əsasında yazdıqlarından təhriflərə və səhvlərə yol vermişdilər. Məsələn, çar Rusiyasının işğalından sonra Naxçıvanda olmuş Vasili Qriqoryev 1833-cü ildə Naxçıvan haqqında kitab nəşr etdirmiş, burada bir sıra qeyri-obyektiv fikirlər söyləmişdir. V.Qriqoryev yazır ki, ermənilər səyyahlara Naxçıvan şəhərinin cənub tərəfində qədim olmayan hansı isə bir tikilinin kərpic divarının küncünü göstərib onu Nuhun qəbri kimi qələmə verirlər və inandırmağa çalışırlar ki, burada Nu-

hun qəbri üstündə nə vaxt isə yuxarı hissəsi dağılmış ikimərtəbəli kilsə olmuşdur [17, s. 330]. Göründüyü kimi, V.Qriqoryev erməni bələdçisinin məlumatlarına üstünlük vermiş və bu türbəni kilsə kimi göstərmişdir. Tədqiqatçılardan H.Səfərli haqlı olaraq göstərmişdir ki, «...türbənin quruluşu, onun iki təbəqədən – yeraltı sərdabədən və yerüstü türbədən ibarət olması səlcuq memarlığından qaynaqlanan Naxçıvan memarlıq abidələri, ümumiyyətlə türk memarlığı üçün xarakterik cəhətdir və bunun kilsə adlandırılması cəfəngiyatdan başqa bir şey deyildir» [11, s. 26]. Digər tərəfdən, bir sıra müəlliflərin verdiyi məlumatlardan, Azərbaycanın ilk realist rəssamı Bəhruz Kəngərlinin əsərlərindən və 2005-ci ildə aparılan arxeoloji tədqiqatların nəticəsindən məlum olur ki, «Nuhun qəbri» olan türbə səkkizbucaqlı sərdabə tipindədir. «Nuh türbəsi» adlandırılan abidəni bir gəlmə belə təsvir etmişdi: «...içərisinə pilləkənlərlə enilən məbədin daxili tağları ortadakı daş sütuna söykənən dairəvi mağaraya bənzəyir» [5, s. 90]. Göründüyü kimi, burada da haqqında danışılan türbənin sərdabəyə bənzər olduğu göstərilir.

Nuhun qəbrinin Naxçıvanda olması haqqında qeyd etdiyimiz müəlliflərlə yanaşı, İ.Şopen, K.A.Nikitin, V.M.Sısoyev və b. tədqiqatçılar da məlumat vermişlər. Onlar «Nuhun qəbri» adlı yerin fotoşəklini də çap etdirmişlər. İ.Şopen 1852-ci ildə nəşr etdiyi kitabında [23, s. 30] bu qəbirdən bəhs etmiş, Nuhla bağlı bir sıra məlumatlar vermiş və göstərmişdir ki, əhali Naxçıvan-İrəvan yolunun kənarında Nuhun bacısının qəbrinin olduğu yeri göstərir [23, s. 321].

XIX əsrin 80-ci illərində Naxçıvan məktəblərində müfəttiş-müəllim işləmiş K.A.Nikitin «Naxçıvan şəhəri və Naxçıvan mahalı» adlı əsərində «...Naxçıvan mahalının tarixi, coğrafi mövqeyi, demoqrafik inkişaf səviyyəsi, qədim abidələri, iqtisadi vəziyyəti, flora və faunası, yerli əhalinin əsas məşğuliyyət sahələri» [13] ilə yanaşı, Nuhla bağlı maraqlı məlumatlar vermişdir. K.A.Nikitin Nuh tufanının Naxçıvanla əlaqədar olması barədə geniş məlumat verərək yazmışdır: «Rəvayətə görə, əfsanəvi tufandan sonra Ağrı dağı Nuh peyğəmbəri gəmisi ilə birlikdə qəbul etmişdir... Bundan sonra Nuh Naxçıvanda yaşamış və burada dəfn olunmuşdur. Hələ indi də onun buradakı məzarını və türbəsinin yerini göstərirlər... Hətta Nuh peyğəmbərin Naxçıvandakı duz karxanasında fəaliyyə-

ti də xalq arasında dolaşan rəvayətlərdə saxlanmaqdadır. O, burada ilk çalışanlardan biri olmuşdur. Nuh... Naxçıvan şəhərinin yerləşdiyi yerdə məskən saldı. O, öz ailəsi ilə burada qərar tutdu və gələcək şəhərin əsasını qoydu. Şəhərin ilk məskunlaşma yeri mənasını bildirən adı da buradan meydana gəlmişdir. Nuh peyğəmbər və onun ailəsi uzun müddət Naxçıvanda yaşamışdır. Rəvayətə görə, insan nəsli buradan yayılmışdır. Nuh peyğəmbər özü, bacısı və ailənin digər üzvləri Naxçıvanda vəfat etmiş və burada dəfn olunmuşlar» [18].

Müəllif həmin əsərində Nuhun qəbri haqqında da geniş məlumat verir: «...Nuhun qəbri şəhərin cənub tərəfində, qədim qalanın qalıqlarının yaxınlığında yerləşir. Məzarın hazırkı görkəmi VIII yüzillikdə bərpa edilmişdir. İndiki görkəmdə o yerdən qalxan çox da böyük olmayan türbəni xatırladır. Əvvəlcə burada məbəd olmuş, sonra uçub dağılmışdır. Hazırkı türbə keçmiş məbədin aşağı mərtəbəsinin qalıqlarından ibarətdir. Məbədin pilləkənlərlə aşağı düşmək tələb olunan interyeri dairəvi, çətinliklə keçmək mümkün olan, ortadan daş dirəklərlə möhkəmləndirilmiş mağaraya bənzəyir... Həmin dirəyin altında ulu Nuhun cənazəsi yerləşir...» [18, s. 6-7].

K.A.Nikitin Nuh peyğəmbərin qəbri ilə yanaşı, onun ailə üzvlərinin qəbirləri haqqında da bəhs etmişdir: «Nuhun bacısının məzarı şəhərdən İrəvana tərəf çıxan yolun kənarındakı uca təpədə yerləşir... Nuhun arvadı Culfadan Təbrizə gedən yolun 80-90 verstliyində yerləşən Mərənd şəhərində vəfat etmişdir» [18, s. 7-8].

Göründüyü kimi, K.A.Nikitinin məlumatlarında başqa müəlliflərin fikirləri ilə üstüstə düşən və reallığı əks etdirən faktlar üstünlük təşkil edir. Bununla yanaşı, onun da məlumatlarında tərcüməçi və bələdçilərin qeyri-obyektiv fikirlərinə korkoranə istinadlar vardır.

XX əsrin tədqiqatçılarından olan V.M.Sısoyev, İ.M.Dyakonov, K.N.Smirnov və b. müəlliflərin əsərlərində də «Ümumdünya tufanı», Nuh peyğəmbər və onun qəbri haqqında maraqlı məlumatlar verilib.

Rus tədqiqatçısı V.M.Sısoyev 1926-cı ilin yayında Naxçıvana elmi ekspedisiyaya göndərilmiş, abidələr haqqında məlumatlar toplamış, Nuh peyğəmbərin qəbrini müşahidə etmiş və hesabat hazırlamışdır. Müəllif həmin hesabatda yazır ki, Naxçıvan şəhə-

rinin cənub-şərq qurtaracağında, türk qəbiristanlığının yaxınlığında Nuhun qəbri vardır. V.M.Sısoyev Nuhun türbəsini təsvir edərkən onun mərkəzində diametri 2 metrə çatan səkkizguşəli sütun olduğunu göstərmişdir. Təsvir edilən bu əlamətlər yeraltı və yerüstü hissədən ibarət olan türk türbələri üçün xarakterikdir. «Nuhun qəbri olan yerdə aparılan tədqiqatlar zamanı aşkara çıxarılan tikinti qalıqları burada Naxçıvan memarlıq məktəbinə xas üslubda tikilmiş türbənin olduğunu təsdiq edir» [9].

V.M.Sısoyevin yazdığına görə müsəlmanlar bu yeri «Pir» adlandırır. Müəllif abidənin pir olduğunu və müsəlman-türklər tərəfindən ziyarət olunduğunu açıq-aşkar etiraf etmişdir [20, s. 104]. Qeyd etməliyik ki, bu faktı Nuhun qəbri ilə bağlı məlumat verən bir sıra başqa müəlliflər də təsdiq edirlər.

Azərbaycan realist rəssamlığının banisi Bəhruz Kəngərli ötən əsrin 20-ci illərində Nuh peyğəmbərin Naxçıvandakı türbəsinin rəsmini 6 dəfə naturadan kətan üzərinə köçürmüşdür. Həmin nadir əsərlər Naxçıvandakı Bəhruz Kəngərli muzeyində və Naxçıvan Muxtar Respublikasının Dövlət Tarix Muzeyində mühafizə olunur. 2005-ci ildə Nuh peyğəmbərin qəbrinin yerinin dəqiqləşdirilməsində görkəmli ziyalı Lətif Hüseynzadənin məlumatları ilə yanaşı Bəhruz Kəngərlinin həmin rəsmləri kömək etmişdir. Bu rəsmlər həm də türbənin hansı quruluşa malik olduğunu təsdiq edir.

XX əsrin 30-cu illərində Naxçıvan xanlarının, xüsusilə Kəngərlilərin əlyazma sənədləri ilə tanış olmaq üçün Naxçıvana gəlmiş rus alimi K.N.Smirnov da Nuhun türbəsi ilə maraqlanmış və Naxçıvanın tarix və etnoqrafiyasına həsr etdiyi kitabında bu abidə haqqında yazır: «Qədim Abbasabad qalasının yaxınlığında Nuhun qəbri yerləşir: Nuhdaban. Bütün naxçıvanlıların bildiyi əfsanədə buranın Nuhun gəmisinin ilk dayanacağı olduğu və şəhərin adının da buradan götürüldüyü göstərilir. Nuhun qəbri özözlüyündə o qədər də maraq kəsb etmir. Naxçıvan arxiv sənədlərindəki məlumatlarda bu qəbrin yaşının 4900 il olması faktı o qədər də inandırıcı görünmür. Nuhdabanı ziyarət edənlər o qədər çox deyil» [19, s. 99].

K.N.Smirnovun Naxçıvana səfəri 1934-cü ildə olmuşdur. Məlum olduğu kimi, keçən əsrin 30-cu illəri totalitar rejimin artdığı, şəxsiyyətə pərəstişin və repressiyaların gücləndiyi bir dövr idi.

Bu illərdə əhali nəinki ziyarətlərə gedə bilmirdi, həmin ziyarət yerləri dağıdılır, ya da başqa məqsədlər üçün istifadə edilirdi.

Nuhun qəbrinin «Nuhdaban» («Nuhtaban») adlanmasını Lətif Hüseynzadə də bir yazısında təsdiq edir: «...Peyğəmbərin «Nuhdaban» və ya «Nuhtaban» adlı məzarı və «Əshabi-Kəhf» mağaraları kimi ziyarətgah olan məkanlar Naxçıvandadır... Nuh Naxçıvanda ölmüş və burada da dəfn edilmişdir. Bu məzar müqəddəs bir məkan kimi «Nuhtaban» adlanmışdır («İşıq saçan» deməkdir). Vaxtı ilə hər il may-iyun aylarında Nuhtabanda böyük bir mərasim keçirilərdi...» [Nuhtaban Naxçıvandır. «Nuh yurdu» qəz., 1996, 22 iyun].

Tarixi mənbələrdə Nuhun türbəsi haqqında məlumatların olmasına baxmayaraq, bu türbənin hansı dövrə aid olması barədə məlumatlar həm çox səthidir, həm də qeyri-dəqiqdir. K.N.Smirnov qəbrin yaşının 4900 il olmasının inandırıcı olmadığını, K.A.Nikitin məzarın VIII əsrdə bərpa edildiyini yazmışdır. Bəzi tədqiqatçılar türbənin memarlıq elementlərinə əsasən onun XII əsrin I yarısına, bəziləri isə XIV əsrə aid olduğunu göstərmişlər. Lakin bir həqiqət məlumdur ki, Nuhun türbəsi hansı dövrdə tikilməsindən asılı olmayaraq müxtəlif səbəblərdən dağıdılmış, lakin yenidən bərpa edilmişdir. Yenidən bərpa olunmuş Nuh peyğəmbərin məzarüstü türbəsi xalqımızın öz tarixi keçmişinə bəslədiyi münasibəti əyani şəkildə göstərməklə, həm də bərpaların ən mükəmməli və Naxçıvan memarlıq incisinə ən layiqlisidir.

Ölkə ziyalıları bütün XX əsr boyu, xüsusilə də son 40 ildə bu problemlə bağlı tədqiqatlar aparmış, fikir və mülahizələrini söyləmişlər. Müstəqillik ərəfəsində və dövründə isə Gəmiqaya, «Ümumdünya tufanı», Nuh peyğəmbər, bunların Naxçıvanla əlaqəsi, Nuh peyğəmbərin qəbri, onun olduğu yerlə bağlı araşdırmalar aparılmışdır. Tədqiqatçılardan İ.Həbibbəyli, Ə.Hüseyni, A.Abbasov, İ.Nərimanov, S.Babayev, V.Əliyev, R.Məmmədov, L.Hüseynzadə, R.Sultanov, Q.Qədirzadə, V.Baxşəliyev, Ə.Quliyev, H.Səfərli, A.Seyidov, V.Kərimov, Y.Səfərov, N.Müseyibli, S.Aşurov, Ə.Bədəlov, Q.Ağayev, Ə.Fərzəli, F.Rzayev, N.Bababəyli, A.Qədimov, N.Alıyev və b. bəhs olunan problemə kitablar, monoqrafiyalar və elmi məqalələr həsr etmişlər. Əldə olunan elmi nəticələr «Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan» mövzusunda beynəlxalq simpoziumun keçirilməsinə imkan vermişdir.

ƏDƏBİYYAT

1. Baxşəliyev V. Nuh peyğəmbərin qəbri Naxçıvandadır. «Yeni Azərbaycan» qəz., 2005, 24 noyabr.
2. Baxşəliyev V. Naxçıvanda Nuhla bağlı əfsanələr. Nuhun qəbri və burada aparılan arxeoloji qazıntılar. «Şərq qapısı» qəz., 2005, 8 dekabr.
3. Qədim A. Naxçıvan Nuhun yurdudur. Bakı: Elm, 2003, 172 s.
4. Qədirzadə H.Q. Nuh peyğəmbər, Dünya tufanı və Naxçıvan. Naxçıvan: Qızıl Dağ, 2008, 192 s.
5. Qiyasi C. Nizami dövrü memarlıq abidələri. Bakı: İşıq, 1991, 264 s.
6. Mahmudov Y., Şükürov K. Naxçıvan: tarixi və abidələri. Bakı: Təhsil, 2007, 216 s.
7. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1977, 158 s.
8. Naxçıvan abidələri ensiklopediyası. İstambul: Bakanlar Medya, 2008, 520 s.
9. «Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında» Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı, 28 iyun 2006-cı il. «Şərq qapısı» qəz., 2006, 29 iyun.
10. Onullahi S.M. Jan Battist Tavernye Naxçıvan haqqında / Naxçıvan Muxtar Respublikası-75. Bakı Universitetinin Xəbərlərinin xüsusi buraxılışı. Bakı: BDU, 1999, s. 87-93.
11. Səfərli H. Naxçıvan şəhərindəki Nuh türbəsi haqqında bəzi qeydlər // Təhsil ocağı, 2008, № 3-4, s. 24-31.
12. Sultanov R. Nuhun tufanı haqqında həqiqət. Bakı, 1971, 41 s.
13. Həbibbəyli İ. Nuhun qəbri haradadır? «Vətən səsi» qəz., 1991, 6 fevral.
14. Həbibbəyli İ. Nuhçıxan-Naxçıvan. «Şərq qapısı» qəz., 2009, 15 aprel.
15. Cəfərov Y. Bir əfsanənin mənşəyi // Elm və həyat, 1982, № 10, s. 32-33.
16. Дьяконов. Шумерский эпос // БДУ, 1994, № 3.
17. Григорьев Б.Г. Статистическое описание Нахичеванской

провинции. СПб., 1833, 264 с.
18. Никитин К.А. Город Нахичевань и Нахичеванский уезд // СМОМПК, Тифлис, 1882, № 2, с. 109-142.
19. Смирнов К.Н. Материалы по истории и этнографии Нахичеванского края. Баку: Озан, 1999, 156 с.
20. Сысоев В.М. Нахичевань на Араксе и древности Нах. АССР. Баку, 1929, с. 87-121.
21. Ptolemey K. Coğrafiya. II kitab, Budapeşt: K.Millerin nəşri, 1929.
22. Флавий И. Иудейские древности. СПб., 1990.
23. Шопен И. Исторический памятник состояния Армянс кой области в эпоху ее присоединения к Российской империи. СПб., 1852.

I. NUH PEYĞƏMBƏR VƏ DÜNYA TUFANI

İSA HƏBİBBƏYLİ
Naxçıvan Dövlət Universiteti

NUH PEYĞƏMBƏR VƏ DÜNYA TUFANI TOPLUSU

Sivilizasiya – latın sözü olub, mənası şəhərli, dövlət, vətəndaş deməkdir.[1] Bu məfhum altında insan cəmiyyətinin ayrı-ayrı tarixi dövrlərindəki xüsusi inkişaf səviyyəsi nəzərdə tutulur. Hazırda Azərbaycan dilinin leksik tərkibində möhkəmlənmiş «sivil» sözü əslində sivilizasiya anlayışının əlaməti olub, cəmiyyətin indiki mərhələsində dünyəvi, vətəndaş cəmiyyətinə uyğun, çağdaş, mədəni həyat tərzi mənalarını ifadə edir. Bununla belə, təəssüf ki, sivilizasiyaların tipləri və formaları barədə dünya elmində tam yekdil fikir yoxdur. Ayrı-ayrı nəzəriyyəçilərdən hərəsi sivilizasiyaların tiplərini müxtəlif yönlərdən təsnifləndirmiş, fərqli nəticələrə gəlmişlər. Belə ki, artıq sivilizasiyaşünaslıq elmində bəşəriyyətin tarixi təkamül prosesi nəzərə alınmaqla neolit, ilkin quldarlıq, antik, erkən feodal cəmiyyəti, son feodal cəmiyyəti, sənaye cəmiyyəti və postsənaye cəmiyyəti sivilizasiyalarının mövcudluğu qeyd edilmişdir.[2] Doğrudur, bəşər cəmiyyətinin minilliklər boyu keçdiyi tarixi təkamül prosesini əks etdirən bu mərhələlərdən hər biri dünyanın gedişində böyük dəyişikliklərə səbəb olmuşdur. Amma burası da var ki, heç də bütün xalqlar, yaxud ölkələr həmin prosesləri sivilizasiya səviyyəsində yaşamamışlar. Bundan başqa, sivilizasiyaların bölgüsündə coğrafi prinsip əsas kimi qəbul edilməklə ümumi şəkildə Qərb və Şərq sivilizasiyaları anlayışlarına üstünlük verilməsi geniş yayılmışdır.[3] Bu təsnifatı da dünya xalqlarının hamısına eyni səviyyədə aid etmək doğru olmaz. Sivilizasiyaşünaslar Qərb sivilizasiyası dedikdə daha çox Avropa, Avrasiya, Şimali Amerika, Latın Amerikası sivilizasiyalarını nəzərdə tutmuşlar. Sivilizasiyaların Şərq qrupuna isə əsasən islam, türk, Misir, Şumer, yapon,

---

[1] Царева Т. Большая иллюстрированная энциклопедия. Великие цивили-зации мира. М., 2008, с. 3.
[2] Яковец Ю.В. История цивилизации. М., 1997, с. 88-89.
[3] Toynbi A. Tarixin dərk olunması. M., 2002, s. 41.

Çin, hind sivilizasiyaları daxil edilmişdir.[4] Sivilizasiyaşünaslıqda çiçəklənmə dövrünə çatmış xalqlar, inkişaf etmiş və «donmuş» ölkələr bölgüsü, landşaftlar, iqlim xüsusiyyətlərinə uyğun mədəniyyətlərə görə təsnifat, sənayeləşdirmənin səviyyəsinə əsaslanan müəyyənləşdirmələr də mövcuddur.

Azərbaycan sivilizasiyasından bir qayda olaraq ümumtürk və islam sivilizasiyalarının tərkibində bəhs olunur. Son illərdə Gəmiqaya-Qobustan mədəniyyəti müstəvisində Azərbaycanda qədim sivilizasiyadan söz açılır.[5] Eyni zamanda ölkəmizdə milli intibah sivilizasiyasına yeni yanaşmaları əks etdirən elmi mülahizələr də mövcuddur.[6]

Dünya sivilizasiyaşünaslığında Adəm peyğəmbərdən sonrakı və Nuh peyğəmbər sivilizasiyaları bölgülərini önə çəkənlər də vardır. Belə məqamlarda daha çox sivilizasiyaların başlanğıcı anlayışına istinad olunur. Yəni Adəm Peyğəmbərin zühur etməsi insanın yaranması və inkişafının başlanması səviyyəsində dəyərləndirilir. Sivilizasiyaşünaslıqda Nuh peyğəmbərlə əlaqədar Dünya tufanı hadisəsinin baş verməsi isə bəşər cəmiyyətinin yeni həyatı kimi səciyyələndirilir. Ona görə də indi Adəm və Nuh peyğəmbərlərin dövrü, həyatı və fəaliyyətləri ilə bağlı miflərə tarixin dərin qatlarını öyrənmək üçün dünya miqyasında yenidən böyük qayıdış vardır. Bu mənada doğru deyilmişdir ki, «miflər həmişə böyük hövsələ ilə özünün vaxtını gözləyir və lazımi anda qəbul edilmiş reallığa çevrilirlər. Deməli, miflərlə razılaşmamaq mümkün deyildir».[7]

Müşahidə olunan cəhət bundan ibarətdir ki, dünya sivilizasiyaşünaslıq elmində sivilizasiya hadisəsindən bəşər cəmiyyətinin müəyyən inkişaf mərhələsindəki xüsusi yüksəliş dövrü səviyyəsində bəhs etmək ənənəsi əsas prinsip kimi qəbul edilmişdir. Buna görə də sivilizasiyadan təxminən 300 min il yaşı olan bəşər cəmiyyətinin minilliklərdən sonra gəlib çatdığı mühüm, əsas, fərqli nəticə kimi söz açmaq prinsipi üstünlük qazanmışdır. Məsələn: Misir, Şumer,

---

[4] Ulusel R. Qloballaşma və türk sivilizasiyası. Bakı: Çaşıoğlu, 2005, s. 10.
[5] Fərzəli Ə. Gəmiqaya-Qobustan mədəniyyəti. Bakı: Nurlan, 2008, s. 13-14.
[6] Cəfərov N. Türk dünyası: xaos və kosmos. Bakı: VDU-nun nəşriyyatı, 1998; yenə onun: Genezisdən tipologiya. Bakı: BDU, 1999 və s.
[7] Мифы мира / под. ред. Г.Кашириной, Т.Евсеевой. М.: Мир энциклопе-дий Аванта Астрель, 2007, с. 13.

Çin, xett sivilizasiyaları bizim eradan əvvəlki, Avropa sivilizasiyaları isə yeni eranın ayrı-ayrı tarixi dövrlərində baş verən, yaxud baş tutan tarixi-mədəni hadisələr hesab edilməkdədir. Bundan başqa, müxtəlif epoxalarda və ayrı-ayrı ölkələrdə baş verən sivilizasiyaların birbirindən fərqləndikləri də nəzərə çarpdırılmaqdadır.[8] Çünki oxşar hadisələrin və proseslərin təkrarlanmasından yeni sivilizasiya yarana bilməz. Fikrimcə, bu məqamda Adəm peyğəmbərdən sonrakı sivilizasiya ilə Nuh peyğəmbərlə başlayan sivilizasiyalara eyni mövqedən, vahid prinsiplər əsasında yanaşmaq doğru sayılmamalıdır. Çünki bəlli olduğu kimi, Adəm peyğəmbərlə insan oğlu bir varlıq kimi yaranmış, minilliklər ərzində formalaşma prosesi keçirmiş, çox uzun bir tarixi təkamül prosesindən sonra hər hansı bir sivilizasiya mərhələsinə gəlib çatmaq imkanı qazanmışdır. Nuh peyğəmbərlə əlaqədar olan Dünya tufanı hadisəsindən sonrakı ikinci sivilizasiyada isə məsələ belə olmamışdır. Məlum olduğu kimi, Dünya tufanı hadisəsi zamanı əfsanəvi gəmidəki həzrəti Nuh peyğəmbərin ailə üzvləri, hər canlıdan bir cüt varlıq tufandan xilas olaraq yeni həyata başlamaq imkanına malik idilər. Bu tarixi mərhələdə insanın yaranmasına və formalaşmasına ehtiyac yox idi. Nuh peyğəmbərin əfsanəvi səfərinin uğurlu nəticəsi, yəni insan nəslinin və canlıların Dünya tufanından xilas olması, yeni həyata başlaması bəşər cəmiyyətinin tarixində çox böyük hadisədir. Bu, özünün mahiyyətinə və əhəmiyyətinə görə sonrakı tarixi epoxalarda yaranmış sivilizasiyaların hər hansı birindən qatqat böyük, mühüm və əlamətdar hadisə sayıla bilər. Məhz Nuh peyğəmbərin uzaqgörənliyi və müdrikliyi sayəsində bəşəriyyət Dünya tufanından xilas olmuş, yeni həyata başlamışdır. Bu, bayram tipli böyük təntənələrlə qeyd edilməsi zəruri olan qeyri-adi bir hadisə kimi qəbul edilməyə layiqdir. Fikrimizcə, dünya ölkələrinin yarısından çoxunu əhatə edən Novruz mərasimləri Dünya tufanından sonra Həzrəti Nuh peyğəmbərin və onun nəslinin davamı vasitəsilə insanlığın yeni həyata başlamasının bayram edilməsindən ibarətdir. Bu bayram Yer üzərində yeni həyata, Dünya tufanından xilas olmağa, yeni sivilizasiyanın başlanmasına insanların şükranlıq və ümid duyğularını ifadə edən mərasimdir. Bizə görə, Novruz sözü də Nuh hadisəsi ilə əlaqədardır. Belə düşünürük ki,

---

[8] Древние цивилизации (коллектив). М., Мысль, 1989, с. 7.

Novruz ifadəsi Nuh-ruz sözündən yaranmışdır və mənası Nuh pey-ğəmbərlə başlanan gün, yeni həyat deməkdir. Məlum olduğu kimi, müxtəlif ölkələrdə Nuh sözünün ayrı-ayrı variantları da işlədilməkdədir. Beləliklə, Novruz sözü zaman-zaman Nuh-ruz, Noyruz, Nouruz şəklində dəyişərək indiki Novruz formasına düşmüşdür. Elmi qaynaqlarda da həzrəti Nuh peyğəmbərin gəmisinin yerə enməsi hadisəsinin xüsusi mərasim kimi sonralar qeyd edilməyə başlanan Novruz bayramı gününə təsadüf etdiyini, həmin günə uyğun gəldiyini təsdiq edən mülahizələr mövcuddur. Mənbələrdə deyilir: «Nuhun gəmisi Ağrı dağına qonduqdan sonra Nuh peyğəmbər Yer üzünün quruyub-qurumadığını öyrənmək üçün öncə bir qarğanı görəvləndirmişdir. Ancaq qarğa geri dönməmişdi. Daha sonra havaya uçurulan göyərçin bir müddət sonra ağzında bir dəfnə yarpağı ilə geri qayıtmağı bacarmışdı. Bu, həm torpağın quruduğunu, həm də baharın gəldiyini müjdələməkdəydi. Həzrəti Nuhun yerə ayaq basdığı gün Novruz idi».[9]

Eyni mətləb Novruz bayramından söz açan digər mənbələrdə də öz əksini tapmışdır: «Nuhun gəmisi Novruz günü Ağrı dağında torpağa oturur».[10]

Novruz bayramı üçün «gecə ilə gündüzün bərabərləşməsi astronomik vahid»[11] kimi qəbul edilmişdir. Bu bayram həm də yeni ilin başlandığı gün hesab olunur. Bütövlükdə Novruz yeniləşmə, dirilik, canlanma, təzəlik mənalarını daşıyır. Ensiklopedik mənbələrdə Novruz sözünün mənası «ilin yeni, başlanğıc günü» kimi qeyd edilir.[12] Deməli, Novruz dünyanın, həyatın yeni başlanğıcının bayram edilməsi deməkdir. Bu da öz növbəsində Dünya tufanı hadisəsi və ya Nuh əfsanəsi ilə üzvi surətdə səsləşir.

Müxtəlif əfsanə və rəvayətlərdə Nuhun gəmisinin əsasən Ağrı dağında yerə endiyi göstərilir. Gəminin yerə enmə hadisəsinin Türkiyə ərazisindəki Cüdo dağına aid edənlər də vardır. Naxçıvan ərazisindən toplanılmış folklor materiallarında isə Nuh peyğəmbərin gəmisinin Ordubad rayonu ərazisindəki Gəmiqaya adlanan

---

[9] Türk dünyasında Novruz ikinci bilgi şöləni bildiriləri. Türkiyə, Ankara, 1996, s. 170.
[10] Kaya H., Bektaşi Ə. Türkiyə. İstanbul, 1996, s. 399.
[11] Həbibbəyli İ. Novruz bayramı: nə vaxt, necə? «Sovet Naxçıvanı» qəz., 1989, 3 mart № 53 (15.293).
[12] Novruz bayramı ensiklopediyası tərtib edənlər B.Abdulla, T.Babayev. Bakı: Şərq-Qərb, 2008, s. 140.

yerdə torpağa endiyi bildirilir. «Naxçıvan folkloru» antologiyasında oxuyuruq: «Gəmi bir dağa yan alıb, ehmalca qayaya toxundu. Nuh buna Gəmiqaya adı verdi. Gəmidəkilər quruya çıxdılar». [13]

Bundan başqa, Türkiyə mənbələrində Nuhun tapşırığı əsasında göyərçinin dəfnə yarpağı gətirməsi ilə Dünya tufanının başa çatdığı öz əksini tapmışdır.[14] Azərbaycan folklor materiallarında isə Nuh peyğəmbərin sifarişinin qaranquş tərəfindən yerinə yetirildiyi qeyd olunur.[15] Naxçıvan ərazisindəki Nuhun tufanı ilə bağlı olan Gəmiqaya yüksəkliyində Qaranquş yaylağı adlı yer indi də mövcuddur. Qapıcıq dağı ətəklərində yerləşən Qaranquş yaylağı toponimi qədim əfsanədəki hadisəni yaşadan mühüm bir əlamətdir. Deməli, bütün variantlarda Nuhun Gəmisinin yazın ilk günü yerə enməsi təsdiqlənir. Beləliklə, türkmüsəlman dünyası Nuh-ruz, Noy-ruz Novruz hadisəsini Novruz bayramı kimi böyük təntənə ilə qeyd edir. Mənbələrdən öyrənirik ki, Novruz bayramı Krımda Navrez,[16] Qərbi Trakya türklərində Nevris[17], Çuvaşiyada Naurus,[18] Qırğızıstanda Navruz[19] kimi adlandırılır. Bu isə o deməkdir ki, Nuhun gəmisinin yerə endiyi gün, yəni yeni sivilizasiyanın başlandığı gün min illərdir ki, ayrı-ayrı xalqlar bayram səviyyəsində qeyd olunur. Beləliklə, Novruz bayramı yeni sivilizasiyanın, yeni həyatın başlanmasının təntənəsidir. Novruz sözü Nuhruz kəlməsindən yaranmışdır.

Deməli, yeni sivilizasiya Dünya tufanı hadisəsinin başa çatdığı vaxtdan və Nuhun gəmisinin torpağa endiyi yerdən başlanır. İndiyədək Nuhun gəmisinə dair mənbələrdə bu hadisə ilə bağlı adı çəkilən Cüdo dağı və Ağrıdağ Türkiyə sınırları içərisində, Gəmiqaya isə Naxçıvan ərazisindədir. Yəni yeni sivilizasiyanın məkanı Diyarbəkir yaxınlığındakı Cüdo dağı ilə Naxçıvandakı Gəmiqaya arasındakı ərazilərdir. Və yaxud yeni sivilizasiyaya Cüdo dağı, Ağrıdağ və Gəmiqayadan biri şahidlik edir. Adı çəkilən yerlər içərisində Dünya tufanı, Nuh peyğəmbərin əfsanəvi səfəri və gəmisi ilə

---

[13] Naxçıvan folkloru tərtib edənlər T.Fərzəliyev, M.Qasımlı. Bakı, 1994, s. 68.
[14] Novruz və rənglər. Türkiyə, Ankara, 1996, s. 170.
[15] Naxçıvan folkloru. Bakı: Sabah, 1994, s. 68-69.
[16] Yurdsevər M.V. Nevruz, Nevruz // Emel, 1973, № 75.
[17] Dədə A. Batı Trakya folkloru. Ankara, 1978, s. 123.
[18] Rassonen H. Çuvaş sözlüyü. İstanbul, 1950, s. 94.
[19] Turan Ə. Türk boylarında Novruz geleneyi / Ərciyəz, 1990, № 150, s. 2.

səsləşən rəvayətlər və toponimlər müqayisədə Naxçıvanda daha çoxdur. Naxçıvan ərazisindəki Gəmiqaya, Haçadağ, Nuhdaban, Nuhəcir, Nuhram, Nürgüt, Nəbi yurdu, Qapıcıq, Qaranquş yaylağı, Peyğəmbər ayağı məscidi və sair kimi çoxsaylı yer adları və həmin toponimlərlə bağlı əfsanə və rəvayətlər əfsanəvi Gəmi əhvalatının Naxçıvanda baş verməsi ehtimalına ağırlıq qazandırır. Həm də Naxçıvandakı folklor materiallarında və toponimlərdə təkcə Gəminin yerə enməsi deyil, bu prosesin hamısı: Qaranquş əhvalatı, dağın haçalanması, Haçadağ, Gəmiqaya, Nuhdaban, Nəbi yurdu, yəni həyat ümidinin başlandığı andan yerə enmə və məskunlaşma prosesinə qədərki bütün gedişat öz əksini tapmışdır. Nuh peyğəmbərlə və Dünya tufanı ilə bağlı əsatir və əfsanələrdə də Naxçıvandakı yer adları geniş yer tutur. Məsələn: «Nuhun gəmisi Gəmiqayada quruya oturmuşdu. Oğlanları bir gün gördülər ki, uca dağlar od tutub yanır... Bu nə sirdir dedilər, dağ da yanar?

...Nuh Nəbi dedi: Gördüyünüz elə belə od deyil... Bu torpağın mayası oddan yoğrulub... Yanan dağlardan biri Gəmiqaya, biri İlandağı, biri Ağrı dağıdır.

Nuh Nəbi sözün qurtardı. Dayandığı yerdən bir addım irəli atdı. Oğlanları həmin yerdə yurd saldılar, adına da Nuhdaban dedilər».[20]

Göründüyü kimi, bu kiçik folklor nümunəsinin mətnində Nuh Nəbi, Gəmiqaya, İlandağ, Nuhdaban və sair adlar öz əksini tapmışdır. Ümumiyyətlə, Nuhun əfsanəvi gəmisinin yerə enməsi ehtimal edilən ərazilərdən: Ağrı dağı və Cüdo dağı ətraflarından heç birində Naxçıvandakı qədər Dünya tufanı hadisəsi və ya Nuh peyğəmbərlə səsləşən adlar, toponimlər, əfsanələr çox deyildir. Son illər bu sahədə aparılan axtarışlar sayəsində məlum toponimlərin sırasına Nəbi yurdu, Xəzər obası, Qaranquş yaylağı, Baca bulağı kimi yer adları da daxil edilmişdir. Burası da maraqlıdır ki, Nuh peyğəmbər hekayəti ilə səsləşən toponimlərin böyük əksəriyyəti əfsanəvi gəminin yerə endiyi ehtimal edilən Gəmiqaya-Qapıcıq ərazisindədir.

Toponim və əfsanələrdə adı çəkilən Nəbi yurdu – peyğəmbər yurdu, yəni Nuh peyğəmbərin yurdu deməkdir. Gəmiqaya qayaüstü rəsmlərinin bir çoxu Nəbi yurdu ərazisindədir. Bu yer

---

[20] Naxçıvan folkloru. Bakı: Sabah, 1994, s. 70.

ilin üç fəslində başı qarla örtülən Gəmiqaya-Qapıcıq zirvəsindən bir qədər aşağıda yerləşir. Nəbi yurdu buzlaşmanın qurtarıb həyatın, məskunlaşmanın başlandığı məkan, yurd mənasını verir. Hətta burada qədim qəbirlərə də rast gəlmək mümkündür. Bu o deməkdir ki, Nəbi yurdu ilk insan məskənlərindən biridir. Heç şübhəsiz, sistemli araşdırmalar aparılarsa, Nəbi yurdundan yaşayış əlamətlərini ifadə edən daha qədim materiallar da tapmaq mümkün olar.

Qaranquş yaylağı – Nəbi yurduna bitişik yaylaq yeridir və məlum hadisədəki dimdiyində dəfnə yarpağı gətirən qaranquş əhvalatının yadigarıdır. Gəmiqayadakı qayaüstü rəsmlərin böyük əksəriyyəti Qaranquş yaylağındadır. Qaranquş yaylağı haqqında Naxçıvandan toplanmış folklor materiallarına istinad edən AMEA-nın müxbir üzvü Qadir Qədirzadə həmin hekayəti aşağıdakı variantda təqdim edir: «Toplanmış rəvayətlərə görə, Dünya tufanı başa çatıb, sular sakitləşəndən, küləklər dayanandan sonra Nuh peyğəmbər qarğanı buraxır ki, görsün quru yer varmı? Qarğa gedib qayıdır. Peyğəmbər bilir ki, hələlik quru yer yoxdur. Sonra qaranquşu buraxır. O, çox gec qayıdır. Peyğəmbər baxır ki, onun ayaqlarında və dimdiyində palçıq var. Düşünür ki, artıq sular çəkilməyə başlayıb. Lakin hələlik yaşayış üçün şərait yoxdur. Müəyyən vaxtdan sonra qaranquşu yenidən buraxır. Qaranquş bir müddət dolandıqdan sonra gəmiyə gəlir. Lakin gəmidə qalmayıb, yenidən geri dönür. Beləliklə, onun qurunu tapdığı bəlli olur. Gəmi də həmin istiqamətdə hərəkət edib, quruya çatır. Gəmidəkilər qaranquşu həmin yerdə görürlər. Bundan sonra ərazi onun şərəfinə «Qaranquş yurdu» adlanır».[21]

Deməli, Gəmiqayadakı Qaranquş yaylağı Nuh peyğəmbərin əfsanəvi gəmisindəki canlılar içərisində quru yeri, torpağı tapan, həyat əlamətlərini nişan verən qaranquşun şərəfinə onun adı ilə adlandırılmışdır. Nuh peyğəmbərin gəmisindəkilərin timsalında insanlığı sahilə çıxaran quşun adı Gəmiqayadakı Qaranquş yaylağı ilə əbədiləşdirilmişdir.

Müşahidələr göstərir ki, qaranquş təkcə bələdçi deyildir, eyni zamanda insanların xilaskarıdır. Nuhla bağlı miflərin birində deyilir ki, Gəmidəki heyvanlardan olan ilan xidmətinin müqabi-

---

[21] Qədirzadə Q. Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan. Naxçıvan: Qızıl dağ, 2008, s. 122.

lində peyğəmbərdən onun nəslinə dünyadakı ən şirin neməti yeməyə izin verilməsini istəyir. Nuh qaranquşla arını (Naxçıvan variantında mozalanı – İ.H.) dünyadakı ən şirin şeyi axtarmağa göndərir. Arı ən şirin nemətin insan əti olduğunu Nuha bildirmək qənaətinə gəlir. Qaranquş bu məlumatın ilanın insanları məhv etməsinə səbəb olacağını başa düşdüyü üçün «aldadıb arının dilini dimdikləyib qoparır. Arı danışa bilmir... Onlar Nuhun yanına gəlirlər. Arı özünü qabağa verir. Çox çalışır, çox vızıldayır, ancaq bir şey başa sala bilmir. Qaranquş deyir: Ən şirin şey torpaqdır.

Nuh ilana yemək üçün torpağı verir».[22] Nəbi yurdu ilə müqayisədə Qaranquş yaylağında qədim qəbirlər bir az da çoxdur. Son illərdə Gəmiqaya ekspedisiyaları zamanı dəniz səviyyəsindən üç min metrdən artıq yüksəklikdə olan Qaranquş yaylağında aşkar edilmiş bir qəbirdə aparılmış arxeoloji axtarışlar nəticəsində burada iki min ildən çox yaşayışın olduğu müəyyən edilmişdir.

İndiyədək diqqətdən kənarda qalmış Xəzər obası toponimi də Həzrəti Nuh peyğəmbərlə bağlıdır. Mənbələrdə Gəmiqayadakı bu yerin adı «Qəzər yurdu» kimi də yazılır.[23] Xalq arasında isə bura Xəzər yurdu, yaxud Xəzər obası adlandırılır. Məlum olduğu kimi, Xəzər Nuh peyğəmbərin oğlu, türk-müsəlman qövmünün atası sayılan Yafəsin törəmələrindən birinin adıdır.[24] Nəbi yurdunun sağ tərəfində yerləşən Xəzər obası ərazidəki məskunlaşma ilə bağlı yerlərdən biridir. Nəbi yurdu və Qaranquş yaylağı Gəmiqayadakı məskunlaşmanın başlanğıc mərhələsini, Xəzər obası isə davamını, yayılmasını, genişlənməsini aydınlaşdırmağa imkan verir.

Haqqında ilk dəfə söz açacağımız Baca bulağı Gəmiqaya silsiləsindəki Qapıcıq zirvəsinin ən yüksək nöqtələrindən birindədir. Bura Dünya tufanı zamanı suyun çəkilməsi prosesində Nuh peyğəmbər üçün açılan və həyat əlaməti ifadə edən yer mənasını daşıyır. Həzrəti Nuh peyğəmbər zirvədəki həmin bacadan yerə enmişdir. Bacadan bulaq çıxması isə həyatın davam etməsi, çağlaması mənalarını ifadə edir.

---

[22] Azərbaycan folkloru (tərtib edəni Bəhlul Abdulla). Bakı: Şərq-Qərb, 2005, s. 221

[23] Seyidov A. Gəmiqaya (toponimlər, qədim köç yolları). Bakı, 2003, s. 32.

[24] Qədirzadə Q. Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan. Naxçıvan: Qızıl dağ, 2008, s. 135.

Fikrimizcə, Qapıcıq sözü də Nuh hadisəsi ilə səsləşir. Kiçik Qafqazın və Gəmiqaya silsiləsinin ən yüksək zirvəsi sayılan Qapıcıq nöqtəsi məna etibarilə Nuh peyğəmbər üçün açılmış kiçik qapı, giriş yeri kimi başa düşülə bilər. Vaxtilə yazdığımız kimi, «Həzrəti Nuh peyğəmbər məhz Gəmiqayadakı bu qapıdan ana torpağa ayaq basmışdır. Qapıcıq zirvəsi bəşəriyyətin yeni həyatına, sivilizasiyaya açılan qapıdır».[25] Bəlkə də Həzrəti Nuh peyğəmbərin tufandan xilas olaraq bu qapıdan yerə enməsindən sonra həmin yer o hadisəyə uyğun olaraq Qapıcıq adlandırılmışdır. Baca bulağı və Qapıcıq haqqındakı fərziyyələrimiz Nuhun tufanı hadisəsi ilə bağlı proseslərə tam uyğun gəlir. Nəbi yurdu, Qaranquş yaylağı, Xəzər obası toponimlərilə əlaqədar yozumlar Baca bulağı və Qapıcığa aid mülahizələri tamamlayır.

Haçadağ – Naxçıvan ərazisində Nuhun əfsanəvi gəmisinin yarıb keçdiyi dağın adıdır. Xalq arasında Haça dağa İlan dağ da deyirlər. Rəvayətə görə bu dağın və ona yaxın olan, Cənubi Azərbaycanın Ordubad rayonu ilə sərhəddində yerləşən Kəmki dağının adlarını Nuh peyğəmbər qoymuşdur: «Nuhun gəmisi hər yerdə sulardan sakit keçir. Təkcə bir dağdan keçəndə gəmi bir az ilişir. Nuh deyir: İnan ki, dağdır. Ona görə də bu dağın adı İlan dağı qalır.

Nuhun gəmisi xeyli aralıda yenə də çətinliyə düşür. Nuh deyir: Bu dağ o dağdan kəm deyil.

Bu sözə görə o dağın adı Kəmki olur».[26]

Beləliklə, Dünya tufanından sonra Naxçıvan ərazisindəki məskunlaşma dəniz səviyyəsindən 3906 metr yüksəklikdə olan Qapıcıq zirvəsindən, Baca bulağından üzü aşağı Nəbi yurduna və Qaranquş yaylağına, oradan Xəzər obasına tərəf uzanıb gəlmişdir. Ordubad rayonundakı Nəsirvaz kəndi ilə Qaranquş yaylağı arasında yerləşdiyi ehtimal edilən qədim Nuhdaban yaşayış yeri oturaq həyatın başlanğıcıdır. Nuhdaban – Həzrəti Nuh peyğəmbərin yaylaq, oba həyatından, müvəqqəti, mövsümi yaşayış tərzindən nisbətən oturaq həyata keçidinin nişanəsi olan insan məskənidir. Naxçıvandan toplanmış folklor nümunəsində bu yaşayış yerinin yaranması haqqında aşağıdakı məlumat vardır: «Nuh Nəbi sözü-

---

[25] Həbibbəyli İ. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 2007, s. 603.

[26] Əsatirlər, əfsanələr və rəvayətlər / tərtibçilər Arif Acaloğlu, Cəlal Bəy-dili. Bakı: Şərq-Qərb, 2005, s. 41.

nü qurtardı. Dayandığı yerdən bir addım irəli atdı. Ayağı torpağa gələndə pəncəsi yox, dabanı yerə dəydi. Oğulları həmin yerdə yurd saldılar, adına da Nuhdaban dedilər».[27]

Fikrimizcə, Naxçıvan – Nuhçıxan Nuhdabandan başlanır. Nuhdaban Dünya tufanından sonrakı ilkin sivilizasiyanın birinci oturaq məntəqəsidir. Nuhdabana yaxın ərazidə yerləşən Nəsirvaz kəndinin adı da Nuh peyğəmbər əhvalatı ilə səsləşən motivləri özündə cəmləşdirir. Bu sözün mahiyyətindən bəhs edənlər «Bilqamıs» dastanına istinad edərək həmin toponimdə Nuhla, əfsanəvi gəmi ilə bağlı motivlərin olduğunu iddia edirlər.[28] Bu yolla həyat, məskunlaşma Nuhdabandan Nəsirvaza, sonra isə indiki Naxçıvan şəhərinə, Nuhçıxana doğru inkişaf etmişdir. Fərziyəyə, əsatirə görə Nuh peyğəmbər Naxçıvan şəhərinin əsasını qoymuşdur.[29] Ulu peyğəmbərin məzarı Naxçıvan şəhərindədir. XX əsrin əvvəllərində görkəmli rəssam Bəhruz Kəngərli naturadan Nuhun məzarını yağlı boya ilə kətan üzərinə köçürmüşdür. Naxçıvan şəhərinin adı da Nuhçıxan sözündən əmələ gəlmişdir.[30]

Bizə görə, Naxçıvan şəhərinin yarnmasının əsas səbəblərindən biri də şəhərətrafı ərazidə duz mədənlərinin olması ilə bağlıdır. Mənbələrdə Naxçıvan ərazisində duzçıxarmanın da əsasının Nuh peyğəmbər tərəfindən qoyulduğu öz əksini tapmışdır. XIX əsrə aid rus mənbələrindən birində deyilir ki: «xalq arasında Nuhun Naxçıvan duz mədənlərində ilk çalışanlardan biri kimi fəaliyyəti haqqında rəvayət mövcuddur».[31]

Mənbələrdə Naxçıvanda duzçıxarma işinin eramızdan üç min il əvvəl başlandığı qeyd edilir.[32] Naxçıvan duz mədənləri ərazisindən daş baltaların tapılması[33] da burada şəhərtipli yaşayışın qədimliyini göstərir. Tədqiqatçılar Naxçıvandan tapılmış daş bal-

---

[27] Naxçıvan folkloru. Bakı: Sabah, 1994, s. 70.

[28] Rzayev F. Naxçıvan, Nuhun tufanı, tarixi faktlar və ermənilərin növ-bəti oğurluğu // NDU-nun Xəbərləri, № 17, 2005, s. 10-11.

[29] К.А.Никитин. Город Нахичевань и Нахичеванский уездъ // Тифлис, СМОМПК, 1882, № 2, с. 111.

[30] Həbibbəyli İ. Nuhçıxan-Naxçıvan / Naxçıvan , 2009, № 19, s. 35-43.

[31] Никитин К.А. Город Нахичевань и Нахичеванский уездъ // Тифлис СМОМПК, 1882, № 2, с. 110.

[32] Шереметевский П. Нахичеванские соляные месторождения. Газ. «Кавказ», 1855, 16 март, № 22.

[33] Гусейнов М.М. Каменные топоры из Нахичевани // ДАН Азербайджа-на, 1956, № 2, т. 121.

taları Neolit dövrünə aid edirlər.[34] Fikrimizcə, duzçıxarma ilə əlaqədar olan qazma, daşınma, emal, satış, mübadilə kimi proseslər Naxçıvanda şəhərtipli yaşayışın əsasına çevrilmişdir. Duz mədənlərinin əsaslı şəkildə tədqiqi Naxçıvan şəhərinin tarixinin müəyyən olunması ilə əlaqədar çox mətləblərə aydınlıq gətirə bilər.

Göründüyü kimi, dünya sivilizasiyaları üçün xarakterik olan əlamətlərin bir çoxu hələ Nuh əyyamından etibarən Naxçıvanda baş vermiş, yaranıb inkişaf etmişdir. Bunlar əsasən aşağıdakılardan ibarətdir:

1. MƏSKUNLAŞMA: Baca çeşmədən, Qapıcıq zirvəsindən Nəbi yurdu və Qaranquş yaylağına, Xəzər obasına, oradan da üzüaşağı, Nuhdaban yaşayış yerinə qədər uzanan məskunlaşma prosesləri uzun bir dövrü əhatə etmişdir. Burada insanlığın oturaq həyatının əsası qoyulmuşdur.

2. İNSAN BİRLİKLƏRİNİN YARANMASI, ETNOBİRLİKLƏRİN FORMALAŞMASI VƏ YAYILMASI.

Nəbi yurdu, Xəzər obası, Qaranquş yaylağı anlayışlarının hər birində yurd salmaq, oba qurmaq mənaları ifadə olunur ki, bunlar da öz növbəsində insan birliklərinin mərkəzləşməsinin, cəmiyyət elementlərinin əmələ gəlməsinin göstəricilərindəndir. Tədqiqatçılar da Zaqafqaziyanın dağlıq ərazilərində Nuh nəslindən olan nax tayfalarının məskən salıb yaşadıqları qənaətinə gəlmişlər.[35] Bu mənada dağətəyi ərazidə salınmış Nuhdaban yaşayış yeri də Nax tayfasının məskunlaşma prosesinin nəticəsində yaranmışdır.

3. TƏSƏRRÜFAT HƏYATININ YARANMASI.

Məşhur Gəmiqaya rəsmlərində təsərrüfat həyatını əks etdirən süjetlər çoxluq təşkil edir. Bu rəsmlərdəki heyvandarlıq, ovçuluq və əkinçiliklə səsləşən motivlər regionda təsərrüfat həyatının formalaşması proseslərini aydın şəkildə əks etdirir. Bundan başqa, əsatirlərdə Nuh peyğəmbərin Naxçıvan şəhəri ətrafında üzüm bağları salmasına dair məlumatların olması[36] da bu ərazidə məskunlaşmadan sonrakı təsərrüfat həyatının mövcudluğunu təsdiqləyən faktdır. Bir sözlə, elmi fikirdə məşhur Gəmiqaya təsvirlərinin

---

[34] Qaşqay S. Qədim Naxçıvanın maddi mədəniyyəti / Naxçıvan Muxtar Respublikası (məqalələr toplusu). Bakı: Elm, 1999, s. 16.

[35] Силейманера Д. Потомки Ноя: из прошлого в будущее. Габала: Асиман, 2001, с. 36.

[36] Никитин К.А. Город Нахичевань и Нахичеванский уездъ // Тифлис, СМОМПК, 1882, № 2, с. 111.

eramızdan əvvəl I-VI minilliklərdə qədim Naxçıvanın yüksək sivilizasiya yaratmış oturaq əkinçi-maldar tayfalarına məxsus olması»[37] haqqındakı qənaətlər bu mədəniyyətin Azərbaycan xalqının həyatında nə qədər mühüm yer tutduğunu təsdiqləyir.

4. SƏNAYELƏŞMƏ: Hələ Nuh peyğəmbərin dövründən etibarən Naxçıvanda duzçıxarmanın başlanması regionda sənayenin də qədimliyini təsdiqləyir. Naxçıvandakı duz mağaraları yer üzündəki ən qədim mədənlərdən biridir. Duzdağ ərazisindən tapılmış daş baltalar da sənayeləşmə proseslərini əks etdirir. Çünki daş baltaların yonulub hazırlanması da, istifadəsi də sənaye əlamətlərini özündə cəmləşdirir. Vaxtilə tapılmış daş baltalar bu regionda insanlığın məskunlaşmasının və ilkin sənayetipli əmək fəaliyyətinin əlamətlərini özündə yaşadır: «Naxçıvanda qədim dövrün abidələrinə ilk növbədə Naxçıvan duz mədənlərindən tapılmış daş baltaları və daş çivləri aid etmək olar. Bunlar 1870-ci ildə Duz mədənlərinin keçmiş nəzarətçisi cənab Beyer tərəfindən tapılmış, 2 ədədi Naxçıvan şəhər məktəbinə verilmiş, qalanlarının isə bir hissəsi Tiflis və Peterburq muzeylərinə göndərilmişdir. Duzçıxarma alətləri olan balta və çiv burada insanlığın ilkin məskunlaşma dövrlərindən, hələ dəmirdən istifadə etməyin məlum olmadığı daş dövründən xəbər verir. Digər tərəfdən isə bu alətlər tarixəqədərki dövrdən etibarən işə salınan duz mədənlərinin qədimliyini aydınlaşdırır».[38]

Göründüyü kimi, qədim dövrlərdə Naxçıvanda baş verən ilkin duzçıxarma proseslərində sənayeləşmənin yaranması, şəhərtipli yaşayış və fəaliyyət sahələrinin formalaşması üçün real imkanlar mövcud idi.

5. ŞƏHƏRLƏŞMƏ: Naxçıvan şəhərinin qədim tarixə malik olması regionda şəhərsalmanın sivilizasiyadan sonrakı ilkin mədəniyyətlərlə səsləşdiyini göstərir. Naxçıvan – Həzrəti Nuhun əsasını qoyduğu, yaxud da onun adına yaradılan şəhər kimi mühüm əhəmiyyət kəsb edir. Bu şəhərin adını bildirən Nuhçıxan və Naxçıvan sözlərinin səsləşməsi sadəcə fonetik hadisə olmayıb, həzrəti Nuh peyğəmbərlə, Dünya tufanından sonrakı hadisələrlə üzvi surətdə bağlıdır. Naxçıvan yer üzündəki ilk sivilizasiya şəhərlərindən biridir. Birinci və ikinci Kültəpə mədəniyyətləri haqqındakı elmi araş-

---

[37] Əliyev V. Gəmiqaya. Bakı: Əbilov, Zeynalov və oğulları, 2005, s. 10.

[38] Никитин К.А. Город Нахичевань и Нахичеванский уездъ // Тифлис, СМОМПК, 1882, №2, стр. 115

dırmalar bu ərazidə qədim şəhər mədəniyyəti ənənəsinin mövcudluğunu isbat etmişdir. Həmçinin ərazidə qala tipli şəhərlərin mövcudluğu, Oğlanqala, Qalacıq, Gavurqala, Çalxanqala kimi qalaşəhərlərin olması da burada şəhərsalmanın qədimliyi haqqında düşünməyə əsas verir.[39] Son illərdə Naxçıvan-Amerika birgə arxeoloji ekspedisiyasının 2009-cu ildə Şərur rayonu ərazisindəki Oğlanqalada ilkin şəhər mədəniyyətinə dair qalıqları, maddi sübutları üzə çıxarması faktları da regionda qədim, ilkin şəhərsalmanın perspektivindən söz açmağa əsas verir. Bütün bunlar Naxçıvan şəhərinin sivilizasiyadan sonra yarandığını, Nuh peyğəmbərin adı ilə səsləşdiyini və Naxçıvan şəhərinin 5 min illik tarixə malik olduğunu yəqinləşdirir.[40]

Qeyd etdiyimiz xüsusiyyətlər Naxçıvan ərazisinin və Naxçıvan şəhərinin dünya sivilizasiya prosesləri ilə möhkəm surətdə səsləşdiyini əyani şəkildə nümayiş etdirir. Bundan başqa, Naxçıvan ərazisinin, yaxud Naxçıvan şəhərinin çay vadisi və çayarası sivilizasiyalarla oxşarlığına, bənzəyişinə dair də mülahizələr irəli sürmək mümkündür. Belə ki, bəlli olduğu kimi, Naxçıvan şəhəri regiondakı ən böyük çaylardan sayılan Araz çayının yaxınlığında yerləşir. Hətta vaxtilə Araz çayının Naxçıvan şəhərinin hüdudlarından keçməsinə dair məlumatlar da vardır.[41] Buna görə də Naxçıvana çayvadisi sivilizasiyanın nümunəsi kimi baxmaq mümkündür. Həmçinin coğrafi baxımdan Naxçıvanda çayarası sivilizasiyanın da əlamətləri müşahidə olunur. Məlum olduğu kimi, Naxçıvan ərazisi Azərbaycan coğrafiyası baxımından Kür çayı ilə Araz çayının arasında qərar tutur. Tarixçilər qədim Naxçıvanı Kür-Araz mədəniyyətinin tərkib hissəsi kimi dəyərləndirirlər. Naxçıvan şəhəri həmçinin Araz çayı və Arpaçayla əhatə olunmuşdur. Geniş mənada isə Naxçıvan Dəclə-Fərat mədəniyyəti ilə Kür-Araz mədəniyyətinin qovşağındadır. Bu isə qədim Naxçıvan mədəniyyətini çaylararası sivilizasiyaya da aid etməyə imkan yaradır.

---

[39] Bağırov R. Naxçıvanın qədim qala-şəhər tipli yaşayış yerləri və müdafiə istehkamları (tarix elm. nam. ... dis. avtoref. Naxçıvan, 2003.

[40] Həbibbəyli İ. Naxçıvan şəhərinin yaşı – beş min il / Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik. Naxçıvan, 2007, s. 20-27.

[41] Ön və Orta Asiya türklərinin tarixinə dair dörd anonim mənbə / tərcüməçilər C.Bayramlı, V.Əliyev. Bakı: Nurlan, 2003, s. 135.

Bütün bunlar Naxçıvan ərazisinin, o cümlədən Naxçıvan şəhərinin dünya sivilizasiya proseslərinin üzvi tərkib hissəsi olduğunu bir daha təsdiq edir. Naxçıvan böyük sivilizasiyanın nişanəsidir. Regionda sonralar yüksək inkişaf tapmış zəngin mədəniyyət bu möhkəm təməl üzərində yüksəlmişdir.

BƏHLUL İBRAHİMLİ
AMEA Arxeologiya və Etnoqrafiya Institutu

ÜMUMDÜNYA SUBASMASININ NAXÇIVANA METEOROLOJİ VƏ MƏDƏNİ TƏSİRİ

Qədim zamanlardan ibtidai insanların təbiət qüvvələri ilə mübarizəsi nəticəsində cürbəcür miflər və əfsanələr meydana gəlmiş, dinlər və sonra isə müxtəlif fəlsəfi cərəyanlar yaranmışdır. Bir çox əfsanələrin real kökləri olsa da, əsrlər boyu insan təxəyyülü onu fantastik bir duruma gətirib çıxarmışdır. Bu səbəbdən də insan ağlının yaratdığı həmin mif və əfsanələrin real köklərinin olub-olmamasının araşdırılması sivilizasiyanın indiki inkişaf mərhələsində cəmiyyətin qarşısında vacib bir elmi problem kimi durur. Digər tərəfdən, Yer üzündə vaxtaşırı baş verən zəlzələlər, tufanlar və subasmalar bu əfsanələrin yaranma səbəblərini araşdırmağı bir daha aktuallaşdırır.

Min illərlə insan yaddaşında həkk olunmuş, onun təbiət və ilahi qüvvələr qarşısında nə qədər aciz olduğunu göstərən əfsanələrdən biri də Nuhun tufanı haqqında əfsanədir. Elmi ədəbiyyatda bu hadisə ən çox «Ümumdunya subasması» kimi qeyd olunur ki, bu da onun əsasən Bibliya variantına istinad edilməsi ilə bağlıdır. Ümumdünya subasması – Nuhun tufanı haqqında əfsanənin Yer kürəsinin müxtəlif yerlərində müxtəlif xalqlar arasında yayılması, ona müxtəlif dini təlimlərdə real fakt kimi yanaşılması və hətta müasir xalqların Yer üzərində yayılmasının birbaşa bu əfsanə ilə bağlı olduğunun göstərilməsi onun daima elmi ictimaiyyətin diqqət mərkəzində olmasını şərtləndirmişdir. Qeyd edək ki, Ümumdünya subasması haqqında əfsanənin dəhşətli tarixi hadisələrin mifləşdirilməsi nəticəsində yarandığı fikrini irəli sürən alimlər də vardır [5, s. 78-79]. Onların fikrincə, Urun III sülalə dövründə yaranan subasma əfsanəsi sonradan Babilistan və Assur ideologiyasında üstünlük təşkil etmişdir. Bu mifologiyaya görə, subasma Allahın cəzası və düşmən hücumu mifologiyası ilə bağlıdır. «Akkadın lənəti» mixi yazılı mətnində subasma kimi *kutilərin* hücumu-axını nəzərdə tutulur. Bu axın da 7 gün, 7 gecə davam etmişdir. Urun süqutundan sonra subasma ideologiyasında da dəyişikliklər olmuşdur [5, s. 78-79].

Nuhun tufanı haqqında əfsanənnin ən qədim variantı XIX əsrdə arxeoloq Arno Pöbelin nəşr etdiyi Şumer variantıdır. Burada Enki allahı padşah Ziusudranın evinin divarına subasma olacağı haqda xəbər verir. Eyni ilə əfsanənin Babilistan variantında da Ninnihiku-Ea allahı Utnapiştinin daxmasının divarına fəlakət olacağı haqda xəbər verir. Bir çox tədqiqatçılar bu «xəbər vermə» faktının uzun sürən zəif zəl-zələ silkələnmələrinin nəticəsi olduğunu qeyd edirlər. Nəhayət, Tövrat və Qurani-Kərimdə bu fəlakətin Allahın qəzəblənərək insanlara göndərdiyi cəza olduğu göstərilir. Qeyd edək ki, yuxarıda adı çəkilən variantların hamısında fəlakət təqribən oxşar şəkildə təsvir olunur: güclü cənub küləyi ilə müşaiyət olunan və ardı-arası kəsilmədən 40 gün 40 gecə davam edən leysan yağışları. Buradan belə nəticəyə gəlmək olur ki, əfsanənin qədim Şumer və Babilistan variantlarında, Tövratda və Qurani-Kərimdə çox qədimdə baş vermiş bir təbii fəlakət haqqında məlumat verilir. Haqqında son 200 ildə saysız-hesabsız əsərlər yazılsa da, Ümumdünya subasmasının tarixi hələ də tam dəqiqləşdirilməmişdir.

Geoloq, arxeoloq və tarixçi alimlərin ümumi rəyinə əsasən ən dəhşətli Ümumdünya subasması e.ə. XII-IX minilliklər arasında baş vermişdir. Lakin Nuhun adı ilə bağlı olan Ümumdünya subasmasının Dəclə və Fərat çayları arasında 5-6 min il bundan əvvəl olduğu da göstərilir [2, s. 19-29]. Bu dəhşətli hadisənin baş verdiyi yerdən çox-çox uzaqlarda da yayıldığını, qədim yazılı mənbələrdə və dini kitablarda da öz əksini tapdığını nəzərə alsaq, onun tarixinin, harada və hansı miqyasda baş verməsinin aydınlaşdırmağın mühüm əhəmiyyətə malik olduğunu görərik. Ehtimal ki, bəhs etdiyimiz Ümumdünya subasması bəşər tarixində yazıya alınan axırıncı ən böyük subasma hadisəsi olmuşdur. Ondan sonra baş vermiş subasmalar miqyasca kiçik olmuş və qədim dünyada geniş rezonans doğura bilməmişdir. Yunan tarixçilərinin b.e.ə. 1550-ci ildə baş verdiyini ehtimal etdikləri Prometeyin oğlu Devkalionla bağlı subasma da lokal təbii fəlakətlərdən hesab oluna bilər.

Nuhun adı ilə bağlı Ümumdünya subasmasının həqiqətən baş verdiyi geoloqlar və arxeoloqlar tərəfindən artıq elmi tədqiqatlarla sübut olunmuşdur. Lakin hadisənin baş verdiyi (Dəclə və Fərat çayları arası) ərazi ilə əfsanənin yayıldığı ərazi arasında

miqyasca olduqca böyük fərq vardır ki, bunun da obyektiv səbəbləri vardır.

1929-cu ildə, qədim Ur şəhərinin qazıntısı zamanı ingilis arxeoloqu Leonard Vulli subasmanın 3,5 m. Qalınlığında izlərini aşkar etdikdən sonra Nuhun tufanı haqqında əfsanəyə elmi ictimaiyyətin münasibəti dəyişdi. Lakin L.Vullinin aşkar etdiyi izlər çox qədim mədəni təbəqənin üzərində yerləşdiyindən, təbii olaraq, subasma hadisəsinin də tarixini qədimləşdirirdi. Sonradan qədim Şuruppak şəhəri ətrafında və Kiş şəhərinin yerində aparılan arxeoloji qazıntılar zamanı aşkar edilmiş qum qarışıq gil qatı e.ə. III minilliyin əvvəllərinə aid mədəni təbəqənin üzərində yerləşirdi. Məhz bu tarix Nuhla bağlı subasmanın tarixinə daha çox uyğun gəlirdi. Beləliklə, Nuhun Ümumdünya subasması hadisəsinin e.ə. 3100-2900-cü illər arasında baş verdiyi daha çox qəbul olunan tarixdir. Lakin, Cənubi Qafqazın bir çox eneolit abidələrində Mesopotamiya mədəniyyətinin güclü təsirinin aşkar olunması və hətta bunun etnik miqrasiya zəminində yarandığını nəzərə alaraq, bu dəhşətli hadisənin, daha da qədimdə, ən azı eneolit dövrünün sonlarında baş verdiyi ehtimalı ilə də razılaşmaq olar.

Bizi ən çox maraqlandıran Nuhun tufanı haqqında əfsanənin Naxçıvan variantıdır. Öncə qeyd edək ki, bu variant Avropa alimlərinə hələ də məlum deyil və ona öz tədqiqatlarında istinad etməmişlər və etmirlər. Buna baxmayaraq, inamla deyə bilərik ki, Naxçıvan variantının başqa variantlardan üstün cəhətləri çoxdur və bu xüsusilə qeyd olunmalıdır.

Nuhun tufanı haqqında əfsanənin Naxçıvan variantına görə, uzun sürən tufan və leysan yağışları nəticəsində hər tərəfi sel-su basır. Ancaq hündür dağların zirvəsi görünürmüş. Tufan yatandan sonra Nuhun gəmisi dayanmağa yer axtaraaxtara hündür bir dağa yaxınlaşır. Sıldırım qayalar, qar, buz dayanmağa imkan vermir. Burada çox əzab-əziyyət çəkdiyindən dağın adı həmin vaxtdan «Ağrı dağı» olaraq qalır. Gəmi Ağrı dağından şərqə tərəf üzüb, daha bir dağda dayanmaq istəyir, lakin çox əziyyət çəksə də, burada da dayana bilmir və deyir ki, «bu dağ da o dağdan Kəm deyil». O vaxtdan da dağın adı «Kəmki dağı» adlanır. Oradan Nuhun gəmisi daha hündür dağlara tərəf üzür. Bir yerdə gəminin altı suyun altında qalmış dağın zirvəsinə ilişib dayanır. Oradan çətinliklə çıxdıqdan sonra Nuh deyir: «İnan ki, dağdır». Deyilənlərə gö-

rə həmin dağ İlannı dağ olub. Hətta deyirlər ki, İlannı dağın zirvəsini Nuhun gəmisi iki yerə parcalayıb. Ona görə də el arasında İlanlı dağa həm də «Haça dağ» deyirlər.

Gəmi oradan uzaqlaşıb, hündür dağların ətəyində əlverişli bir yerdə dayanır. Bu zaman suyun səviyyəsi də artıq aşağı düşürmüş. Nuhun gəmisinin dayandığı yer Nəsirvaz kəndinin yaxınlığındakı dağ idi ki, bu dağ o vaxtdan «Gəmiqaya» adlanır. Deyirlər ki, gəminin qalıqları indi də həmin dağda qalır. Gəmiqaya indi elmdə tunc dövrünə aid qaya üstü rəsmləri ilə məşhurdur.

Gəmi dayandıqdan sonra Nuh peyğəmbər öz ailəsi ilə birlikdə Naxçıvan dağlarının ətəklərində, çay qıraqlarında kəndlər salıb yaşayırlar. İndiki Naxçıvan əhalisi də o vaxtdan burada məskən salmış Nuhun övladlarıdır. Nuh peyğəmbərin ən çox Naxçıvan çayın Arazla qovuşduğu yer xoşuna gəlir. Burada kənd salıb yaşayır. Onun qəbri də Naxçıvandadır («Nuhdaban» adlanan yerdə). Nəsirvaz kəndinin adındakı «Nəsir» sözünün əfsanənin Şumer variantındakı «Nisir» dağının adı ilə oxşarlığı da maraq doğurur.

Əfsanədən göründüyü kimi, Naxçıvanda və ona yaxın ərazidə yerləşən dörd böyük dağın adı Nuh peyğəmbərin adı ilə əlaqələndirilir. Burada əsas məntiqi nəticə adların hansı dildə səslənməsi deyil, əfsanənin xalq arasında qədimdən mövcud olması və onun real coğrafi ərazi ilə əlaqələndirilməsidir. Təsadüfi deyil ki, Ümumdünya subasması əfsanəsinin müxtəlif varıantlarında Ağrı-Ararat, Çudi, Kəmki, Nisir, İlannı (İnan ki, dağdır), Qoşa zirvəli Sumbi dağlarının adı çəkilir ki, onların da çoxu Naxçıvan bölgəsində və ona yaxın ərazılərdə yerləşir və ya lokallaşdırılır.

Əfsanənin Beross tərəfindən (Aleksandr Poliqistora istinadən) verilən variantındakı bir məlumat diqqəti cəlb edir: Quşların geri qayıtmadığını görən Ksisutr (Nuh) gəminin divarında deşik açır və görür ki, gəmi bir dağın yanında palçığa oturmuşdur. O, gəmidən düşüb həmin yerdə altar qurur və allahlara qurban kəsir. Elə həmin andan Ksisutr (Nuh) və onunla birlikdə gəmidən düşən ailə üzvləri yoxa çıxırlar. Gəmidən Ksisutr ilə düşməyənlər sonra çıxıb onu nə qədər axtarırlarsa tapa bilmirlər. Onların ucadan çağırışlarına cavab olaraq səmadan Ksisutrun (Nuhun) səsi eşidilir, deyir ki, o, arvadı və aşbazı bundan sonra allahların yanında yaşayacaqdır, gəmidən düşənlərə məsləhət görür ki, allahlara itaət

etsinlər, allahların məsləhətilə Babilə qayıdaraq Sippar şəhərində torpağa basdırılmış kitabları çıxardıb insanlara paylasınlar. Onlar bunu eşidib, quru yolu ilə Babilə qayıdırlar [9, s. 302].

Gördüyümüz kimi, İosif Flavi də Berossdan istifadə etmiş, lakin bəzi yerləri ixtisara salmışdır. Bizim üçün burada ən maraqlısı Nuhun (Ksisutrun) geri qayıtmaması, öz ailəsi ilə birlikdə gəminin dayandığı yerdə daimi məskunlaşmasıdır. Nuh tufandan sonra daha 350 il yaşamış [8, s. 43] və beləliklə, ömrünün təqribən üçdən birini Naxçıvanda keçirmişdir.

Bəzi alimlər Nuhun tufanı haqqında əfsanənin müsəlman xalqlar arasında yayılmasının yalnız Qurani-Kərimlə bağlı olduğunu göstərirlər. Bəlkə də bir çox müsəlman xalqlara bu əfsanə Qurani-Kərim vasitəsilə məlum olmuşdur. O da məlumdur ki, Qurani-Kərimin nəinki bir cümləsini, heç bir sözünü, hərfini də dəyişdirmək olmaz. Lakin yuxarıda gördüyünüz kimi əfsanənin Naxçıvan variantı Qurani-Kərimdə olan variantdan köklü surətdə fərqlənir və dəqiq lokal xüsusiyyətlərə malikdir.

Min illərlə Naxçıvanın qədim qəbilələrinin yaddaşında qorunub saxlanan bu əfsanənin nə vaxt və necə yarandığı olduqca maraqlıdır. Ümumiyyətlə, Ümumdünya subasmasının Dəclə və Fərat çayları arasında (Mesopotamiyada) baş verdiyini artıq bilirik. Onda bəs sual oluna bilər, əfsanənin Arazboyu ərazi ilə, xüsusən, Naxçıvan bölgəsi ilə nə əlaqəsi?

Əgər xəritəyə nəzər salsanız, Dəclə və Fərat çaylarının coğrafi cəhətdən Araz çayından o qədər də uzaqda olmadığını görərsiniz. Başqa sözlə, əfsanədə göstərilən təbii fəlakətin Naxçıvanla birbaşa əlaqəsi də ola bilərdi. Diqqət etsəniz əfsanənin Naxçıvan variantında təbii fəlakət «subasma» yox, «tufan» adlanır. İkincisi, burada fəlakətin səbəblərindən ətraflı bəhs olunmur, əsas diqqət Nuhun gəmi ilə bu bölgəyə gəlməsi və burada onun başına gələnlərə yetirilir.

Bizim fikrimizcə, Nuhun tufanı baş verən vaxt təkcə Mesopotamiyada deyil, qonşu regionlarda da, xüsusən dağlıq ərazilərdə güclü meteoroloji dəyişikliklər baş vermişdir. Naxçıvan ərazisində dağıdıcı küləklə (tufan) müşayiət olunan leysan yağışları yağmışdır. Buna səbəb isə fars körfəzində dənizin dibində zəlzələ ilə müşaiyət olunan vulkan püskürməsi nəticəsində çoxlu su buxarlanması və güclü küləklər olmuşdur. Ehtimal ki, güclü küləklər nəti-

cəsində Zaqros dağlarının cənubundan keçən buludlar Kiçik Qafqazın Zəngəzur və Qaradağ silsilələri rayonunda uzun sürən dəhşətli yağışlar törətmişdir. Ağlagəlməz sellər olmuşdur. Bu sellərin izlərini Naxçıvan ərazisində, Zəngəzur silsiləsinin cənub ətəklərində indi də açıq-aşkar müəyyən etmək olur. Deməli, Nuhun tufanı adlandırdığımız təbii fəlakət Naxçıvan ərazisinə də birbaşa təsir etmişdir. Qədim insanların yaddaşında silinməyən izlər buraxmış bu hadisə əfsanənin Naxçıvan variantının yaranmasına səbəb olmuşdur.

İkincisi, əfsanənin burada yayılmasının bir səbəbi də Mesopotamiyadan müəyyən qrupların Naxçıvan ərazisinə miqrasiyası da ola bilərdi. Belə ki, Mesopotamiyada (Dəclə və Fərat çayları arasında) baş verən təbii fəlakət nəticəsində dəhşətə gələn insanların bir hissəsinin oradan uzaqlaşıb, başqa yerlərdə məskən salması ehtimalı ağlabatandır. Təbii ki, dəniz tərəfdən gələn fəlakətdən qaçan insanlar dağlara pənah gətirmiş, Kiçik Asiyanın şimal-şərq hissələrinə və Cənubi Qafqaz ərazilərinə miqrasiya etmişlər [4, s. 154]. Ehtimal ki, həmin vaxt Naxçıvan ərazisinə köçüb məskən salanlar da olmuşdur. Beləliklə, Nuhun tufanı haqqında əfsanə Naxçıvanda bu yolla da yarana bilərdi.

Tunc dövründə Naxçıvan ərazisinin qədim sivilizasiya mərkəzləri ilə əlaqələri məlumdur. Azərbaycan MEA-nın müxbir üzvü V.Əliyevin ehtimalına görə, artıq tunc dövründə Naxçıvan ərazisində şəhərlər mövcud idi. Bəlkə də qədim dünyanın mədəni mərkəzlərindən uzaq olmasa da, kənarda yerləşən Naxçıvan ərazisində şəhərlərin meydana gəlməsinin səbəblərindən biri də Nuhun tufanı vaxtı Mesopotamiyadan əhalinin bir qisminin buraya miqrasiyası olmuşdur. Mesopotamiyanın mədəni təsiri Naxçıvanın İlk və Orta Tunc dövrü abidələrində, xüsusən də dəfn adətində, keramika və bəzəklərdə daha aydın izlənilir [4, s. 3; 3, s. 9, 187, 190; 6, s. 86-93].

Nuhun tufanı haqqında əfsanənin Naxçıvan variantından danışarkən bir məsələni xüsusilə qeyd etmək lazımdır. Əsrlərlə Naxçıvan türklərinin yaddaşında qorunub-saxlanmış bu əfsanə son orta əsrlərdə buraya köçürülən və köçən ermənilər arasında da yayılmış və beləliklə əfsanənin «erməni variantı» meydana çıxmışdır. Öncə qeyd edək ki, erməni variantında Naxçıvan variantının yalnız dörddən bir hissəsi öz əksini tapmışdır. Nuhun tufanı haqqında əfsanənin erməni variantında gəmi Ararat (Ağrı) dağında

dayandıqdan sonra Nuh peyğəmbər Naxçıvanı özünə yaşayış məskəni etmişdir. Naxçıvan adının da o zamandan yaranması göstərilir. Guya Nax – ilk, içevan – dayanacaq mənasındadır... Bu haqda «Yepiskop Sebeosun tarixini» tərcümə etmiş (İrəvan, 1939) Malxasyantsın qeydini olduğu kimi veririk: «...Нахчеван или Нахчаван – главный город кантона тогоже имени Васпураканской провинции на реке Аракс. Слово Нахчаван по составу означает местечко Нахча (или Нахуча, Нахича) как Ервандаван, Вагаршаван и пр. Но в XVIII в. армянские **грамотеи** его истолковали иначе: Нахичеван – первая стоянка, в связи с преданием, будто Ноев Ковчег остановился на горе Арарат и Ной, сойдя с горы, тут, на месте этого города, устроил свою первую стоянку. На основании этой наивной этимологизации с тех пор название этого города стали писать Нахичевань» [7, прим. 90].

Tərcüməsi: «Naxçevan yaxud Naxçavan Vaspurakan (ərəb mənbələrində Basfurracan adlanır – B.İ.) əyalətinin Araz çayı sahilində eyni adlı kantonunun baş şəhəridir. Naxçavan sözü tərkibinə görə «Naxça yeri» (yaxud Naxıça, Naxuça) deməkdir. Ervandavan, Vaqarşavan və s. olduğu kimi. Lakin XVIII əsrdə erməni sadlıları onu başqa cür izah edirdilər: Naxiçevan – ilk dayanacaq. Rəvayətə görə, Nuhun gəmisi Ararat (Ağrı – B.İ.) dağında dayanmış, dağdan enən Nuh bu yeri özünə ilk dayanacaq yeri etmişdir. Bu bayağı etimologiya əsasında da şəhərin adı o vaxtdan Naxiçevan kimi yazılır». Gördüyünüz kimi, şərhə ehtiyac yoxdur. Təəssüf ki, bir çox rusdilli nəşrlərdə şəhərin adı hələ də təhrif olunmuş şəkildə yazılır.

Nuhun tufanı haqqında əfsanənin erməni variantının necə yaranması haqqında İ.Sopenin də fikri maraqlıdır [Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб., 1852].

O, qədim yəhudi tarixçisi İosif Flafiyə (37-100 illər) əsaslanaraq Naxçıvan şəhərinin Nuhla bağlı olduğunu yazır. İ.Şopen eyni zamanda Nuhun qəbrinin Naxçıvanda olması faktının ilk dəfə erməni coğrafiyaşünası Vartan tərəfindən qeyd olunduğunu göstərir. O, qeyd edir ki, Naxçıvanda təkcə Nuhun deyil, onun bacısının da qəbri vardır. Lakin müəllif özü-özünə belə bir sual verir ki, qəribədir, nəyə görə Vartana qədər olan erməni müəllifləri, xüsusən də «erməni tarixinin atası» sayılan Moisey Xore-

natsi bu haqda bir kəlmə də yazmamışdır? İ.Şopenin fikrincə, Nuh əfsanəsi ermənilərə midiyalılardan keçmişdir. Guya həmin midiyalılar I Tiqran (e.ə. 565-520 illər) tərəfindən Astiaqın ölümündən sonra onun ailəsi ilə birlikdə əsir götürülən midiyalılar idilər ki, onlar da indiki Naxçıvan ərazisinə köçürülmüşlər. Naxçıvan ərazisində midiyalıların yaşadığını və ermənilərin Nuhun tufanı haqqında əfsanəni onlardan götürdüyünü ehtimal etmək olar. Yalnız həmin midiyalıların I Tiqran tərəfindən buraya köçürüldüyü inanılmazdır. Ona görə ki, Moisey Xorenatsidən başqa, heç bir tarixi mənbədə bu deportasiya haqqında məlumat yoxdur. Digər tərəfdən, XVI (Şah Abbas) və XIX (Çar Rusiyası) əsrlərdə Naxçıvan ərazisinə köçürülən ermənilər də sadəcə olaraq yerli əhalidən əfsanəni eşidib, özününküləşdirə bilərdilər. Təkcə əfsanə və eposlarımız deyil, mənəvi mədəniyyətimizin bir çox nailiyyətləri qonşularımız tərəfindən mənimsənilmişdir. Hələ də torpaqlarımızdan gözlərini çəkməyən bir sıra elmə yabançı ünsürlər Nuhun tufanı haqqında əfsanədən öz çirkli məqsədləri üçün istifadə etməyə çalışırlar. Onlar hətta xristian din xadimlərinin və dinə meyilli iş adamlarının Naxçıvana vaxtaşırı yürüşünü təşkil etməyə, Gəmiqayada Nuhun heykəlini qoymaqla buranı ibadətgah edib, onların buraya mütəmadi səfərlərini planlaşdırmağa cəhd göstərmişdilər. Yaxşı ki, milli ruhlu ziyalılarımızın, Muxtar Respublika rəhbərliyinin və müvafiq dövlət orqanlarının səyi nəticəsində bu gülünc və eyni zamanda təhlükəli plan baş tutmadı. Biz alimlərin borcu «Nuhun tufanı haqqında əfsanənin» real tarixi köklərinin olub olmamasını bir daha araşdırmaq, xalqımızın mənəvi sərvətlərinin başqaları tərəfindən mənimsənilməsinə və ya elmə yabançı adamlar tərəfindən ucuz şouya çevrilməsinə imkan verməməkdir.

ƏDƏBİYYAT

1. Müseyibli N. Böyük Kəsik. Eneolit dövrü yaşayış məskəni. Bakı, 2007.
2. Sultanov R.N. Nuhun tufanı haqqında həqiqət. Bakı, 1971.
3. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982.
4. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку: Элм, 1991.

5. Емельянов В.В. Путешествие Гильгамеша к Утнапиштиму. Эдубба вечна и постоянна. С.-Петербург, 2005.
6. Ибрагимов Б., Кашкай С., Медведская И.. Эдубба вечна и постоянна. С.-Петербург, 2005.
7. История епископа Себеоса / Пер. Ст.Малхасянца. Ереван, 1939.
8. Флавий И. Иудейские древности. Т. I, М., 2007.
9. История Древнего Востока. Тексты и документы. М.,2002. 10. Шопен И. Новые заметки о древней истории Кавказа. СПб., 1866.

YUSİF SƏFƏROV
AMEA Naxçıvan Bölməsi

NAXÇIVANDA «NUHUN TUFANI» VƏ AĞRIDAĞ ƏFSANƏLƏRİ

Azərbaycanın qədim Naxçıvan bölgəsi ilkin, arxaik və zəngin şifahi yaradıcılığı ilə Azərbaycan folklorunda özünə-məxsus yer tutur. Belə örnəklərdən biri «Nuhun tufanı» və Ağrıdağla bağlı əfsanələrdir.

«Nuhun tufanı» əfsanəsində deyilir ki, Nuh Nəbi insanların günahı üzündən dünyanın üzünü su alacağını bilirdi. Günbatandakı meşədən iri ağaclardan qırdırıb, yeddi ustanın köməyilə böyük bir gəmi düzəltdi. Öz arvad-uşağını və hər canlıdan bir cüt götürüb gəmiyə mindi. Gəmi Ağrıdağa, Naxçıvan ərazisində İlanlı dağa, Arazdan cənubdakı Kəmki, bir də Ordubadın başı üstündəki Ələngəz dağlarına toxunub keçdi. Nuh Gəmiqayada lövbər saldı. Gəminin dəydiyi dağlara ad verdi [4, s. 66-69]. Əfsanənin ikinci süjetinə görə, gəmi Ağrıdağda quruya oturub.

Əfsanənin ilk yazılı variantı m. ö. ikinci minilliyin ortalarına aid olan şumer əfsanəsidir. Həmin əfsanəyə görə, Ümumdünya daşqınından böyük bir gəmidə yalnız «əməlisaleh» Ziusudra xilas ola bilmişdir.

M.ö. ikinci minilliyin ortalarına aid Bilqamıs haqqındakı akkad dastanında deyilir ki, Utnapiştim «bütün canlıların toxumunu götürərək, Ea allahın məsləhəti ilə düzəltdiyi gəmidə daşqından xilas olmuşdur». «Atraxasis» adlı digər bir akkad dastanının parçalarında da daşqından bəhs olunur. Səbəb göstərilir ki, insanların səs-küyü hava allahı Enlinin yatmasına mane olduğuna görə o, həmin daşqını bəşəriyyətə cəza üçün göndərmişdir. «Əhdi-ətiq»dəki yəhudi əfsanəsində də Ümumdünya daşqınından danışılır. Deyilir ki, yer üzündəki böyük günahlara görə daşqın baş vermişdir. Nuh peyğəmbər və ailəsindən, yeddi cüt «təmiz», yeddi cüt «natəmiz» heyvandan və quşdan başqa mövcud olan hər bir şey məhv olmuşdur. Nuh peyğəmbər öz ailəsi və gəmiyə götürdüyü canlılarla birlikdə xilas olmuş və Naxçıvan ərazisində məskən salmışdır [1, s. 27; 10, s. 122, 124]. «Nuhun tufanı» Qurani-Kərimin 71-ci «Nuh» surəsində də əksini tapmışdır.

«Ümumdünya» daşqınının arxaik variantları Naxçıvandan toplanmış xalq əfsanəsindən çox fərqli deyil. Əksinə, süjet və məzmununa görə çox yaxındır. Coğrafi baxımdan isə bəziləri müxtəlif yerlərlə bağlıdır. Şərqdə belə süjetlərdən biri hind mifologiyasında mövcuddur [18, s. 19]. Burada Nuhun əvəzinə Manu adlı peyğəmbər çıxış edir. O, gəmisi ilə Hindistanın Himalay dağlarında tufandan xilas olur. Eləcə də Çin və Misir mifologiyasında belə süjetlər məlumdur. Bunlardan xalq əfsanəsinə daha yaxın olan yəhudi variantı ilk mənbə ola bilərmi?

Assuriyanın mərkəzi Nineva (İraq) xarabalıqlarında qazıntı zamanı mixi yazılı gil lövhəciklər aşkar edilmişdir. Bunlardan birində «Nuhun tufanı»nın məzmunu verilmişdir [13, s. 14, 15]. Bununla bağlı R.Sultanov «Nuh tufanı» haqqında həqiqət» əsərində yazır: «Maraqlıdır ki, burada Dünya tufanı və Babilistanın yaranması haqqında əfsanələr «Tövrat»da yazılanların sanki eynidir. İngilis alimi Corc Simitin tədqiqatına görə, xaldeylər bunları heç də Musadan, yəni Tövratdan götürməmişlər» [13, s. 22].

Müəllif yenə yazır: «XIV Lüdovikin həkimi İoan Astirikin və məşhur ilahiyyatçı (teoloq) De-Vettanın tədqiqatına görə, Tövratdakı «Nuhun tufanı» iki böyük mənbədən götürülmüşdür. Bunların birincisinə görə, tufan yeni eradan doqquz əsr, ikincisinə görə, altı əsr əvvəl baş vermişdir. Yeni eradan 3800 il qabaqkı Babilistan məlumatına əsaslanaraq tufanın daha əvvəllər baş verdiyini söyləyirlər». Tövratda göstərilən tufanı təbii bir hadisə kimi aydınlaşdırmağa çalışanlar da çox olmuşdur. Bunu Xaldey kahini Berozusun (yeni eradan əvvəl 320-260-cı illər) əsərindən qalmış hissələrdən, eləcə də yunanıstanlı Aleksandrın əsərlərindən də görmək olur [18, s. 21, 22]. «Assuriya tarixini öyrənən bütün alimlər belə nəticəyə gəlmişlər ki, Tövrat hekayəti xaldey çoxilahili politeist əfsanəsinin monoteist (tək allahlıq) şəklini daşıyır» [18, s. 26].

Digər tədqiqatçılar tərəfindən də qəbul edilən bu fikrə görə, Tövratda təsvir olunan yəhudi əfsanəsi ilkin mənbə olmayıb, özündən əvvəlki mənbələrdən alınmışdır. Beləliklə, tədqiqatlar sübut etmişdir ki, Tövratdakı əfsanə ilkin mənbə deyil.

Xalq əfsanəsi qeyd olunan variantlarla aşağıdakı müştərək cəhətlərə malikdir.

İnsanların günahı «Dünya tufanı» yaradıb; tufandan yalnız «əmələsaleh» əfsanə qəhrəmanları və gəmidəki canlılar xilas ola

bilib. Daha doğrusu, əfsanə variantlarından belə görünür ki, müasir insan «ikinci cəhddən yaranmışdır», bu cəhddən əvvəl Adəmlə Həvva nəslindən yaranmış insanlar isə allahın, yaxud allahların qəzəbinə düçar olmuşdur.

Bu müştərək cəhətlər əfsanənin süjet qədimliyini göstərməklə daha çox əski variantlardan faydalandığını göstərir. Aparılmış tədqiqatlar akkad dilindəki şumer əfsanəsinin qədim mənbə olduğunu təsdiq etməkdədir. Digər fikrə görə, bu əfsanə qədim hind mənbələrindən alınmışdır [18, s. 19]. Lakin birinci fikrin daha əsaslı olduğunu göstərənlər çoxdur. Belə ki, «eramızdan əvvəlki üç mininci ilə istinad edilən bir əfsanədə tufanın təsviri verilir. Burada Nuhun əvəzinə Şumer allahı çıxış edir. O da Nuh kimi gəmi düzəldir» [9, s. 83].

«Nuhun tufanı» ilə bağlı Naxçıvan sözünü «birinci dayanacaq» kimi izah edən müəlliflərə əsaslanıb şəhərin əsasının eradan əvvəl 1539-cu ildə qoyulduğunu göstərən müəlliflər vardır [21, s. 11, 41]. Maraqlıdır ki, Naxçıvanın bu inşa tarixi əfsanənin şumerlər tərəfindən yazıya alındığı dövrə yaxındır. Toponimin qədimliyi də bəzi əfsanələrin yaranması üçün qaynaq olmuşdur. Ümumiyyətlə, Naxçıvan sözü mifik əfsanələrdə «Nuhun tufanı» ilə bağlıdır. Bu sözü Nuhla bağlayan tarixi rəvayətlər də çoxdur.

Xalq əfsanəsində Nuhun ad verdiyi dağların əksəri Naxçıvandadır. Daha doğrusu, əfsanə coğrafi cəhətdən Azərbaycanın Naxçıvan regionu ilə bağlıdır. Antik yazılı mənbələrdə də oxşar təfərrüatlarla qorunmuş xalq əfsanəsi [8, s. 38] yerli zəminlə əlaqədar çoxsaylı rəvayətlər yaratmışdır. Tufan hadisəsi ilə yanaşı, bu rəvayətlərin həqiqətlə bağlılığı haqqında son illər tarixçi-etnoqraf H.Q.Qədirzadə də araşdırmalar aparmaqla maraqlı fikirlər söyləmişdir [11].

Ümumiyyətlə, tufan hadisələrinin elmi izahı ikili şəkildədir. Bəzi müəlliflər hadisənin reallığını təsdiq, bəziləri isə təkzib etmişlər. Tufan hadisəsində reallıq axtaranların fikrincə, daşqın Dəclə, Fərat çaylarının daşmasından baş vermişdir. Bu haqda biz əvvəlki illərdə qeyd etmişik ki, onda ehtimal ki, Araz çayı da daşmışdır [15, s. 33]. «Araz» sözünün şumercə «dağıdan çay» mənasında [12, s. 20] olması da bu fikrə inamı artırır.

Deyildi ki, əfsanənin birinci variantında Nuhun gəmisi Gəmiqayada dayanmışdır. Deyilənə görə, gəminin qalıqları Gəmiqa-

yadakı «Ayı çuxuru» deyilən yerdə qalırmış [15, s. 33]. Naxçıvanda Nuhun qəbri və türbəsi etiqad yeri kimi tanınır. Burda Nuhdaban adlı yer də var.

Əfsanədən və qeyd olunan məlumatlardan göründüyü kimi, Naxçıvan şəhərinin, onun bəzi kəndlərinin, hətta regionda bir çox dağların, qayaların adları Nuhla əlaqələndirilir. Məsələn, əfsanəyə görə, Sirab (Babək rayonu) kəndi qarşısındakı Şişdağın, Nurs (Şahbuz rayonu) kəndi yaxınlığındakı Toxluqayanın, eləcə də Əlincədağın adlarını Nuh vermişdi.

Əfsanədə ilanın mənfi verilməsi onun totemliyinin inkarı ilə bağlıdır. Şərtə görə, Nuh dünyada ən şirin neməti ilana verməliydi. Bunun insan əti olduğunu öyrənən qaranquş Nuha yalandan torpağın şirin olduğunu söyləyir. O vaxtdan qaranquş xeyir xəbər müjdəçisi olur, ilan isə mənfiləşir. Xaldey əfsanəsində buna oxşar bir məlumat vardır. «Gəmi Nizir dağı ətrafına çatıb, orada dayanır. Yeddi gün dalğalarda yırğalanandan sonra Sitnapistama bir göyərçin buraxır. Lakin göyərçin uça bilməyib geri qayıdır. Sonra o, bir qaranquş buraxır. Nəhayət, buraxılan qarğa görür ki, su azalır, qırıldayıb gəmiyə yaxınlaşır, sonra uçub gedir və bir daha qayıtmır» [18, s. 26]. «Nuhun tufanı» əfsanəsində bu xəbəri qarğa yox, deyildiyi kimi, qaranquş gətirir. Nuh peyğəmbər xeyir xəbər gətirməyən qarğanı qarğıyır, onun əvvəlki ağ rəngi dəyişib, qara rəng alır. Bundan sonra mifik görüşlərdəki müsbət səciyyəsini itirən qarğa bədxahlıq əlaməti kimi düşünülür. Nəzərdən keçirilən motivlər arasında bənzərlik vardır. Maraqlıdır ki, Xaldey əfsanəsindən fərqli olaraq xalq əfsanəsindəki heyvanlar insanlar kimi danışırlar. «... Heyvanlar vasitəsilə ifadə edilən bu rəmzin tarixi qədim əfsanələrlə, totemizm etiqadları ilə bağlıdır» [14, s. 32]. Bundan başqa, «Nuhun tufanı»ndakı bəzi motiv və epizodlar, ondakı ilan, qaranquş və arının insan kimi rəmzi danışığı türk şifahi yaradıcılığının ilkin xüsusiyyətlərindən biridir.

«Bilqamıs» dastanında vəhşi Enkidu əhliləşdirildiyi kimi, xalq əfsanəsində də Nuh yarıvəhşi Ac pəhləvanı zəhmətə alışdırır. Onun qüvvəsilə meşədən nəhəng ağaclardan kəsdirib 7 mahir ustanın əli ilə gəmi düzəltdirir. Başqa bir əfsanəyə görə, Nuh çağırdığı üç ustaya deyir ki, gəmini düzəldin, qızlarımı verim sizə. Nuhun bir qızı vardı. Gəmi hazır olduqda onun eşşəyi və iti dönüb qız olur. Nuh ustanın hərəsinə birini verir. Vaxt keçir, Nuh qızla-

rın xasiyyətini onlardan soruşanda biri deyir ki, yaxşıdır. Nuh başa düşür ki, bu onun öz qızıdı. İkinci deyir, çox ağırdı. Üçüncü deyir ki, söz deyəndə çəmkirir. Nuh bilir ki, bunun biri eşşək, biri də itdir [6, s. 68, 69].

Gəminin düzəldilməsi barədə qədim variantda deyilir: «Sitnapistama möhkəm və düz ağaclardan, qamışlardan böyük gəmi düzəldir, onu bayır və içəri tərəfdən qatranla suvayır» [18, s. 25]. Sonuncu əfsanədə qızlarla bağlı epizodu nəzərə almasaq, əfsanə variantlarında gəminin düzəldilməsi təfərrüatı qədim varianta oxşardır. Bu xalq əfsanəsinin bu variantdan da qaynaqlandığını göstərir.

Deyildi ki, əfsanəyə görə, Nuhun gəmisi Ağrıdağa, sonra da bir neçə dağa toxunduqdan sonra Gəmiqayada dayanır.

Deyək ki, türk əsatirinə görə günbatan qaranlıq, günçıxan isə işıqlı dünyadır. Məsələn, «Tapdıq» nağılında bu ikilik təsvir olunmuşdur [3, s. 11]. İşıq və qaranlıq. Şər qüvvələrin əsas məskəni günbatandakı Qafdağı, yaxud qaranlıq dünyadır. Əfsanəyə görə, Nuh Nəbi də günbatandan, yəni Naxçıvanın qərbindən şərqə doğru hərəkət etmişdi. Naxçıvanın şərqində, günçıxanda quruya çıxmışdı. Nuhun günbatandan, yəni qaranlıqdan, günçıxana-işığa doğru hərəkəti əsatiri baxımdan səciyyəvidir. Əsatirə görə, işıq qaranlıqdan doğur. Bu mifik yaranış qədim kosmoqonik görüşlərlə səsləşir. Əsatirə görə, Oğuz da ana tərəfdən işıqla əlaqədardır. Onun anası Ay Qağandır. Oğuzun arvadları, uşaqları da işıqla bağlıdır [19, s. 10, 11].

Təbii ki, «Nuhun tufanı» ilə «Dədə Qorqud» boyları arasında oxşarlıqlar vardır. Axtarsaq, görərik ki, hər iki folklor örnəyində bəzi epizod və obrazlar oxşar, yaxud eynimənşəlidir. Bunu «Xilaskar qurd» əfsanəsi də göstərir. Əfsanəyə görə, Nuhun oğlu Türk qoyunla qoçu götürüb, gəmidən torpağa düşəndə görür ki, bura hər tərəfi su ilə örtülü bir cəzirədir. Onu burdan Boz qurd xilas edir [7, s. 29, 30]. «Qorqudun anası» əfsanəsində isə Türk yenidən cəzirəyə qayıdır və bir qızla – dəniz pərisi ilə görüşür. Qızdan Qorqud ata dünyaya gəlir [7, s. 32].

Qeyd olunan son iki əfsanəyə görə, Qorqud ata Türkün oğlu, Nuhun isə nəvəsidir. Yəni əsatirə görə, Qorqudun soykökü Nuha bağlıdır.

Əfsanə ilə bağlı qeyd etməliyik ki, «Ağrı» sözünün nə zamansa müstəqil bir dağdan başqa geniş əraziyə, eləcə də Dəclə çayının şimal sahələrinə aid edildiyi də iddia olunur» [17, s. 115]. Burada həqiqətə uyğunluq ola bilər. Çünki əfsanənin əski variantlarında adı çəkilən Nizir, Cudi, Ağrı və digər dağlar bu ərazi hüdudlarındadır. Tarixən də bu yerlər yerli türk tayfalarının yaşadığı ərazilər sırasındadır. Dəclə çayının şimalı, İraqın türkmənlər yaşayan hissəsi dəfələrlə Azərbaycanla bir dövlətin tərkibində olub. Nəticədə tufan əfsanəsi bu ərazidə yaşayan soydaşlarımızın da yaddaşında qorunmuşdur. «Ağrı» sözünün mənşəyi isə türk soylarından biri ilə bağlıdır.

Müasir türk folklorunda Ağrı sözünün «yüksək» mənası verən aqrı, yaxud ağrı sözündən yarandığı haqqında fikir var [2, s. 20]. Biz «Ağrı» sözünün Arqu türk tayfa adı ilə bağlı olduğunu demişik. Ehtimal ki, nə vaxtsa Arqu adlı türk tayfası Ağrıdağ və Naxçıvan regionlarında da yaşamışdır. İndi də Ağrıdağa yaxın yaşayış yerindən birinin adı Ağrıdır. Naxçıvanın Ordubad bölgəsində Ağrı adlı kənd və dağ mövcuddur. Bunlar Ağrıdağ sözünün Arqu tayfa adından yarandığı ehtimalını artırır.

Naxçıvan regionunda Ağrıdağ əfsanələri az deyil. Bu əfsanələrin çoxu «Nuhun tufanı» ilə bağlıdır. Bəzilərində Ağrıdağ adını Nuh peyğəmbər verib. Başqa bir əfsanədə Nuh Ağrıdağda məskən salıb. Yer üzündə ondan başqa sağ qalan olmadığından allahtaala Nuha bir qadın göndərib. Yenidən insan nəsli yaranıb. Elə əfsanələr də var ki, orda Ağrı dağları canlı verilir. Böyük Ağrı ana, kiçik Ağrı onun övladı kimi təsvir olunur [3, s. 243, 244]. Başqa bir əfsanədə Ağrı və Qarnıyarıq dağları iki qardaşdı. Kiçik qardaş Qarnıyarıq böyük qardaş Ağrının düşmənləri ilə vuruşub, onları məğlub edir. Geri dönəndə böyük qardaşın onun sevgilisini qaçırdığını eşidir, qeyzindən sinəsi yarılıb, dağa çevrilir, nəticədə Qarnıyarıq dağı yaranır. Bu xəbərdən başı ağrıyan böyük qardaş da dağa çevrilir, adına Ağrıdağ deyilir [20, s. 7-9]. Digər əfsanələrə görə, Ağrı dağları iki bacı [5, s. 45] və Haçadağla qonşu imiş [7, s. 13].

«Ana Ağrıdağ, Bala Ağrıdağ» əfsanəsinə görə, xan qızını sevən çobanı öldürmək üçün onun arxasınca adam saldırır. Çoban gah Ana Ağrıdağa, gah da Bala Ağrıdağa pənah aparır. Dağların başı şöhrət davasına qarışdığından çobanın harayına yetişmirlər. Bunu görən çoban allaha yalvarıb, sürüsü ilə daşa dönür [20, s. 9,

10]. «Daşa dönmə» motivinin epik təsvirinə digər əfsanələrdə də rast gəlmək mümkündür. Bu, Azərbaycan əfsanələrinin çoxu üçün səciyyəvidir. Bu barədə demək istəyirik ki, nəzərdən keçirilən əfsanələrin çoxunda animist görüşlərin nəticəsində dağlar canlı insan kimi təsvir olunur, xatırlanan mifik səbəblərə görə sonra dağa, daşa çevrilirlər.

Azərbaycan folklorunda insanın vədə əməl etmədikdə tanrı, yaxud kultlar tərəfindən cəzalandırılması da səciyyəvi haldır. Məsələn, əfsanəyə görə, Ağrıdağdan keçən karvanı susuzluq yaxalayanda sarban ilahidən su diləyir, dəvələrdən birini qurban kəsəcəyini vəd edir. Ağrının başında bir göl yaranır, dəvələr içir. Sarban vədə əməl etmədiyindən dəvələrilə daşa çevrilir [3, s. 244]. İkinci bir əfsanədə Ağrıdağda çoban vədi pozduğundan sürüsü ilə daşa dönür. Lakin bir qrup əfsanə var ki, orda insanlar zülm və əsarətdən qurtulmaq üçün tanrıya yalvarıb daşa çevrilirlər. Yəni insanlar çətin anlarda "qurtuluş" yolunu tanrının ixtiyarında görürlər. Əfsanələrdə belə epizodlar əksər halda konkret yerlə – dağla, daşla, qaya ilə bağlı olur. Folklor örnəkləri türk soylarının dağa, daşa sitayiş etdiyini göstərir [16, s. 82, 83].

Başqa əfsanəyə görə, dünyadakı ləlcəvahirin çoxu Ağrıdağın altındakı mağarada yaşayan divlərin ixtiyarındadır. Ləl-cəvahirə sahib olmaq istəyən bir dəstə pəhləvan nurani qocanın məsləhətilə atların qulunlarını mağaranın ağzında saxlayıb, özlərini içəri sürürlər. Onlar əcayib səslər eşidəndə atları geri döndərib, əllərinə nə keçdi götürürlər. Atlar qulunlarının havasına quş kimi uçaraq onlara çatanda kişnəyib qarışır bir-birilərinə. Arxadan gələn divlər qorxub geri dönürlər. Pəhləvanlar baxır ki, götürdükləri qızıldı. Götürən peşman olur ki, gərək çox götürərdi. Götürməyən də peşman olur ki, niyə götürməyib [7, s. 106, 107].

Qısa məzmunu verilən əfsanələrdə əsatiri motivlərlə yanaşı, əsatiri obrazlar da diqqəti çəkir. Bunlardan biri nurani qoca, digəri div surətləridir. Nurani qoca Azərbaycan nağıl və dastanlarında olduğu kimi, əfsanələrdə də görünən obrazdır. Ağrıdağla bağlı əfsanədə bu əfsanəvi obrazın adı çəkilmir. O, pəhləvanlara yol göstərir, məsləhət verir, hər şey onun dediyi kimi olur. Burada nurani qoca qeyri-adi insandır, müqəddəsdir. Bəzi nağıl və dastanlarda, eləcə də əfsanələrdəki nurani qoca – Xıdır, yaxud Xıdır İlyasdır.

Əfsanədəki div surəti daha çox nağıllara xasdır. Araşdırma göstərir ki, div arxaik əfsanələrdə də təsadüf olunan mifik surətlərdən biridir. Əfsanənin qədimliyini göstərən digər əlamət buradakı Dağ kultunun əlamətidir. Bəzi əfsanələrdə Ağrı dağlarının canlı düşünülməsi, dediklərinin çin olması onun kultluq səciyyəsilə bağlıdır.

Tədqiqat göstərir ki, «Nuhun tufanı» və Ağrıdağ əfsanələrinin çoxu süjet, motiv və obrazları baxımından bir-birilə bağlı örnəklərdir. Bu örnəklər Naxçıvana məxsusluğu, bağlılığı səciyyələndirən nümunələrdir. Bunlarda Azərbaycan folklorunun ilkinliyi, arxaikliyi ilə yanaşı, türk soylarının milli, bədii özünəməxsusluğu yaşamaqdadır.

ƏDƏBİYYAT

1. Axundov A. Naşəva, yoxsa Naxçıvan // Elm və həyat, 1979, № 10, s. 27, 28.
2. Alpaslan İ. Ağrı. Ankara, 1995, 310 s.
3. Azərbaycan folkloru antologiyası: 2 cilddə, II c., Bakı: Azərbaycan SSR EA nəşr., 1968, 259 s.
4. Azərbaycan folkloru antologiyası. I c.: Naxçıvan folkloru, Bakı: Sabah, 1994, 388 s.
5. Azərbaycan xalq əfsanələri. Bakı: Yazıçı, 1985, 286 s.
6. El çələngi. Bakı: Gənclik, 1983, 388 s.
7. Əfsanələr. Bakı: Gənclik, 1986, 176 s.
8. Fərzəliyev T. «Əfsanə» anlayışı və Azərbaycan əfsanələrinin təsnifinə dair // Azərbaycan SSR EA Xəbərləri. Ədəbiyyat, dil və incəsənət seriyası, 1978, № 1, s. 32-41.
9. Kim nə vaxt, nə üçün? Bakı: Azərbaycan Uşaq və Gənclər ədəbiyyatı nəşr., 1962, 292 s.
10. Kondratov A. Sirdən biliyə doğru. Bakı: Gənclik, 1975, 213 s.
11. Qədirzadə H.Q. Nuh peyğəmbər, Dünya tufanı və Naxçıvan. Naxçıvan: Qızıl Dağ MMC-nin mətb., 2008, 192 s.
12. Nəbiyev N. Coğrafi adlar. Bakı: Azərnəşr, 1982, 282 s.
13. Nicat Ə. Tarixin sübh cağı. Bakı: Gənclik, 1982, 120 s.
14. Seyidov N. Azərbaycan nağıllarının bədii xüsusiyyətlərinə dair bəzi qeydlər / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. II c., Bakı: Azərbaycan SSR EA nəşr., 1966, s. 30-51.

15. Səfərov Y. Bir əfsanənin mənşəyi // Elm və həyat, 1982, № 10, s. 32, 33.
16. Səfərov Y. Azərbaycan folklorunda tarixilik. Bakı: Elm, 2005, 240 s.
17. Səfərov Y. «Nuhun tufanı» haqqında / Elmi axtarışlar. XVIII toplu, Bakı: Səda, 2006, s. 112-115.
18. Sultanov R. «Nuhun tufanı» haqqında həqiqət. Bakı: Elm, 1971, 41 s.
19. Təhmasib M.H. Bir tarixi həqiqətin eposdakı izləri / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. VI c., Bakı: Elm, 1981, s. 20-25.
20. Yanardağ əfsanələri. Bakı: Gənclik, 1978, 159 s.
21. Ямпольский З. О значении слова ван в имени Нахичевань (к анализу имени Нахичевань) // Известия Академии наук Азербайджанской ССР. Серия общественных наук, 1961, № 1, с. 13-19.

VƏLİ BAXŞƏLİYEV
AMEA Naxçıvan Bölməsi

NUHLA BAĞLI ƏFSANƏLƏR VƏ HƏQİQƏTLƏR

Nuh tufanı ilə bağlı əfsanələr, istər qədim dövrdə, istər Orta əsrlərdə, istərsə də müasir dövrdə xalq arasında geniş yayılmış əfsanələrdən biridir. AMEA Naxçıvan Bölməsi əməkdaşlarının müxtəlif illərdə Naxçıvan MR ərazisində təşkil etdiyi ekspedisiyalar burada Nuhla bağlı əfsanənin müxtəlif variantlarının yayıldığını göstərir. Nuhla bağlı əfsanələri və abidələri daha geniş tədqiq etmək məqsədi ilə adı Nuhun gəmisi ilə bağlı olan Gəmiqaya abidəsinə 2001 və 2005-ci illərdə Naxçıvan MR Ali Məclisinin təşəbbüsü ilə beynəlxalq ekspedisiya təşkil edilmişdir. Ekspedisiyalar kompleks tədqiqat aparmış, istər Gəmiqaya abidəsi, istərsə də onun ətrafında yerləşən abidələr haqqında yeni elmi dəlillər əldə etmiş, Naxçıvanın etnoqrafiyası, folkloru, onomastikasına aid materiallar toplamışdır. Gəmiqaya abidəsində beynəlxalq konfrans da keçirilmişdir. Ekspedisiyaların, seminar və konfransların keçirilməsində məqsəd Nuhu erməniləşdirməyə çalışan bədxah erməni cızma-qaraçılarının və onların havadarlarının əsassız iddialarını rədd etmək və bu əfsanə ilə bağlı hadisələrə aydınlıq gətirməkdən ibarət olmuşdur. Bu barədə nə qədər yazılsa, müəyyən problemlər həll edilməmiş qalır. Çünki bir qrup tədqiqatçı və həvəskar adamlar mənbələrdə xatırlanan Nuh əfsanəsini bir kənara qoyub, Nuh peyğəmbər (ə.s.) və onun gəmisi haqqında inanılmaz uydurmalar söyləmişlər. Nuh əfsanəsi ilə bağlı hadisələri araşdıran tədqiqatçılar iki qrupa ayrılır. Onların bir qismi məsələyə elmi-materialist konteksdən, digərləri isə dini konteksdən yanaşırlar. İndi heç kəsə sirr deyil ki, monoteist dinlər Nuh tufanı əfsanəsindən oz dini konsepsiyalarını əsaslandırmaq üçün, həm də xeyirxah məqsədlə istifadə etmişlər. Əfsanəyə görə, insanlar bəd əməllərlə məşğul olduğu üçün Tanrının hökmü ilə dünyanın üzünü su alır. Hər şey məhv olur. Yalnız Nuhun gəmisinə sığınan insanlar xilas olur və tufandan sonra yer üzünə çıxaraq insan nəslini davam etdirirlər. Dini inanclara görə, bundan sonra Yer üzündə ikinci sivilizasiya başlayır, Nuh peyğəmbər (ə.s.) isə bəşəriyyətin ikinci atası hesab edilir. Monoteist dinlərin əsas məqsədi insanları bəd əməllərdən

çəkindirmək, zülm etməməyə çağırmaq idi. Dini konsepsiyaya görə, Nuh peyğəmbər (ə.s.) bəşəriyyətin ikinci atası sayıldığından onu konkret olaraq hansısa bir xalqa aid etmək doğru deyil. Amma hər şeyi öz adlarına çıxmağa çalışan ermənilər Nuh peyğəmbəri (ə.s.) ermənileşdirmək fikrindən də vaz keçmirlər.

Elmi araşdırmalar sübut edir ki, bəşər cəmiyyəti yarandıqdan sonra Yer üzünün tamamilə su altında qalması kimi bir hadisə olmamışdır. Subasma lokal xarakter daşımışdır. Əfsanə e.ə. IV minillikdə Mesopotamiyada baş verən real hadisə əsasında yaranmış və xeyli şişirdilmişdir. Qədim dövrdə və hazırda elmi ədəbiyyatda Şumer əfsanələri kimi tanınan, gil lövhələr üzərində mixi xətlə yazılan bu əfsanələr şumerlərin və mixi yazıların tarix səhnəsindən çıxması ilə unudulmuş, əfsanənin yəhudi variantı isə monoteist dinlər vasitəsi ilə yayılmışdır. Bu yazıda bizim məqsədimiz heç də tufanın olub-olmadığını əsaslandırmaq deyil. Bu barədə elmi ədəbiyyatda əsaslandırılmış fikirlər vardır.

Məsələ burasındadır ki, yuxarıda qeyd etdiyimiz kimi, Naxçıvanda Nuh əfsanəsinin olduqca müxtəlif variantları yayılmış və mənəvi mədəniyyətimizin tərkib hissəsinə çevrilmişdir. Əfsanəni bir variantında Nuhun gəmisinin Naxçıvandan Ağrı dağına doğru, digər variantında Ağrıdan Naxçıvana, Gəmiqayaya doğru hərəkət etməsi haqqında məlumat verilir. Belə hesab edirik ki, əfsanələrin bu variantlarında Azərbaycanın, o cümlədən Naxçıvanın qədim Şərq, o cümlədən Mesopotamiya ilə qarşılıqlı mədəni əlaqələri poetik şəkildə öz əksini tapmışdır. Arxeoloji araşdırmalar Azərbaycanda, o cümlədən Naxçıvanda məskunlaşan qədim tayfaların Mesopotamiya ölkələri ilə sıx iqtisadimədəni əlaqə saxladığını təsdiq edir. Əfsanənin bəzi variantlarında Nuhun və onun törəmələrinin tufandan sonra Naxçıvanda yaşaması haqqında məlumat verilmişdir. Rəvayətə görə, Nuh peyğəmbər (ə.s.) Naxçıvanda vəfat etmiş və orada dəfn edilmişdir. Buna əsaslanan bir qrup tədqiqatçı Naxçıvanda Nuhun qəbrini axtarmağa başlamışlar. Qeyd edək ki, Nuhun qəbrinin axtarılması yeni məsələ deyil. Aparılan araşdırmalar göstərir ki, onun tarixi bir neçə yüz il bundan əvvələ gedib çıxır. Nuhun qəbrinin Naxçıvanda olması haqqında İ.Şopen, Dyubua de Monpere, K.A.Nikitin, V.M.Sısoyev və digər tədqiqatçılar məlumat vermişlər. Onlar «Nuhun qəbri» adlı yerin fotoşəkilini də çap etdirmişlər. Bu mənbələrin məlumatları

tədqiqatçılar arasında onun axtarılıb tapılması fikrinini doğurmuşdur. Bu məqsədlə Naxçıvan MR Ali Məclisininin tapşırığı ilə xüsusi ekspedisiya təşkil edilmişdir. «Nuhun qəbri» haqqındakı mifin həqiqətə nə qədər uyğun olubolmadığını, habelə məhşur rəssam B.Kəngərlinin rəsm əsərlərinin bu əfsanələri nə dərəcədə reallıqla əks etdirdiyini aydınlaşdırmaq məqsədilə ekspedisiya da təşkil edilmişdir. V.M.Sısoyevin əsərində «Nuhun qəbri» haqqında ziddiyyətli məlumatlar verilsə də, o bir yerdə sərdabənin tərəfləri 2,5 m olan şəkkizgüşəli prizma şəklində olduğunu qeyd etmişdir. Azərbaycanın ilk professional rəssamı B.Kəngərlinin çəkdiyi rəsm əsərlərində də «Nuhun qəbri» çoxbucaqlı sərdabə tipində təsvir edilmişdir. Məsələ burasındadır ki, bu məlumatların verilməsindən xeyli vaxt keçdiyindən və Nuhun qəbri yer üzündən silindiyindən, həm də ziyarət edilmədiyindən tamamilə unudulmuş, onun yeri yaddan çıxarılmışdı. Odur ki, onun yerinin müəyyən edilməsi olduqca çətinlik törətdi. Yaşlı nəslin nümayəndəsi Lətif Hüseynzadə qəbrin yerini təqribi olaraq nişan vermiş, AMEA Naxçıvan Bölməsinin əməkdaşı Nizami Alıyevin hesablamaları isə sərdabənin yerini dəqiqləşdirməyə imkan vermişdir. Sərdabənin yeri müəyyən olunanda müəyyən oldu ki, Naxçıvanda heç də hamı «Nuhun qəbri»ndən xəbərsiz deyilmiş. Çünki onun üzəri buldozerlə kürənmiş və qanunsuz qazıntılarla dəlik-deşik edilmişdi. Burada hər hansı bir tikinti tapmaq dəryada balıq sövdası kimi bir şey idi. Bununla belə, «Nuhun qəbri» adlanan yerdə tədqiqat başlandı. Bir aya qədər davam edən tədqiqat zamanı bəzi ip ucları ələ keçirildi. Məlum oldu ki, sərdabə nəinki dağıdılmış, hətta altı üstünə çevrilmişdir. Qazıntılar zamanı aşkar olunan faktların mənbələrin verdiyi məlumatlarla müqayisə edilməsi, bizcə, məqsədəuyğun olardı. K.A.Nikitinin verdiyi məlumatda qeyd edilir ki, Nuh sərdabəsinin müasir görkəmi VIII əsrdə farslar tərəfindən bərpa edilmişdir. Göründüyü kimi, K.Nikitinin bu məlumatı o qədər də səhih deyildir. Çünki VIII əsrdə sərdabə Ərəb xilafətinin nümayəndələri tərəfindən bərpa edilə bilərdi. V.M.Sısoyev qeyd etmişdir ki, səkkizgüşəli türbədən heç nə qalmamış, onun bünövrəsinin yerində isə 1 m dərinliyində xəndək qazılmışdır.


Sısoyev həmçinin türbənin mərkəzində diametri 2 m-ə çatan səkkizgüşəli sütunun olduğunu qeyd etmişdir. Qazıntılar zamanı belə bir sütuna rastlanmadı, lakin tədqiqata başladığımız ilk an-

dan tez-tez rastlanan tikinti keramikasının nümunələri burada nəvaxtsa Orta əsrlərə aid türbənin var olduğundan xəbər verirdi. Qazıntı müəyyən dərinliyə çatdıqda əhəng məhlulu ilə bir-birinə birləşdirilmiş bişmiş kərpiclərdən ibarət bloklara rastlandı. Onların üzərində həmçinin bir yerdə əhəng məhlulu üzərinə basma üsulu ilə vurulmuş, ərəbcə «allah» kəlməsinə rastlandı. Başqa bir blokun üzərində kufi xətlə yazılmış kitabənin bir neçə hərfi saxlanmışdı. Tikinti qalıqları burada XIII-XIV əsrlərə aid, Naxçıvan memarlıq məktəbinə xas üslubda tikilmiş türbənin olduğunu təsdiq edirdi. Bəs necə olmuş ki, belə bir möhtəşəm abidə tamamilə dağıdılmış, ondan əsər-əlamət qalmamışdır.

XIX əsrin mənbələrinə baxdıqda «Nuhun qəbri»nin kilsə kimi qələmə verilməsi ilə rastlaşırıq. Məsələn, V.Qriroryev qeyd edir ki, ermənilər bizə burada ikimərtəbəli kilsənin olması haqqında məlumat verdilər. Lakin biz burada çox da qədim olmayan kərpic tikintinin qalıqlarına rastladıq. K.A.Nikitin də «Nuhun qəbri»nin yerində əvvəlcə kilsə olduğunu qeyd etmişdir. V.M.Sısoyev də burada vaxtilə kilsə olduğunu qeyd etmişdir. Lakin qeyd etmək istəyirik ki, bu məlumatların heç bir əsası olmamışdır. Sısoyevin Köhnəqalanın Böyükqala hissəsini erməni qalası kimi qələmə vermək cəhdi də diqqətdən yayınmır. Halbuki bu həm Kiçik, həm də Böyük qalanın birlikdə Orta əsr Naxçıvan şəhərinin qalıqları olduğu, «Nəqşicahan» adı ilə bütün dünyada məhşur olduğu Orta əsr mənbələrinin çoxsaylı məlumatları ilə təsdiq edilir. Hər şeydən əvvəl qeyd edək ki, müəlliflərin təsvir etdikləri əlamətlər yeraltı və yerüstü hissələrdən ibarət olan türk türbələri üçün xarakterikdir. Heç bir kilsə ikimərtəbəli olmamışdır. Türbənin dağılması da, yəqin ki, onun yerində kilsə görmək istəyənlərin əməli olmuşdur. Türbənin ətrafında Orta əsrlərə aid müsəlman qəbiristanlığı da olmuşdur. Tarixi rəsmlərdə bu qəbiristanlığın varlığı aydın şəkildə əks olunmuşdur. Bu qəbirlərin qalıntıları indi də qalmaqdadır. Amma nədənsə olmayan kilsə haqqında dəfələrlə söz edən Nikitin, Sısoyev kimi tədqiqatçılar burada müsəlman qəbiristanlığına aid qəbir daşları haqqında məlumat verməmişlər. Görünür, bu onların Nuhu xristianlaşdırmaq istəyi ilə bağlı olmuşdur.

Bir xüsusa da diqqəti çəkmək istərdik ki, Naxçıvanın türk əhalisi müqəddəs yerləri bəzən «vəng» adlandırmışdır. Sısoyev vəng sözünün ermənicə kilsə mənasında olduğunu qeyd edir.

Lakin qeyd etmək istəyirik ki, kilsə olmayan müqəddəs yerlərin vəng adlandırılması bu fikri inkar edir. İlk variantı «beng», «benq» olan bu sözün türkcə olduğu tədqiqatçılar tərəfindən əsaslandırılmışdır. Məlum olduğu kimi, qədim türklər görkəmli şəxsiyyətlərin şərəfinə qoyulmuş abidələri bəngüdaş adlandırmışlar. Şübhəsiz ki, bu sözün işlədilməsi Naxçıvanın qədim türk əhalisinə məxsus olmuş və onlardan digər xalqlara keçmişdir.



Türbənin tikintisində istifadə edilən kərpic bloklar

Arxeoloji araşdırmalar zamanı buradan xeyli miqdarda heyvan sümüklərinin və gil qab parçalarının aşkar olunması «Nuhun qəbri» adlanan yerin ziyarətgah kimi istifadə olunduğunu göstərir. Bunu Naxçıvan şəhərindən toplanan etnoqrafik məlumatlar və mənbələrin məlumatları da təsdiq edir. Dyubua de Monperenin verdiyi məlumata görə, müxtəlif millətlərdən olan insanlar, o cümlədən ruslar, yəhudilər bura gələrək bəşəriyyətin atasını ziyarət edir, müəyyən mərasimlər keçirirmişlər. Belə mərasimlər azərbaycanlılar tərəfindən də keçirilmişdir.

Tədqiqat zamanı B.Kəngərlinin təsvir etdiyi türbənin yalnız acınacaqlı vəziyyətdə saxlanmış qalıqları aşkar edildi. Türbənin yalnız girişi və divarlarının bəzi qisimləri salamat qalmışdı. Geniş dəhliz şəklində olan giriş bişmiş kərpicdən hörülmüş, döşəməsinə isə yenə də bişmiş kərpic döşənmişdir. Türbənin səkkizguşəli bünövrəsinin qalıqları 20 sm hündürlükdə salamat qalmışdı. Türbənin dəhlizi və divarları kvadrat formalı bişmiş kərpiclərdən tikilmişdi. Kərpiclərin ölçüləri 20x20x5 sm, 18x18x5 sm-dir. Divarları 75 sm qalınlığında olub, gəclə suvanmışdır. Türbənin üzlərini təşkil edən divarların içəri üzündə trapesiya biçimli xüsusi arxitektura bəzəyinə rastlanmışdır. Türbənin divarlarının (tərəflərinin) uzun-

luğu Sısoyevin qeyd etdiyi kimi, 2,5 m deyil, 2,3 m idi. Təqiqat zamanı türbənin bir-birinin qarşısında yerləşdirilən iki girişinin olduğu müəyyən edilmişdir. İkinci girişin tikintisində istifadə edilən XIX əsrə aid kərpiclər bu girişin sonradan açıldığını təsdiq edir. Bəzi qisimlərdə, həm də müxtəlif səviyyələrdə gəc və bişmiş kərpicdən olan döşəmə qalıqlarına rastlanması türbənin döşəməsinin dəfələrlə bərba edildiyini göstərir. B.Kəngərlinin çəkdiyi rəsmlər isə türbənin özünün dəfələrlə bərpa edildiyini təsdiq edir. Qazıntı zamanı aşkar olunan, bişmiş kərpicdən inşa edilən tikinti qalıqları XIX əsrin sonuXX əsrin əvvəllərinə aid edilə bilər. Belə hesab edirik ki, bəşəriyyətin ikinci atası sayılan Nuh peyğəmbərin (ə.s.) Azərbaycanın, o cümlədən Naxçıvanın türk əhalisi içərisində populyarlığı, türk soylarının Nuh peyğəmbərlə (ə.s.) bağlı olması haqqındakı əfsanələr, habelə bəzi Orta əsr müəlliflərinin bu əfsanələri öz əsərlərinə salaraq tarixiləşdirməsi Nuh peyğəmbərə (ə.s.) müəyyən sayğı göstərilməsinə, onun şərəfinə türbə inşa edilməsinə səbəb olmuşdur. Şübhəsiz ki, bu hadisələrdə türk xalqlarının bir qisminin müəyyən müddət iudaizmə sitayiş etməsinin də müəyyən rolu olmuşdur. Bizcə, «Nuhun qəbri» ifadəsi istər Orta əsrlərdə, istərsə də Yeni dövrdə simvolik bir anlam daşımışdır. «Nuhun qəbri»nin Naxçıvanda olması bu ərazilərin əzəldən türk xalqlarına aid olduğunu təsdiq edən faktlardan biridir. Çünki Nuh əfsanəsinin kökündə qədim türk əfsanələri – Şumer əfsanələri dayanır. Bu əfsanələrin Cənubi Qafqazda geniş yayılması da türk xalqları ilə bağlıdır.

FİRUDİN RZAYEV
AMEA Naxçıvan Bölməsi

NUH TUFANI, NAXÇIVAN VƏ TARİXİ HƏQİQƏTLƏR

Tarixdə mifləşmiş «Dünya daşqını»«Nuh tufanı» Yəhudi, Yunan, Hind, Efiopiya, Skandinav, Etrusk, Şumerakkad, eləcə də hazırkı türklərin tarixi və mifik dastanlarında oxşar süjetlərlə təkrarlanmışdır [59, s. 224-227]. Bu yazılarda Tanrı insanlara qəzəblənir, **kimə isə gəmi qayırmaq tapşırır**, dünya suya qərq olur, sonra canlı aləm yenidən öz təkamülünə başlayır. **Bəs Dünya tufanı olmuşmu, olmamışsa, o, müqəddəs kitablara, xalqların əfsanə, mif və dastanlarına necə yol tapmışdır? Bu gün bu istiqamətdə elm nəyi təsdiq edir?**

Qədim dini kitab Tövratdə Nuhun tufanı, zamanı, səbəbi və gəminin Ağrı (Ararat) dağına enməsi və insanların xilası ətraflı verilmişdir [49, s. 10].

Xristianların müqəddəs kitabı Bibliyanın «Əhdiətiq» bölümündə Moiseyin ilk kitabı «Varlıq»ın 5-ci bölümündən 8-ci bölümünə qədər bu süjet bir qədər geniş təsvir edilmişdir. Tufanın başlanıb qurtarması buradakı məlumata əsasən bir il çəkmiş, gəmi Ağrı-Ararat dağına oturmuşdur [12, s. 15-17]. Bu fikir bir qədər ixtisarla Uşaq Bibliyasında [70, s. 26-28] və nəhayət, Qurani-Kərimin «Hud» surəsində də (Qurani-Kərim. Bakı: Nurlan, 2006, 11-ci surə 117 ayə) təkrarlanmışdır. Bu kitabların müqayisəsini aparan L.S.Vasiliyev peyğəmbərlər və Nuhla bağlı ayələrin Bibliyadan köçürüldüyünü iddia edir [78, s. 120-121].

Dünya xalqlarının mifləri ensiklopediyasında Nuh yevreylərdə «noah», Bibliyada isə fel köklü «NHM» sözü «sakitləşdirən» kimi verilir və gəmi Ağrı dağına oturur. Bundan sonra Nuh gəminin pəncərəsindən qarğanı, sonra qaranquşu havaya buraxır, yalnız 365-ci gün insan və heyvanlar torpağa enirlər [59, s. 224]. Əski türk şumerakkadların «Bilqamıs» dastanında isə Nuh obrazı «Ut-Napişti» kimi təqdim edilmiş və əsərə ad həm «Ut-Napişti», həm də «Un-Tapişti» kimi düşmüşdür [13, s. 68].

Bütün bunlardan sonra tədqiqatlarda «Dünya daşqını» necə açıqlanır?

Zəlzələ, vulkan, astronimik qəzalar, yağmur və s. daşqına səbəb olan amillər bəzən həqiqətdən qoparaq mifləşir. Balandin R.K., Bondarev L.Q. öz yazılarında avstriyalı geoloq E.Zyusun şumerlərin ərazisini geniş tədqiq etdiyini, burada məhz ciddi tropik siklonlar hesabına daşqınların baş verməsini göstərirlər. Bu fikri arxeoloq L.Vulli də təsdiq edir [11, s. 101].

Türk arxeoloqu Mehmet Özdoğan isə öz tədqiqatlarında bu daşqın məlumatının Dəclə və Fərat arasında yarandığını qeyd edib, «Bilqamış», Tövrat və Qurani-Kərimdə göstərilən Nuhla bağlı daşqının izlərini ilk dəfə arxeoloji yöndən araşdıraraq onun başvermə səbəbi və coğrafiyasını göstərir. Müəllif gəminin Cudi dağına enməsindən, Şırnak Cizədə bu yönlü inanclardan, Cudinin Mesopotamiya dağları ilə kəsişdiyi yerdə yerləşməsindən bəhs edir, gəminin Ağrı dağına endiyini, bu ərazidə Nuh türbəsinin olmasını və daşqının regional xarakter daşıdığını yazır [56].

Daha bir türk alimi N.Çolpan «Nuhun gəmisi» yazısında Tövratın «Təkvin»-«Yaradılış» bölümündən misallar gətirərək hadisənin Qurani-Kərimlə müqayisəsini verib, gəminin Ağrıya enməsi qənaətində dayanır [63].

Bu daşqının dünyəvi ya bölgə xarakterli olması Avropa alimlərini də düşündürmüşdür. 1900-cü ildə Amerikanın Qalveston şəhərində 6 min insanın tələfatı, 1910-cu ildə Parisdə, 1924-cü ildə Leninqradda, yer kürəsinin ən böyük daşqınları kimi 1931-ci ildə Çində 140 min, 1933-cü ildə yenə burada 18 min, Yaponyanın Xonsyu adasında 3 min insan tələfatı ilə nəticələnən daşqınlar kitablara da yol tapmışdır. 1936-38-ci illərdə ABŞ-da, 1946-cı ildə Havay adalarında və digər bölgələrdə yüz minlərlə insan tələfatı planetimizi qorxuya salan daşqınlar dini kitablardakı tufanı və qiyamətin dəhşətlərini xatırlatmışdır. Bütün bunları açıqlayan Amerika seysmoloqu E.Robertsonun «Torpaq silkələnəndə», İ.A.Rezanovun «Yerin tarixində böyük fəlakətlər» kimi kitablar dünyanı sarsıdan fəlakətlərin məlumat toplusudur [42, s. 6-17].

Təkcə qədəm qoyduğumuz XXI əsrin 8 ilində Amerika, İngiltərə, Afrika və s. dənizsahili ölkələrdə yüz minlərlə insan qırğını ilə nəticələnən daşqınlar, bu xalqların təsəvvüründə Dünya daşqını qənaətini ortalığa çıxarır.

Rus tədqiqatçısı A.Kondratyevin isə bu barədə elmi nəticələri başqadır. O, planetimizdə aparılmış qazıntılarından əldə olu-

nan elmi nəticələrə söykənərək Nuh tufanı və Bibliyadakı daşqın məlumatlarını tutuşdurmuş, İsveç alimi A. Şeyxçer, antik müəllif Aristotel, şərq alimi Əli İbn Sinanın qazıntıdan tapılmış heyvan cəsədlərindəki daşqın izlərinə əsasən yer üzərində Nuh tufanı kimi böyük daşqınların həqiqət olduğu qənaətini açıqlamışdır. Bibliyada Nuhun gəmisi və s. məsələlərdən geniş məlumat verən müəllif [42, s. 22-23, 26], ingilis H.Raulinson və C.Smitin Assuriyada qazıntıdan tapdığı gil lövhələrdəki yazıların elmi nəticələrinə əsaslanaraq demişdir: «Bilqamıs» dastanı sübut edir ki, Bibliya Şumerlərdən başlanır». Bu fikri Semuel N. Kramer də təsdiq etməklə «Tarix şumerlərdən başlanır» adlı kitabını yazmışdır [yenə orada, s. 27-30]. Burada bir məsələ diqqətmizi çəkir.

Əgər ingilis H.Raulinson, C.Smit, rus A.Kondratyev, N.Kramer və digərləri arxeologiya, etnoqrafiya, toponimika və s. ünsürlərə görə tarixin türk şumerlərdən başlandığını təsdiq edirlərsə, deməli, dünya tarixi türklərdən başlayır və türk xalqlarının şəhərsalma mədəniyyəti də digər xalqlardan çox erkən başlamışdır. Onda arxeoloji nümunələri e.ə. 60 min ilə çatan qədim Naxçıvanda da şəhərsalma mədəniyyəti ən azı e.ə. 30-20-ci minilliklərdə baş vermişdir.

Məlumatlardan göründüyü kimi, daşqının dünyəviliyi, regionallığı, zamanı və gəminin torpağa enmə yeri haqqındakı fikirlər müxtəlifdir.

Bəs Azərbaycan alimlərinin «Dünya daşqını»na münasibəti necədir?

Alimlərimiz bu daşqının izlərini mif kimi yox, bir tarixi reallıq kimi öz ərazimizdə axtarmış, Naxçıvandakı əfsanələrin Şumer dastanı «Bilqamıs»la süjet yaxınlığına, antik və orta əsr yunan, roma, yəhudi, və s. səyyahların əsərlərində Nuh Naxçıvan paralelliyinə, belə elmi fikirlərin bir-birini tarixi baxımdan tamamlamasına üstünlük vermişdir [14; 34; 57; 58].

Yəhudi tarixçisi İ.Flavii, rus S.Zelinski, K.A.Nikitin, V.M.Sısoyev, fransız Tavernye və b. Naxçıvanı bəşər nəslinin ilk beşiyi, Nuhun ilk dayanacaq yeri kimi təsvir etmiş, Naxçıvanın e.ə. 1539-cu ildə inşa edildiyini yazmış [34, s. 14; 81; 54, s. 19-20; 64, s. 2; 4, s. 67; 74, s. 32], antik müəlliflərin Naxçıvanla bağlı yazıları tədqiqatların mövzusuna çevrilmişdir [30, s. 10-13].

Yazılarımızın birində 1996-cı ildə Naxçıvan və Nuhla bağlı Beynəlxalq elmi simpoziumdan [69, s. 6-14], bu toplantıya ümummilli lider Heydər Əliyevin təbrik məktubu göndərməsindən danışmışdıq. Toplantıda Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbov cənablarının tədqiqatçıların elmi nəticələrini təhlil edərək Naxçıvanın tarixi, tufanın əfsanə olmadığını sübut edən gərəkli faktlar söylədiyini qeyd etmişdik [77, s. 12]. Bu simpoziumda akad. İ.Həbibbəyli öz araşdırmalarında [31, s. 120], V.Əliyevin [23, s. 37; 24, s. 61-74], Ə.Hüseyninin [33, № 1], S.Rüstəmxanlının [66, s. 135], Azərbaycan folkloru antologiyasında Naxçıvan və Nuhla bağlı fikirlərin [5, s. 66-68] elmi nəticələrinə toxunmuş, daşqının əfsanədən çox bir tarix olduğunu yazmışdır.

Bu gün Gəmiqaya rəsmlərinin areal-türk rəsmləri və toponimikasında təkrarları da [15, s. 90; 68, 113-120] bu problem məsələnin mif deyil, uzaq tarix olmasını təsdiq edir. Bu istiqamətdə tədqiqatın zəruri olduğunu nəzərə alaraq 26 aprel 2001-ci ildə Gəmiqaya rəsmlərinin yenidən sistemli tədqiqinə dair Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbov cənablarının xüsusi sərəncamı, 2005-ci il iyulun 19-23 tarix-lərində Gəmiqayaya Beynəlxalq ekspedisiyanın təşkili və araşdırmaların elmi nəticəsi kimi ərazidə Beynəlxalq Konfransın keçirilməsi ilə nəticələnmişdir.

Konfransda çıxış edən Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbov cənabları tədqiqatların elmi, tarixi əhəmiyyətini vurğulamış, Gəmiqaya təsvirlərinin türk mifik təfəkkürü ilə bağlılığından, onun miladdan xeyli öncə formalaşması və Naxçıvanın e.ə. III minilliklərdən də öncəki bir qədimlik simvolu olmasından, bütün bunların isə arxeoloji qazıntıların maddi-mədəniyyət nümunələri ilə təsdiqindən bəhs edərək tədqiqatların davam etdirilməsinin vacibliyi məsələlərinə toxunmuşdur.

Gəmiqayada rəsm, yazı, ayin, toponimika, svastika və s. problemlərlə bağlı İ.Həbibbəyli, İ.Hacıyev, M.Aci və başqalarının 22 məqaləsi bu tufanın müxtəlif yöndən izahını açıqlamışdır [32, s. 9-12; 29, s. 53-60; 1, s. 13-24; 54, s. 31-38]. Bu problem H.Q.Qədirzadənin monoqrafiyalarında etnoqrafiya, folklor nümunələri və dini məxəzlərə əsasən incələnmiş [44, s. 43-45; 45, s. 19, 57, 89], V.Baxşəliyev isə öz tədqiqatlarında Gəmiqaya rəsmlərində türklərin mifik dünyagörüşlərinə toxunmuş, Naxçıvan və Nuh ilişgisinə dair İ.Həbibbəyli, F.Səfərli, M.Seyidov, L.Vulli və başqalarının

yazılarını incələyib yeni elmi fikirlər söyləmişdir [9, s. 14-16; 10, s. 74-80].

Naxçıvanın etimoloji izahı da tədqiqatların mövzusu kimi maraqlı və elmi nəticələr ortalığa çıxarır. C.Cəfərov bu məsələdə A.Axundov, Ö.Çələbi, V.A.Nikonov və b. Nuhla bağlı fikirlərinə öz fikrini də əlavə edərək sonda bu adın on As türk tayfasına aid olduğunu yazır [17, s. 13-22].

Nuh və Naxçıvan məsələsində maraqlı yazılardan biri də Ə.Quliyevin «Nuhun gəmisi haradadır?» məqaləsidir. Yazıda Ağrı dağının coğrafi relyefi, buzlaq örtüyü, daşqında Anadolu, İran, Ərəbistan və Hindistanın su altında qalma ehtimalı və s. məsələlərə toxunan müəllif, bu ərazilərdə tufanla bağlı heç bir izin olmadığını, 1826, 1946-cı illərdəki ekspedisiyaların tədqiqatlarına əsaslanan Ə.Quliyev Tövrat, İncil məlumatlarındakı Ağrı-«Ararat» dağına Nuh gəmisinin oturma ehtimalını təkzib edir. «Ararat» sözünün «Urartu» adının təhrifindən gəldiyini, sözün assurlarda səhvən «Ararat» oxunduğunu yazan müəllif Pekarskiyə istinadən «Ağrı» sözünün yakut dilində «böyük, qocaman» mənalı türk sözü olduğunu qeyd edir. Yaqutəl Həməvi, Günel Aziz, Aksoy və başqalarının fikirlərinə əsaslanan Ə.Quliyev Qurani-Kərimə istinadən gəminin Cudi dağına oturduğunu yazır [49, s. 10]. Qeyd edək ki, Urartu dilindəki «**Urartu**», **e**-ev, **di**-de, danış, **terai**-törə kimi bir çox sözləri İ.A.Meşşaninov türklərə aid etmişdir [58, s. 15, 52, 210, 267, 302].

Əsatir, mif, rəvayətlərdəki tarixləri araşdıran M.Cəfərli də Nuh haqqındakı yerli mətnləri ətraflı tədqiqata cəlb edərək «Oğuz» dastanı süjetinin Nuhun oğlu Türklə bağlılığı məsələsinə toxunmuşdur [16, s. 8-9].

Bu istiqamətdə A.Bağırovun 1991-ci ildə «Elm və həyat» jurnalında [7, s. 28-29], 2005-ci ildə isə doktorluq dissertasiyasındakı [8, s. 116] Nuh və Naxçıvan paralelliyi haqqındakı elmi fikirləri bu məsələnin artıq mifdən uzaqlaşaraq real tarixi hadisə fövqündə tədqiq olunmasını əsaslandırır. Məhz bu reallığı təsdiq edən daha bir gərəkli faktı Gəmiqaya təsvirlərini, Qobustan, Abşeron, Kəlbəcər və digər bölgələrimizin qaya rəsmlərini araşdıran N.Alıyev aşkar etmişdir. O, Gəmiqayadakı bir rəsmidə gəmi, qaranquş, arxası üstə düşmüş əjdaha rəsmlərindəki ümumi kompozisiyanı ilk dəfə açıqlamış, günəş və yer svastikasını əks etdirən

dairələrin mənalarının mifdən uzaq olduğunu qeyd etmişdir [2, s. 39-46].

Naxçıvanla bağlı çoxsaylı qəzet məqalələrində də belə ciddi elmi fikirlərlə rastlaşırıq. 1973-cü ildə İ.Mollayevin [61], 1983-cü ildə M.Ellinin [21], 1985, 1999-cu illərdə Ə.Fərzəlinin [26], 1999-cu ildə A.Gümürlünün [28] yazıları Nuh tufanının mifik və elmi baxışlardan izahıdır.

Beləliklə, müxtəlif fikirlərin məhz Naxçıvana və Nuha istiqamətlənməsi bu mövzunun heç də bütövlükdə əfsanə olmadığını söyləməyə əsas verir. Nəticədə bu günə qədər Nuh tufanı və onun baş verməsi, ərazisi haqqında ən qədim və sonrakı dövrlərdə minlərlə kitab, məqalə dərc olunmuş, **bir qrup mifə, bir qrup tarixə** üstünlük verərək **gəminin oturma ərazisi fərqli bölgələrə aid edilmişdir**.

Bütün bu tarixi faktlara əsasən etiraf etməliyik ki, qədim qaynaqlar və müasir tədqiqatlarda heç bir ərazi, şəhər adı «Nuh və Naxçıvan» qədər tədqiq edilməmiş, bu problem ətrafında heç bir ad tarixi məxəzlərə bu qədər yol tapmamışdır. İndi isə ərazi məsələsinə öz fikrimizi bildirmək istərdik.

Dini kitablarda adı keçən Ağrı (Ararat) dağı əzəli Naxçıvan ərazisi idi. Bu qənaətimizdə heç bir bəlağət yoxdur. Mənbələr türk Midiya dövlətini bizə Böyük Midiya və Atropatena Midyası kimi təqdim edir. Naxçıvan isə Atropatena Midiyasının qədim əyaləti olmaqla səyyah və coğrafiyaşünasların yazılarında qeyd olunur. Midiyanın ərazisi olan Atropatena Midiyasında o, qüdrətli şəhər və əyalətdir [52, s. 86-87]. E.ə. I əsr Roma yazıçısı Kvint Horatsi Flakkın, b.e. II əsrində K.Ptolemeyin yazılarında Naxçıvanın coğrafi koordinatları bu ərazidə göstərilir və o, Cənubi Qafqazın ən böyük şəhəri, qədim insan məskənidir [30, s. 10-12].

Naxçıvan haqqında Alban tarixçisi Sebos [47, s. 75], V əsr tarixçisi F. Buzənd, V-VIII əsrlər gürcü mənbələri [22, s. 19-21], VII-XII əsrlər M.Kalankatuklu və M.Qoş [60, s. 249-251], XIII əsrdə Kirakos Gəncəli [41, s. 150], e.ə. VII və eramızın XI-XII əsrlərinə dair Z.Bünyadov və Z.İ.Yampolski [14, s. 39, 65, 219; 80, s. 93-101] və b. geniş məlumat verir və ərazidə IX əsrin 80-ci illərindən «Naxçıvan şahlığı» adlı feodal dövlətin yaranıb XI əsrin sonuna qədər davam etməsi də [30, s. 13-15] göstərilir.

Qaynaq və tədqiqatlar bütün tarixi dönəmlərdə Naxçıvanı türk dövlətlərinin ərazilərində əyalət, şəhər kimi təqdim edir. **Məsələ bundadır ki, bütün bu tarixi dönəmlərdə Maku, İğdır, İrəvan və s. bölgələr Naxçıvanın əzəli torpaqları olmaqla bu tərkibdə 1703-cü ilə qədər gəlib çatmışdır** [35, s. 34, 40, 66]. Əgər şumerlərin fəaliyyəti dövrünə qayıtsaq (e.ə.VI-III minillik), Naxçıvan ərazisi bütövlükdə Aşkeneza-Oğuzlar dövlətinin ərazisində idi [79, s. 489; 62, s. XII].

Deməli, Ağrı dağı Naxçıvan dağlarından biri idi və gəmi Ağrı dağına – Naxçıvan ərazisinə oturmuşdur. Bu halda qaynaq məlumatlarında Naxçıvanın Nuhla bağlılığı fikirləri təbiidir və Tövrat və Bibliyada tufanla bağlı tarixi prosesin cərəyan etdiyi ərazi Naxçıvan torpağı olmuşdur.

İndi isə Qurani-Kərimdəki Cudi dağı məsələsinə diqqət edək.

Qurani-Kərimdə Nuhla bağlı Cudinin adı keçən «Hud» surəsinin «Cudiyə oturdu gəmi» ifadəsində «dağ» sözü işlənməyib. Halbuki «Tur», «Tin» və s. surələrdə Tur, Tin və Zeytun adlardan sonra «dağ» sözü göstərilir. Bu sistem bütün əşyalara da şamildir, lakin «cudi» sözünün nə olduğu isə verilməyib. O zaman «cudi» başqa bir söz də ola bilər. Ərəb və Fars dilində «cudi» sözünə təsadüf etmədik. Bu lüğətdə «cudi» sözünə bənzər **cudey** – «qütb ulduzu», **cud** – «əliaçıq», **cid** – «uzun» kimi sözlərlə qarşılaşsaq da [25, s. 766], Nuhla bu sözlərin heç bir əlaqəsi yoxdur. Ərəb və fars dilində biz **«cuda»** sözünə təsadüf edirik ki, sözün **«ayrı», «ayrılmış»** mənaları var [yenə orada, s. 762]. Onu da qeyd edək ki, eramızın VII əsrində (660-cı il) Qurani-Kərim kitab şəklinə salındığı dövrdə ərəb dilində sait səslər yox idi, bu oxucu tərəfindən artırılırdı. VIII-IX əsrlərdə isə kitabın İslam aləminə anlaşıqlı olma zərurətindən hərəkələr əlavə edilmişdir. Deməli, sait artımı müxtəlif ola bilər və burada **a** saitinin **i** sait kimi yazılışı da mümkündür. Onda **«Cudiyə oturdu gəmi»** ifadəsi **Cudaya** – **«Ayrılmış, vəd olunmuş yerə oturdu gəmi»** kimi oxuna da bilər. Tövrat, İncil, Bibliyada göstərilən Ağrı dağının 3700-4000 metr qarlı, buzlu yüksəkliyi təbii ki, Nuh və övladları üçün vəd olunan «bərəkətli yerə» uyğun olmadığı kimi Cudi dağı versiyası da qeyri-real görünür. Çünki açıq olan Ağrı dağıdır, qalmış ərazilər və ondan alçaq olan Cudi zirvəsi də su altında idi. Gəminin Cudi dağına oturması bu şərtlər daxilində imkansızdır.

Nəyə görə biz bu daşqında Nuh, Naxçıvan versiyasına üstünlük veririk?

«Bilqamıs» dastanı Dəclə və Fərat çayları arasında, Nineviya şəhərində gil lövhələrdə aşkarlanan e.ə. VI-III minilliklərə aid türk Şumer-akkadların dastanıdır. **Sibir, Savir, Sabar, Subər qədim türk tayfalarının bu kökdən gəldiyi şübhə doğurmur**. «Bilqamıs» sözünü «hər şeyi bilən» [13, s. 5], «bilgə», «bilici», «bilən», «biliklər toplusu» kimi şərh etmişlər və bu fikir S.Ş.Çaqdurovun da yazılarında geniş təhlil olunmuşdur [18, s. 171-175]. Sözün **gilqamıs, bilqameş** formaları da işlənir. «Bilqamıs» yazılışında birinci tərkibi M.Kaşqari «bilən», «bilikli», «bilmək» mənasında türk sözü, fel kökü olaraq verilmişdir [51, s. 90-92]. İkinci variantda birinci tərkib «gil» şəklindədir. Əgər **qam** tərkibinin **şaman, maq** formasını nəzərə alsaq, onun «şaman» «hakim» – «xəbər verən», «yozucu» mənaları ilə «bilici» sözü sinonimdir. **Manq, maq, qam** tərkiblərini Q.Qeybullayev, M.Seyidov, F.Cəlilov öz tədqiqatlarında geniş izah etmişlər [46, s. 21-27, 43, 88; 27, s. 162-172; 73]. **Es/eş** tərkibi isə qədim türk dillərində «ağıllı», «zəkalı» mənalarında idi [71, s. 607]. Belə olan şərtdə **Bilqamıs** – «Bilikli, zəkalı şaman», **Gilqames** isə «Zəkalı, ağıllı gil şamanı» mənalarında açıqlanır. Gil tayfaları isə qədim türklər olmaqla **Gilan, Giləzi, Gal** kimi minlərlə yaşayış məntəqə adı yaratmışlar [67, s. 178-184]. Nuhun oğlu Yafət türklərin, monqolların ulu babaları olmaqla oğuzlarda Bulcaxan adlanırdı. Bu **Bulca** və ya **Bilgə** xan **Bilən şamanla – Bilqamısla** eyni kökdəndir. Sözə Orxon-Yenisey yazılarında **billig, bilgə, bilen, biliz** formalarında antroponim kimi rast gəlirik [65, s. 383; 72, s. 86-87; 50, s. 23] və «Bilqamıs» kökü ilə eynidir. Bilqamıs Untapistinin yurduna gedərkən Siduriyə-Tanrı xanımı, Urşanabi və Untapişti ilə görüşlərdə köməksiz danışır, qurşaq bağlayır, başına çalma qoyur [13, s. 70, 75, 78-83]. O zaman dastanın məntiqi nəticəsi belədir.

1. Daşqın e.ə. VII minilliyin sonu, VI minilliyin əvvəlində baş verir, bəşərin yeni nəsli tufandan sonra yaranır. Bilqamısın səfəri zamanı Nuh-Untapişti hələ sağdır və o, hələ 950 yaşında deyil. Daşqından sonra, VI minilliyin əvvəllərində Bilqamıs yolda tayfalarla öz dilində danışır, deməli, onlar Nuhun sağlığında yaranan Şumer-türk tayfalarıdır [12, Varlıq, 9, 28, 29, s. 18].

3. Bilqamısın dövründə Uruk şəhəri var, o buradan Untapiştini görməyə gedir [13, s. 19, 70]. **Dini kitablara görə, daşqından sonra, şəhərsalma Nuh övladlarının dilləri eyni olduğu dövrdə** [12, s. 20], **yəni 5750-ci illərdə, e.ə. VI minilliyin əvvəllərində başlanır. O zaman Naxçıvan ərazisində də şəhərsalma 7750-ci illərdə baş vermişdir.**

Əsərdəki Nisir dağı [13, s. 90-92] məsələsinə Ə.Hüseyni və Ə.Qədimov toxunsalar da, sözün etimoloji izahı, onun Ağrı, Cudi dağları və digər mifik areallarda olması tədqiq edilməmişdir. Nisir dağı «Nəsirvaz» adında Naxçıvanın Gəmiqaya zirvəsi və kənd adından başqa heç yerdə qeydə alınmır. «**Nəsir/Nisir**» sözündə **nis** sözünü «aşağı düzənlik» [20, s. 173-209], **ər** «kişi, igid» mənasında izah etmişdik. Lakin **ər** komponenti **xəzər, kəngər, subər, kəvər, asər** kimi əsasən tayfa adlarına yazıldığından və bu gün Azərbaycan, Türkiyə, qazax, başqırd dillərində **s-h** əvəzlənməsi ilə **kotan-saban-*ha-ban***, **sabun-*habun*, saqqız-*hağız*, sal-*hal*** və s. şəkildə işlənməsi [36, s. 729, 733, 739; 76, s. 86] **nis** tərkibinin **nih/nuh** kimi oxunmasına da ehtimal verir. O zaman **Nəsirvaz «baş Nuh ərləri»** mənasını verir. Əsərdə həm də Ulu çay adı çəkilir və Nəsirvazdan axan Saqqar su isə e.ə. II minillikdə yaşamış Sak türklərinin adını daşıyır. Onda Nəsirvaz-Nuh ehtimaldan çox həqiqətə yaxınlaşır. Bilqamıs Şumer yurdundan Naxçıvana doğru Mesooptamiya, Vavilon, Assuriya, Arfaksat, Aşkenaza ölkələri, Kalax, Urmiya gölü, Van gölü, Araz vadilərində [70, 334 xəritə; 12, son səhifədə xəritə] hamı ilə danışır. O zaman bu ölkələrin danışıq dili və etnik tərkibi ya bütövlükdə türklərdən ibarət idi, ya da ki, çox güclü türk tayfalarının nəzarəti altında olmuşdur. Bu isə mahiyyətcə e.ə. VI minillikdə bu ərazilərdə türklərin məskun olduğunu təsdiq edir (F.R).

Əgər türklər ərazini işğal etsə idi, xalqlar tam assimilyasiya oluna bilməzdi və dastanda buna rast gəlmirik. İkincisi, aparılan arxeoloji araşdırmalar göstərir ki, ərazinin maddimədəniyyət nümunələri, tarixi abidə və əşyaları türk mədəniyyətinin daşıyıcılarıdır (38, s. 17; 3). G.N.Kramer də Dəclə və Fəratın indiki əhalisinin «Bilqamıs» dastanı dilində danışmadığından bu mədəniyyəti türklərə aid olduğunu yazır [19, s. 39-45].

Gəmiqaya nəyə görə bizim diqqətimizi daha çox çəkir?

Əgər xatırlasaq, Tövrat, İncil, Bibliya və Qurani-Kərimdə gəmi torpağa endikdən sonra qarğa və qaranquş buraxılmış, onlardan sonra isə Nuhun özü torpağa enmişdir. Ərazidəki «Nəbi yurdu» və «Qaranquş yaylağı» təsadüfi ola bilməzdi. Biz akademik İ.Həbibbəylinin «**nəbi**» sözünün kitab almayan peyğəmbərə deyilməsi fikrini yazmışdıq [69, s. 11].

Sonralardan biz bu fikri təsdiqləyən bir neçə yazı ilə də rastlaşdıq.

İtalyan alimi Paolo Mattie 1964-cü ildə Suriyanın Telğ-Mardik kurqanından, 1975-ci ildə isə e.ə. IV minilliyə aid Ebla şəhərindən gil lövhələr aşkar etdi. İtalyan alimi Covanni Pettinato Bili eblait dilində 3000 söz oxudu və müəllif onlardan birinin *«navitum»* – nəbi-**navi** – «**peyğəmbər**» kimi tərcümə etdi ki, bu da Tövratdan qabaq idi [3]. **O zaman əgər tarixi baxımdan sözün haradan gəldiyinə də diqqət etsək, e.ə. IV minillikdə «nəbi» sözü kəskin olaraq ərəb, fars və digər dillərə aid deyildi. Bu Şumer-Akkad-Türk dilində idi (F.R.).**

«Bilqamıs» dastanında Untapişti adında hərflərin yerdəyişmi və səsdüşümü ilə [6, s. 245-246] qeydə alınan **-un** tərkibi Şumer tanrısı **An** adı da ola bilər [46, s. 51]. Addakı **ta** – «dağ», **ti-li** şəkilçisi [71, s. 146] **ti** – «tik, tikmək» [46, s. 80-81] tərkibi omonim söz kimi Şumer, Altay, Kazax, Qırğız, Türkmən və s. türklərdə işlənir və antroponim «An Tanrısının uca dağı» mənasını daşıyır [36, s. 560; 47, s. 142-143; 40, 3 list]. Bu K.N.Smirnovun məlumatında Naxçıvandakı Nuhtaban [75, s. 99-100] **Nuh+tau+*dağ*+ban** ***uca*** yer adı ilə sözbəsöz uyğunluq təşkil edir [39, s. 36-37; 47, s. 69].

Bir məsələni də qeyd edək ki, gil lövhələr e.ə. III minillikdirsə, daşqının baş verdiyi tarix e.ə. VI minillikdir. Deməli, gəmi e.ə. VI minillikdə torpağa oturmuşdur və şəhərsalma o dövrlərin tarixi prosesidir.

Bəs belə olan şərtdə ermənilərin Nuh iddiasının əsası varmı?

Tarixdən bizə məlumdur ki, «ermənilər» friqlər Kiçik Asiyaya Balkan adalarından e.ə. VII əsrdə gəlmişlər [43, I 168; II 103]. Xet mənbələri isə e.ə. XIV əsrdə Arma və Hayasa əyalətlərdən bəhs edir [48, s. 39-40; 37, 163; 53, s. 103-104]. Deməli Nuh tufanı ilə erməni köçünü 5 min il zaman ayırır ki, bu da onların bir tarix

oğrusu olduğunu göstərir. Bu faktlar R.Fray, İ.M.Dyakonov kimilərinin yazılarında da təsdiq olunur [19, s. 94; 47, s. 317-327].

Bütün bu məlumat və elmi nəticələrini, Naxçıvanın e.ə. 80 minilliklə ölçülən ibtidai insanların daş alətlərini, IV minilliyə aid arxeoloji tapıntılarını, e.ə. I minilliyə aid tarixi abidələrini və mədəniyyət nümunələrini nəzərə alaraq nəticə kimi bunları söyləmək olar ki, Şumer-akkadlardan dünya dövlətlərinə yayılan bu qədim tarix Naxçıvanla daha sıx bağlıdır və ərazidə e.ə. VI minillikdə şəhərsalma formalaşmışdır. Biz inanırıq ki, milli dövlətçiliyimizin inkişafı, onun maddi-mədəniyyət abidələrinin tədqiqi Azərbaycan, o cümlədən də Naxçıvanın əski dövrü haqqında mühüm məlumatlar verəcəkdir.

ƏDƏBİYYAT

1. Acı Murad. Nuhun gəmisi harayacan üzübmüş? //AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1, s. 13-24.
2. Alıyev N. Müqəddəs peyğəmbər gəmisi // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, s. 39-46.
3. Вишневецкий А. Эбла: взгляд сквозь тысячелетия. http:ıı piratyy. h14.ru/artikle/ebla. Htmlh.
4. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri / Tərtibatçıları Ə.V.Salamzadə, K.M.Məmmədzadə. Bakı, 1985, 268 s.
5. Azərbaycan folkloru antologiyası. I c., Naxçıvan folkloru, Bakı, 1994, 377 s.
6. Babayev A. Dilçiliyə giriş. Bakı: Maarif, 1992, 504 s.
7. Bağırov A. Ad da tarixdir // Elm və həyat, Bakı, 1991, № 2, s. 28-29.
8. Bağırov A. Doktorluq dissertasiyası. Bakı, 2005, 347 s.
9. Baxşəliyev V. Gəmiqaya təsvirlərinin poetikası. Bakı: Elm, 2002, 128 s.
10. Baxşəliyev V., Quliyev Ə. Gəmiqaya təsvirlərində yazı elementləri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, s. 74-80.
11. Баландин Р.К., Бондарев Л.Г. Природа и цивилизация. М.: Мысль, 391 с.
12. Библия. Бытие 6-8, М.: Российское библейское общество, 1994, 286 с.
13. Bilqamıs dastanı. Bakı: Gənclik, 1985, 104 s.

14. Буниятов З.М. Государство Атабеков Азербайджана. Баку: Элм, 1978, 272 с.
15. Qiyasi C. Nizami dövrü memarlıq abidələri. Bakı, 1991, 258 s.
16. Cəfərli M. Folklor və etnikmilli şüur. Bakı: Elm, 2006, 125 s.
17. Cəfərzadə C. Milli etnik yaddaşın izi ilə. Bakı, 2005, 171 s.
18. Чагдуров С.Ш. Происхождение Гессериады. Новосибирск, 1980, 137 с.
19. Дьяконов И.М. К методике иселедований по этнической истории (киммерийцы) / Этнические проблемы истории Централъной Азии в древности. М., 1981, с. 97.
20. Древнетюркский словарь. М., 1967, 676 с.
21. Elli M. Naxçıvan yer adı. «Azərbaycan müəllimi» qəz., Bakı, 1983, 03 iyun.
22. Əhmədov T. Azərbaycan toponimikasının əsasları. Bakı: BUN, 1991, 312 s.
23. Əliyev V. Gəmiqaya abidələri Naxçıvanın qədim tarixi mənbələridir // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1, s. 61-74.
24. Əliyev V. Tarixin izləri ilə. Bakı: Gənclik, 1975, 77 s.
25. Ərəb və fars sözlüyü lüğəti. Bakı, 1985, 1027 s.
26. Fərzəli Ə. Bir gözəln iki adı. «Azərbaycan gəncləri» qəz., Bakı, 1985, 16 yanvar.
27. Ağasıoğlu F. Azər xalqı. Bakı: Çıraq, 2005, s. 432 s.
28. Gümürlü A. Naxçıvan toponimi haqqında bir versiya. «Xalq» qəz., Bakı, 1999, № 136.
29. Hacıyev İ. Gəmiqaya Azərbaycan tarixşünaslığında // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1, s. 52-61.
30. Hacıyev İ., Məmmədov Ş. Naxçıvan və naxçıvanlılar. Bakı, 2001, 280 s.
31. Həbibbəyli İ. Qafqaz mənbələrində Naxçıvan / Naxçıvan tarixinin səhifələri. Bakı, 1996, s. 120.
32. Həbibbəyli İ. Nuh tufanı və Nuhun gəmisi haqqında yeni elmi versiya // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, №1, s. 9-13.
33. Hüseyni Ə. Əfsanədən həqiqətə // Qobustan, 1973, № 1, s. 28-34.
34. Флавий И. Иудейские древности / Пер. с греч. Г.Г.Генкеля. СПб., 1900, 716 с.
35. İrəvan əyalətinin icmal dəftəri. Bakı: Elm, 1996, 184 s.

36. Karşılaştırmalı Türk Lehceleri Sözlüğü. I-II c., Ankara, 1992, 1183 s.
37. Капанцян Г.А. Хайаса – колыбель армян. Ереван, 1946, 163 с.
38. Кашкай С.М. Из истории Маннейского государства. Баку: Элм, 1977, с. 112.
39. Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1988, 265 s.
40. Каулбарс А.В. В низовьях Аму-Дарьи и Сыр-Дарьи. С.Петербург, 1833, 3 лист.
41. Гандзакеци К. История Армении / Пер. Л.А.Харларяна. М.: Наука, 1976, 357 с.
42. Кондратьев А. Великий потоп. Мифы и реальность. Л.: Гидрометеоиздат, 1982, 152 с.
43. Геродот. История. Л.: Наука, 1972, 600 с.
44. Qədirzadə H.Q. Əshabi-Kəhf: müqəddəslik, tarixilik və inancların genezisi. Bakı, 2002, 112 s.
45. Qədirzadə H.Q. Nuh peyğəmbər, Dünya tufanı və Naxçıvan. axçıvan: Qızıl dağ, 2008, 192 s.
46. Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, 1994, 278 s.
47. Гейбуллаев Г.А. К этногенезе азербайджанцев. Т. I, Баку: Элм, 1991, 548 с.
48. Qeybullayev Q. Qədim türklər və Ermənistan. Bakı: Azərnəşr, 1992, 138 s.
49. Quliyev Ə. Nuhun gəmisi haradadır? «Elm» qəz., Bakı, 2005, 20 fevral.
50. Quliyev Ə. Qədim türk onomastikası. Bakı: ADRU nəşr., 2007,184 s.
51. Kaşqari M. Divanü lüğat-it-türk. Ankara: Dizini. Tərcümə. B.Atalay, 1986, 886 s.
52. Мамедов Т.М. Албания и Атропатена по древним албанским источникам. Баку: Элм, 1977, 145 с.
53. Манандян Я.А. О торговле и городах Армении в связи с мировой торговлей древних времен. Ер., 1944, 269 с.
54. İsmayıl M. Nuh tufanı əfsanələrində etnosun mifoloji düşüncə tərzi // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1, s. 31-39.
55. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı, 1977, 157 s.

56. Özdoğan M. Büyük Sırrın Arkelojik Keşfi: Nuh Tufanı. (http:www.keşfetmekiçinbak.com/arkeloji/03844).
57. Меликишвили Г.А. К истории древней Грузии. Т.: АН Груз. ССР, 1959, 507 с.
58. Мещанинов И.И. Аннотированный словарь урартского (Бианского) языка. М., 1937, 307 с.
59. Мифы народов мира. Энциклопедия. Т. II, М.: Сов. Энциклопедия, 719 с.
60. Kalankatuklu M. Albaniya tarixi. Qoş M. Alban salnaməsi. Bakı: Elm, 1993, 272 s.
61. Mollayev İ. Naxçıvan tarixi haqqında bəzi qeydlər. «Şərq qapısı» qəz., Naxçıvan, 1973, № 44.
62. Морской атлас Министерства Обороны СССР. Т. III, М., 1958, с. 12.
63. Çolpan N. Nuhun gəmisi. (tr.wikipedia.orq/wiki/Nuh.%27un gemisi).
64. Никитин У.К. Город Нахчыванского уезда / Сб., Вып. 2, Тифлис, 1882, статья от 1881 г., с. 112-113.
65. Rəcəbov Ə., Məmmədov Y. Orxon-Yenisey abidələri. Bakı, 1993, 400 s.
66. Rüstəmxanlı S. Ömür kitabı. Bakı, 1988, 364 s.
67. Rzayev F. Naxçıvan, Nuh tufanı, tarixi faktlar və ermənilərin növbəti oğurluğu // NDU Xəbərləri, 2005, № 17, s. 6-14.
68. Rzayev F. Gəmiqaya rəsmlərinin və toponimlərinin ümumtürk çağırışı // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1, s. 113-122.
69. Rzayev F. Naxçıvan tarixində Gel tayfaları // NDU Elmi əsərləri, 2008, № 4, s. 178-184
70. Uşaq Bibliyası. Stokholm: Bibliya Tərcümə İnstitutu, 1995, 342 s.
71. Севортян Е.В. Этимологический словарь тюркских языков. Т.III, М., 1979, 777 с.
72. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı: Yazıçı, 1983, 326 s.
73. Сысоев В.М. Нахичевань на Араксе и древности Нах. АССР (Отчет о поездке летом 1927 г.) / Известия Азкомстариса. Вып. 4, тетр. 2, Баку, 1929, 316 с.

75. Смирнов К.Н. Материалы по истории и этнографии Нахичеванского края.Тифлис, 1934. Баку: Озан, 1999, 156 с.
76. Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları. Bakı: Maarif, 1967, 420 s.
77. Talıbov V. Tarix boyunca Naxçıvan və müasir dövr / Naxçıvan tarixinin səhifələri. Bakı, 1996, s. 12.
78. Васильев Л.С. История религии востока. М.: Высшая школа, 1983, 368 с.
79. Yusifov Y.B. Qədim şərq tarixi. Bakı: Bakı Universiteti, 1993, 496 s.
80. Ямпольский З.И. Материалы о происхождении азербайджанского народа // Известия АН Азерб.ССР, 1956, № 1. с. 93-101.
81. Зелинский С. Нахичевань. Газ. «Кавказ», 1872, № 81.

LÜTVİYYƏ ƏSGƏRZADƏ
AMEA Naxçıvan Bölməsi

KLASSİK ƏDƏBİYYATDA NUH PEYĞƏMBƏR VƏ DÜNYA TUFANI

Dünya xalqlarının əksəriyyətinin mifologiyasında, dini ədəbiyyatlarındakı rəvayətlərdə adı çəkilən Nuh peyğəmbər haqqında məlumatların hamısı «Dünya tufanı» ilə birbaşa bağlıdır. Bu total fəlakətlərin səbəbi haqqında belə bir motivasiya var. Rəvayətə görə, dünya tufanı Allaha iman gətirməyən insanlara ulu yaradanın qəzəblənməsi və onları cəzalandırması nəticəsində baş verir. Əksər mənbələrdə dünya tufanı haqqında öncədən xəbərdarlıq edilməsi barədə məlumat verilir. Nuh adı yəhudilik və xristianlıqda da peyğəmbər kimi, dünya tufanı zamanı xilas olan mömin, gəmi düzəldən, insanları, heyvan və quşları xilas edən bir şəxs kimi göstərilir. Onun adı Müqəddəs kitabımızda insanları haqqa – təkallahlığa dəvət edən ülüləzim peyğəmbərlərdən ilki kimi çəkilir. Nuh öz oğulları Sam, Ham və Yafəslə tufandan sonrakı bəşəriyyətin babasıdır. Quranda adı 40 dəfə çəkilən Nuh peyğəmbərin adına ayrıca surə var – «Nuh» surəsi. Hesab olunur ki, Nuh peyğəmbərə Adəm peyğəmbərdən min ildən çox vaxt sonra peyğəmbərlik verilib. Bu zaman ərzində insanlar Tövhid dinində imişlər. Sonralar bütpərəstlik geniş yayılır. Buna səbəb isə Tövhid dini ilə yaşayan insanlar arasında sevdikləri əməli saleh şəxsləri unutmamaq üçün onlara heykəl qoymaq ənənəsi yaranıb. Əslində, bu heykəllər onlara tapınmaq üçün qoyulmayıb, çünki ilk insanlar bunu ağıllarına belə gətirməyiblər. Lakin onlara hörmət güclü olub, ehtimal ki, indiki övliya məqbərələrinə olan inanc kimi, onlara Allaha öz niyyətlərini çatdırmaq üçün vəsilə kimi yanaşıblar. Amma zaman keçdikcə insanlar Tövhid əqidəsindən uzaqlaşmağa, bütlərə inancları isə daha da çoxalmağa başlayıb. Beləliklə, insanlar yer üzündə ilk dəfə olaraq Allaha şərik qoşmağa başlayıblar. Bu qövmün, yəni Nuh qövmünün tapındığı bütlərin adları belə müqəddəs kitabımızda çəkilir: Vedd, Suva, Yağus, Yeik, Nəsr [Nuh, 23].

Nuh tufanının səbəbi də bu böyük günah olur. Allah öz qövmünə Nuhu peyğəmbər olaraq göndərir: «Xəbəriniz olsun ki,

Biz Nuhu «onlara ağrılı bir əzab gəlmədən qövmünü xəbərdar elə» deyə göndərdik» [Nuh, 1].

Nuh onlara Allaha şərik qoşmaqdan əl çəkib, tövhid əqidəsinə qoşulmağı təbliğ edir. Onun ilk təbliği Quranda belə təsvir edilir: «And olsun ki, Nuhu peyğəmbər kimi qövmünə göndərdik. O da varıb: Ey qövmüm! Allaha qulluq edin. Ondan başqa heç bir ilahınız yoxdur. Gerçəkdən mən sizə böyük bir günün əzabının gəlməsindən qorxuram», – dedi. Qövmündən olanlar ona nəinki inanmadılar, həm də onu ələ saldılar: «Şübhəsiz, biz səni açıq bir sapqınlıq içində görürük», – dedilər. Nuh: «Ey qövmüm, məndə heç bir sapqınlıq yoxdur, mən Aləmlərin Rəbbi tərəfindən göndərilən bir peyğəmbərəm», – dedi [Əraf, 59-63].

Nuh peyğəmbərin öz qövmünü haqqa dəvət etməsi barədə «Quran»da bir neçə ayə var. Lakin qövmü ona inanmır, onu yalançı, dəli adlandırırlar: «Tayfasının başçıları ona: «Biz səni (haqq yoldan) açıq-aydın azmış görürük!» deyə cavab verdilər» [Əraf surəsi, ayə 60]. Onda Adamda sadəcə olaraq, bir dəlilik var (ona cin toxunmuşdur). Hələ bir müddət gözləyin! (ya sağalıb xəstəlikdən xilas olar, bir də belə şeylər danışmaz, ya da ölüb gedər, canımız qurtarar [Muminin surəsi, ayə 25].

Qurani-Kərimin bir neçə ayəsində Nuh peyğəmbərin hədələnməsi, daşqalaq edilməsi barədə xəbər verilir. Lakin bütün bunlara (hədələrə) baxmayaraq, Nuh peyğəmbər insanları haqqa dəvət edir, pis işlərdən əl götürməyə çağırır, Allahdan qövmünün bağışlanmasını istəyir.

Bu qövm də, yəni Nuhun qövmü də Məhəmməd peyğəmbərə etiraz edənlərdən imiş. Qurandakı kimi ifadə etsək: «qəlbləri bir-birinə bənzəyirmiş» [Bəqara surəsi, 118]. Bu qövm də peyğəmbər olaraq mələklərin gəlməsini istəyirdi. Atalarının yolunda israr edir, peyğəmbəri isə Məhəmməd peyğəmbərin dönəmində olduğu kimi, «dəli», «cinli», «məcnun» adlandırmışlar. O zamanki insanların bir cəhəti də (indiki zamanda da belə olduğunu unutmayaq) insanın üstünlüyünün malda, var-dövlətdə, vəzifədə olmasını düşünmələri imiş. Bu üzdən də onlar Nuh peyğəmbərin ətrafında toplananlara ikrahla baxır, onları kiçildir, onlarla bir sırada olmağı özlərinin qürürlarına sığışdıra bilmirmişlər. Buna görə də onlar Nuha deyirlər ki, o, ətrafındakı adamları özündən uzaqlaş-

dırsa, bəlkə onu dinləyərlər. Nuh peyğəmbər onların bu tələbini qəbul etmir və deyir: «Mən onları yanımdan qovası deyiləm. Mənim vəzifəm xəbərdarlıq etməkdir» [Şuara, 14-15].

Ümumiyyətlə, peyğəmbərlərə inam həmişə çətinliklərlə başlayıb. Onlara inanmayıblar, ələ salıblar, dəli adlandırıblar, «nə bəla gəlirsə, gətir, görək» demişlər. Belə gedərsə, yəni dəvət qəbul olunmazsa dünyanın dağılacağının labüdlüyünə inanan Nuh peyğəmbər gəmisini düzəldir. Qövmü tərəfindən həqarət və qarğışa məruz qalan Nuh peyğəmbər Rəbbinə dua edib dedi: «Ey Rəbbim! Həqiqətən qövmüm məni təkzib etdi» [Şuara surəsi, ayə 117]. «Artıq mənimlə onlar arasında sən hökm ver, məni və mənimlə birlikdə olan möminləri (bu əzabdan) qurtar [Şuara surəsi, ayə 118]. «Mən öz qövmümün içində məğlub oldum, buna görə də (onlardan) intiqam al», – dedi [Qəmər surəsi, ayə 10]. 950 il ərzində 12 nəfər, bəzi mənbələrdə isə 80 nəfər Haqqa iman gətirdi. Nuh peyğəmbər iman gətirməyənlərə bəddua edərək Rəbbinin intiqam almasını istəyir, onları rəbbinə həvalə edir. Nuh dedi: «Ey Rəbbim! Yer üzündə bir nəfər belə kafir qoyma!» [Nuh surəsi, ayə 26]. «Çünki sən onları (sağ) buraxsan, onlar sənin bəndələrini yoldan çıxaracaq, ancaq pozğun və kafir (oğul-uşaq) doğub törədəcəklər» [Nuh surəsi, ayə 27]. Allah Nuhun qövmünü sınağa çəkdi. Dünya tufanı baş verir, iman gətirənlər qurtulur, kafirlər isə məhv edilir.

Nuh peyğəmbər və dünya tufanı ilə bağlı məlumatlar qədim kitabələr və dini mifologiyada əks olmaqla yanaşı, rəmz, simvol kimi geniş şəkildə klassik ədəbiyyatımızda da öz əksini tapıb. Belə ki, bu məsələyə yaradıcılığı ilə Azərbaycan poeziya məktəbini inkişaf etdirən Qətran Təbrizi, XII əsrin böyük mütəfəkkir şairləri Xaqani Şirvani və Nizami Gəncəvi, Qivami Mütərrizi Gəncəvi, filosof şair Əvhədi Marağalı, XII əsr Azərbaycan poeziya məktəbinin nümayəndələrinə xas şair profesionallığı ilə seçilən Mücirəddin Beyləqani, Azərbaycanın qüdrətli sənətkarı, söz xiridarı Məhəmməd Füzuli, Seyid Əzim Şirvani, Azərbaycanın sevilən şairəsi Xurşudbanu Natəvan, ensikopedik biliyə malik Abbasqulu ağa Bakıxanov və qüdrətli sənətkar Məhəmmədhüseyn Şəhriyar əsərlərində dönə-dönə, fərqli-fərqli aspektlərdən müraciət etmişlər. Məsələn, Qətran Təbrizi «Əbunəzər Məmlanın tərifi»ndə Məmlanın yaxşı məziyyətlərini öydükdən sonra ona Nuh ömrü – uzun

ömür arzulayır; «Mən sənə Nuh ömrü, həm mülkü Süleyman istərəm. Nuh peyğəmbər dini rəvayətlərdən də məlum uzun ömür sürmüş, 950 il yaşamışdır». «Nuhun ömrü» dedikdə Qətran Təbrizi məlum və məşhur dini rəvayətə işarə edir. Nuhun yaşadığı dövrdə haqq yoldan çıxdıqlarına görə Allah qəzəblənib, böyük tufan qoparmış, yer üzünü su basmış, yalnız Nuh və onun ailəsi, gəmi ilə xilas olmuşlar. Beləliklə, Nuh öz müasirlərinin hamısından çox yaşamışdır. Qətran bu səbəbdəndir ki, Məmlana «Nuh ömrü» arzulayır.

Yüksək hüzuruna yetmədim bu gün,
Üzrüm var, günahım burasındadır.
Könül gəmisində fikrinin Nuhu
Mədhin qasırğası ortasındadır [2, s. 402].

Qivami Mütərrizi Gəncəvinin bir qitəsində isə Nuh və tufanı tamamilə başqa bir aspektdən xatırlanır. Fikrimin «Nuhu könül gəmisində mədhin qasırğası ortasındadır» –deyərkən şair demək istəyir ki, könlü Nuhun gəmisi kimi, tufanlar, qasırğalar ortasındadır.

Azərbaycan poeziya məktəbinin davamçılarından olan Əbülula Gəncəvi isə Davudun ağlar səsi ilə Nuhun naləsini xatılayaraq yazır:

And olsun Davudun ağlar səsinə,
Tufanlar qoparan Nuh naləsinə [2, s. 116].

Buradakı «And olsun Davudun ağlar səsinə» dedikdə yəhudi hökmdarı, dini rəvayətə görə, «Zəbur» kitabını tərtib etmiş və oradakı dini mətnləri gözəl və yanıqlı bir səslə oxumuş Davud xatırlanır. «Tufanlar qoparan Nuh naləsinə» misralarına gəldikdə isə, tufanın başlanmasına səbəb olmuş bədduaya – «Nuhun bədduası»na işarə olunmuşdur.

Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən Mücirəddin Beyləqaninin yaradıcılığında da digər klassiklərdə olduğu kimi, Nuhun və tufanının adına rast gəlinir;

Cahanı çulğadı tufan bəlası Nuh kimi,
Gəmini sal dənizə, et iradəni yelkən [2, s. 314].

Xaqani Şirvani yaradıcılığında Nuh peyğəmbər və Nuh tufanı adına daha çox rast gəlinir. Məsələn:

«Leysə min əhlik» deyə, mən anadan olanda
Əqlim mənə öyrətdi bu sözü o zamanda [8, s. 123].

Bağlarında, Nuh nəsli tək, ağacların yox barı,
Sevincləri bir qarının təndirinin rüzgarı [8, s. 131].

Bu misradakı «Leysə min əhlik» sözü «Sənin əhlindən deyil» deməkdir və bu söz guya tufan zamanında Nuh peyğəmbərin qulağına göydən gəlmişdir. Yəni «Ey Nuh, o tufanda batıb məhv olanlar səndən deyil, onlar azğındırlar». Xaqani isə bu misralarda demək istəyir ki, «Mən anadan olanda əqlim qulağıma dedi ki, mən bu adamlardan deyiləm».

Dini rəvayətə görə, Nuhun qövmü onun dinini, Haqqa dəvətini qəbul edib, haqqa iman gətirmədiklərinə görə Allah Nuhun tayfasını əqim (doğub-törəmək qabiliyyətindən məhrum) etmişdir. «Bağlarında, Nuh nəsli tək, ağacların yox barı» misralarında Xaqani barsız ağacları Nuh nəslinə bənzətmişdir.

Bildiyimiz kimi, Nuh peyğəmbər həm də dülgər olmuş, məlum gəmini düzəldərək bir qisim insan, heyvan və quşları xilas etmişdir. Onun bu məziyyətini, Xaqani aşağıdakı misralarda belə ifadə etmişdir:

Nuh hanı ki, ona verim yadigar,
Bu memar təbibdən səttara, pərgar [8, s. 57].

«Şeir dülgərliyinin» ən böyük ustalarına belə həmişə kömək etməyə hazır olduğunu bildirir.

Nuh peyğəmbərdir, Nuh dünya tufanından sonrakı bəşəriyyətin yaradıcısıdır, hər şeydən əvvəl, o həm də xilaskardır. Nuh peyğəmbərin digər məziyyətləri ilə yanaşı, onun xilaskarlığı (ona inananları Nuh öz gəmisinə alaraq xilas etmişdi) isə Xaqani qələminin böyüklüyü ilə dəfələrlə mədh olunmuşdur. Aşağıdakı misralara nəzər salaq:

O, «əbcəd» ki, mənə ustad təlim etdi təcridi,
Saralmış çöhrəmə yazdı qızıl xətlə gözüm qanı [8, s. 6].

Xaqani burada öz dizinin üstünü xilaskar Nuh gəmisinə bənzəyən bir məktəb adlandırır, dizi üstündə qələmindən axıdıb yazdığı dərdlərini isə tufan yağışı ilə müqayisə edir.

Xaqani kimi, Nizami Gəncəvinin də yaradıcılığında, «Xosrov və Şirin», «Sirlər xəzinəsi» əsərlərində Quran ayələri, dini rəvayətlər, Nuh və dünya tufanı ilə bağlı fikirlər çoxdur. Məsələn, Nizami Gəncəvi yazır:

Ruh bağından təzə və təravətli olan sözləri,

Onlar qədim Nuhun əsabələri kimi inkar edərlər

[5, s. 183].

Bu misralarda Nizami Gəncəvi demək istəyir ki, onlar mənim şeirlərimi Nuh peyğəmbəri inkar edən kafirlər kimi inkar edirlər, lakin onların hamısı Nuha inanmayanlar kimi, axırda zəmanə selinin altında məhv olacaqlar, mən isə Nuh kimi sağ qalıb, öz əqidəmi dünyaya yayacağam.

Və ya:

Ey Xızrın bayrağı, (haqq yolunda) mübarizə üçün ucal,
Ey Nuhun nəfəsi bir dua eylə [6, s. 183] misralarında Nuh peyğəmbərə bir başqa aspektdən müraciət var.

Əsatirə görə, Xızır İsgəndərlə zülmətdə dirilik suyunu axtarmağa gedəndə İsgəndərin qoşununun bayraqdarı olmuşdur. Beytdə bunu xatırladan Nizami həmin Xızırın bayrağına müraciət edir; «Ey Xızırın bayrağı, məni əbədiyyətə qovuşmağa qoymaq istəməyən düşmənləri məhv etmək üçün ucal; ey Nuh, məni görməyə gözü olmayan kafirlərə bir bəddua (dünya tufanı bu bədduadan sonra başlar) elə ki, tufanda məhv olsunlar» [7, s. 183].

Ümumiyyətlə, klassiklərimizin yaradıcılıqlarında geniş şəkildə əks olunan bu mövzuya Nizami Gəncəvi dönə-dönə müraciət etmişdir. Məsələn, «Sirlər xəzinəsi» poemasının «Beşinci sitayiş» hissəsində yazır:

Sən həm Adəm, həm də Nuhsan, yox sən onların hər ikisindən də yaxşısan.
Onların hər ikisinin düyünlərini açan sənsən [7, s. 37].

Dini əsatirə görə, Adəm cənnətdə buğda yeyib günaha batandan sonra onun töbvəsi yalnız Məhəmmədin şəfaəti nəticəsində qəbul olunmuş, Nuh (b) da dünya tufanı zamanı Məhəmmədin köməyi ilə xilas olmuşdur.

Və ya məzmunu Quranın «Nuh» surəsindən istiqbas edilmiş

Susuzluqdan dodaqları qurumuş Nuh bu (dünya) süfrəsinə çatanda,
Bulağı itirib, tufana yetişdi [5, s. 38]

beytinin məzmununa görə, «Nuh peyğəmbər öz ümmətini bütpərəstlikdən əl çəkməyə və bir Allaha itaətə dəvət edərkən ona qulaq asmayıb kafirlik, günah, asilik etdilər. Onda Nuh Allahdan rica etdi: «Xudavəndi, yer üzündə evlərdə yaşayan heç bir kafiri saxla-

ma». Bu duadan sonra yer üzünü selsu basdı və Nuh gəmisinə bir neçə cins götürüb xilas etdi.

Bəzi mənbələrdə həmin bəddua Nuh peyğəmbərin səhvi sayılır. Çünki bu bədduadan sonra dünya tufanı baş verdi və Nuh ona inananları öz hazırladığı gəmiyə götürərək xilas edir. Bəzi ehtimallara görə tufan altı ay çəkdi, bəzisinə görə isə 366 gün. Sonra «Su çəkildi. İş bitdi. Cəmi Cudi dağı üzərində oturdu...».

Bunlar isə Nizami Gəncəvi misralarında öz əksini belə tapıb:

Vücudu bəxşişə sarı cövlan etsə.
Bəxşiş yağışının tufanı cudidən keçər [6, s. 39].

Bu misralar Atabəy Əbülfəz Məhəmməd İbni Eldənizin tərifindəndir. Yəni əgər Atabəyin səxavəti coşsa, «Bəxşişə sarı cövlan etsə vücüdü, bəxşiş bolluğunun (yağışının) yaratdığı tufan Cudidən keçər».

Ümumiyyətlə, Yaxın Şərq xalqları ədəbiyyatı, o cümlədən klassik Azərbaycan ədəbiyyatı nümayəndələri bir qayda olaraq öz poemalarını ənənə olaraq tövhid, nət, minəcatmənqəbət, mədh və s. ilə başlayırlar. Yaradıcılıqlarının bu hissəsində, yəni Allahın, peyğəmbərin tərifi, dünyanın yaranması və axirətlə bağlı hissələrində Nuh peyğəmbər və dünya tufanı tez-tez xatırlanır. Məsələn, «Cami cəm» əsərinin müəllifi Əvhədi öz dövründəki pisliklәri tufana, Xacə Qiyasəddini isə insanları bəlalardan nicat verəcək Nuha bənzədir:

Bu tufan dövründə Nuh, rəhbər sənsən,
Bu tələ çölündə müzəffər sənsən [9, s. 25].

Beytin ikinci misrasında isə tələ çölünə bənzədir, elə bir yerə bənzədir ki, ora məhz tələ-tor qurmaq məskənidir. Əvhədi burada tələ deyəndə şəhvət, dövlət, mənsəb, şöhrət və s. kimi ehtirasları nəzərdə tutur və göstərir ki, bu dünyanın qurduğu torlar, tələlər səni əsir edə bilmir, sən dünyanın qurduğu torlara, tələlərə qalib gəlirsən, başqaları kimi ona əsir olmursan.

Nuh, gəmi, tufan ifadələrinə Azərbaycanın böyük söz ustadı Məhəmməd Füzuli yaradıcılığında da rast gəlinir. Şairin «Yeddi cam» əsərində Saqiyə:

Ver, Saqi, o Nuhun gəmisi rahəticani,

Ver ki, məni qərq etdi bu qəm-dərd tufanı [7, s. 312] müraciətində «dərd-qəmin yaratdığı tufanda qərq olanlar Nuh gəmisini» arzulayır,

Gər bükülmüşdür qəddi, eyb eyləmə bir pirdir,
Nuh dövründən verər bir-bir sual etsəm, xəbər [7, s. 220]

misralarında təsvir etdiyi şəxsin ixtiyar, qəddi bükülmüş biri olmasına baxmayaraq, bilikli, məlumatlı biri, «pir» olduğunu ön plana çəkir, yəni istərsən, sənə Nuh dövründən verər xəbər.

Sərq ədəbiyyatında xilaskar və ikinci dəfə dünyanın yaranmasının səbəbkarı – atası sayılan Nuh peyğəmbər haqqında misralara Azərbaycan ədəbiyyatı xəzinəsinə zəngin bir irs qoyub getmiş Seyid Əzim Şirvani yaradıcılığında da rast gəlmək olur. Aşağıdakı misralara nəzər salaq:

Eşqdə qəm çəkməz aşiq tənliyi əğyardən,
Gəştiyi-Nuhə o suriş mövci-tufandan nəbak [8, s. 308]

misralarında şair məlum məsələləri, yəni Nuh və tufanı məsələsini xatırladaraq bildirir ki, sevən aşiq əğyarın tənəsindən qəm çəkməz, necə ki, Nuhun gəmisinə dalğalar ox kimi siruş edirdi.

O qədər ağladım ol mah qəmindən, Seyyid,
Aqibət Nuh kimi aləmə tufan etdim [8, s. 353].

Həzrəti Nuh nəcinəxleyi Tubanı kəsib,
Sənə, ey tifil, gərəkdir yona kəhvarə üçün [8, s. 448].

Tufanə verib mərdümi çüşmim bu cahanı,
Viranə könül kəsməkəsi seyldə qaldı [8, s. 577]

misralarında da Seyid Əzim Nuh peyğəmbər və Nuh tufanını dəfələrlə xatırlayır. Məsələn, birinci beytdə şair demək istəyir ki, bir mah qəmindən o qədər ağladım, aqibətim Nuh kimi oldu, gözümdən axan yaşlarla aləmi selə-suya (tufana) qərq etdim. İkinci və üçüncü beytlərdə də həzrəti Nuh nicat verən, xilaskar kimi xatırlanır.

Nuh peyğəmbər və Nuh tufanı XIX əsrin məşhur şairəsi Xurşudbanu Natəvanın qəzəllərindən birində öz əksini belə tapır:

Dərdihicrində gözüm yaşı tutub dünyanı,
Nuh tufanı kimi, gör ki, nə tufan etdim! [3, s. 69].

Burada dərdin çoxluğundan fəryad edən şairə hicran dərdindən axıtdığı göz yaşını dünyanı selə-suya qərq etmiş Nuh tufanına bənzədərək, Nuh tufanı etdiyini söyləyir.

Dini rəvayətə görə, 6 aydan sonra Nuhun gəmisi uca bir dağın başında oturur. Tufandan sonra yenidən həyat canlanır. Hər dişi və erkək heyvandan balalar törəyib çoxalır, insanlar isə Nuhun üç oğlunun nəslindən artırlar. Sam, Ham, Yafəs. Sonralar onların arasında nifaq düşür və dünya üzərində müxtəlif tayfaların əmələ gəlməsinə də məhz onlar səbəb olmuşlar. Bu məsələ isə A.Bakıxanovun yaradıcılığında öz əksini belə tapır;

Xətti yarın saldı dərdə necə ki, alisami,
Yafəslə Ham nəsli gətirmişdi fəqanə [3, s. 156].

Dini rəvayətlərdə bəzən Nuh peyğəmbərin adı ikinci Adəm kimi də çəkilir. Nuh peyğəmbərin adı isə harada və necə çəkilməsindən asılı olmayaraq, hər zaman tufanla birlikdə çəkilir. Bu Bakıxanovun yaradıcılığında da götürdüyümüz aşağıdakı beytdə də öz əksini tapır:

Bir yerim vardır ki, burda dincəlib Nuh bir zaman,
Qorxmuram indi əgər dəryayə dönsə kainat [3, s. 173].

Abbasqulu ağa Bakıxanov «Təhzibül-əxlaq» əsərinin 4 fəslində, adətə bağlılıq bölməsində Nuh peyğəmbərin qövmünün ona inanmamasını xatırlayaraq yazır: «Bir çox işlər bu tayfanın yanında yaxşı hesab olunur. Məsələn, itə, pişiyə və başqa heyvanlara sitayiş edənlər Allahın birliyinə inanan adamı kafir və yanlış yolda hesab edirlər. Dəlil və sübutlara diqqət etmələrinə baxmayaraq, öz nöqsanlarını bilməzlər. Bunların hamısı göstərir ki, adamların işləri təhqiq və tədqiq deyil, təqlid və təsdiq etməkdən ibarətdir. Onların dəlilləri, təhqiq etmək işi də adətə uyğun olan təsəvvürlərdir». Sənai deyir:

Öküzü Allah bilib ona inanırlar,
Amma Nuhun peyğəmbərliyinə inanmırlar [4, s. 32].

«Nuh dövrü», «Nuh əyyamı», «Nuh əyyamından qalma» kimi ifadələr də klassiklərimizin yaradıcılıqlarında daha çox qədim dövrü, qədimliyi, köhnəliyi bildirmək məqsədi ilə daha çox işlədilir. Məsələn, Azərbaycanın gözəl şairi Məhəmmədhüseyn Şəhriyar «Yalan dünya» kitabında «Gecə və dağ», «Gecənin simfo-

niyası», «Şairin gecəsi» şeirlərində dəfələrlə Nuhun və tufanın xatırlanmasına rast gəlirik.

Sən də sabitliyi get dağdan öyrən,
Nuhu görmüş, hələ qopmaz yerindən.
Çıxınca gəmisi Nuhun tufanından,
Dağda ləngər atdı, hələ o zaman [11, s. 350].

Və ya: Gecə Nuhu görmüş, qədim dünyanı,
Nuhun gəmisini, böyük tufanı [11, s. 372].
Heydərbaba dünya yalan dünyadır,
Süleymandan, Nuhdan qalan dünyadır.
Oğul doğan, dərdə salan dünyadır [11, s. 161]

deyən şair gecənin çox şeylərə şahidliyini, dünyanın qədimliyini, Nuhun gəmisini dağda ləngər atıb dayandığını xatırlayırsa, «Hara qaçsın insan» şeirində isə:

Verərdik qədim divana ərzə, indi
Kimə ərzə verək bu divan əlindən!
Nə tufana rast gəlmişik biz, məgər Nuh
Gələ qurtara xəlqi tufan əlindən [11, s. 53]

deyərək Nuhun xilaskarlığını xatırlamışdır.

Aşağıdakı misralarda isə gecənin nələrə şahid olduğunu sadalayan şair, dünya yaranandan, gecənin də var olduğunu və gecənin qədim dünyada baş verənlərə şahidliyini, Nuhu, Nuhun tufanını və Nuhun gəmisini gördüyünü xatırladır. Şairin digər bir beytində isə dini-mifoloji mənbələrdə «Nuh Nəbi» qarğışı kimi keçən Nuhun qarğışı, bədduası öz əksini tapır. Bu taylı professor Rüstəm Əliyevə yazdığı şeirdəki:

Bir xəbər çatdı mənə, Nuh Nəbi qarğışı tək,
İçərimdən biləsən qopdu nə tufan, Rüstəm [11, s. 99]

misralarındakı məna budur ki, aldığı xəbər ürəkaçan deyil, sanki Nuhun qarğışıdır və bu xəbərin içərisindən qopardığı tufan isə Nuhun tufanına bənzədilir.

Ümumiyyətlə, Azərbaycan ədəbiyyatının klassiklərinin əsərlərindən seçdiyimiz nümunələrdən də göründüyü kimi, Nuh peyğəmbər və Dünya tufanı ilə bağlı məsələlərə öz yaradıcılıqlarında müraciət etmiş sənətkarlar Nuhu bəşəriyyətin ikinci yaradılışının və sənətkarlığın babası (Nuhu bəzən ikinci Adəm də adlandırırlar), xilaskarlığın, nicatın, uzunömürlülüyün, qədimliyin, ululuğun, möminliyin, mübarizliyin, əqimin, dua və bədduanın, sabitliyin,

qəzəbin, cəzanın, səbrin, inkarçılığın və bəzən də çoxluğun – kəmiyyətin kateqoriyasının rəmzi, simvolu kimi istifadə etmişlər.

ƏDƏBİYYAT

1. Qurani-Kərim. Bakı, 1993.
2. VII-XII əsrlər Azərbaycan şeiri. Bakı, 1989, 415 s
3. Bakıxanov A. Bədii əsərləri. Bakı, 1984, 386 s.
4. Bakıxanov A. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1984, 474 s.
5. Füzuli M. Seçilmiş əsərləri. Bakı, 1958, 349 s.
6. Gəncəvi N. Sirlər xəzinəsi. Bakı: Elm, 1981, 246 s.
7. Gəncəvi N. Xosrov və Şirin. Bakı, 1981, 370 s.
8. Xaqani Ş. Seçilmiş əsərləri. Bakı, 1974, 321 s.
9. Marağalı Ə. Camicəm. Bakı, 246 s.
10. Şirvani X. Seçilmiş əsərləri. Bakı, 1978, 321 s.
11. Şəhriyar M. Yalan dünya. Bakı, 1993, 488 s.

NAZİM BABABƏYLİ
Naxçıvan Dövlət Üniversiteti,
FATEH İMAT
Naxçıvan Türk Kolleci

NAXÇIVAN DİYARI NUH TUFANINDAN ƏVVƏL VƏ SONRA

Bugünkü Naxçıvan ərazisi olduqca mürəkkəb geoloji inkişaf tarixi keçmiş və bu inkişaf yolunda dəfələrlə dənizlərin transqressiyasına və reqressiyasına məruz qalmışdır.

Kembriyəqədərki dövrdə, eləcə də Kembridə region uzun müddət ərzində dəniz hövzəsi ilə qapanmış və dənizlərin terrigen çöküntüləri qalın izlər qoymuşdur. Bu zaman ayrı-ayrı yerlərdə baş verən vulkan püskürmələri və tektonik hərəkətlər nəticəsində geoantiklinal qalxmalar quru sahələrini üzə çıxardı.

Əsl inkişaf 420 mln. il əvvəl Devon dövründə başladı. Sədərək yaxınlığındakı Dəhnə dağı Aşağı Devonda dəniz suları altından çıxan ilk quru oldu. Orta Devonun Eyfel yarusunda Vəlidağ bu qurunu daha da genişləndirdi. Eyfel yarusunun dördüncü mərhələsində balıqqulağı, əhəngdaşılar və kvarslı qumdaşılar 1400 metr qalınlığa malik Aşağı Devonun və 551 metrlik eyfel çöküntülərinin üstünü örtdü. Çox da dərin olmayan və 300 metr dərinliyi keçməyən su hövzəsi gah quruya çevrildi, gah da yenidən dənizə çevrildi. Bu tapılan dəniz mərcanları, braxiopodlar suların tropik iqlimdə olduğu kimi isti keçməsini sübut etməkdədir.

Yuxarı Devonda relyefdə qalxma və enmələr aktivləşir. Dəniz və quru çöküntüləri bir-birini əvəz edir və Frans əsrinin sonunda qalınlığı 180 metrə çatan sırf dəniz çöküntülərinin qalın təbəqəsi yaranır. Bu çöküntülər içərisində tapılan *macgcea solitaria, camarotoechia aft. prolifica hall; Spirifer mediotextus var. Araxicus Rzon* və s. böyük dənizin Uraldan Pamirə, Timana və Rus platformasına qədər uzandığını isbat edir. Famen sonunda dəniz çəkilərək yerini quruya verir və quruda güclü eroziya başlayır [1, s. 204].

Aşağı Karbonda, xüsusilə Turney mərtəbəsinin əvvəllərində, Famendə olduğu kimi, braxiopod faunası dəniz arealında hakimlik edir [2, s. 54]. Yuxarı Turney zəngin mərcan faunası ilə

səciyyələnir. Naxçıvan ərazisində tapdığımız fauna nümunələri, məsələn *Athyris sulcifera, Productus praelongus, Canina cylindrica, Productus giganteus* və sairləri buradakı dənizin göstərilən fosulların tapıldığı Şimali Fransa, Belçika, Qazaxıstan və Donbasla eynilik təşkil etdiyini isbat edir.

Orta Karbonda Naxçıvan ərazisində Herstin orogenezisi başlayır və ərazi bütövlükdə sudan çıxır, Aşağı Karbonda isə dəniz suları ərazini yenidən tutur, mərcanların, qastropodların, foraminiferlərin inkişafı başlayır.

Perm dövründə dəniz və quru çöküntülərinin növbələşməsi gözə çarpır. Dəniz faunası sərbəst miqrasiya edir. Naxçıvanı əhatə edən böyük dəniz Şimali Qafqaza, Himalaya və Çinə qədər uzanır. Permin sonunda isti iqlim qurulaşır,buxarlanan dəniz sularının yerində, xüsusilə dəniz sahillərində qalın duz və dolomit təbəqəsi yaranır.

Qalınlığı 1000 metrə çatan Trias erasına məxsus çöküntülər Muxtar Respublikada böyük sahə tutur və əsasən Şərur-Culfa antiklinorisi ilə səciyyələnir. Aşağı və Orta Triasın çöküntüləri Payadərədə 77 m, Keçəltəpədə 199 m, Culfada isə 75 m təşkil edir. Mərcanlar, braxiopodlar ölərək öz yerlərini ammonit və qastropodlara verir.

Orta Triasda dəniz hövzəsində əvvəl sakit çöküntü toplama prosesi gedir. Sonra dolomitli çöküntülərin artması pelesiodların, daha sonra qastropodların yox olmasına səbəb olur və nəhayət, dəniz faunası tamam itir [1, s. 213].

Yuxarı Triasda indiki Naxçıvan ərazisi Tetis okeanının altında qalır.

Trias və Yura arası dövrdə Naxçıvan MR-in qərb hissəsi qalxmağa məruz qalır. Yura hövzəsinin sahil xətti geri çəkilir və indiki Nehrəm qalxmasının cənubundan keçir. Arazın Culfa, Nehrəm dərələrində, Çalxanqalada, Arpaçayın şərqində güclü vulkanizm başlayır.

Orta Yurada dənizin yenidən hücumu başlayır. Əvvəl normal dəniz çöküntüləri qumlar, daha sonra isə gil və mergellər iz qoyur. Reqressiyanın başlaması ilə əlaqədar çöküntü toplanması dayanır.

Təbaşir dövrü Naxçıvan ərazisində çox böyük sahədə iz qoymuşdur. Gilançayda apardığımız müşahidələr zamanı Təbaşirə

məxsus müxtəlif fauna növlərinə rast gəlinmişdir. [2, s. 266]. Aşağı təbaşirdə əyilmələr başlayır. Yuxarı Alpda aktivləşən yeni tektonika və vulkanizm Senomonda reqressiya ilə bitir. Senomon yarusunun qumdaşı süxurları *triqonia alaeformis, attenuata, Brodokardia, hillana* kimi faunalarla çöküntü yaradır.

Y.Bababəyli və Ə.Qurbanovla birlikdə Vəlibaba mağarasında apardığımız tədqiqatlar zamanı mağara ətrafındakı Kuest tirələrini təşkil edən əhəngdaşlı süxurlar içərisindən topladığımız fosulların analizləri onların Senomon, Kampan və Maastrix nümunələri olduğunu isbat etmişdir [6, s. 86].

Turonda Yuxarı Təbaşiri və Paleoseni əhatə edən geosinklinal mərhələsi inkişaf edir. Əvvəlki etaplarda olduğu kimi, mərhələ vulkan fəaliyyəti, transqressiya ilə başlayır, reqressiya və əyilmələrlə bitir. Turon yarusu faunasına Gilançayın aşağı hissəsində və Cəhriçayın şimalının sol sahilində arqillidlərin pelitomorf əhəngdaşıların, tuflu qumdaşıların içərisində rast gəlinir. Onun əsas nümayəndələri *Plicatula bathensis, Astarte trigonoides, Actaeonella grandiformis modiola corinata* və sairədən ibarətdir. Konyaksantonda fauna *Coras falcatus, Ptychodus mamillarıs* və s. həsabına daha da zənginləşir [1, s. 219]. Kampan yarusunda petitomorf əhəngdaşılarla yanaşı mergel və qumlu əhəngdaşılardan ibarət çöküntü qatı yaranır. Dat yarusu əsasən gildən təşkil olunub və Biləv kəndi yaxınlığında daha aydın seçilir. Gipsli çöküntülər içərisində həm də çoxlu bitki qalıqlarına rast gəlinir. Bu Laqun və dayazlıq şəraitinin olmasını sübut edər.

Paleosendə qurunun hakimiyyəti başlayır.

Eosen çöküntüləri Muxtar Respublikanın şərqində daha geniş yayılmışdır. Bu çöküntülər yeryer Aşağı Eosenin vulkanogen təbəqəsi ilə kəsilmiş, eləcə də Orta və Yuxarı Eosenin tufokonqlomeratları ilə örtülmüşdür. Eosendə Zəngəzurun qərb yamaclarında və suayırıcıda vulkan aktivləşir, Dəvəboynu, Ağdağ, Kazangöldağ, Karanquç və s. kimi yüksəkliklər formalaşır [3, s. 278].


Aşağı Eosenin fasial xüsusiyyətləri tamamilə təbəqələşmənin planına uyğun gəlir. Birinci zona o qədər də qalın olmayan effuziv porfiritlərdən, ikinci zona əsasən tufokonqlomeratların və porfiritlərin yaratdığı tufobrekçilərdən təşkil olunub. Muxtar Respublikanın qərbini əhatə edən üçüncü zonada tufobrekçilər, tufokonqlomeratlar və tufoqumdaşılar azalır.





Clymenia undulata (Devon)
Allorisma komiensis (Perm)





Arietites (Yura)
Belemnitella (Yura-Təbaşir)





Echinocorys (Təbaşir)
Micraster (Təbaşir)
Naxçıvan ərazisində dənizin varlığını isbat edən daşlaşmış fauna numünələri.

Orta Eosendə transqressiya maksimum həddə çatır. Zəngəzurda quru sahələri tək-tək adalardan, Qızılvəngdən Aşağı Yaycıya kimi Şərur-Culfa antiklinorisi isə tamamilə qurudan ibarət olur. Gilançay və Əlincəçayın yuxarı hövzəsində Eosenin vulkanogençöküntü qatı 1100 metr təşkil etməkdədir. Bu qat qərbə doğru tədricən azalır.

Yuxarı Eosenin sonunda Zəngəzur geosinklinalını tədricən tərk edən dəniz Sürməli çökəyinə (Ararat vadisi) doğru çəkilir. Oliqosendə vulkanik proseslər güclənir, Mehri-Ordubad batolitinin formalaşması başa çatır [5, s. 137].

Neogendə litologiya və fasiya dəyişmələri göstərir ki, ərazidə aşağı quru şəraiti hökm sürür, sututarlar şirinsulu göllərdən təşkil olunur, Arazboyunda iri qırılmalar əmələ gəlir və kanyonvari dərələrin nisbi hündürlüyü 200 metri keçir [4, s. 238]. Naxçıvan depressiyasında enmələr aktivləşir. Miosendə sınma qərbə doğru genişlənir. Arazboyunda bir-biri ilə əlaqəli iki çökəklik formalaşır. Bunlardan biri Naxçıvan, digəri isə Sürməli (Ararat) çökəyidir. Şərqdə nəzərə çarpmayan Sarmat çöküntüləri şimal-qərbə doğru inkişaf edərək Paleozoy massivini kəsib keçir və Sürməli çökəyinə birləşir. Bu onu göstərir ki, Sarmatda Naxçıvan və Sürməli çökəklikləri arasında əlaqə mövcud imiş.

Miosendə ərazinin laqun və dəniz rejimi yenidən bərpa olunur. Su altında qalan Naxçıvan çökəyi şərqdən və cənub-şərqdən quru ilə əhatələnir. Bu qurudan yuyulan çöküntülər depressiyanın dolmasında iştirak edir. Karakan əsrinin əvvəlində iqlim istiləşir, qurudan gələn şirin suların miqdarı azalır və hövzədə buxarlanma artır. Çökəyin cənub-şərqində (Nehrəm rayonunda) dayaz körfəz formalaşır və onun dənizlə əlaqəsi dövrü olaraq pozulur, eyni zamanda buxarlanmanın miqdarı səthi axarlarla daxil olan suyun miqdarından çox olur. Beləliklə, duzların konsentrasiyası artır, anhidrid və daş duzun böyük ehtiyata malik yataqları yaranır. Bu zaman ərazilərdə körfəz rejimi hökm sürür.

Konk və Sarmat əsrlərinin sərhədlərində körfəz qərbə doğru genişlənir. Körfəz dayazlaşır, hövzə sürətlə şorlaşır, Duzdağ alçaq dağlığında anhidrid, gips və daş duzun qalın çöküntüləri əmələ gəlir. Hökm sürən kontinental şərait Yuxarı Sarmatda dənizin yeni hücumları ilə pozulur və paleocoğrafi şərait dəyişir. Lakin açıq dənizin suyu əvvəlkinə nisbətən şirin olduğundan hidrokimyəvi çöküntülərin əmələ gəlməsi müşahidə edilmir.

Miosenin sonu-Pliosenin əvvəlində tektonik hərəkətlərin yeni partlayışı başlayır və Naxçıvan ərazisini birdəfəlik tərk edir [1, s. 237-239]. Pliosenin sonu və dördüncü dövrdə ərazidə bütövlükdə geoantiklinal tendensiya hökm sürür və bu qərbə nisbətən şərqdə daha yaxşı inkişaf edir. Müasir relyef tədricən formalaşır.

Göründüyü kimi, qədim Naxçıvan ərazisi dəfələrlə dənizlərin suları altında qalır və quruya çevrilir. Bu dənizlər Muxtar Respublikada silinməz izlər qoyur. Kim bilir, Nuhun gəmisi bu dənizlərin hansında üzürmüş?

ƏDƏBİYYAT

1. Азизбеков Ш.А. Геология Нахичеванской АССР. М., 1961, 502 с.
2. Bababəyli N.S., Qurbanov Ə.K., Əsgərov C.E. Gilanın geomorfologiyası // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2006, № 5, s. 264-266.
3. Bababəyli N.S., Süleymanova G.M., Məmmədova Y.F.

Ordubad Göygölü // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2008, № 2, s. 276-279.
4. Babayev N., Babayev V., Qədirzadə Q., Qurbanov Ə. Dərəşam mağarası // BDU-nun Xəbərləri. Təbiət elmləri seriyası, 2002, № 3, s. 237-242.
5. Bababəyli N.S. Gəmiqayanın bəzi geoloji xüsusiyyətləri və paleocoğrafi şəraitinə dair // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1, s. 137-141.
6. Bababəyli N. S., Qurbanov Ə.K., Bababəyli Y.N. Naxçıvanda Vəlibaba mağarası // Naxçıvan Dövlət Universitetinin Xəbərləri, 2005, № 16, s. 85-88.

TÜRKAN QƏDİRZADƏ
AMEA Naxçıvan Bölməsi

GİLANÇAY HÖVZƏSİNDƏ NUH PEYĞƏMBƏR VƏ DÜNYA TUFANI İLƏ BAĞLI RƏVAYƏTLƏR, İNAMLAR

Naxçıvan ərazisində Dünya tufanı, onun baş vermə səbəbləri, gəminin harada dayanması, Nuh peyğəmbərlə bağlı müxtəlif rəvayətlər mövcuddur. Araşdırmalar göstərir ki, Nuh peyğəmbərlə bağlı olan rəvayətlər, yer adları, yaşayış məskənləri və ziyarətgahlar Naxçıvan ərazisində geniş yayılmışdır. Bu yazıda əsas məqsədimiz bölgədə yayılmış Dünya tufanı ilə bağlı inam və rəvayətləri araşdırmaq, onların yayılma arealını öyrənməkdən ibarətdir. Toplanmış rəvayətlərin araşdırılması göstərir ki, Naxçıvan tufandan sonrakı sivilizasiyanın ilkin mərkəzlərindən biridir. Bədxah qonşularımız olan ermənilər Nuh peyğəmbərlə bağlı olan bir sıra hadisələri özününküləşdirməyə çalışırlar. Onların əsas məqsədi həmin rəvayətlərdə adı keçən əraziləri və xalq arasında qeyd olunan bayram və mərasimləri özlərinə aid etməkdir. Elmi cəhətdən əsassız olan bu uydurmalarının arxasında Naxçıvanla bağlı ərazi iddiaları dayanmışdır. Nuh peyğəmbər və Dünya tufanı ilə əlaqəli elmi həqiqətləri üzə çıxarmaq məqsədi ilə son illər ərzində mütəmadi olaraq Muxtar Respublikanın bütün bölgələrinə ekspedisiyalar təşkil olunmuş, xalq arasında mövcud olan və yaşlıların yaddaşlarında qorunub saxlanılan məlumatların, rəvayətlərin sistemli halda toplanıb araşdırılması üçün şərait yaradılmışdır. Toplanan materiallar əsasında aparılan müqayisəli araşdırmalar həqiqətləri ortaya çıxarmağa, tarixən Naxçıvan ərazisində mövcud olan rəvayətlərin Azərbaycan türklərinin ulu babalarına mənsubluğunu söyləməyə imkan verir.

Tarixi mənbələrdən məlum olur ki, qədim türklər yaşadıqları ərazilərdə, yayıldıqları arealda öz milli-mənəvi mədəniyyətlərini yaratmışlar. Nuh peyğəmbərlə bağlı olan, sivilizasiyanın ilkin mərkəzlərindən sayılan Gəmiqaya abidəsinin tədqiqinə diqqət son illərdə nəzərəçarpacaq dərəcədə artmışdır. Bunun təsiridir ki, problemlə bağlı çox sayda kitab və məqalələr nəşr edilmiş, Gəmiqaya abidəsinin tarixiliyi ilə bərabər bölgənin etnoqrafiyası, folkloru ilə bağlı məsələlər geniş şəkildə araşdırılmış və tədqiqata cəlb edilmişdir. Problemlə əlaqəli H.Q.Qədirzadənin nəşr etdirdiyi «Nuh

peyğəmbər, Dünya tufanı və Naxçıvan» kitabında bir çox mübahisəli məsələlərə aydınlıq gətirilmişdir [4].

Biz Gilançay hövzəsində yerləşən kəndlərdən Gəmiqaya, Nuh peyğəmbər və Dünya tufanı ilə əlaqəli geniş etnoqrafik materiallar toplamışıq. Həmin materialların ilkin təhlili göstərir ki, xalq arasında Dünya tufanı ilə bağlı elmi dövrüyyəyə daxil olmamış geniş məlumatlar, müxtəlif tipli rəvayətlər vardır. Xarakterinə görə rəvayətləri 2 yerə bölmək olar: 1.Tufanaqədərki 2.Tufandansonrakı həyat tərzi ilə bağlı olanlar. Tufanaqədərki rəvayətlər Dünya tufanının baş verməsinin səbəbləri, Nuh peyğəmbərin insanları xəbərdar etməsi və gəminin düzəlməsi ilə əlaqəlidir. Tufandansonrakı rəvayətlər gəminin harada dayanması, qədim yaşaış məskənləri və yer adları ilə bağlıdır. Tarixdə ən mübahisəli məsələlərdən biri Nuh peyğəmbərin gəmisinin hansı ərazidə dayanmasıdır. Rəvayətə görə, hər kəs yolunu azmış, insanlar arasında küfr hökm sürürmüş, insanları cəzalandırmaq üçün Allah-Təala Nuh peyğəmbərə Dünya tufanının olacağını, dünyanın üzünü su basacağını xəbər verir və böyük bir gəmi düzəltməyi əmr edir. Gəmini hazırlamaq üçün çoxlu ağac lazım idi. Peyğəmbər onu toplamağa adam axtarır. Həmin ərazidə Acqulu adlı nəhəng bir adam var imiş, əlinə keçəni yeyirmiş, amma doymurmuş. Xalq arasında Acqulu, Acıbılıx, Ucubılıx və Ac adı ilə də bilinir. Acqulu çox nəhəng bir insan imiş, bir ayağını Arazın o tayına bir ayağını Arazın bu tayına qoyaraq əyilib Arazdan su içərmiş. Tufan zamanı su Acqulunun aşıqlığına qədər çıxmışdır. Nuh peyğəmbər gəminin düzəldilməsi üçün Acquluya meşədən odun gətirməyi tapşırır. Acqulu peyğəmbərə: «Qarnımı doyursan, sənə odun gətirərəm», – deyir. Nuh peyğəmbər Acquluya deyir ki, sən yeməkdən əvvəl «Bismillah» desən, o zaman doyarsan. Doğrudan da, o, yeməkdən əvvəl «Bisimillah» deyir və həmin vaxtdan Acqulu bir az yedikdən sonra doyurmuş (Rəvayət Ordubad royonunun Xurs kəndindən toplanmışdır). Oxşar rəvayət Anadolu türklərində də mövcuddur. Ercilasun Ahmet Bican «Kars ili ağızları» kitabında bu rəvayətin oxşar variantını vermişdir [3, s. 250]. Müəllifin Kars bölgəsindən topladığı rəvayət Naxçıvanla oxşarlıq təşkil edir. Rəvayətdə bir fərq ondadır ki, Naxçıvan variantında peyğəmbərə kömək edən adamın adı Ac, Acqulu, Acıbılıx, Ucubılıx, Kars variantında isə Burc olaraq bilinir. Buradan belə bir nəticəyə gəlmək

olar ki, hər iki rəvayət eyni mənbədən qidalanmışdır. Nuh peyğəmbər bir müddət keçdikdən sonra gəmini hazırlayıb qurtarır. Bu işdə iman edənlər və ailə üzvləri də peyğəmbərə kömək etmişlər. Gəminin hazırlanması üçün qoz, palıd, şam ağaclarından və qatrandan istifadə olunmuşdur. Rəvayətdə deyilir ki, gəmi hazırlandıqdan sonra bir müddət yer üzünə yağış yağmır. Nankor insanlar «Dünya tufanı nə zaman olacaq» – deyə Nuh peyğəmbərə gülürmüşlər. Boş qalan gəmini murdarlayır, içini əllərinə keçən zibillə doldururlar. Çox keçmədən, həmin ərazidə kütləvi yoluxucu xəstəlik yayılır nə edirlərsə ondan qurtara bilmirlər. Bir gün yenə gəmiyə natəmiz şeylər atmağa gedən bir nəfər yıxılır və bədəni orada olan zibilə bulaşır. Sonra həmin adam xəstəlikdən qurtarır. Bunun eşidən digər insanlar da sağalmaları üçün gəmiyə atdıqları zibilləri götürüb bədənlərinə sürtürlər. Təbii ki, bütün bunların heç biri təsadüfən olmayıb. Allah-Təala o qədər böyük gəmini Nuh peyğəmbərin təmizləməməsi üçün özləri bir zamanlar zibil deyə atdıqlarını dərman kimi itsifadə etməyi məsləhət görmüş və insanlara böyük bir bəla göndərmişdir. Bundan sonra insanlar yenə də Nuh peyğəmbərə qarşı nankorluq edərək yağış yağmayan bir ərazidə Dünya tufanı olacağından şübhə edirmişlər.

Tufanla bağlı digər bir rəvayətdən aydın olur ki, gəmi hazırlanıb qurtardıqdan sonra yağışların yağmaması peyğəmbəri narahat edirmiş. Bir gün peyğəmbərin xanımı çörək bişirmək üçün təndiri qalamaq istəyərkən təndirin su ilə dolduğunu görür. Bunu peyğəmbərə xəbər verir. Peyğəmbər: «Gəmiyə minin, təndirin su ilə dolması Tufan olacağına işarədir», – deyir. Toplanan materiallara əsaslanaraq demək olar ki, yağış yağmağa başladıqdan sonra 40 gün 40 gecə davam edir. Xalq arasında olan inama görə, gəmi yol aldıqdan sonra, yəni suyun üzünə çıxdıqdan sonra ilk olaraq Türkiyə ərazisində olan Ağrı dağa, İran ərazisində olan Kəmki dağa, sonra Naxçıvan ərazisində olan İlanlı dağa, son olaraq isə Gəmiqaya (Qapıcıq) dağına toxunaraq dayanmışdır. Heç təsadüfi deyil ki, xalq buranı Gəmiqaya adlandırıb. Rəvayətə görə, gəmi Naxçıvan ərazisində 6 dəfə fırlanıb, burada dayanmışdır. Mənbələrdən məlum olur ki, gəminin dayandığı ərazidə böyük bir soy yaranmış və insanlar dünyaya buradan yayılmışlar.

Gəmiqaya ərazisində Qaranquş yaylağı, Camışölən, Nəbiyurdu yer adlarının olması diqqəti xüsusilə cəlb edir. Bunlarla bağ-

lı xalq arasında müəyyən rəvayətlər vardır. Qaranquşla bağlı rəvayətdə deyilir: Sular çəkilməyə başlayanda Nuh peyğəmbər qarğanı göndərib deyir ki, get, qurudan xəbər gətir. Qarğa gedib yolda bir leşə rast gəlir, başı ona qarışır, geri qayıtmır. Sonra qaranquşu (bəzi mənbələrdə göyərçini) göndərir. Qaranquş qurunun göründüyünü insana xəbər verir. Rəvayətə görə qurunun göründüyünü Nuh peyğəmbərə xəbər gətirən qaranquşu insanlar müqəddəsləşdirir və ilk məskən saldıqları əraziyə onun adını verirlər. Bu barədə xalq arasında geniş məlumat vardır.

Nuh peyğəmbərin Naxçıvanla bağlılığı ilə əlaqəli rəvayətlər bununla bitmir. Məlumdur ki, Gəmiqaya ərazisində Camışölən adlanan yer vardır. Bölgədən toplanmış rəvayətə görə, tufandan əvvəl Nuh (ə.s.) gəmiyə 2 erkək, bir dişi camış götürmüşdür. Bunun səbəbini soruşduqda Nuh (ə.s.) sağ-salamat qurtardıqdan sonra camışı qurban verəcəyini söyləyir. Tufan dayandıqdan sonra quruya çıxdıqda böyük bir bəladan sağ salamat qurtaran Nuh (ə.s.) həmin camışı qurban kəsir. Elə həmin vaxtdan ora Camışölən adlanır (Rəvayət Ordubad rayonunun Nurgüt kəndindən toplanmışdır). Dünya tufanından sonra qurban kəsilməsi qədim şumer dastanı olan Bilqamısda da öz əksini tapmışdır. Əsərdən məlum olur ki, quruya çıxdıqdan sonra Utnapişti yüksək bir dağa çıxaraq dörd istiqamətə qurban kəsir [2, s. 91].

Xalq arasında Gəmiqaya ərazisində olan Qız-Gəlin çuxuru ilə bağlı inamlar vardır. Deyirlər ki, tufandan sonra Nuh peyğəmbərin qızları və gəlinləri ilk olaraq həmin əraziyə ayaq basmışlar. Xalq arasında Qız-gəlin çuxuru müqəddəs hesab olunur. Yaxın keçmişə qədər ilin isti vaxtlarında niyyəti olan qız-gəlinlər həmin yeri ziyarət edərmişlər.

Naxçıvan ərazisində Qaranquş yaylağının, Nəbiyurdunun olması, dağın Gəmiqaya adlanması Nuh peyğəmbərin gəmisinin burada dayanmasını bir daha sübut edir.

Gəmiqaya ətrafı kəndlərdən topladığımız materiallara əsaslanaraq demək olar ki, Dünya tufanından əvvəl Naxçıvan ərazisində olan Göy göllə indiki Ermənistan ərazisində olan Qazan göl bir gölü təşkil edirmiş. Tufandan sonra həmin göl ikiyə bölünmüşdür. Xalq arasında Göy göl və onun ortasında olan daşla bağlı maraqlı inamlar vardır. Göy göl haqqında olan rəvayətə əsasən, gölün ortasında olan daş deyil, Nuh peyğəmbərin düzəltdiyi gəminin qalığıdır. Buna görə

də o, müqəddəs hesab edilir və niyyət üçün də istifadə olunur. Bu məqsədlə almanı suya atırlar, həmin alma daşın ətrafında bir dəfə fırlanıb, gəlib atan adamın bərabərindən keçərsə, niyyət qəbul olmuş sayılır. İndi də onun daş və ya taxta olduğu haqqında heç bir məlumat yoxdur. Xalq arasında belə bir inam vardır ki, indiyə qədər heç kim ona toxunmamışdır. Nəsildən-nəslə ötürülən xalq yaddaşına, ətraf kəndlərdən toplanan mareriallara əsaslanaraq demək olar ki, Gəmiqaya ərazisindən bəzi taxta qalıqları tapılmışdır. Etnoqrafik və folklor materialları əsasən ətraf kəndlərdən (Xurs, Tivi, Nəsirvaz, Bist, Nurgüt) toplanmışdır. Bist kənd sakini Rzayeva Mərziyyə Əlhümbət qızının verdiyi məlumata görə, o balaca uşaq olanda Bakıdan Bakıxanov adlı bir nəfər onlara gəlmiş və onun atası ilə birlikdə Gəmiqaya ərazisindən bəzi taxta qalıqları tapmışlar. Onun eşitdiklərinə əsasən, Bakıxanov soyadlı həmin şəxs tapdıqları taxtaların Nuh peyğəmbərin gəmisinin qalıqları olduğunu söyləmişdir. Gəmiqaya ətrafı kəndlərdə Nuh peyğəmbərin gəmisinin burada dayanmasına inam olduqca böyükdür.

Bunlarla bərabər ətraf kəndlərdə olan bir sıra pirlər və müqəddəs ziyarətgahlarla bağlı çoxlu materiallar da əldə edilmişdir.

Gəmiqaya yaşayış yerində qayaüstü təsvirlər üstünlük təşkil edir. Təsvirlərin əksəriyyəti Qaranquş yaylağındadır. Qayaların üstündə olan hər bir təsvir müəyyən inamlarla bağlıdır. Qayaüstü təsvirlərin öyrənilməsi vasitəsi ilə ərazinin qədim türklərə məxsus olduğunu söyləmək mümkündür. Təsvirlər arasında keçi, ilan, quş, maral, insan və ov səhnələri geniş yayılmışdır. Həmin təsvirlər qədim türklərin müqəddəs hesab etdikləri heyvanlar və onlarla bağlı inamları öyrənməyə imkan verir. Ərazidə heyvan təsvirlərinin üstünlük təşkil etməsi xüsusilə maraqlıdır. Toplanmış rəvayətə görə, bu 12-heyvanlı türk təqvimi ilə əlaqəlidir. Bildiyimiz kimi, hər il bir heyvanın üstündə təhvil olur və illər bu heyvanların xarakterinə uyğun gəlir. Naxçıvan ərazisində ilin niyə məhz bu heyvanların üstündə təhvil olması ilə bağlı müəyyən rəvayətlər mövcuddur ki, bu da Dünya tufanı ilə əlaqəlidir.

Gəmiqaya yaşayış məskənində keçi təsvirləri daha geniş yayılmışdır ki, bu həm ərazidə heyvandarlığın inkişaf etdiyini, həm də keçi kultu ilə bağli inancları öyrənməyə imkan verir. Təsvirlərdə keçilər iribuynuzludur. Keçi kultu bütün türk xalqları arasında geniş yayilmışdır. Altay əfsanələrinin birində Dünya tufanının olacağını ilk

olaraq insanlara dəmirbuynuzlu, göytüklü (yunlu) keçi xəbər vermişdir. O, 7 gün yer üzünü gəzib insanları tədbirli olmağa çağırmışdır. Keçi təsvirlərinin üstünlük təşkil etməsi, onun müqəddəs sayılması, məişətdə geniş yayılması Dünya tufanı ilə bağlıdır [5, s. 15].

Gəmiqaya təsvirləri içərisində ilan təsvirləri xüsusi yer tutur. Gəmiqaya ərazisində olan ilan təsvirləri bu ərazidə ilan kultunun geniş yayıldığını söyləməyə imkan verir. İlanla bağlı bir rəvayətdə deyilir: Dünya tufanı zamanı bütün canlılar gəmiyə yığılır. Çox keçmədən, gəmi bir yerdən deşilir və su içəri dolmağa başlayır. Nuh (ə.s) peyğəmbər deyir: «Kim bu açılan deşiyi tıxsa, nə arzusı varsa ona çatacaq». Bu zaman gəmidə olan böyük bir ilan həmin açılan yeri tıxır [1, s. 46]. Suyun gəmiyə dolmasının və insanların məhv olmasının qarşısını alır. Beləcə insanlar ilanı müqəddəs hesab etməklə onun qoruyucu xüsusiyyətə malik olduğuna və hər zaman onları məhv olmadan qoruyacağına inanmışlar.

İlanın insana xeyirxahlıq etməsinə nağıl və dastanlarımızda, xalq arasında olan bəzi rəvayətlərdə də rast gəlirik. İnama görə, ağ ilan müqəddəsdir, onu öldürmək günah sayılır. Azərbaycan mifologiyasında ağ və qara rəngli ilanlardan geniş bəhs olunur. Rəvayətlərin bəzilərində ilan insana xeyirxahlıq edir, ona yol göstərir, bəzən isə ilan bəd, uğursuz hesab edilmişdir.

Yekun olaraq demək olar ki, Nuh peyğəmbər və Dünya tufanı ilə əlaqəli rəvayətlər, toponimlər müəyyən tarixi hadisələrə söykənməklə daha çox Naxçıvanla bağlı olmuş, tufandan sonrakı ikinci sivilizasiya buradan başlanmışdır.

ƏDƏBİYYAT

1. Azərbaycan mifoloji mətnləri. Bakı: Elm, 1988, 196 s.
2. Bilqamıs dastanı / Rus dilindən çevirəni və ön sözün müəllifi İ.Vəliyev. Bakı: Gənclik, 1985, 104 s.
3. Ercilasun A.B. Kars ili ağızları. Ankara: Kültür Bakanlığı, 1983, 350 s.
4. Qədirzadə H.Q. Nuh peyğəmbər, Dünya tufanı və Naxçıvan. Naxçıvan: Qızıl dağ, 2008, 192 s.
5. Vəliyev K. Elin yaddaşı, Dilin yaddaşı. Bakı: Gənclik, 1988, 280 s.

ZAKİR RZAYEV,
ASƏF ORUCOV
AMEA Naxçıvan Bölməsi

NUHUN GƏMİSİ RƏQƏMLƏRİN DİLİ İLƏ

Bəşəriyyətin I məhvinin səbəbkarı kimi bilinən «Dünya daşqını» və ya «Nuh tufanı» kimi tanıdığımız rəvayət haqqında məlumatlara dini, mifoloji və tarixi ədəbiyyatda çox rast gəlinir. Hadisənin gerçək olmasını sübut etmək istəyən tədqiqatçılar onun bir əraziyə, yoxsa bütün dünyaya aid olması haqqında yekdil rəyə gələ bilməmişlər. Su dünyada təkcə konkret balansı bilinən deyil, bütün dünya okeanlarında və su hövzələrində eyni səviyyədə qərarlaşmağı bacaran maddədir.

Hadisənin başvermə dövrü haqqındakı fikirlər onun həqiqət, yoxsa bir əfsanəyə söykəndiyini söyləməyə imkan verməmişdir. Dini kitablarda yer alan bu gerçəkliyin doğma Naxçıvanla birbaşa əlaqəsi olması, gəminin Gəmiqaya ətəklərində lövbər salması, Nuhun qəbrinin Naxçıvanda olmasından dolayı hadisəyə qiymət verərkən onu real faktlara bağlamaq, hadisənin baş verdiyi dövrün iqlimini, zamanını, o böyüklükdə gəminin hazırlanmasının mümkün olmasını sübut etmək vacib məsələlərdəndir.

Ümummilli lider Heydər Əliyev Naxçıvan tarixinə qiymət verərkən demişdir: «Bu gündə, gələcəkdə xalqımızın tarixi köklərini ümumi, bəlkə də bəzən çox gözəl ifadələrlə, bəzənmiş sözlərlə yox, elmi sübutlarla, elmi əsaslarla həm öz xalqımıza çatdıraq, həm də bütün dünyaya sübut edək ki, Azərbaycan xalqının kökü haradandır. Tarix nədir və Azərbaycan bir ölkə kimi bəşər tarixində hansı yeri tutur. Mən açıq deyə bilərəm ki, görkəmli yeri tutur. Ancaq biz bunu indiyə qədər göstərə bilməmişik» [1, s. 1].

Altı il bundan əvvəl söylənilmiş bu ifadələr göstərir ki, Zaqafqaziya geosiyasi konteksində Naxçıvan gerçəkliyinin, burada ulu babalarımız, sələflərimiz olan qədim tayfaların 10 min ildən artıqdır ki, məskunlaşdığını sübut etməklə yanaşı, bu hadisəyə real və məntiqi qiymət vermək hər bir tədqiqatçının vətəndaşlıq borcudur.

Hadisəyə sırf dini tərəfdən və Şumer əfsanəsi variantından yanaşsaq, dəniz səviyyəsindən azacıq hündür olan Mesopotamiya

yaylasından qalxan gəminin 3907 metr hündürlükdəki Qapıcıq dağının ətrafında dayanması imkansız görünür. Hadisənin 6 min il bundan əvvəl baş vermiş Şumer əfsanəsindən qaynaqlanmasını qəbul etsək, bu təkcə Gəmiqaya abidələrinin deyil, eyni zamanda Naxçıvan tarixinin də cavanlaşdırılması deməkdir. Təkcə Gəmiqaya ərazisində deyil, bütün Naxçıvan ərazisində qədim insan izlərinə e.ə. VII minillikdən başlayaraq rast gəlinirsə, onda adı mübarək əcdadımızı qarşılayan Haxçıvanda məskunlaşmış qədim tayfalar olmalı idi. Tədqiqatlar göstərir ki, bu dövrdən başlayaraq Naxçıvan ərazisində tarixin bütün dövrlərində insan məskənləri olmuş və bu intensiv yaşayış müasir dövrümüzə qədər gəlib çıxmışdır. Elə isə, bəşəriyyəti xilas etmək üçün 6 min il əvvəl Tanrının Nuhu seçməsinə nə ehtiyac var idi? Hadisənin bu dövrə aid edilməsi Naxçıvan tarixində anaxronistik faktların yaranmasına səbəb olmuş, bu da hadisənin bir gerçəkliyə bağlanmasına maneçilik törətmişdir.

Ukraynalı arxeoloq Y.A.Şilov «Kurqanların kosmik sirri» əsərində yazır ki, «Eramızdan əvvəl Zaqafqaziya ərazisində yaranan Kür-Araz mədəniyyəti Taman yarımadasına qədər böyük bir əraziyə yayılmışdır» [7, s. 35]. Hələ sinifsiz bir cəmiyyətdə təkcə mədəniyyəti ilə bu qədər ərazini istila etməyi bacaran qədim sələflərimizin naliyyətlərinə nədən kölgə salaq.

Bu gün yenə də 3 milyon kv kilometr bir ərazidə təşəkkül tapan «boyalı qablar mədəniyyətinin» episentrinin Naxçıvan olmasını sübut etməyə dair əlimizdə tutarlı faktlar olduğu halda tufanı Şumer mifi ilə eyni dövrə bağlamaq etik normalara uyğun olmasa da, yanlışlıqdır. Tarixi faktlar göstərir ki, Gəmiqaya ərazisində yaşayış olduğu zaman Şumer ərazisində bəlkə də insanlar heç məskunlaşmamışdır.

Əgər Nuh peyğəmbərlə bəşəriyyətin II yaranışı başlayırsa, deməli, Nuha qədər bəşəriyyətin bir tarixi də olmuşdur. Bu tarixi qəbul edənlər Şumer mədəniyyətinin formalaşmasında Anadolu və Qafqazda yaşayan tayfaların böyük rol oynadığını sübut etdikləri halda, bizim əksinə düşünməyimiz yersizdir.

Hətta Şumer mədəniyyətinin çiçəkləndiyi dövrdə belə, tufanla bağlı barelyeflərin, heykəllərin, daş kitabələrin geniş yayılması sübut edir ki, onlarda özlərindən çox-çox qabaq olmuş bir hadisənin mifoloji dildə əbədiləşdirmişlər.

Nuhun gəmisinin olduğu yer kimi yunanlar Parnas, babillər Nemrud, assurlar Nizar, hindlilər Himavat, inklər And dağlarını, astek və tolteklər Çolhuçan, xristianlar Ararat, müsəlmanlar Cudi dağını göstərirlər. Gəminin yolçuluq müddəti isə 6 gün 6 gecədən 52 il arası dəyşilməkdədir. Bu isə onu göstərir ki, hər kəs hadisəyə elmi tərəfdən deyil, bəşər tarixinin II səhifəsinin öz ərazilərindən başlamasını iddia edirlər.

Ancaq biz bunun elmi tərəfindən qəbul olunmuş təkcə Yerin coğrafi xəritəsində deyil, hətta qalaktikamızda belə köklü dəyşiklər aparmış 12000 il bundan əvvəl baş vermiş, IV Antropogen dövrünün ən böyük Dünya daşqını ilə eyni dövrdə baş verməsini faktlarla göstərməyə çalışacağıq ki, bu da Naxçıvanın bəşəriyyətin II yaranışının ilkin ocaqlarından biri olmasını təsdiqləyə bilər.

Gəmiyə keçməzdən qabaq Yerin iqliminə nəzər salaq. 12 min il bundan əvvəl Yer kürəsinin iqlimi necə olmuşdur? Elm sübut edir ki, 12 min il bundan əvvəl Yer kürəsi Günəş ekliptikası üzrə tam şaquli vəziyyətdə saniyədə 30 km sürətlə hərəkət edirdi. Deməli, 12 min il əvvəl fəsil və iqlim qurşaqları olmamış, Yer kürəsinin hər yerində Günəşin təsiri tam bərabər olmuşdur. Məhz 12 min il bundan əvvəlki fəlakətdən sonra nəhəng kürənin 21 dərəcə əyilməsinə səbəb olmuşdur [3, s. 72]. Yer oxunun əyilməsinə Avestada rast gəlinir. Zərdüştlüyə görə, Anqra Manyu hücum edərkən Yerə çarpmış və Yeri yolundan çıxarmışdır. Nəticədə Yerin oxu bir qədər əyilmişdir. Fəlakət özü ilə bərabər zəlzələlər yaratmış, vulkanlar fəallaşmışdır. Sonda bəzi torpaqlar suda qərq olmuş, su altından yeni torpaqlar üzə çıxmışdır. Uralda, Skandinaviyada, Oneqa gölü sahillərində rast gəlinən qayaüstü təsvirlər içərisində tropik və ekvatorial qurşaqda yaşayan heyvan rəsmləri bu fikri təsdiqləyir. Professor Hibbenə görə, son buz dövrünə qədər 40 milyon heyvan tələf olmuşdur. Digər bir daş kitabədə yazılır ki, bu fəlakət 64 milyon əhalisi olan Mu qitəsini tarix səhnəsindən silmişdir [3, s. 70].

Bu tufandan xilas olan bəşəriyyətin I yaranışının insanları Yer kürəsinin daha aktiv və ekoloji cəhətdən təmiz olan ərazilərində məskunlaşmağa başlamışlar. Bütün dini və mifoloji mətinlər, Britaniya muzeyində saxlanılan Mayya kitabı olan «Troyana əlyazmaları», Madrid muzeyindəki «Kortesian kodeksləri», Naakal löhvələri, Paul Şlimanın «Lhasa məlumatları», Çində

«Bambuk salnamələri» kimi məlumatlar bu fəlakətdən xəbər verir. Bu gün dünyada Diluvaizm (yuntufan) adlanan bir təlim yaranmışdır ki [6, s. 201], bu təlim tərəfdarları da hər kəsin fikrinə hörmətlə yanaşırlar. Bizim məqsədimiz bu gəminin gerçək olmasını, onun doğrudan da Gəmiqaya ətəklərində dayanmasını sübut etməkdir.

Metereologiya elmi sübut edir ki, Yer atmosferinin 1 kv. metr hava sahəsi boyunca qalxan hər bir hava sütununda orta hesabla 16 kq su buxarı vardır ki, bu da heç zaman 25 litr sudan artıq ola bilməz. Bu rəqəmi dünyanın bütün sahəsinə bölsək, su 2,5 sm-dən artıq qalxa bilməz. Deməli, 3900 metr yüksəklikdə yerləşən Qapıcıq zirvəsinə suyun qalxması üçün bu rəqəm 170 min dəfə artırılmalıdır.

Digər tərəfdən, Bibliyada gəminin ölçülərinə nəzər salaq. Tanrı Nuha uzunluğu 300, eni 50, hündürlüyü 30 dirsək olan gəmi hazırlamağı tapşırır [5, s. 16]. Dirsək bizim ölçü vahidimiz olan qulacdır ki, bunun da uzunluğu 40-50 sm arasında dəyişir. XVI əsrdə bu ölçü vahidi arşınla əvəz olunmuşdur ki, bunun da sabit ölçüsü olmamış, 60-70 sm arasında dəyişmişdir. Bu səbəbdən dilimizdə «Hər kəs öz arşını ilə Ölçür» ifadəsi yaranmışdır. Müasir metrik ölçülərə çevirdikdə gəminin uzunluğu 135 metr, eni 22,5 metr, hündürlüyü 13,5 metr edər ki, bu da müasir gəmilərin ölçülərindən böyük görünür. Belə bir gəminin isə ən azı 20 min ton su tutumu olmalı, 10-12 metr suya oturmalı idi. Bu gəminin oxşarı 1975-ci ildə keçmiş Sovetlər İttifaqında hazırlanmış «Arktika» atom buzqıran gəmisidir. Su tutumu 20 min ton olan bu gəminin uzunluğu 136 metr, eni 28 metrdir [2, s. 423]. O zaman belə bir gəmi hazırlamaq mümkün idimi? Biz bəşəriyyətin I tarixi haqqında düşünmürük. Tanrı bəşəriyyətin I tarixində texnologiyaya zaman tanımışdırmı, bəşəriyyətin I tarixi nə qədər sürmüşdür?

Əfsuslar olsun ki, bizim tanımadığımız bu tarixdə bizdən də yüksək sivilizasiyanın olmasını sübut edən daş kitabələr hələ də yaşayır. Əgər bizim bəşəriyyət məhv olmaq təhlükəsində qalarsa, biz var olduğumuzu gələcək nəsillərə hansı vasitələrlə çatdırardıq? Təbii ki, daşlar üzərində olan təsvirlərlə. Həyat nizama düşdükdən sonra, hər şeydən məhrum olub yeni tarixə qədəm qoyan insanlar isə qədim insan statusu alacaqlar. Onda bizim qayaüstü texnoloji

yeniliklərlə bağlı təsvirlərimiz min illər sonra maldar və əkinçi tayfaların mədəniyyəti kimi göstərilə bilməzmi?

Ancaq belə bir problemin həlli üzərində artıq ESA (Avropa kosmik dairəsi) düşünmüşdür. Baş verəcək bir fəlakətdən insanlara bəzi məlumatları qorumaq, bəşəriyyəti yenidən daş dövründən başlamaqdan xilas etmək üçün Ayda bir anbar tikilməsi nəzərdə tutulur. Ərəb, çin, ingilis, ispan, fransız və rus dillərində bəşəriyyətin bütün texnoloji yenilikləri, insan və heyvan embrionları, bitki toxumları 4 min anbara yerləşdiriləcək, Yer üzərində fəlakətin nəticələri azaldıqca bu işə həvalə edilmiş insanlar Aydan bunları yenidən geri gətirəcək və insan həyatını yenidən sıfır nöqtəsindən başlamasına imkan verməyəcəklər. 500 milyard avro məbləğində olacaq bu proyekt 2020-2035-ci illər arasında tamamlanacaqdır. Çünki ABŞ-nın Yer üzərində fəlakətləri ölçmək üçün kosmosa buraxılmış 4 peyki bunların son 40 ildə baş verəcəyini göstərir.

Avropalı tədqiqatçılar Nuhun gəmisinin 3 mərtəbəli olmasını qəbul edirlər. Məlum ölçülərlə götürdükdə I mərtəbə 3040, 3 mərtəbə isə 9120 kv metr edər. Bu gün dünyada 13 min quş, 1400 sudaq-uruda yaşayan, 3500 sürünən, 3500 məməli, 16 min hörümçək, 360 min həşərai növü olmaqla 397 400 canlı növü yaşayır. Təkcə məməli heyvanlardan bir cüt götürməli olsaq, gəmidə 7000 heyvan olmalı idi. Bu rəqəmi isə gəminin sahəsinə bölsək, hər heyvana 1,3 kv. metr ərazi düşər. Bunun isə məntiqə uyğun olmasını söyləmək çətindir.

Bu gün bəşəriyyət gözləyən təhlükədən xilas ediləcək canlılar üçün bir proqram hazırlanmışdır. Hətta NASA tərəfindən həyata keçiriləcək bu proqramda gələcəyə daşınacaq şəxsiyyətlərin, kitabların siyahısı belə hazırlanmışdır. ABŞ-nın Kentukki ştatında olan 263 km uzunluğundakı Mamont mağarası, Avropadakı 124 km uzunluğundakı Nellah mağarası hər bir təhlükəyə qarşı müdafiə sığınağı kimi hazır tutulur. İnşası 2008-ci ilin 8 fevralında başa çatdırılan, 9 milyon dollara başa gəlmiş Norveçin Svalbard adasındakı «Dumsday vault»da (Qiyamət anbarı) bəşəriyyətin bir fəlakət sonrasından qalan insanlara çatması üçün 4,5 milyon toxum nümunəsi saxlanılır. Belə bir anbar Tanrı tərəfindən Antarktidada və Qrenlandiyada yaradılmışdır. Əfsuslar olsun ki, qlobal istiləşmə səbəbindən buzlar əridikcə bu anbarlar dənizə axır və məhv olurlar.

İstənilən zaman yazılan mifoloji mətnlərdə zamanın tələbini tutmağa çalışmışlar. Təbii ki, dini kitablarda da hadisələr dövrün tələbi səviyyəsində çatdırılmalı idi. Hər heyvandan bir cüt götürmək isə bütün canlılara münasibətin eyni olmasını göstərmək, bütün inanc növlərini Tanrıya yönəltməyə xidmət etmişdir.

Bəzi müəlliflər hadisəyə qiymət verərkən dini və mifoloji materiallardan başqa, folklor nümunələrindən də istifadə edirlər. Bu isə tarixi dəqiqləşdirməyi daha da çətinə salır. Guya Nuh gəmidən düşdükdən sonra qurban kəsmişdir. Əgər gəmidəki 2 heyvandan biri qurban kəsilsəydi, həmin heyvanın gələcək nəsillərə çatması inandırıcı görünmür və heç bir maldarlıqdan bu gün söhbət belə gedə bilməzdi. Yeri, göyü, bütün kainatı, bəşəriyyəti və insanı yaradan Tanrıdan kömək ummayan Nuhun hər hansı mifik varlıqdan gəmini düzəltmək üçün kömək istəməsi doğru ola bilməzdi. Biz Nuh adı ilə Quranda tanış olmuşuq. Deməli, yaranan bu folklor nümunələrinin köklü əsası ola bilməz.

Gəminin hazırlandığı ağac «Varlıq»da qofer kimi göstərilir. Bu haqda məlumat verən A.Azimov da belə bir ağac növünün olmamasını göstərir [4, s. 45]. Əslində Nuhun gəmisinin texnologiya ilə bağlılığını göstərəndə bu sözdür. Belə ki, qofer sözü fransız dilində «dəmir və ya taxta örtük» mənasını verir [6, s. 190]. Müasir təyyarə və təyyarələrin xarici örtük qatları belə adlanır.

Gəminin qatranlanması faktı da I tarix ilə əlaqəlidir. Qatran metalı korroziyadan qoruyan ən yaxşı materialdır. Plastik materialların olduğu zamanda bu maddə öz aktuallığını qoruyur. Elm sübut edir ki, ən möhkəm polad parçasının korroziyaya qarşı davamlığı 2500-3000 ildən artıq deyildir. Deməli, Gəmiqaya ətrafında gəminin dayandığı yer 12 min il ərzində baş vermiş təbiət hadisələri üzündən təbii yarğana çevrilmiş və tarixdən tarixə üzən gəminin varlığını gizləmişdir. Məgər Nuh peyğəmbər bəşəriyyətin I tarixindən ikinci tarixinə təkcə canlıları daşıdı? Əgər gerçəkdən yazıldığı kimi Tufan yaşanmışsa və bizim babamız Nuh və bir gəmi vasitəsi ilə qurtulmuşlarsa, üstəlik Nuhun tufandan sonra oğullarına «Bu gəmini məhv etməyək insan oğlu görsün və ibrət alsın» demişsə, bu gün dünyanın 3,5 milyard əhalisi buna inanırsa, deməli, bir dağ və gəmi olmuşdur. Mərkəzi ABŞ-da yerləşən «Nuh gəmisi dərnəyi» 1999-cu ildə bu gəmini tapan üçün bir milyon dollar mükafat təyin etmişdir. Ancaq bu günə qədər təqdim olunanlar

içərisində taxtadan başqa dəmir, beton məmulatlarının heç birinin karbon 14 analizləri eramızın VII əsrindən o tərəfə keçməmişdir. 1997-ci ildə SİA rəsmi açıqlama vermişdir: Gəminin heç bir yerdə qalıqları qala bilməz.

Qayaüstü rəsmlər bizə əvvəlki tarixdən xəbər verən simvollardır. Daş kitabələr göstərir ki, birinci tarixdə hər kəsin anlaması üçün agituriant, anlamı çətin olan simvol və ornamentlərdən ibarət bir esperanto dili olmuşdur. Gəmiqaya təsvirlərinə dünyanın yüzə yaxın abidəsində rast gəlinir. Bu işarələr isə 12 min il bundan əvvəl tufandan xilas olan insanları bir yerə toplamaq və yeni tarixə başlamağı xəbər verən işarələrdəir. Dini kitablarda Nuh dövründə millət və dil anlayışının olmaması göstərilir. Bu gün artıq Qırğızıstan, İran Nuhun gəmisinin öz ərazilərində olmasını iddia kimi qaldırırlar. Bunları isə ərazilərində olan yüksək hündürlüklərdə tapılmış qayaüstü təsvirlərlə əsaslandırırlar.

Dini tərəfdən baxdıqda məntiqi bir açıqlaması vardır. Gəmi kimsənin çatmayacağı, kimsənin nəsib olmayacağı bir ucalığa, Tanrıya doğru üzürdü. Tanrı isə qəzəbi tutduğu tarixi məhv etmiş, paklığa və təmizliyə xidmət edəcək bəşəriyyəti bərqərar etmək üçün Nuhu seçmişdir. Naxçıvan bir müqəddəslər torpağıdır. Tanrının gəmidə olan 7 nəfərdən sonra 7 kimsənəni xilas etmək üçün qoca Naxçıvan torpağını seçmişdir. Elmi tərəfdən isə bəşəriyyətin I tarixinin izlərini özündə saxlayan Naxçıvan öz qədimliyi ilə seçilən Gəmiqaya təsvirləri ilə öyünə bilər.

ƏDƏBİYYAT

1. «AMEA Naxçıvan Bölməsinin yaradılması» ilə bağlı Naxçıvan Ali Məclisində Azərbaycan Respublikası Prezedenti Heydər Əliyevin çıxışı. «Şərq qapısı» qəz., 2002, 15 avqust.
2. Azərbaycan Sovet Ensiklopediyası. I c., Bakı, 1976, 592 s.
4. Rzayev Z.H. Tarixə qədərki tarix. Bakı: ADPU-nun nəşriyyatı, 2008, 206 s.
5. Азимов А.В начале. М.: Политиздат, 1998, 235 с.
6. Библия. М.: Российское Библейское Общество, 1994, 933 с.
7. Словарь иностранных слов. М.: Госиздат, 1955, 856 с.
8. Шилов Ю.А. Космические тайны курганов. М.: Молодая гвардия, 1992, 268 с.

II. NUH REYĞƏMBƏR VƏ GƏMİQAYA TƏSVİRLƏRİ

ƏBÜLFƏZ QULİYEV
AMEA Naxçıvan Bölməsi

GƏMIQAYA TƏSVIRLƏRINDƏ YAZI ELEMENTLƏRI

Qədim insanların əldə etdiyi maddi və mənəvi dəyərlərin gələcək nəslə ötürülməsində yazıya böyük ehtiyac olmuşdur. Bəşər cəmiyyətinin ən böyük nailiyyətlərindən və kəşflərindən biri olan yazı birdən-birə yaranmamışdır. Yazının meydana gəlməsinədək informasiyanın müəyyən işarələrlə verilməsindən istifadə edilmişdir [4, s. 61]. Müəyyən fikrin işarələrlə verilməsi yazı meydana gəldikdən sonra da mövcud olmuş, Azərbaycan folklorunda öz təzahürünü tapmışdır [2, s. 244].

Qədim yazının erkən nümunəsi sayılan piktoqrafik yazılar Azərbaycanda Qobustan, Abşeron, Kəlbəcər, Gəmiqaya təsvirləri ilə təmsil olunmuşdur. Piktoqrafik yazı əsl mənada yazı olmayıb, məzmunun təsvirlərin ardıcıllığı ilə verilməsidir. Piktoqrafiyadan törəyən qədim yazı növlərindən biri heroqliflərdir. Təsadüfi deyildir ki, qədim qayaüstü təsvirlərlə heroqliflər arasında xeyli bənzərlik vardır. Belə hesab edirik ki, yazının piktoqrafiyadan sonrakı mərhələsi heroqliflər olmuşdur. Daha sonra bir qədər sadə olan mixi yazılar meydana çıxmışdır. Lakin Yaxın Şərq ölkələrində iqtisadimədəni inkişafın sürətlənməsi heroqliflərin və mixi yazıların tətbiqini çətinləşdirmiş, əlifbanın yaranmasına səbəb olmuşdur.


Piktoqrfik yazının qədim nümunələrindən biri olan Gəmiqaya təsvirlərində Naxçıvanda məskunlaşan tayfaların mifoloji düşüncə tərzi öz əksini tapmışdır [4, s. 60-130]. Qaya təsvirləri ulu əcdadlarımızın həyat tərzini və inanclarını aydın şəkildə əks etdirmişdir. Gəmiqaya təsvirlərinin müəyyən bir qismində rəsmlərin nizamlı kompozisiyada verilməsi ilə bitkin fikir ifadə edilmişdir. Təsvirlərdə insanların inancları, həyat və ölüm haqqında düşüncələri əks olunmuşdur. Bu təsvirlərdə ifadə olunan başlıca ideya insanların təbii stixiyadan, bədbəxtlikdən qorunması, məh-

suldarlığın təmin edilməsidir. İlan, keçi və balığın təsvir edildiyi rəsm buna nümunə ola bilər. Hər üç heyvanı birləşdirən əsas əlamət onların su ilə bağlı olmasıdır. Balıq xaotik başlanğıc olan suyun təmsilçisidir. Su tanrısının balıq quyruğu olan mifoloji varlıq şəklində təsvirinə Naxçıvanda Sarıdərə nekropolunun tapıntıları arasında da rastlanmışdır [3, s. 61]. Bu nekropolda aparılan tədqiqatlar balıq inancının Naxçıvanın qədim tayfaları arasında geniş yer tutduğunu göstərir.

Məlum olduğu kimi, Azərbaycan xalq nağıllarında nəhəng əjdahanın suyun qabağını kəsməsi haqqında epizodlar vardır. Folklor nümunələrində balıq suyun sahibi, ilan isə onun tənzimləyicisi kimi verilmişdir [4, s. 101]. Azərbaycan folklorunda həmçinin yağmur daşı ilə bağlı inanclar yayılmışdır [4, s. 102]. Mesopotamiyada yayılan inanclara görə yağmur daşı keçinin qarnında olurmuş [7, s. 44]. Yuxarıda qeyd edilən faktlara əsaslanaraq demək olar ki, ilan, balıq və keçinin birlikdə təsviri insanların yağmur yağdırması ilə bağlı inanclarını əks etdirmişdir. Yağmur yağdırılması ilə bağlı inanclar indiyədək Azərbaycan xalqı arasında yaşamaqdadır.




Şəkil 1. Ovçuluq yasaqları ilə bağlı mifoloji təsvir



Şəkil 2. Ovun uğurluluğunun təmin edilməsi

Gəmiqaya təsvirlərində ulu əcdadlarımızın inancları totemizm, animizm və maqiyanın sintezi şəklində özünü göstərmişdir. Bu baxımdan keçi kultu və keçi totemi ilə bağlı inanclar Azərbaycanda yayılan Keçili toponimində, Təkəli tayfasının adında, həmçinin Azərbaycan foklorunun müxtəlif janrlarında əks olunmuşdur. Ovçuluq mifləri, ovçuluq yasaqları ilə bağlı rəsmlər də Gəmiqaya təsvirlərinin əsas motivlərindəndir. Bu təsvirlərin Azərbaycanın folklor nümunələri ilə yaxından səsləşməsi onların məzmununun açılmasına yaxından kömək edir. Rəsmlərin birində ağzında ot tutan keçi, qollarını yana açaraq keçiyə doğru hərəkət edən insan təsvir edilmişdir. Şişpapaqlı insan təsvirinin başının ətrafında qoşa dairə vardır. Sağ tərəfdə arxaya doğru hərəkət edən ovçu təsvir edilmişdir. Yuxarıda qeyd etdiyimiz kimi, qoşa dairələr əkizlik kultunu, yaxud Veneranı simvolizə etmişdir. Keçinin ağzındakı yem Tanrı tərəfindən verilən müqəddəs yemdir (şəkil 1). Bu rəsm ovçuluq yasaqlarının və məhsuldarlığın təmin edilməsinin ifadəsi hesab edilə bilər.

Digər bir rəsmdə dünyanın üçqatlı quruluşunu göstərən kosmik simvol, ondan aşağıda isə əfsanəvi ovçu təsvir edilmişdir. Bu təsvirdə ovçuluqla bağlı ovsun, ovun uğurluluğunun təmin olunması aydın ifadə edilmişdir (şəkil 2).



Şəkil 3. Qurd ağzı bağlama və şeytanın qovulması

Qayaüstü təsvirlərdə qurd ağzı bağlamaqla bağlı mifoloji təsvir (şəkil 3) heyvanların mübarizəsi səhnəsində və digər Azərbaycanın xalq yaradıcılığı nümunələrində öz əksini tapmışdır. Əks başlanğıcların mübarizəsinin binar oppozisiya halında verilməsi Gəmiqaya təsvirlərinin sevilən motivlərindəndir. Quşun, keçinin, insanın ilanla, aslanın inəklə, qurdun keçi ilə mübarizəsi səhnələrini təsvir edən rəsmlər həyatla ölümün mübarizəsini, yaxud məkanın xaotik dünyaya qarşı qoyulmasının ifadəsidir. Qədim Şərq incəsənətində olduğu kimi, Gəmiqaya təsvirlərində də insanların həyat tərzi, əks başlanğıcların mübarizəsi, insanları yolundan sapdıran, məhsuldarlığa mane olan şeytanın tüğyan etməsi rəsmlər vasitəsi ilə aydın ifadə edilmişdir.

Gəmiqaya təsvirlərindəki bəzi işarələrin Run əlifbasının hərfləri ilə bənzər olduğu Əbülfəz Hüseyni tərəfindən qeyd edilmişdir [6, s. 49-52]. V.H.Əliyev Gəmiqaya təsvirlərində Kiril və Latın əlifbasının hərflərinə bənzər piktoqrafik işarələrin olduğunu qeyd etmişdir [5, s. 25-67]. Qayaüstü təsvirlərdə yazı elementlərinin olduğunu digər tədqiqatçılar da qeyd etmişlər [8, s. 4]. Lakin qaya təsvirlərindəki bəzi piktoqrafik işarələr Runi, Kiril, Latın əlifbasının hərflərini xatırlatsa da, onlar əsl mənada yazı, yaxud hərf deyildir. Araşdırmalar bu işarələrin olduqca dərin məzmuna sahib olduğunu göstərir. Məsələnin aydın olması üçün onların bəzisini nəzərdən keçirməyi məqsədəuyğun hesab edirik. Gəmiqayada mövcud olan piktoqrafik işarələrin bir qrupu «B»-şəkillidir. Bəzən bu işarələr sxematikləşərək 8 rəqəmi şəklində verilmişdir. Bu

işarələrin ayrılıqda təsviri onların mənasını anlamaq üçün çətinlik törədir. Bəzi qaya təsvirlərində B-şəkilli piktoqramların müəyyən kompozisiyalarda verilməsi onların məzmununu aydınlaşdırmağa imkan verir. Təsvirlərin birində üç keçi rəsmi verilmişdir. Onların biri yuxarıda, ikisi isə aşağıda üzbəüz təsvir edilmişdir. Aşağıda təsvir edilən keçilərdən birinin buynuzları «B»-şəklində bağlanmışdır (Şəkil 4, 2). Gəmiqayanın ən çox sevilən motivlərindən biri olan üç keçi rəsmi məhsuldarlıqla bağlı olmuşdur [5, s. 33]. Bu təsvirdə verilən «B»-şəkilli işarənin evlilik, məhsuldarlıq anlamı ifadə etdiyi şübhəsizdir. Sxematikləşərək 8 rəqəminə bənzəyən, qoşa dairə şəklində verilən piktoqrafik işarələrin də bu anlamda olduğunu qeyd etmək olar. Qoşa dairələr halında verilən işarələrin əkizlər kultu ilə bağlı olduğu və məhsuldarlığı simvolizə etdiyi tədqiqatçılar tərifindən qəbul olunmuşdur [4, s. 81; 8, s. 44].



Şəkil 4. Məhsuldarlığın təmin edilməsi ilə bağlı təsvirlər

Gəmiqayada rastlanan piktoqrafik işarələrin bir qrupu «V» şəkillidir. Bu tipli işarələr Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrünə aid boyalı qabların üzərində rastlanmışdır. Boyalı qablar üzərindəki təsvirlərin analizi onların şüa anlamı ifadə etdiyini, astral simvolika ilə bağlı olduğunu göstərir [9, s. 116-118].

Gəmiqayada rastlanan «T»-şəkilli işarələrin Anau mədəniyyətinə aid gil qablar üzərindəki təsvirlərlə müqayisəsi onların mənasını açmağa imkan verir. Anau mədəniyyətinə aid qablardan birinin üzərində bucaq təsviri, bucaqların arasında isə «T»-şəkilli işarələr verilmişdir. Bu təsvirin adi bir naxış olmadığını Altıntəpədən tapılmış iy başlığının üzərindəki təsvirlər sübut edir. İy başlığının bir tərəfində əks qütblərdə iki insan fiquru və həndəsi ornament, onun digər üzündə isə mərkəzdə Günəş simvolu, dörd tərəfində isə «T»-şəkilli işarələr rəsm edilmişdir. Araşdırmalar bu simvolikanın kosmik dünya modelinin horizontal məkanda reduksiyası ilə bağlı olduğunu göstərir [4, s. 82]. Buradakı «T»-şəkilli işarələr dünyanın dörd tərəfinin simvolu kimi verilmişdir. Fikrimizcə, Gəmiqayada rastlanan bu tipli işarələr də astral simvolika ilə bağlı olmuşdur.

Belə hesab edirik ki, Gəmiqaya təsvirlərinin gələcəkdə tədqiqi qaya təsvirlərində mövcud olan yazıya keçid elementlərinin daha geniş araşdırılmasına və onların semantik mənasının aydınlaşdırılmasına imkan yaradacaqdır.

ƏDƏBİYYAT

1. Антонова Е.В. Обряды и верования первобытных земледельцев Востока. М., 1990.
2. Azərbaycan folklor antologiyası. Bakı, 1994.
3. Baxşəliyev V.B. Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyəti, Bakı, 2002.
4. Baxşəliyev V.H. Gəmiqaya təsvirləri. Bakı, 2003.
5. Əliyev V.H. Gəmiqaya abidələri. Bakı, 1993.
6. Hüseyni Ə. Əfsanədən həqiqətə // Qobustan, 1973, № 1.
7. Seyidov M. Yaz bayramı. Bakı, 1990.
8. Окладинкова Е.А. Петроглифы средней Катуни. Новосибирск, 1984.
9. Belli O., Bahşeliyev V. Nahçıvan bölgesinde Orta ve Son Tunc çağı boya beremeli çanak-çömlek kültürü. İstanbul, 2001.

XEYRƏDDİN İVGİN
Folklor araşdırmaçısı

NUH TUFANINDA GƏMİYƏ MİNMƏYƏN «UCUBILIK»LARLA BAĞLI MİFOLOJİ RƏVAYƏTLƏR

Ucubılık motifi, gerek Türk dünyası, gerekse Azerbaycan mitolojik metinlerinde rastlanmaktadır.

Büyük işler yapan bir takım kahramanlar hakkında; merak ve korku uyandırmak veya güçlü göstermek amacıyla bedenleri olağanüstü büyütülenler olmuştur. Olağanüstü büyüklükteki masal, mitoloji, efsane ve destan kahramanlarına «dev» adı verildiğini biliyoruz.

Dünya ve Türk anlatılarında (mitoloji, masal, efsane, destan və b.) önemli bir yer tutan devler; iri yarı, kuvvetli, insan azmanı yaratıklar biçiminde düşünülegelmiştir. Bunların yaşayışları insanlar gibidir. Erkeği ve dişisi vardır. Evlenirler, çocukları olur. Türk anlatılarında bunların ülkeleri Kaf Dağı'nın ardındadır. Genellikle saf yaratılışlıdırlar. İnsan yiyen devler de vardır. Türk anlatılarında öldürülmeleri mümkündür.

Yunan mitolojisinde devler, toprağı (Gaia) çok bereketli yapan Uranos'un kanından doğdular. Bunlar yenilmez bir güce sahiptir. Ölümsüz değillerdir ama öldürülmeleri için bir tanrı ile insanın işbirliği yapması gerekir.

Yakın Doğu anlatılarında, özellikle Zerdüşt[1] dinindeki anlatmalarda devlerin sayısı pek çoktur. Ehriman'ın[2] yönetiminde olan yeryüzündeki bu devler çeşitli günahları temsil eder. Çeşitli destanlarda ve efsanelerde kahramanlarla devler arasında pek çok çarpışmalardan söz edilir. Mesela; hükümdar Keykvvus Ak Dev

---

[1] **Zerdüşt (Zerdüşt):** Mecuso dininin kurucusu olan Zaratustra, MÖ V. yy.'da Dara zamanında yaşamıştır. Başka bir rivayete göre ise Hz. Musa'dan bir yıl ön-ce yaşamıştır. Hayır, fezy ve temizlik timsali olan güneşe ve ateşe tapılan bu dinin saliklerine mecuso denir. Zerdüşte göre yaratıcı güç, hayır ve şer olarak tecello eder. Bunlara İzid ve Ehrimen denilir. Sonuçta şer iflas edeceği için her kişi hayır işlemelidir. Zerdüşt'ün Gatha denilen özdeyişleri Zend adında bir kitapta toplan-mış olup daha sonra bu kitaba Avesta adlı tefsir yazılarak Zendavesta meydana gelmiştir. Şehname Zendavesta'dan çok etkilenmiştir. İzid denilen Ahura-Mazda bu inançta adeta tanrı durumundadır. Ehrimen ise şeytanı temsil eder [14, s. 516].

[2] **Ehrimen:** Şeytan, dev. Zerdüştlerin inandıkları kötülük ve karanlık tanrısına bu ad verilir. Edebiyatta daha çok ilk iki anlamıyla Süleyman peygamber ile birlikte anılır. Şeytanlar ordusunu yönettiğine inanılan Ehrimen aynı zamanda bir çir-kinlik sembolüdür. Kelimenin «Ehremen» şekli de kullanılır [13, s. 228-289].

ile, hükümdar Tahmuraş Siyah Dev ile, Zaloğlu Rüstem Akvan ve Arzhan adındaki devlerle savaşırlar [10, s. 248].

Türk ve Yakın Doğu anlatılarında bu devlerin ve kahramanların büyüklükleri de tanımlanmaktadır.

Saka Türklerinin kahramanlarından Alp Er Tunga, Semerkant Kalesi'nde otururken ayaklarını Zerefşan Deresi'nde yıkardı. Sümer kahramanı Gılgamış'ın boyu on arşın idi. Yakın Doğu milletlerinin mitolojilerinden gelen bir efsanede Deccal[3], çok iri ve uzun bir adamdır. Başı bulutlardan dışarı çıkar, denizler topuğuna kadar gelirdi. [16, s. 94].

Bunlar yalnızca Türk mitolojisinde değil, her milletin mitolojisinde de çokça görülmektedir [16, s. 94].

Bildirimizin konusu olan Ucubilik motifi, mitolojik çağlardaki insan biçimindeki kocaman varlıkların günümüze gelen kalıntısıdır.

Ucubilik motifi; Nahçıvan'da Ucubuluk [4, s. 22], Azerbaycan'da Ucubılıx [8, s. 23], Şerur'da Ucugulu [3, s. 570], Azerbaycan hikayelerinde Ocıbınıh Padişah [3, s. 570], bazı efsanelerde Övc İbn Unug [3, s. 570], Sivas'ta Ucumuluh/Mucmuluh [11, s. 369], Yakın Doğu mitoloji anlatmalarında Uc Bin Unk [16, s. 94] gibi çeşitli biçimlerde ve adlarla anılmaktadır. Nahçıvan'da bazı kesimlerde Ucubılıx, bazı kesimlerde Ucugulu olarak adlandırıldığı da ifade edilir [2, s. 15] Ağstafa rayonunda derlenmiş bazı metinlerde adı Uğuz olarak geçmektedir [2, s. 15].

İslam yazarlarının (Taberi, Sa'alebi, Kisvi və b.) kitaplarında adı Araplaştırılarak Uc ya da Ac biçimine sokulmuştur. Tevrat'taki adı Og'dur [7, s. 664].

---

[3] **Deccel (Deccal):** Kıyametin büyük alametlerindendir. Deccal, son zamanda dü-nyaya gelecek olan, bir gözü kör Yahudidir. Deccal, Tanrılık davasında buluna-cak ve Mehdo tarafından öldürülecekmiş. Deccal çıktığı zaman insanları kendi-ne bağlayıp birçok taraftar toplayacakmış. Onun, uydurduğu yalanlar ile ortalığı bir-birine katıp kıyamet fitnesini kolaylaştıracağına inanılır. Deccal'ın kendine mahsus Cenneti ve Cehennemi olacakmış ve kendisine inananları cennetine, inan-mayanları da cehennemine atacakmış.

Peygamberimiz kıyamete yakın birçok fitneler olacağını ve bunların en kor-kuncunun, Deccal olduğunu söylemiştir. Deccal'ın bir de eşeğinden söz edilir ve Şam'da öldürüleceği bildirilir. Deccal'dan önce birçok yalancı Deccal'ın çıkacağı da hadislerde bildi-rilmiştir.

Edebiyatta istenmeyen kişi olarak karşımıza çıkan Deccal'dan, özellikle hic-viyelerde çok söz edilir [13, s. 229].

Ucubılık anlatması her coğrafyada değişik şekildedir: Efsanevi ve uydurma bir kişiliktir. Asıl adı Uc İbn Unuk imiş. Ad[4] kavminin hükümdarı olan Şeddad'ın[5] adamlarındanmış [13, s. 463], Adem Ata'nın oğullarından sayılırmış. [3, s. 570] Çok uzun boylu ve iri cüsseliymiş [13, s. 463]. Çok uca boylu neheh bir adammış. O keder yeke, azmandı ki, ancak onun ayaklarını görmek olur [8, s. 62]. O kadar büyük idi ki, başı Deccal'ın başı gibi bulutlardan çıkarmış [16, s. 94]. Ancak dizlerine kadar gelebilen denizlerde yürürmüş. [7, s. 664] Normal insanların boyu, onun ancak topuğuna kadar gelirmiş [3, s. 569].

Nahçıvan toprakları da bir zamanlar büyük bir deniz imiş. Elinceçay'daki İlanlı (Yılanlı) ve Genni Dağları da birer ada imiş [4, s. 22]. Ucubilik, ayaklarının birini İlanlı Dağı'na, diğerini de Genni Dağı'na koyarmış [4, s. 22]. Eğilip denizden balık tutar, güneşe tutup o tarafa bu tarafa çevirerek pişirirlermiş [4, s. 22].

Normal insanların boyu onun ancak topuğuna kadar gelirmiş. Onun bir kemiğinden büyük bir köprü yapılabilirmiş. Hatta Azrail'in bile onun canını almaya gücü yetmezmiş. Azrail'i gördüğü an bir-iki adım geri çekilirmiş ve Azrail ne kadar yol alırsa alsın, ona yetişemezmiş. Ayrıca çok da güçlüymüş [3, s. 569].

Ucubilik'in bir adeti vardı. Sakinliği ve sessizliği severdi. Sakin bir zamanda ayda yılda bir defa, daha doğrusu yazın gelir. Ama eğer etraf sakin ise gelirdi. Orada elini derin ırmağın dibine uzatırdı. Derenin dibinde bir kapak var onu açar. O anda ırmakların suyu, bulakların suyu artar ve yağış yağardı. Yok eğer sessizlik yoksa, Ucubilik küser giderdi ve o yıl kuraklık olurdu. Bet-bereket göğe çekilirdi [8, s. 62-63].

---

[4] **Ad:** Kur'an'da adı geçen bir ulus. Bu ulusun adı Kur'an'da özellikle peygam-berler (Enbiya)'le ilgili öykülerde geçer. Nuh çağından sonra yaşayan varlıklı ve güçlü bir ulusmuş, kum tepelerinde otururlarmış, kendilerini beğenmişliğe (kibir ve gurura) kaptırmışlar, kendilerine gönderilen soydaşları Peygamber Hz. Hud'a kötü davranmışlar, bu yüzden de büyük bir kuraklık ve fırtınayla yok edilmişler. A'raf suresinin 65. ve onu izleyen ayetleri bu öyküyü anlatır [7, s. 9].

[5] **Şeddad (Şeddad):** Hud peygamber zamanında yaşamış olup Yemen'deki Ad kavminin hükümdarı idi. Zamanında birçok yapılar ve bentler inşa ettirmiş ve kendisine kibir gelip tanrılık iddiasında bulunmuştur. Bunu ispat için de Bağ-ı İrem denilen bir bahçe ve içine saray yaptırmıştır. Bu bahçe ve saray o derece güzel ve kıymetli taşlarla yapılmış ki Şeddat halkına, buranın Cennet'ten daha güzel bir yer olduğunu söylemiş. Meğer Şeddad, Cennet'in vasıflarını Hud pey-gamberden dinlemişmiş. İrem bağı Suriye'de yapılmıştır. Bahçenin yapımı bitince Şeddad ordusuyla birlikte oraya giderken yolda helak olmuşlar. Rivayete göre önce Şeddad ölmüş, sonra ordusu ve yaptırdığı Bağ-ı İrem yok olmuştur [14, s. 378-379].

Ucubilik, balığı denizden alır, güneşe tutarak kızartır yerdi [16, s. 94]. Suyu bulutlardan içermiş. Yakaladığı balinaları güneşte pişirirmiş [7, s. 664].

Denizin dibinden balıkları tutar, güneşte kızartır ve yermiş [14, s. 463]. Evleri barkları yokmuş. Bunlar unu suda yoğurup hamur yapar, güneşe tutup pişirirlermiş [4, s. 22].

Tüm hayatı boyunca kendisine bir ev yapmak için uğraşmış. Ancak sonunda topuğuna kadar ulaşabilen derme çatma bir kulübe yapabilmiş. Ölmesine yakın az bir zaman kala; «Bilseydim ki dünyanın vefası budur, hiç bu kulübeyi yapmazdım» demiş [4, s. 23].

Nuh[6] peygamber gemi yapımı için ona yemek karşılığı ağaç taşıtmıştır.

Tufan[7] esnasında sular en yüksek dağların doruğunu 40 karış aştığı zaman Uc'un ancak dizine gelebilmiş. Musa[8] peygamber

---

[6] **Nuh (Nuh):** Nuh Peygamber. Hz. İdris göğe çekildikten sonra ademoğulları doğru yoldan ayrıldılar ve putlara tapmaya başladılar. Cenab-ı Hakk onlara Nuh (a.s.)'u gönderdi. Hz. Nuh nice yıllar kavmini imana davet etti. Yalnız oğulları «Sam, Ham, Yafes» ile hanımları ve diğer pek az kimseler iman edip başkası kulak asmadı. Hatta kendisinin «Yam» isminde bir oğlu da imana gelmedi. Nuh (a.s.), kavmine nasihat ettikçe onlar eza, cefa, tahkir ve alay ederlerdi. Sonunda ümitsizliğe düştü ve onlara beddua etti. Duası kabul oldu ve «Gemi yap» diye Allah tarafından kendisine vahiy geldi. Hz. Nuh kırda ve sudan uzak bir yerde gemi yapmağa başladı. Kavmi oradan geçerken onun ile eğleniyorlar ve «Pey-gamber idin, dülger oldun» diyorlardı. Geminin inşası bitti, Tufan alametleri gö-ründü. Hz. Nuh mü'minler ile gemiye bindi ve her çeşit hayvanlardan birer çift aldı. Her taraftan su göründü. Nuh, oğlu Yam'ı da gemiye çağırdı. O, «Ben bir dağa çıkar kurtulurum» deyip gemiye girmedi. Nuh, «Bu gün Allah'ın merhame-tinden başka sığınacak yer yoktur». diye nasihat ederken araya bir dalga girdi; Yam boğuldu. Tufan her tarafı kapladı. Su dağları aştı. Yeryüzündeki insanlar ve hayvanlar tamamen yok oldu.

O sırada Nuh'un gemisi dağlar gibi büyük dalgalar arasında yüzüyordu. İşte böylece tufanın hali altı ay kadar sürdü. Sonra Allah'ın emriyle yağmurların arkası kesildi ve sular çekildi. Gemi bir rivayete göre Nahçıvan'da Gemikaya üzerine, başka bir rivayete göre Cudi Dağı'nın üzerine oturdu ve gemidekiler kurtuldu. Alem bir başka alem oldu.

Ondan sonra insanlar Hz. Nuh'un üç oğlundan üredi. Onun için Nuh (a.s.)'a «İkinci Adem» denildi. Nuh Peygamber 1000 veya 950 yıl yaşadı. Bu nedenle «Nuh ömrü» deyimi halk arasına yaygınlaşmıştır. Kur'an-ı Kerom'de Nuh peygamber hakkında birçok ayet vardır (msl. A'raf/59-64, Yunus/71-73, Hud/25-34, 36-49; Nuh/1-28). Nuh peygamber hakkında tefsirlerde geniş bilgi mevcuttur. Ancak bunlar arasında İsrailiyyat da karışmıştır.

Divan şiirinde gemi ve Tufan ile birlikte anılır. Tufan aşığın gözyaşını andırır. Nuh da bu tufan içinde batmamaya çalışan aşığın kendisidir.

Nuh peygamber'in gemisine her hayvandan bir çift girerken şeytan da eşek ile birlikte girmiştir [14, s. 244-245].

[7] **Tufan (Tufan):** Nuh peygamber zamanında imana gelmeyen insanların suda boğulmaları hadisesi. Gökten yağan yağmur ve yerden fışkıran su ile her yer su olmuş ve yalnızca Nuh'un gemisine girenler kurtulabilmiştir. Tufan hadisesi Kuran-ı Kerom'de de birkaç yerde sözkonusu edilir [14, s. 455].

[8] **Musa (Musa):** Hz. Musa. Hz. Yusuf'tan sonra Mısır'da «İsrailoğulları» pek çok üreyip çoğaldılar ve Yakub ile Yusuf un şeriatleri üzere kaldılar. Mısır'ın eski yerlisi olan «Kıbt» kavmi

yıldızlara ve putlara taparlardı ve İsrailoğullarına aşağılık gözüyle bakarlardı. Firavunlar, yani Mısır hükümdarları da «İsrailoğul-larını» kendilerine tebaa edip, onları esir gibi ağır ve zor işlerde kullanırlardı. Bu ağır yükten kurtulup dedelerinin eski yurtları olan Kenan iline gitmek en büyük arzularıydı.

O sıralarda bir kahin, Firavun'a haber vermiş ve «İsrailoğullarından bir çocuk doğacak ve senin devletinin yıkılmasına sebep olacak» demişti. Firavun, bundan ürküp İsrailoğullarından doğan erkek çocukları öldürtmeye başladı. Bu sırada «İmran» adındaki şahsın soyundan Hz. Musa dünyaya geldi. Annesi, oğ-lunun öldürülmesini önlemek gayesiyle onu bir sandık içine koyup Nil nehri'ne bıraktı. Sandık Nil'de akıp giderken Fir'avn'ın karısı Asiye onu tuttu, Musa'yı görünce onu sevdi ve öldürülmesine mano olmak için sakladı. Ona süt anaları tutarak sarayda büyüttü.

Hz. Musa büyüdükten sonra bir gün Mısır'da gezerken kaza neticesi bir kıptoyi öldürdü, Firavun'un gazabından korkup Mısır'dan kaçtı ve Medyen'e git-ti. Orada Şuab'ın kızıyla evlenerek on sene kaldı. Sonra çoluk çocuğuyla Mısır'a giderken, Tur Dağı'nda Allah kendisiyle söyleşti ve ona Peygamberlik verdi. Mı-sır'a varınca Firavun'u hak dine davet etti. Firavun'un davete icabet etmemesi üzerine bir zaman tayin ederek bütün İsrailoğulları ile haberleşti ve geceleyin onları Mısır'dan çıkardı, Süveyş Denizi kenarına götürdü. Firavun bunu duyunca askerleriyle peşine düştü. Musa asasıyla denize vurdu ve deniz yarıldı, on iki yol açıldı. On iki kabilenin her biri bir yoldan gitti. Firavun da askerleriyle onları izledi. İsrailoğulları geçip kurtulduktan sonra deniz tekrar kapandı ve Firavun ile askerleri boğuldu.

Musa, İsrailoğulları ile Kenan iline yöneldi. Yolda İsrailoğulları, Hz. Musa'nın tevhod akidesine defalarca başkaldırdılar. Bu hadiselere canı sıkılan Hz. Musa, Cenab-ı Hakk'ın çağrısıyla Tur dağına çıktı. Kardeşi Harun'u da yeri-ne vekil tayin etti. Kırk gün Tur'da yalnız başına ibadet edip vasıtasız olarak Allah'ın kelamını işitti. O vakit ona Tevrat indi.

Samiro adındaki bir münafığın aldatmasıyla altından süs eşyalarını eriterek buzağı gibi ses çıkaran, altın bir buzağı heykeli yaptılar. Harun, her ne kadar öğüt verdiyse de kulak asmadılar.

Musa, Tur dağından gelip de İsrailoğularını bir buzağıya tapar görünce çok sinirlendi. Samiro'yi lanetledi, buzağı heykelini yaktıktan sonra denize attı ve kavmine sitem etti. Bunun üzerin kavmi ettiğine pişman olup tevbe ve istiğfarda bulundu. Sonra Musa Tevrat'ı ortaya koydu. Ondan sonra İsrailoğulları, onun getirdiği hükümlerle amel etmeye başladılar. Şeria Nehri'nin doğusundaki bir çok şehri savaşarak ellerine geçirdiler. Peygamberlik vazifesini ifa eden Hz. Musa, Yuşa adındaki zatı yerine halofe tayin ederek 120 yaşında vefat etti.

Hz. Musa'nın şeriatı, Hz. İsa'nın peygamberliğine kadar devam etti. İki-sinin arasında gelip geçen peygamberler, onun şeroatıyla amel etmek üzere gön-derildiler.

Musa Peygamber'in birçok mucize ve kıssaları edebiyatımıza girmiş ve bir hayli yaygın biçimde kullanılmıştır. En çok sözü edilen mucizeleri şunlardır.

Hz. Musa Mısır'a dönmek üzere ailesi ve iki çocuğuyla yola çıktığında Tur-ı Sina'ya yaklaştığı zaman şiddetli bir rüzgar ve yağmurla karşılaştı. Yolunu şaşırdı. Ateş yakmak istediyse de çakmağı ateş almadı. O sırada uzakta bir ateş gözüne ilişti. Ateşe yaklaşınca onun bir ağaç tepesinde olduğunu gördü. Kor-karak geri dönmek isterdi. O zaman ağaçtan «Ya Musa! Ben alemlerin Rabbi olan Allah'ım!» diye bir nida geldi. Musa secdeye vardı. Bu sırada ikinci bir noda ile «Ya Musa, ben senin Rabbinim. Nalınlarını çıkar. Sen Tuva denilen kut-sanmış vadidesin (Kur'an 20/12)» O zaman Musa «Ya Rabbi! Bana Zat'ını göster sana bakayım». dedi. Allah da «Sen Beni göremezsin». dedi. Fakat dağa bak. Eğer benim tecellome tahammül edip durursa beni görürsün. Allah dağa tecello etti. Dağ parçalandı. Musa bayılıp düştü. Bu mülakattan sonra Hz. Musa'ya Kelomullah denildi.

Musa peygamber Firavun tarafından sihirbazlıkla suçlandı. O çağda sihirbazlık ilerlemişti. Firavun bütün sihirbazlarını çağırıp onu küçük düşürmek istedi. Sihirbazlar ellerindeki ipleri yere bıraktılar ve her bir ip, yılan olup harekete başladı. Hz. Musa da asasını bıraktı. Asa büyük bir yılan olup bütün yılanları yuttu. Böylece sihirbazlar Musa peygambere iman ettiler. Musa, yine bu asa ile Kızıldeniz'i ikiye bölmüş ordularını geçirmiştir.

Musa Peygamber bir mucize olarak elini koynuna sokup çıkarınca eli bembayaz bir nur olurdu. Buna Yed-i Beyza (Beyaz el) denir.

ile savaşa girişmiş ve kocaman taştan bir dağı Musa'nın ordusu üzerine atmak üzereyken bir kuş bu taşın ortasını un etmiş ve koca dağ Uc'un boynuna geçmiş ve adı bu yüzden Uc ibn Unuk kalmış. (Unuk, «boyun» demektir) Musa peygamber sıçrayıp asası ile topuğuna vurmuş ve onu öldürmüştür. Kisrvlar devrinde Uc'un bir kaburga kemiğinden Fırat üzerine köprü yapılmış ve tam bir asır kullanıldıktan sonra insan kemiğidir, diye kaldırılmıştır [14, s. 463].

Nuh Tufanı zamanında su onun ancak dizlerine kadar çıkabilmişti [16, s. 94].

Hz. Nuh onu gemisinden kovduğu halde tufanda boğulmamış, çünkü sular ancak dizlerine kadar gelebilmiş, üç bin yıl yaşamış, Hz. Musa onu ancak Hüdhüd[9] (Kur'an'da da adı geçen Hz. Süleyman'ın[10] ünlü kuşu) kuşunun yardımıyla öldürebilmiş, yılda iki kez uyur ve bir yemekte iki fil yermiş [7, s. 664].

Musa Peygamber Hızır ile birlikte bir yolculuk yapar. Bu yolculukta Hızır'ın garip davranışlarına tahammül edemez.

Ayrıca suları kan şeklinde akıtmak, kurbağa yağdırmak, büyük sinek ve çekirgeler sürüsü ortaya çıkarmak, öküz vebası, insan vücudunda yara ve ur çıkarmak gibi mucizeleri vardır. Kur'an-ı Kerom'de Hz. Musa ve İsrailoğulları (Yahudiler) tarafından kendisine yapılan zulümlere çokça yer verilmiş ve geniş şekilde anlatılmıştır. Toplam 461 ayette ondan bahsedilmiştir [14, s. 188-191].

[9] **Hüdhüd:** Kur'an'ın bildirdiğine göre, Peygamber Hz. Süleyman'la Saba Meli-kesi Belkis arasında haber taşıyan olağanüstü kuş. Ana-babasına çok düşkün bir kuşmuş, yaşlılıklarında onlara yiyecek taşırmış, karısı ölünce de yeni bir eş ara-mamış. Peygamber Hz. Muhammed'in hüdhüd kuşunun öldürülmemesi hakkın-da bir de hadisi var. Basında bir sorgucu olan bu kuşa halk arasında çavuş kuşu denir. Yahudi geleneklerinde bu kuşun birçok öyküsü anlatılmaktadır. Kur'an'ın Neml suresinin 20. ve onu izleyen ayetlerinde şöyle denir: «Başka bir gün Sü-leyman, kuşları yokladı ve neden çavuş kuşunu (erelhüdhüde) göremiyorum?» – diye sordu, – «akıl alır bir özür söyleyemezse, ona işkence yapacağım ve boğaz-layacağım». Çavuş kuşu biraz sonra göründü ve Süleyman'a: «Senin bilmediğin bir şeyi öğrendim ve sana Saba'dan bir mektup getirdim», – dedi, – «orada bir kadın padişahlık ediyor, kocaman bir tahtı da var, ama gerek kendi ve gerek ulusu Allah'ı bırakıp güneşe tapıyorlar, şeytan onları engellemiş, doğru yola giremiyorlar». Süleyman: «Doğru mu söylüyorsun?» – dedi. – «Öyleyse benim şu mektubumu onlara götür, bırak ve bekle, bakalım ne karşılık verecekler». Çavuş kuşu böyle yaptı [7, s. 170-171].

[10] **Süleyman:** Davud peygamberin oğlu olan peygamber. On iki yaşındayken babası yerine tahta geçmiştir. Hem padişah hem peygamberdir. Geçimini devlet hazinesinden değil, ördüğü zembiller sayesinde kazanırmış. Babasının vefatından sonra ve onun vasiyeti üzerine Kudüs'teki, yarım kalmış olan Mescid-i Aksa'yı inşaa başladı. Yedi senede tamamladı. Daha sonra 13 sene süreyle Kudüs'te bir hükümet sarayı yaptırdı. Rivayete göre bu binaların yapımında cinleri çalıştırmıştır. Kendisi başlarında olmadığı zaman cinler çalışmazmış. Hatta bir bas-tona dayalı olarak uzun zaman onlara hükmetmiş. Sonunda bastonun içine bir ağaç kurdu girmiş ve kemirmeye başlamış. Tam inşaat sona erince baston kırılmış ve Süleyman peygamber düşmüş. Meğer Süleyman peygamber çok önceden vefat etmişmiş. Allah tarafından kendisine birçok mucizeler verilmiştir. Kuşlarla, hay-vanlarla konuşur, onların dilini anlarmış. Cinlere ve rüzgara emretme yetkisine sahipmiş. Üzerinde İsm-i A'zam yazılı bir mühürlü yüzüğü varmış. Bu yüzüğün taşı kibrot-i ahmerden olup bütün vahşo hayvanlar ve kuşlar bu yüzük sayesinde ona boyun

Tevrat'a göre Başan'ın dev kralıdır. Ama Kur'an'da adı geçmez. Halk inanışlarına konu olan İsrviliyvt'ta[11] 23333 arşın boyunda olduğu, Hz. Musa'nın onu öldürmek için on arşın boyundaki asvsıyla on arşın da sıçramak zorunda kalarak onun ancak

---

eğmişlerdir. Süleyman peygamber bu yüzüğü yalnızca abdesthaneye giderken çıkarır ve Asaf adlı vezirine veya hanımına emanet edermiş. Yine bir gün bu yüzüğü hanımına emanet etmiş. Süleyman peygamber dışardayken bir cin onun kılığına girip hanımından yüzüğü almış. Biraz sonra gelip mührü isteyen Süleyman'ı sahtekarlıkla suçlamışlar ve saraydan çıkarmışlar. Yüzüğü alan dev ise onun yerine geçip icraata başlamış. Bu arada Süleyman gidip bir sahil kasa-basında çalışmaya başlamış.

Dev ise yüzük Süleyman'ın eline bir kere daha geçmesin diye denize atmış. Günlerden birinde Süleyman bir balıkçının tuttuğu balıkları taşımış. Balık-çı da hizmetine karşılık ona para yerine irice bir balık vermiş. Süleyman akşam, balığı yemek için karnını yarınca kendi yüzüğünü görmüş. Meğer denize düşen yüzüğü Allah'ın izni ile bir balık yutup sahibine geri getirmiş. Halk arasındaki «Mühür kimdeyse Süleyman odur» atasözü buradan gelir.

Hz. Süleyman'ın Hüdhüd adlı bir kuşu varmış. Bu kuş çok uzaklardaki şeyleri görebilir, uçsuz bucaksız çöllerde suyun yerini havadan tesbot edebilirmiş. Hz. Süleyman ordusuyla sefere çıktığında Hüdhüd'ü de yanına alır ve bu sayede konaklama yerlerini su kenarında seçermiş. Bir gün Hüdhüd'ü aramışsa da bula-mamış. Ona çok öfkelenmişken Hüdhüd çıkagelmiş. Hüdhüd olanları anlatmış. Sebe ülkesine gittiğini, oradaki ikinci bir Hüdhüd ile konuştuğunu, bu Hüd-hüd'ün Belkıs adlı bir sahibesi olduğunu, Belkıs'ın da güneşe tapan bir kavim üzerine melike olduğunu söylemiş. Bunun üzerine Süleyman peygamber Hüdhü-d'ü affedip Belkıs'a onunla davetiye göndermiş. Belkıs da devletinin ileri gelen-leriyle birlikte Süleyman'ı ziyaret etmiş. Bu ziyaret esnasında Hz. Süleyman rüz-gara emredip Belkıs'ın tahtını getirtmiş (Bunun, veziri Asaf tarafından gerçek-leştirildiği de rivayet edilir). Sonra Süleyman peygamber Belkıs'ı imana davet etmiş. O da devletinin ileri gelenleriyle müşavere edip güneşe tapmaktan vazge-çerek Hz. Süleyman'ın dinine girmiş ve Süleyman'ın zevcesi olmuştur.

Bir gün Süleyman peygamber ordusuyla birlikte sefere giderken bir vadiye ulaştıklarında Karınca Beyi'nin diğer karıncalara «Kaçınız! Süleyman'ın orduları sizi ezmesin». dediğini duydu. Bunun üzerine gülümsedi ve karıncaların beyini yanına davet etti. Karınca beyi, kendince çok değerli sayılan bir çekirge budu ile onu ziyarete geldi. Hz. Süleyman'ın duasıyla bu but bereketlendi ve bü-tün ordu, yarısından doydu. Geri kalan yarısını karıncaya iade etti ve ondan öğütler istedi. Karınca Süleyman'a nasihatlarda bulundu. Süleyman Karınca'ya «Ben peygamber olduğum halde seni ve arkadaşlarını çiğneyebileceğimi nasıl düşündün ve niçin onlara kaçmalarını söyledin?» deyince karınca ona «Senin debdebene dalıp da teşbihlerini unuturlar diye söyledim» cevabını verir. Süley-man Peygamberin MÖ X. yy.'da yaşadığı sanılmaktadır. 40 yıl büyük bir ihtişam ile devlet sürmüştür. 52 veya 60 yaşında vefat eylemiştir. Vefatından sonra ülkesi Yehuda ve İsrail adıyla ikiye ayrıldı. Yehuda devleti Kudüs'te kaldı ve uzun müddet yaşadı. Kur'an-ı Kerom'de Hz. Süleyman'la ilgili 53 ayet vardır. Bu ayetler ona verilen ilim ve hikmetler ile yukarıda anlattığımız kıssalardan bahs-eder (msl. Sebe/12-21; Neml/15-44; Sa'd/30-40). Tevrat ise onu, haşa, putperest olarak gösterir ve 700 karısı ile 300 cariyesi olduğunu söyler. Divan edebiyatında Süleyman peygamber, yukarıda anlatılan kıssalar çevresinde yoğunlaşan düşün-celer içinde ele alınır. Özellikle yüzük, karınca Hüdhüd ve Belkıs ile birlikte çok anılır. Sevgilinin dudakları mühüre benzetildiğo zaman Süleyman'dan bahsedilir. Şair sevgilisine Süleymanlık yakıştırdığı zaman onun ihtişamından bahsetmekte-dir. Karınca aczin; Süleyman ise iktidar ve gücün timsali olarak tezat içinde verilir. Şair övdüğü kişiye Süleyman dediği zaman kendisini karınca kadar aciz gösterir [14, s. 352-355].

[11] **İsrailiyyat:** Kur'an'da sözü edilmediğinden ötürü bilimsel sayılmayan İsrail-oğullarına ve peygamberlerine ait öyküler. Bu deyim İslam terminolojisinde bi-limdışı, boş inanç anlamında kullanılmaktadır. Müslümanların kutsal yapıtı Kur'an'da bildirilen öyküler bilimsel sayılır. Genel olarak bütün büyük dinlerde olduğu gibi, Müslümanlıkta da bilim, ancak Tanrı'nın ve peygamberlerinin bildirdikleridir [7, s. 210].

topuğuna vurabildiği, devrilen cesedinin Nil nehri üzerinde köprü olduğu anlatılır [7, s. 664].

«Ucubılık» motifi, mitolojik çağlarda insanbiçimci kocaman varlıkların bir kalıntısıdır. Bu tip varlıkların hetonik özellikte olmaları, onları kaosla biçimlendirme imkvnı da verir. Acıklı ruh çizgileri de aynı başlangıçtan gelebilir. Arkaik zamanlarda, Araz kadar büyük ırmakların bir ayağını bir kıyısına, diğer ayığını da öbür kıyasına koyup atlayacak kadar büyük insanların yaşadığına inanılırdı. «Ucubılık» motifi de bu inanışların bir ürünüdür [3, s. 569].

Eski zamanlarda yaşayan «Uzuhlar»ın da çok büyük vücutları olduğu ve daha sonra yok olup gittikleri hakkındaki düşünceler, Türk halkları arasında birçok mitolojik metinde korunmuştur. Bu mitolojik karakter hakkındaki bilgilerin çok az olması ve Türk etnik-kültürel geleneğinde bu adla bir mitolojik karakterin bulunmaması, bu adın başka kültürlerden alınma olduğu görüşünü güçlendiriyor. Bazı araştırmacılara göre bu ad, doğudaki bazı efsanelerin bir karakterinden gelir. Bu efsanevi karakterin adı «Övc ibn Unug»dur. Böylece «Ucubılık» motifiyle ilgili Azerbaycan mitolojik metinlerindeki bilgiler, kaynağını doğu efsanelerinden alır. Bu motif, etnik-kültürel geleneğin yapısına ters gelmediği için alınmıştır. Nuh tufanında dünyayı basan su, onun ancak dizine kadar çıkabilmiş [3, s. 570].

(Ucubilik) sözcüğünü daha iyi anlayabilmek için Türkçe ve Osmanlıca-Türkçe sözlüklerdeki bazı sözcüklerle bağ kurarak anlamlandırmak gerekir diye düşünüyorum. Türkçede, Farsçada ve Arapçadaki bazı sözcüklerin (Ucubilik) ile ilgisini kurmak istiyorum.

Türk dilinde de kullanılan (u'cube) ve (a'cube) sözcükleri bulunuyor. Arapça isim olan (A'ceb) kökünden gelen bu sözcük; pek acayip, garip şey anlamındadır. Kök anlamı olarak; olağandışı, görülmedik, bilinmedik, duyulmadık olay, şaşılası durum demektir. Aynı kökten gelen (ucbe) de; acayip, şaşılacak şey demektir. Ama (ucb) Arapça isim ise; kendini beğenmişlik, kibir, gurur anlamındadır. Arapça sıfat olan (ucab) ve (uccab) ise; çok şaşılacak, fakat gülünç durumlar için kullanılır [12, s. 6, 734].

Arapça (acayip), (aca:yip), (vcv'ib) sözcük ise; sağduyuya, göreneğe, olağana aykırı, garip, tuhaf, yadırganan, yabancı demektir [12, s. 6].

Ucube (ucu:be), (u'cıbe) ise çok acayip, şaşılacak kadar çirkin olan anlamında kullanılır. (Ucubik) Arapça sıfat ise (u'cıbe)'den gelmektedir ve çok acayip, garip, uçuk-kaçık anlamındadır [15, s. 2025].

Acaibat ise (acaib)in çoğuludur ve acayip şeyler anlamındadır. Acaibat; yaratıkların olaganüstü bulunanların, normal almayan acayipleri ve acayiplikleri inceleyen bilgiler ile bu şekildeki yaratıkları da ifade eder [12, s. 6].

Küçük çocukları korkutmak için uydurulmuş hayali yaratık için (öcü) sözcüğü kullanılır. Bazı bölgelerde; korkunç ve çirkin görünüşlü hayali yaratıklar için de (öcü) veya (umacı) denmektedir.

Bu ve buna benzer dilimizde bulunan sözcükler; (Ucu-bilik) adının nereden geldiğini bize ifade ediyor, sanıyorum.

Ucubilik'in mitolojik anlatmalarıyla ilgili olarak Nahçıvan'da bir anlatı var. Bu bu anlatıyı yazmak istiyorum.

«Ucubuluklar, çok yer, çok da çalışırlarmış. Onlara yemek yetiştirilemezmiş. Rivayet ederler ki; bir zaman gelir, aşırı sıcaklar meydana çıkar, deniz kaybolup gider.

Yaşlı biri, ekin ekiyormuş. Ucubuluklardan birine giderek ona:

– Gidelim benim tarlayı sür, der.

Aralarında şu konuşma geçer:

Ucubuluk:

– Önce yemek yerim, sonra toprağı sürerim, akşam iş bitince de yevmiyemi (gündeliğimi) alırım.

Yaşlı adam:

– Tamam, ancak yemek yemeden önce üç defa yere, üç defa göğe yemin edeceksin.

Ucubuluk, ne kadar diretirse de yaşlı adam vazgeçmez ve sonunda yemin eder.

Yaşlı:

– Evet, şimdi oldu, ekmeğini ye.

Ucubuluk, her zaman yediğinden daha az yedi, hemen doyup sofradan kalktı. Kendi de bu işe şaşırdı. Yaşlı adama merakla sordu:

– Ey ihtiyar, ne yaptın da hemen doydum?

Yaşlı:

– Ekmek, yerin göğün bereketidir. Ona itaat etmelisin.

Diyorlar ki, bu olaydan sonra Ucubuluk nesli küçülüp normal insanlar gibi oldu. Yere, göğe yemin ettiler ancak eskisi gibi çalışamadılar».

Bu miti biz, Meherrem Caferli'nin kitabından aldık [4, s. 22-23]. Meherrem Caferli, bu anlatıyı Azerbaycan Milli İlimler Akademisinin 1994 yılında Bakü'de yayımladığı Naxçıvan Folkloru/Azerbaycan Folkloru Antologiyası'nın I cildinin 34, 35 sayfalarından kitabına aktarmış. Buna benzer bir Anadolu anlatısını Sivas'ta derleyen Kutlu Özen'in «Sivas Efsaneleri» adlı kitabının 369, 371 sayfalarından aynen aşağıya yazıyoruz. Bu iki anlatı arasında büyük benzerliklerin olduğu görülecektir.

«Bir ihtiyar, anasından doğduğu günden beri karnı doymayan Ucmuluh'a:

– Eğer bana bir şelek ağaç getirirsen karnını doyururum, der.

Ucmuluh, ihtiyardan duyduğu bu sözlere sevinerek ormana ağaç getirmeye gider. Ağaçları kökünden koparark büyük bir şelek yapar. Birer ikişer tane de koltuğunun altına sıkıştırarak ihtiyarın evinin yolunu tutar.

Ucmuluh'a yolda bir şeytan rast gelir:

– Bu ağaçları kime götürüyorsun, – diye sorar.

Ucmuluh, ihtiyara götürdüğünü; karşılığında ihtiyarın kendisinin karnını doyuracağını söyler.

Şeytan:

– Bir ihtiyar, bu devin karnını nasıl doyuracak, – diye düşünürken, sonunda gidip ihtiyara sormayı akıl eder.

İhtiyar:

– Ona Besmelei Şerifi çektireceğim, sonra da şu pilavı yedireceğim. – diyerek hazırladığı küçük bir tencere içindeki pilavı gösterir.

Ucmuluh'un Besmele çekmesini istemeyen Kör Şeytan, onun yanına giderek:

– O ihtiyar seni kandırıyor. Ben biraz önce evine gittim. Küçük bir tencere içinde sana bir avuç pilav yapmış. O pilavla kesinlikle karnını doymaz. Sana büyülü sözler söylettirdikten sonra yemeğin başına oturmanı isteyecek. Sakın o sözleri söyleme; çünkü

doymadığın halde kendini doymuş zannedersin, –diyerek Ucmuluh'u kandırır.

Kör Şeytan'a kanan Ucmuluh, sırtındaki ağaçları hırsla indirerek, doğruca ihtiyarın evine gider.

– Çabuk yemeğimi getir. Karnımı doyurup daha sonra ağaçlarını getireceğim, der,

Ucmuluh'un çok sinirli olduğunu gören ihtiyar, hiç bir şey söylemeden pilavı getirir. Ucmuluh ihtiyara, o kadar pilavla doymayacağını söyler. İhtiyar, Besmele çekerse doyacağını söyler. Besmeleyi sihirli söz zanneden Ucmuluh, her ne yaparsa yapsın Besmele çekmeyeceğini söyler.

İhtiyar, güç bela ile Ucmuluh'a Besmele çektirir. Sonra ona pilavı yemesini söyler. Ucmuluh, üç gün boyunca pilavı kaşıklar ama bir türlü bitiremez. Hayatında ilk kez sofradan tok kalkar.

Karnı doyan Ucmuluh, ormana giderek bir şelek ağaç getirir. Getirdiği ağaçlardan ihtiyarın bir kışlık odun ihtayıcı karşılandığı gibi kerestelik ağaçlarla büyük bir cami yaptırır» [11, s. 369-370].

Kutlu Özen bu efsaneyi Zekeriya Metin'in Elazığ'da 1994 yılında yayımladığı Şarkışla Efsanesi adlı kitabın 92. sayfasından alarak kitabına aktarmış. Kutlu Özen, bu efsaneyi anlatmadan önce; Şarkışla ve çevresinde aşırı obur çocuklara «Ucmuluh» dendiğini, Ucmuluh'un efsaneye göre dev olduğunu, halkın bunların büyüklüğünü tarif için «Anasının karnından çıkarmak için üç ebe üç gün uğraşmış» dendiğini izah etmektedir.

Nahçıvan'da Hz. Nuh ile ilgili bir çok efsane ve rivayet mevcuttur. Bunları, Bakü'de basılan Esatirler Efsaneler ve Rivayetler adlı kitapta bulmak mümkündür [1, s. 41-44].

Türkiye'de de Tufan'la ilgili yayımlar pek çoktur. Muazzez İlmiye Çığ'ın yayımladığı «Kur'an-İncil ve Tevrat'ın Sümer'deki Kökeni» adlı kitabı [5, s. 49-55] ile «Sümerlerde Tufan-Tufan'da Türkler» adlı kitabı [6, s. 1-168] önemli bilgiler vermektedir.

Prof. Meherrem Caferli, kitabında Hz. Nuh'la ilgili bir Tufan efsanesi vermektedir. Bu efsanede adı geçen Aç / Ac pehlivan, Ucubilik'ten başkası değildir. Bu efsane ile yukarda son verdiğimiz iki efsane arasındaki büyük benzerliğe dikkatlerinizi çekmek istiyorum.

Bu efsane şöyledir:

«Denilenlere göre; Hz. Nuh büyük bir tufan olacağını ve dünyanın tamamen suyla kaplanacağını biliyormuş. Bu nedenle büyük bir gemi yapmaya karar verir. Gün batımı yönünde büyük bir ormanlık varmış. Güneş batıya yönelince ormanın gölgesi doğuyu kaplarmış. Buradaki ağaçlar o kadar büyükmüş ki, gövdesinin kalınlığını ölçmeye kırk arşın-kendir ip bile kvfi gelmezmiş.

Bu ormanda Aç/Ac adlı bir pehlivan yaşıyormuş ve bir boğa kadar güçlüymüş. Bütün işi gücü halkın yılkısına, ineğine-öküzüne zarar vermekmiş. Her öğünde bir öküz yer, üstüne de üç tulum su içer yine de doymazmış.

Hz. Nuh, pehlivanı yanına çağırıp söyle der:

– Sana doyuncaya kadar yemek vereceğim. Batıdaki ormandan bir hayli ağaç kesmeni istiyorum.

Pehlivan on gün içinde ormandan çokça ağaç kesip devirir. Hz. Nuh da karşılığında karnını doyurur ve haram yolla yaşamasına izin vermez. Hz. Nuh gemiyi yaptırır ve eşine üç aylık azık hazırlamasını tembihler. Hz. Nuh, kendi ailesi ile gemiye biner ve her canlıdan bir çift alır. Oğullarından birisi gemiye binmeyip yüksek bir dağın zirvesine çıkmaya karar verir. Kırk gün kırk gece öyle bir sağanak yağar ki, dünya yaratılalı böylesi görülmemiştir. Sular, dünyanın yüzeyini kaplar, gemi yüzmeye başlar. Yüksek dağlar bile görünmez olur. Sonu olmayan bir deniz meydana gelir. Dünya üzerinde ne kadar canlı varsa hepsi telef olur.

Gemi, doğudan batıya doğru ilerler. Günler, haftalar geçer ve bir gün geminin altı bir yere çarpar ve gemi güçlü bir şekilde sarsılır. Hz. Nuh, geminin bir dağa çarptığını anlar ve şöyle der:

– Peh! Ne kadar da ağır bir dağmış. Başından hiç kar eksik olmasın!

O günden beri dağın adı Ağrı olarak kaldı ve başından hiç kar eksik olmadı.

Bir hafta daha geçer. Gemi yine sarsılır. Hz. Nuh, gemidekilere:

– Bu da İlan (Yılan) Dağı'dır, – der.

Bu dağın adı da İlan Dağı olur, zirvesi de geminin darbesinden ikiye ayrılır.

Gemi, yoluna devam eder. Biraz gittikten sonra tekrar sarsılır. Bunun üzerine Hz. Nuh:

– Bu dağ, diğer dağdan hiç de eksik değil (kemki değil)! – der.

Dağın adı Kemki olur. Gemi buradan uzaklaşır. Tufanın şiddeti azalır.

Bir gün fare (sıçan) geminin tabanını deler ve gemi su almaya başlar. Nuh Peygamber geminin batacağını anlar ve gemidekilere der ki:

– Kim yapabilirse, bu deliği kapatsın.

Yılan:

– Ben bunu yaparsam, karşılığında bana ne vereceksin? – der.

Hz. Nuh:

– Ne istiyorsun? – diye sorar.

Yılan:

– Dünyada tatlı (şirin) olan ne ise onu istiyorum, – der.

Hz. Nuh, yılanın isteğini kabul eder ve yılan kuyruğuyla deliği kapatır ve oraya kıvrılıp yatar.

Gemi bir dağa yanaşıp hafifçe kayaya dokunur. Hz. Nuh buraya Gemikaya adını verir. Gemideki tüm canlılar burada karaya çıkarlar» [4, s. 28-30].

Bu efsaneyi Prof. Caferli, Bakü'de AMEA'nın 1994'te yayımladığı «Nahçıvan Folkloru/Azerbaycan Folkloru Antologiyası»nın I cildinin 66-68 sayfalarından kitabına aktarmıştır.

Ucubuluk'la ilgili olarak Nahçıvan'da ilk defa Rafiq Babayev çalışmıştır. Araştırmalarını Bakü'de 2008 yılında yayımlanan «Naxçıvan Folkloru: Beşerilik, Türklük, Regionallık» adlı kitabında yayımlamıştır [2, s. 15-20].

Sonuç olarak; Nuh Tufanı anlatıları etrafında oluşan pek çok rivayetler ortaya çıkmıştır. Bunlardan birisi de Ucu-bilik ile ilgilidir. Dikkat edilirse bu anlatı; Türk coğrafyası içinde teşekkül etmiş bir rivayet olarak görülmektedir.

KAYNAKLAR

1. Acaloğlu A., Beydili C. Esatirler, Efsane ve Revayetler. Bakü: Şerk-Gerb neşriyatı, 2005.
2. Babayev R. Naxçıvan Folkloru: Beşerilik, Türklük, Regionallık. Bakı: AMEA'nın Nahçıvan Bölmesi Yay, 2008.
3. Beydili C. Türk Mitolojisi Ansiklopedik Sözlük. Ankara: Yurt Yayıncılık, 2005.

4. Caferli M. Nahçıvan Folklor Materyalleri Esasında Folklor ve Etnik Milli Şuur. Ankara: Kültür Ajans Yay, 2007.
5. Çığ M.İ. Kur'an, İncil ve Tevrat'ın Sümer'deki Kökeni. 13 bsm, İstanbul: Kaynak Yay, 2006.
6. Çığ M.İ. Sümerlerde Tufan-Tufan'da Türkler. 3 bsm, İstanbul: Kaynak Yay, 2008.
7. Hançerlioğlu O. İslam İnançları Sözlüğü. 1 bsm, Ankara: Remzi Kitabevi Yayını, 1984.
8. Ismayılov İ., Kurbanov T. Azerbaycan Folkloru Antologiyası (Ağbaba Folkloru). Bakü: Azerbaycan Milli Elmler Akademiyası neşriyatı, 2003.
9. Meydan L. 3 c., Sabah Yay, 1989.
10. Meydan L. 5 c., Sabah Yay, 1989.
11. Özen K. Sivas Efsaneleri. Sivas: Dilek Ofset Mat., 2001.
12. Özön M.N. Büyük Osmanlıca Türkçe Sözlük. Genişletilmiş 3 bsm, İstanbul: İnkılap kitabevi Yayını, 1959.
13. Pala İ. Ansiklopedik Divan Şiiri Sözlüğü. C. 1, Ankara: Kültür Bakanlığı Yayını, 1989.
14. Pala İ. Ansiklopedik Divan Şiiri Sözlüğü. C. 2, Ankara: Kültür Bakanlığı Yayını, 1989.
15. Türkçe Sözlük. 10 bsm, Ankara: Türk Dil Kurumu Yayını, 2005.
16. Uraz M. Türk Mitolojisi. İstanbul: Hüsnü Tabiat Matbaası, 1987.

GÜLAĞ ÖZ
Hüseyn Qazi Mədəniyyət Mərkəzi

TÜRKİYƏ ƏLƏVİ-BƏKTAŞİ RƏVAYƏTLƏRİNDƏ NUH TUFANI VƏ GÖYƏRÇİN MOTİVİ

Sunacağımız bildiri Anadolu Alevi Bektaşi Türkmen geleneğinde Nuh Tufanı Söylenceleri olacaktır. Anadolu'da dokuz yüz yıldır yaşayan Anadolu Türkmen Alevileri, geçmiş Anadolu kültürlerinden alıp, sözlü geleneklė günümüze ulaştırdıkları Nuh Tufanı söylenceleri konumuzun özünü teşkil edecektir. Bununla beraber kutsal kitaplarda yer alan tufana kısa bir değinme yapılacaktır. Ve özelinde Türkiye'de yaşayan Alevi Bektaşi Türkmen geleneğinde Nuh Peygamber ve Nuh Tufanı'nın bu gelenekteki yeri olan Güvercin'in kutsallığı ile Aşure geleneği konu edilecektir.

Nuh'la ilgili yazılı kaynaklar, söylenceler. Tevratta, İncil'de ve Kuran'da Nuh'la ilgili hep aynı konular yer almaktadır. Ama toplumlar asırlar geçtikçe kutsal kitaplarda ve uygarlıkların kitabelerinde yer alan yazı ve resimlerden esinlenerek kendisine yeni söylenceler, yeni konular oluşturarak ortak bir sahiplenme yoluna gitmişlerdir. Her toplumun ve her uygarlığın Nuh konusunda yarattıkları değerler kendilerine özgü olarak biçimlendirilmiştir.

Nuh gemisinin Ağrı Dağında mı, yoksa Cudi dağında mı olduğu konusu çok tartışıla gelmiştir. Bitip-tükenmeyen bu tartışmalar günümüzden yaklaşık 7 bin 500 yıl önce cereyan eden büyük Nuh tufanı bilinmeyen pek çok bilgiyi barındırıyor. Kuranı Kerimin, Hud suresi 44 te geçen Cudi kelimesi, yüksek tepe anlamındadır. Zaman içinde ülkemizde bulunan bir dağa Cudi adı verilmiş ve sanki bu Kuran`da geçen yerdir – diye akıllara kazınmıştır. Böyle olunca Nuh`un gemisinin de ülkemizde olduğu kanısı yerleşmiştir.

- İslam alimlerinin yorumları ve Tevrat'taki bilgilere göre, Hz. Nuh'un gemisinin uzunluğu 205 metre 74 santim, genişliği 34 metre 29 santim. Denizden yüksekliği ise 20.5 metre. Gemi tahminlerin aksine tahtadan değil, metalden yapıldığı belirtilmiş ve hareketi için kol gücü ya da yelken değil metal kullanıldığı ifade edilmiştir.

Nuh'un gemisinin kazanlı olup buharla çalıştığına dair bilgiler, İslam alimlerinden Ömer Nasuhi Bilmen'in Kur'an tefsirinde şu şekilde yer alır: «Hz. Nuh'un gemisi saçtan yapılmış ve buharla

çalışan bir gemiydi. Üç tabakadan oluşuyordu. Alt tabakada vahşi haşarat denilen hayvanlar, orta tabakada sair ehli hayvanlar, üst tabakada Hz.Nuh ile kendisine iman etmiş olanlar bulunuyordu».

Kur'an'da Hz. Nuh'un gemisinin çalışmasıyla ilgili ayet şöyle: «Nihayet emrimiz geldiği ve tennur (tandır ve ya geminin kazanı) tutuşup parladığı zaman dedik ki; erkeği ve dişisi olan her canlıdan ikişer tane, aleyhlerinde hüküm verilmemiş olanların dışında aileni ve iman etmiş olanları geminin içine yükle» [Hud suresi: 40].

Tevrat'a göre tufan, Şubat'ın 17'sinde başladı. 40 gün yağmur yağdı ve sular yükseldi. Suların yükselmesi 150 gün sürdü. Temmuz 17'de gemi Ağrı Dağı'na oturdu. Bu, tam 5 aylık bir süre. Ancak karaların görünmesi için tam bir sene geçmesi gerekmekteydi.

Tevrat'ta geçer. Nuh, tufandan sonra yeryüzünün kuruyup kurumadığını anlamak için güvercini üç kez karaya gönderir. Güvercin birinci gidişinde konacak bir yer bulamaz, ikinci uçuşunda ağzında bir zeytin dalıyla döner. Nuh bir hafta sonra kuşu tekrar gönderir. Bu sefer kuş geri dönmez. Anlaşılır ki sular çekilmiş, Nuh bu kez yeryüzünde suların çekilmiş olduğunu anlar ve gemide bulunan tüm canlıları karaya çıkartır.

Alevi Bektaşi geleneğinde de Nuh'daki güvercin kutsal bir zeminde kendisini bulmuştur. Bir Bektaşi şairi bunu şöyle ifade etmektedir.

Ali oldum, Vdem oldum bahane,
Güvercin donunda geldim cihane.

Kuş motiflerinin kutsal kitaplarda yer almasına karşın güvercine atfedilen kutsallık farklıdır. Güvercinin kutsallığı yazılı olarak ilk evvela Tevrat'tan başlayarak karşımıza çıkar. Nuh tufanında da yer alan güvercin, anlatımları farklı olmasına karşın genel olarak şöyle yer alır.

Nuh Peygamberin tüm canlılardan birer çifti almış olduğu gemisiyle denizlerde yol alırken, tufanın bitip bitmediğini anlamak için, suların çekilip çekilmediğini öğrenmesi için güvercin uçurur. Güvercinin geriye ağzında bir zeytin dalıyla dönünce suların çekildiği anlaşılır. Bu haber üzerine gemi Ararat dağına oturur. Güvercinin haber vermesiyle hayat yeniden başlar. Tevrat'a kaynaklık eden efsanelerin Sümer ve Babil kökenli olduğu düşünüldüğünde, güvercinin daha önceden evcilleştirildiği veya kutsallık kazandığını düşünebiliriz.

Likyalıların inanışına göre insan ölünce vücudu yeryüzünde kalır ve ruhu başka canlıya, özellikle insana yakınlığı ile bilinen güvercine dönüştüğüne inanılırdı.

Alevi Bektaşi inancında ise; Hacı Bektaşi Veli'nin Anadolu'ya güvercin donunda gelişi şöyle anlatılır.

Hacı Beştaş adına yazılmış olan Velvyetname'de; 'Rum kadın erenlerinden Sivrihisarlı Seyit Nurettin'in kızı Fatma Bacı'ya Hacı Bektaşi Veli'nin Horasan'dan yola çıktığı malum olur. Hünkvr Hacı Bektaşi Veli, Horasan'dan Rum ülkesini (Anadolu'yu) aydınlatma için gelir. Hacı Bektaşi, Rum ülkesine yaklaşınca mana vleminden, Rum erenlerine selam verir. Bu sırada Rum ülkesinde, erenler sohbet meclisindedir. Rum'un gözcüsü de Karaca Ahmed'dir. Hacı Bektaş'ın verdiği selamı, Fatma Bacı, ayağa kalkıp Hünkar'ın bulunduğu tarafa döndürerek, elini göğsüne koyarak karşılık verir ve yerine oturur. Meclistekiler, bu hali görünce, «Kimin selamını aldın» derler. Fatma Bacı, «Rum ülkesine bir er geliyor, siz erenlere selam verdi, onun selamını aldım» diye yanıtlar. Erenler topluluğu; O, buraya gelirse ülkeyi alır, halkı kendisine muhib eder, artık Rum'da bize oyun (!) kalmaz. Bir şey yapalım da Rum ülkesine giremesin. Bazısı, «Kanat kanata gerelim, arş altında Sidre'ye (göğün yedinci katı) dek yolunu keselim, Rum'a girmesin» dedi. Hepsi bu tedbiri uygun bulur, vilayet kanatlarını birbirine çatarak yolunu keserler. Hacı Bektaşi Veli, Rum sınırına gelince yolunun çevrildiğini görür, «Bismillah ve billah» (!) deyip, sıçrayarak, ulu arşın tavanına yetişir. Melekler, elifi taçla karşılarlar Hacı Bektaş'ı. Hacı Bektaşi Veli bir güvercin şekline girip, uçarak Sulucakaraöyük'e inmeyi başarır ve bir taşın üstüne konar. Erenler telaşlanır ve Hacı Bektaşi Veli'nin Rum ülkesine girdiğini anlarlar, Yolunu kesemediklerini düşünürler. Karar alırlar: Hacı Doğrul şahin donuna girip uçar. Sulucakarahöyük'te, bir taş üstünde güvercin donunda Hacı Bektaşi Veli'yi bulur. Süzülüp üstüne inerken, Hacı Bektaşi don değiştirir ve insan şekline döner, elini uzatır, şahin donundaki ereni tutup boğazını sıkar, Hacı Doğrul'un aklı başından gider. Sonra aklı başına gelince gördü ki, Hacı Bektaşi Veli, yanına gidip peymançeye durur ve özür diler. Hacı Bektaşi Veli'ye, «Kem bizden, kerem sizden» der. Hacı Bektaşi Veli, «Ey Doğrul, er, erin üstüne böyle gelmez. Siz, bize zalim kılığında geldiniz, biz size mazlum kılığında; eğer güvercinden daha mazlum bir yaratık bulsaydık onun donunda gelirdik» der. Hacı Doğrul, «bizden

ve soyumuzdan ne kadar dişi ve erkek olursa, hepsi de size ve size uyanlara nezrimiz olsun» der. Hacı Bektaşi Veli der ki: «Hacı Doğrul, şimdi dön, geldiğin meclise var, erenlere gördüğünü anlat, onları buraya çağır, hepsine selam söyle, sonra da onlarla beraber tekrar yanımıza gel». Hacı Doğrul, olanları anlatır ve daveti aktarır.

Hacı Bektaşi Veli Velvyetnamesini gören ve yorumlayan ozanlarımız ve erenlerimiz onu çeşitli şekillerde yorumlarla anlatmaktadır. Hacı Bektaşi Veli'nin Horasan'dan Anadolu'ya doğru güvercin donunda geldiği konusunda hem fikir olurlar

Şah İsmail Hatai'nın Anadolu'dan derlenen bir şiirinde Güvercin Hz.Ali karşılaşması şu şekilde anlatılır.

Beli dedik betsine
Dertli sinesinin üstüne
Gökten bir şahin indi
Alinin dizin üstüne

* * *

Hey heriye heriye
Melhem eylen yareyse
Süre süre getirdim Ali
Avım geldi buraya

* * *

Yabandan alamadım
Kanadın karamadım
Hastalıktan kalkmış idim
Ulaşıp alamadım

* * *

Beli dedik beliye
Taze lazeliye
Güvercin de cara geldi
Hazreti Ali'ye

* * *

Güvercin der aynına
Ali beni sok koynuna
Yuvada yavrularım var
Emaneti boynuma

* * *

Alim sözün hakladı
Dört yanını yokladı

Aldu güvercini eline
Diz altına sakladı
* * *
Gel şahinim iş işle
Hakka yarar iş işle
Bin baş koyun vereyim
Güvercini bağışla
* * *
Alim der ki ağ merde
Dilen mi olur cömerte
Meğer av senin imiş
Niye alamadın gene yerde
* * *
Alim der ki zatından
Türlü mücuz etinden
İstersen et vereyim
Kendi aziz etimden
* * *
Sen Alisin zatından
Türlü mücuz etinden
Bir güvercin vermeyen
Et mi verir etinden
* * *
Dur Aimişinlim mertmişin
Mertlerden mert imişin
Sana cömert derler idi
Gayet de cömertmişsin
* * *
Alim haykırdu coştu
Tüyü boynunu geçti

Aldı Zülfikar eline
Gövdesine yanaştı
* * *
Kalkın kuşlar uçalım
Haktan yana geçelim
Alim minnetçi düşmüş
Biz bu avdan vaz geçelim

* * *

Kalkıp kuşlar uçtular
Haktan yana geçtiler
Ali'nin rızası ile
Kuşlar avdan vaz geçtiler

* * *

Şah Hatayi'm nur oldu
Sohbet arada sır oldu
Güvercin, Cebrail, Mikail
Her birisi bir er oldu

Abdal Musa bir şiirinde Hacı Bektaşı «Güvercin donunda Urum'a uçan» şeklinde ifade ederken Pir Sultan Abdal ise yine:

Güvercin donuyla Urum'a uçan
Güvercin donunda duran,
Güvercin donuna girmiş oturmuş
Kuş olup güvercin donu giyen –

Şeklinde anlatır. Derviş Mehmet adlı ozan ise:

Güvercin donuna girdin de geldin,
Altındaki postu aldın da geldin

diyor. Yine 17.yy Kızılbaş şairlerinden İsmail ise:

Güvercin donunda havadan indi,
Darı çeçi üzerinde namazın kıldı
Yine Bektaşi Şairlerinden Şevket:
Horasan ilinden Rum'a uçarak
Güvercin donunda pervaz eyleyen –

Diyerek Hacı Bektaşi hürmetle anarken güvercinin de kutsallığını ifade ediyor. Vşık Hilmi ise şu sözlerle anlatıyor:

Güvercin donunda pervaz eyleyen
Gelip Rumları niyaz eyleyen
Tevella remzinde ağaz eyleyen
Hünkar Hacı Bektaş Velimdir

19.yy Bektaşi Şairi Aşık Veli şu şiirle anıyor

Güvercin donunda Urum'a eldi
Darı ceş üstünde namazın kıldı
Veli kulun bir gün hayale daldı
Gözümüze Malye'nin çölü görünür –

Diye anlatır.

Şii ve Alevi Bektaşi geleneğinde Nuh'la ilgili bir çok söylence vardır. Fuzuli bir şiirinde şöyle demektedir.

Seyl-i bidad-ı sitemdir menşe-i tufan-ı Nuh
Olmasın gafil beladan ehl-i bidadü sitem
Hane-i zalim giderse klabe manend-i hübab
Tutsa tufan alemi mazluma tufanda ne gam.

Bu gelenekte şu görüşlere yer verilmektedir. Nuh'un gemisi tufan koptuktan sonra su yüzünde bir çok yeri dolaştıktan sonra Kerbela denilen yere gelince durur.Bir türlü hareket etmez. Nuh bu durum karşısında ne yapacağını şaşırmışken kayıptan bir ses ona şöyle der:

Nuh, burası aradığın konak yeridir ki benim ehlibeytim Nuh'un gemisine benzeyecektir. İşte o gün bu gündür ehlibeyt taraftarları burasını gördükleri her zaman hayrete düşmektedirler. Nuh Peygamber ve Nuh Tufanı ile Anadolu Alevi Bektaşi geleneğinin, sıkı bir yakınlığı vardır. Bu hem Kerbela geleneğinde hem de buna bağlı olarak İmam Hüseyin'in şahadeti sonrası tutulan sürekli yas olayında da bir bağlantı kurulmuştur.

Nuh'un gemisi, tufan koptuktan sonra su üstünde her yanı dolaşırken; Kerbela diyarına gelince durdu, hareket etmedi. Hazreti Nuh bu duruma hayret edince, tanrı katından bir ses geldi, dedi ki:

«Ya Nuh, orası bu konak yeridir ki; benim Ehlibeytim, Nuh'un gemisine benzeyecektir. Örneği açık olup Ehlibeytim buranın kanlı girdabında boğulacaktır. Ehlibeyt'in birçok ileri gelenlerini ve faziletlerini bu konak yeri hayrete bırakıp kendilerinden geçirecektir».

Alevi Bektaşi inancındaki aşure geleneği yine Nuh Tufanı ile ilgilidir.

İslam inancına göre; 10 muharrem Nuh'un Tufanı'nın bittiği gündür. Nuh peygamberin gemisi o günde karaya ulaşabilmiştir. Nuh Aleyhisselem ve maiyeti karaya çıktıklarında Allah'a şükretmek için gemide bulunan kuru bakliyat, arta kalan meyve ve diğer nevalelerden oluşan (günümüzde Aşure çorbası olarak bilinen) bir çorba pişirip yemişlerdir. O günden bu güne aynı anane devam ediyor. Aşure çorbası 12 çeşit yiyeceğin birleşimi ile yapılır.

Oruç on iki imamları, Nuhun Tufanını anmak, o inançla hakka erişmek için tutulur. Kerbela vakasından günümüze kadar yapılan ibadetlerin sonunda Aşure çorbası yapılarak dağıtılır.

Yine bazı rivayetler, Hz. Muhammed'in torunu Hz. Hüseyin'in Kerbela'da şehit edilişini anmak üzere o gün mutlaka bakliyat ve kuru meyvelerle hazırlanan aşureyi pişirip yediklerini belirtirler.

Anadolu alevi dedelerinin Nuh ve Aşure ilişkisi bir dedenin dilinden şöyle yorumlanmaktadır:

«Aşure Nuh peygamberden kalmıştır. Nuh peygamber Allahın gazabına uğrayan halkından kendisine inananlar ve dünyada bulunan hayvanlardan aldığı birer çift örnekle gemisinde tufan bitmesini beklerken gemi deniz üzerinde bir yerde takılır kalır. Nuh Peygamber Allaha yalvararak gemisini bu durumdan kurtarmasını diler. Allah'tan bir nida gelir ve geminin bulunduğu yerin Kerbela çölünün üzeri olduğu Hz.Hüseyin'le birlikte 73 kişinin ileride, bu alanda Yezit ordularınca şehit edileceği bildirilir. Nuh peygamber ve gemide bulunanlar Hz.Hüseyin, on iki imamlar ve şehitler aşkına üç gün oruç tutup aşure yaptıktan sonra gemi yürümeye başlar ve karaya ulaşır».

Anadolu Alevi geleneğinde bu anlatımın başka versiyonları da oldukça yaygındır. Bu nedenle Nuh ve Tufanı ile ilgili Alevi Bektaşi inanç ve geleneği üzerinde önemli bağlar kurulmaktadır. İslam inançları içerisinde Karbela ve 12 İmamlar bağlantısı, ardından Güvercin ve Hacı Bektaşi bağlamı bir bütün olarak karşımıza çıkmaktadır.

ƏDƏBİYYAT

1. Lütfi kaleli: Mitolojide İnanç ve Peygamberler.
2. Fuzuli. Saadete Ermişlerin Bahçesi.
3. Özmen İ. Simgeler Kenti Bektaşilik. C. 1, s. 283.
4. Er P. Direnen Kültür, Anadolu Aleviliği, s. 114.
5. Hacı Bektaş Velvyetnamesi, Abdulbaki Gölpınarlı çalışması.
6. Harmancı H. Aleviliğin Anayasası Varoluş.
7. Gürbüz İ. Aşure Günü. İnternet sayfası.
8. Can N. http://www.sevgiport.com/nurican.
9. Özkırımlı A. Türk Edebiyatı Ansiklopedisi.
10. Aksel M. Anadolu Halk Resimleri.
11. Akalın S. Türk Folklorunda Kuşlar.
12. Uraz M. Eski Türk Destanları, Halk Şiiri ve Hikayelerinde Kuşlar.

HACI QADİR QƏDİRZADƏ
AMEA Naxçıvan Bölməsi

GƏMİYƏ GÖTÜRÜLMÜŞ HEYVANLAR, GƏMİQAYA TƏSVİRLƏRİ VƏ NAXÇIVANDAKI İNAMLARLA ORTAQ CƏHƏTLƏR

Nuh (ə.s.) və Dünya tufanının araşdırılmasında ciddi problemlərdən biri də gəmiyə kimlərin, hansı heyvanların, canlıların və toxumların götürülməsidir. Daha dəqiq desək, təbiətə, canlı aləmə və insanlığa münasibət məsələsidir. Qeyd edək ki, bizə qədər ayrı-ayrı müəlliflər problemi bu və ya digər cəhətdən araşdırmaqla müəyyən nəticələrə gəlmişlər. Onlar daha çox dini mənbələrə, xüsusən Bibliyaya əsaslanmışlar. Buna görə də bir sıra məsələlərdə birtərəfliliyə yol verilməklə mübahisəli cəhətlər meydana gəlmişdir. Hər şeydən öncə qaranlıq məqamlar gəmiyə kimlərin götürülməsi, minməsi ilə bağlıdır. Qədim tarixi mənbələrdə, Səmavi kitablarda və dini ədəbiyyatlarda bununla bağlı fərqli məlumatlar mövcuddur. Bura xalq arasında yayılmış rəvayətləri də əlavə etsək, problemin nə dərəcədə cətin olduğu ortaya çıxar. Uzun illər ancaq Bibliyaya əsaslanaraq hökm vermək böyük yanlışlıqlara səbəb olmuşdur. Digər cətinlik, özgə sözlə ifadə etsək, çatışmamazlıq tədqiqatlarda xalq arasında yayılmış, min illər boyu qorunub saxlanmış rəvayətlərin nəzərə alınmamasıdır. Bura yerli materialları, maddi və mənəvi dəlilləri də əlavə etsək, araşdırılmaların hansı səviyyədə aparıldığı tam aydınlaşar. Avropa və Amerika araşdırıçıları arasında Bibliyaya əsaslanmaq, xristian təəssübkeşliyi, problemdən siyasi məqsədlər üçün istifadə edilməsi, Dünya tufanından sonrakı sivilizasiya məsələsinə birtərəfli baxış, tutarlı elmi dəlillərə söykənmədən bu inkişafı hansısa ayrıca etnik qrupa aid etmək, nəticədə əsassız ərazi iddiaları irəli sürməyə gətirib çıxarmışdır. Bibliyadakı Ararat\Ağrıdağ variantından istifadə edən müəlliflər az qala Nuh peyğəmbəri erməni dilində danışdırmağa çalışırlar. 150 ildən artıq vaxt sərf etmələrinə baxmayaraq, Ağrıdağda necə bir nəticə əldə edə bilməyən bir sıra araşdırıcılar ağırlıq mərkəzini Urmiya gölü hövzəsinə yönəltməklə buranın Ermənistanın mərkəzi, ürəyi olduğunu iddia edirlər. Deməli, onlar üçün məsələnin elmi tərəfindən çox siyasi tərəfi maraqlıdır. Gəmi harada dayanır, dayansın, ora

Ermənistandır. Bu fikirlər özünü Devid Rolun 2002-ci ildə rus dilinə tərcümə edilmiş əsərində daha qabarıq şəkildə göstərir [10]. Lakin hansı coğrafi zonaya aparılmasından asılı olmayaraq, heç bir maddi sübut əldə edə bilməyən bir sıra araşdırıcılar zaman-zaman Naxçıvanla bağlı məsələləri gündəmə gətirməyə, buranı da kimlərəsə aid etməyə çalışsalar da, heç bir nəticə əldə edə bilməmişlər. Çünki həqiqətən Dünya tufanından sonrakı bütün hadisələrin Naxçıvanda baş verdiyi, buranın Nuh(ə.s.)ın, onun oğlu Yafəsin, Yafəs oğlu Türkün, yəni indiki Azərbaycan türklərinin yurdu olduğu elmi şəkildə əsaslandırılmışdır.

Bu kiçik ön sözü problemin nə dərəcədə ciddi olduğunu bildirmək məqsədi ilə veririk. Unutmaq olmaz ki, Nuh peyğəmbər, Dünya tufanı və Naxçıvan məsələsi bütövlükdə elmi məsələ olmaqla yanaşı, həm də milli problemdir. Buna görə də araşdırmalar zamanı Naxçıvanla bağlı tarix həqiqətlərin, elmi dəlillərin, yerli rəvayətlərin ortaya qoyulması vacib şərtlərdəndir. Biz yazımızda bunlara əməl etməyə çalışacağıq. Buna görə də araşdırmada tarixi, dini mənbələrlə yanaşı, Naxçıvan, xüsusən Gəmiqaya materiallarından müqayisəli şəkildə istifadə etməyə çalışacağıq.

Bilqamıs dastanına görə, Utnapişti ailəsini, qohuməqrəbasını gəmiyə yerləşdirir:

Küflətimi, nəslimi yığışdırdım gəmiyə [4, s. 89].

Dastanda kənar adamların gəmiyə minməsi ilə bağlı məlumat verilmir. Bilqamısdan fərqli olaraq, Bibliyada ancaq Nuhun ailəsi gəmiyə götürülür. «Varlıq» kitabının Tufan (Daşqın) bölməsində deyilir ki, tufan başlayanda Nuh, oğlanları Sam, Xam, Yafəs, həmçinin Nuhun arvadı və gəlinləri gəmiyə mindilər [9, s. 16]. Qurani-Kərimə və digər dini mənbələrə görə, Nuh(ə.s.)a iman gətirən ailə üzvləri və az sayda iman etmiş digər insanlar gəmiyə götürülmüşdür: «Nəhayət (onları məhv etmək barədə), əmrimiz gəldi və təndir qaynadı (təndirdən və ya yer üzündən, yaxud gəminin qazanından su qaynayıb daşdığı) zaman (Nuha) dedik: «Hər heyvandan bir erkək, bir dişi olmaqla bir cüt, həmçinin əleyhinə (ölümünə) əvvəlcədən hökm verilmiş şəxslər istisna olmaqla, qalan ailə üzvlərini və iman gətirənləri gəmiyə mindir». Əslində onunla birlikdə (tayfasından) çox az adam iman gətirmişdi» [Hud surəsi, ayə 40]. Azlıqlarına görə gəmiyə götürülən insanlarla bağlı ciddi mübahisələr mövcud deyil. Yəni onların gəmiyə yığılmasının

mümkünlüyü qəbul edilir, Tufan məsələsində ciddi müzakirə mövzusu gəmiyə götürülmüş heyvanlarla əlaqəlidir. «Bilqamıs» dastanında Utnapiştinin gəmiyə bütün ev heyvanlarını, həmçinin çöl heyvanlarını götürdüyü yazılır:

Nə heyvanım vardısa,
O gəmiyə yüklədim.
Külfətimi, nəslimi yığışdırdım gəmiyə,
Çöl heyvanlarını da yerləşdirdim gəmiyə [4, s. 89].

Deməli, Utnapişti özünə məxsus nə varsa, o cümlədən heyvanlarını da gəmiyə götürüb. Lakin çöl heyvanları deyərkən hansılarını və nə miqdarda götürüldüyü məlum olmur. Hər halda vəhşi heyvanların müəyyən hissəsinin xilas edilməsi nəzərdə tutulmaqla onlar tufan baş verən bölgəyə aid olmalıdırlar. Təbii ki, bu fikir daha çox mülahizə xarakteri daşıyır. Çünki dastanda Utnapiştinin «nə heyvanım vardısa» ifadəsi bütün ev heyvanı cinslərini əhatə edə bilər. Lakin çöl heyvanları ifadəsi ümumi olmaqla mücərrəd xarakter daşıyır. Yəni onların miqdarı göstərilmir. Bəlli olduğu kimi, sonrakı mənbələrdə dəqiq göstəriş vardır.

Araşdırıcılar tərəfindən birmənalı qəbul edilməyən, böyük mübahisə doğuran problemlər Bibliyada verilmiş gəmiyə götürülən heyvanların sayı, toxumların miqdarı, tufanın müddəti, gəminin sahəsi, buradakı ərzaq və yem ehtiyatı ilə bağlıdır. Bu məsələdə önəmli yeri olan gəminin ölçülərinə xüsusi diqqət yetirilir. Çünki gəmiyə götürülənlər bundan çox asılıdır. Bibliyada və onunla bağlı digər dini mənbələrdə verilən məlumatlara görə gəminin uzunu üç yüz dirsək, eni əlli dirsək, hündürlüyü 30 dirsək olmuşdur. Bir sıra müəlliflər kimi, A.Azimov rəqəmlərə söykənərək gəminin sahəsinin 43 min kub metr olduğunu bildirməklə gəmiyə götürülənlərin bura yerləşməsinin qeyri-mümkün olduğunu yazır [8, s. 268]. Müəllif bunu doğuran səbəblərin Bibliyada gəmiyə götürülən heyvanların sayı və müəmmalı rəqəmlərlə bağlı olduğunu yazır.

Hər şeydən öncə, Bibliyada bu məsələ ziddiyyətli olmaqla çox dolaşıqdır. «Varlıq», 6-cı başlıq, 19-cu babda deyilir ki, yer üzündəki bütün canlılardan bir cüt gəmiyə götürülür ki, onlar salamat qalsınlar. Yəni nəsilləri qorunsun. 7-ci başlıq 2, 3-cü bablarda təmiz heyvanlardan (yəqin ki, halal, əti yeyilən H.Q.) 7 cüt, natəmiz heyvanlardan bir cüt, həmçinin təmiz quşlardan 7 cüt, natəmizlərdən bir cüt götürmək əmr olunur ki, gələcəkdə onların

nəsli davam etsin [9, s. 16]. Təbii ki, oradakı insanları, heyvanları və digər canlıları yedizdirmək üçün müxtəlif ərzaqlar, qidalar, yemlər və içməli su da götürülməli idi. Yuxarıda göstərilən ölçülərə malik olan gəmiyə bunların yerləşdirilməsi mümkün deyil. Problemlə məşğul olan təbiətşünasların əksəriyyətinin fikri belədir ki, ancaq həşəratlardan deyilən qədər gəmiyə götürülsəydi, onları yerləşdirmək olmazdı. Məsələni çətinləşdirən ən ciddi problemlərdən biri də gəmiyə yığılmış saysız-hesabsız canlıları bir il ərzində qidalandırmaqdır. Tutaq ki, ot yeyənlərin problemi həll edildi, halbuki bu da mümkün deyil, ət yeyənlər hansı ehtiyatla təmin edilmişlər?! Belə müəmmalı sualları problemlə məşğul olan bütün mütəxəssislər verirlər. Cavabında isə Bibliyada göstərilənlərin həqiqətə uyğun olmadığı, məsələnin Allah hökmünün əslini əks etmədiyi, zaman-zaman həqiqətin təhrif edilərək yazıya alındığı ortaya qoyulur.

Biz də Bibliya ilə bağlı yanaşmada eyni mövqedən çıxış edir, lakin çoxunun nəzərindən qaçan bir məsələni də diqqətə çatdırmaq istəyirik: içməli su. Bəli, bir il müddətində bütün canlılar üçün lazım olan su harada və necə saxlanmışdır? Maraqlıdır ki, Bibliyada yemdən, ərzaqdan bəhs edilsə də, sudan söhbət açılmır. Müəmmalı şəkildə olsa da, söylənə bilər ki, Tufan nəticəsində yerdən qaynayan və göydən tökülən (yağan) su şirin olmuşdur. Lakin bununla bağlı Peyğəmbərlər Tarixi Ensiklopediyasında yazılır ki, bu su, sair zamanlarda yağan yağmur suları kimi şirin deyildi. Toxunduğunu yandırıb yaxırdı [6, s. 29]. Hətta yağmur suyu içməli olsaydı belə, ondan istifadə etmək mümkün deyildi. Bibliyadan bəlli olur ki, gəmi yeddinci ayın onyeddinci günü Ararat (Ağrı) dağında dayanır. Bu isə Tufanın başlanmasından təqribən 150 gün sonradır. Bu müddət ərzində gəminin qapı və ya pəncərəsi açılmır. Nuh peyğəmbər gəminin pəncərəsini ancaq Tufan başlayandan 258 gün sonra açır [Varlıq 8-ci başlıq, 5-6-cı bab]. Bizcə, bu müddətdə gəmidəkilərin istifadə edəcəyi suyun saxlanması mümkünsüzdür. Yəni Bibliyanın əslində mənzərənin fərqli olduğu qənaətinə gəlinir. Bütün bunlar bir sıra araşdırıcılarla bərabər A.Azimov tərəfindən ümumiləşdirilərək verilmişdir [8, s. 270-282].

O, əsərində digər məsələlərlə bərabər 6-cı başlığın 21-ci babındakı lazım olan qidanın götürülməsi ilə bağlı hökmü şərh edərək bildirir ki, deməli, Nuh gəmiyə bütün heyvanatın yeyə bil-

diyi hər cürə qidanı, bitkini, meyvəni bütövlükdə quruya aid ən azı dörd milyondan artıq növü götürməli idi [8, s. 271-272].

Unutmayaq ki, hökmdə təkcə canlıların xilas edilməsi deyil, bütün bitkilərin də toxumlarının götürülməsi nəzərdə tutulur.

Bu baxımdan mübahisə doğuran məsələlərdən biri də tufanın nə müddətə davam etməsidir. Bilqamısda dəqiq vaxt göstərilməsə də, onun uzun müddət davam etmədiyi bəlli olur.

Qurani-Kərimdə gəmiyə götürüləcək heyvanlarla bağlı deyilir: «Hər heyvandan bir erkək, bir dişi olmaqla bir cüt... gəmiyə mindir» [Hud surəsi, ayə 40]. Müminin surəsinin 27-ci ayəsində də hər heyvandan bir cüt götürmək əmr olunur. Naxçıvan ərazisindən toplanmış materiallar Qurani-Kərimin hökmləri ilə eynilik təşkil edir.

Bibliyadan fərqli olaraq Qurani-Kərimdə verilən məlumatların reallığı əks etdirməsi araşdırıcılar tərəfindən qəbul edilməkdədir. Bir sıra təfsirçilərə görə gəmiyə daha çox insanların faydalandıqları ev heyvanları, həmçinin daşqınların altında qalacaq ərazilərin heyvanlarının hərəsindən bir cüt götürülmüşdür. Peyğəmbərlər Tarixi Ensiklopediyasında bununla bağlı yazılır ki, Allanın əmri ilə Nuh(ə.s.)ın ailəsi, bütün heyvanlar, həşəratlar gəminin ətrafına toplandı. Hz. Nuh sağ əli ilə işarə edincə bir heyvanın erkəyi, sol əli ilə işarə etdikdə dişisi gəmiyə minirdi. Rəvayətə görə, ilan və əqrəb gəmiyə minmək istəyərkən Nuh (ə.s.) onları buraxmır ki, siz zərərlisiniz. Onlar da söz verirlər ki, səni zikr edən kimsəyə zərərimiz dəyməz [6, s. 28]. Buradan Qurani-Kərimin hökmünə uyğun olaraq hər heyvandan bir cüt götürüldüyü bəlli olur.

Naxçıvanda heyvanların gəmiyə götürülməsi ilə yanaşı, onların yerləşdirilməsi, gəmidəki heyvanların hərəkətləri, quruya çıxmaları ilə əlaqəli maraqlı rəvayətlər mövcuddur. Toplanmış rəvayətlərdən birində deyilir ki, Hz. Nuhun gəmiyə ilk götürdüyü heyvan siçan olmuşdur. Bundan sonra gəmiyə ardıcıl olaraq öküz, pələng, balıq, ilan, at, qoyun, meymun, quş (toyuq, xoruz), it və qaban minir. Nuh peyğəmbər bildirir ki, gələcəkdə illər bu heyvanların xüsusiyyətlərinə uyğun olmaqla on iki ildən bir dəyişəcəkdir. Beləliklə, tarixdə türklərlə bağlanan və 12 heyvana əsaslanan təqvim yaranmışdır. Toplanmış materiallardan belə məlum olur ki, heyvanlar təsadüfən seçilməmişdir. Seçimdə onların insan həyatındakı yeri, ilin və doğulan uşaqların necəliyinə təsiri də nəzərə

alınmışdır. Xalq arasında olan inamlara görə, hərəsi dörd olmaq şərti ilə bu heyvanlar üç yerə ayrılırlar. 1. Mismil (halal) olanlar: qoyun, öküz, quş, balıq; 2. Məkruf olanlar: at, dovşan, ilan, qaban; 3. Murdar olanlar: meymun, it, siçan, pələng. Bu bölgüdən belə aydın olur ki, Nuh peyğəmbər heyvanları seçərkən onların insan həyatında oynadıqları rolu deyil, Allahın hökmünü əsas götürməklə onlar arasında fərq qoymamışdır.

Naxçıvanda gəmiyə götürülmüş ayrı-ayrı heyvanlarla bağlı müxtəlif rəvayətlər mövcuddur. Bir rəvayətdə deyilir ki, gəmiyə ilk olaraq götürülən siçan gəmirərək onu deşir və içəri su dolmağa başlayır. Nuh peyğəmbər deşiyi heç cürə tıxa bilmir, içəridəki heyvanlara müraciət edir. İlan deyir ki, mən tıxaram, amma bir şərtlə. Gəmi quruya çıxdıqda mənim istədiyimi verəsən. Nuh peyğəmbər razılaşır. İlan quyruğunu deşiyə tıxıb, gəmini batmaqdan xilas edir [2, s. 46]. Rəvayətdə qurunu ilk tapan qaranquşdan, onun insanları ilanın bəlasından qurtarmasından bəhs edilir. Gəmiyə götürülmüş heyvanlarla bağlı məsələlər təkcə rəvayətlərlə bitmir. Bunların böyük bir qismi öz əksini qayaüstü təsvirlərdə tapmışdır. Belə təsvirlər içərisində keçi rəsmləri üstünlük təhkil edir. Bu bir tərəfdən keçi kultu ilə bağlıdırsa, digər tərəfdən keçinin insanların həyatını xilas etməsi, tufan olacağını onlara öncədən bildirməsi ilə əlaqəlidir. Ümumtürk xarakteri daşıyan bir Altay rəvayətində deyilir ki, tufan olaçağını insanlara ilk olaraq bir göy tüklü təkə bildirmişdir. O, yeddi gün müddətində dünyanı dolaşaraq tufanın əlamətlərini xəbər verməklə insanları hazırlıq görməyə çağırmışdır. Bəladan xilas olanlar keçiyə müqəddəs heyvan kimi baxmışlar [7, s. 15]. Təbii ki, qayaüstü təsvirlərdə keçi rəsmlərinin geniş yayılması onun mifoloji yönləri ilə bərabər, heyvandarlıqda xüsusi yer tutması ilə də bağlıdır. Naxçıvanda indi də bir ifadə işlənməkdədir: «Üç keçi bir inəyə bərabərdir». Bu, keçilərin bol süd verməsi, sürətilə artıb çoxalması ilə əlaqəlidir. Şifahi xalq yaradıcılığında, xüsusən nağıllarda keçi keçəllə birlikdə çoxbilmiş kimi göstərilir. Bir keçi ailəni dolandırır.

Gəmiqayada rəvayətə görə gəmini batmaqdan xilas edən ilanla bağlı müxtəlif təsvirlər mövcuddur. Bu təsvirlər də xarakterlərinə, mifoloji tutumuna görə fərqlənirlər. Onların içərisində rəvayətlərlə səsləşən, ilanların insanları, şirin və istiqanlıları həyat-

dan məhrum etmək üçün apardığı mübarizə, gəmi, ilan/əjdaha və qaranquş təsvirlərinin birgə verilməsi isə tufanla əlaqəlidir.

Rəsmlər içərisində diqqətimizi çəkən gəminin sxematik olaraq quş şəkilində təsviridir. Xalq arasında yayılmış rəvayətlərə görə, Nuh (ə.s.) gəmini suda üzən quş, su quşu formasında düzəltmişdir. Tanınmış türk tədqiqatçısı Ahmet Bican Ercilasun tərəfindən Qars yörəsindən toplanmış bir rəvayətdə deyilir ki, Nuh peyğəmbər gəmini hansı formada düzəldəcəyini bilmədiyindən Allaha müraciət edir ki, ya Rəbbim! Mən gəmini hansı formada düzəldəcəyimi bilmirəm, mənə yardım et. Allahın hökmü ilə Təknus adlı quş göndərilir və Nuh (ə.s.) gəmini onun formasında düzəldir [5, s. 250-251]. Maraqlıdır ki, Gəmiqaya ərazisindən aşkar edilmiş gəmi təsviri də quş formasındadır [3].

Gəmiqayadakı heyvan təsvirləri içərisində hələ də tam araşdırılmamış heyvan və həşərat rəsmləri mövcuddur ki, onların hərtərəfli öyrənilməsinə böyük ehtiyac vardır. Bu yolla həmin təsvirlərin Dünya tufanı ilə genetik bağlılığını, xalqımızın düşüncə tərzini müəyyən etmək mümkündür.

ƏDƏBİYYAT

1. Qurani-Kərim / Ərəb dilindən tərcümə edənlər Z.M.Bünyadov., Y.V.Məmmədəliyev. VI nəşr, Bakı, 2004.
2. Azərbaycan mifoloji mətnləri. Bakı, 1988.
3. Alıyev N. Müqəddəs peyğəmbər gəmisi // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1, s. 39-46.
4. «Bilqamıs» dastanı / Rus dilindən çevirəni və ön sözün müəllifi İ.Vəliyev. Bakı, 1985.
5. Ercilasun A.B. Kars ili ağızları. Ankara, 1983.
6. Peygamberler Tarihi Ansiklopedisi. II c., İstanbul: Türkiye Gazetesi.
7. Vəliyev K. Elin yaddaşı dilin yaddaşı. Bakı, 1988.
8. Азимов А. В начале / Пер. с англ. В.Бабенко и Вл.Гакова. М., 1990.
9. Библия. М.: Российское Библейское Общество, 1994.
10. Рол Д. Генезис цивилизаций. Откуда мы произошли. М., 2002.

NƏCƏF MÜSEYİBLİ,
ƏKBƏR BƏDƏLOV
AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu

GƏMİQAYA QƏBİR ABİDƏLƏRİ

İlk Tunc dövrünün ortalarında, e.ə. IV minilliyin sonu-III minilliyin əvvəllərində meydana gələn yaylaq maldarlığı ilə əlaqədar Kiçik Qafqazın dağ silsilələri, o cümlədən yüksək alp çəmənlikləri ilə zəngin olan Qapıcıq dağı ətrafları da məskunlaşmağa başlayır. Burada qədim maldarların ən çox məskən saldıqları yer Nuhun tufanı haqqında əfsanədə adı gedən və hətta gəminin bu dağda dayandığı ehtimal olunan Gəmiqayadır.

Gəmiqaya abidəsi Ordubad rayonu ərazisində, Nəsirvaz kəndi yaxınlığında, Kiçik Qafqazın ən yüksək zirvəsi olan Qapıcıq (3906 m) dağının ətəyində, dəniz səviyyəsindən 2800-3500 m yüksəklikdə yerləşir. Qayaüstü təsvirlər porfir qranosienit, kvars sienenit-diorit, qabbro-diorit və kvars mansodiorit növlü vulkan suxurlarının üzərində həkk edilmişdir. Daşlar tərkibindəki dəmirin və başqa mineralların təsirindən tünd-qəhvəyi və parıltılı qara rəngdə görünür. Gəmiqaya Qapıcıq dağına yerli əhalinin verdiyi əfsanəvi bir addır. Ümumdünya tufanı ilə bağlı olan bu əfsanəyə görə, Nuh öz gəmisi ilə məhz bu dağın zirvəsində dayanmışdır və guya Nuhun gəmisi bu günə qədər də həmin zirvədə daşlaşıb qalmışdır [1, s. 67-69]. Maraqlıdır ki, Gəmiqaya ətrafında Nuh əfsanəsi ilə bağlı çoxlu toponimlər vardır və bu haqda elmi ədəbiyyatda kifayət qədər məlumat verilmişdir. Abidənin elmə məlum olmasının da maraqlı tarixçəsi vardır. 1967-ci ildə Azərbaycan geoloqları burada daşlar üzərində müxtəlif təsvirlərə rast gəlmiş və bu haqda Respublika EA Tarix İnstitutuna məlumat vermişlər. 1968-ci ildə İnstitutun əməkdaşı V.H.Əliyev Gəmiqayaya səfər etmiş və bu abidə haqqında özünün ilk məqaləsini nəşr etdirmişdir [8]. Görkəmli alimin sonrakı monoqrafiya və məqalələri sayəsində Gəmiqaya abidəsi elm aləmində öz layiqli yerini tutmuşdur. Lakin abidənin yüksək dağlıq ərazidə yerləşməsi, rahat yolun olmaması və s. Amillər bu dünyaəhəmiyyətli abidənin geniş və hərtərəfli tədqiq olunmasına imkan vermirdi. Yalnız Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin tapşırığı və birbaşa qayğısı

sayəsində Gəmiqayada genişmiqyaslı tədqiqatların aparılması mümkün oldu.

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun təşkil etdiyi geniş tərkibli və müxtəlif dəstələrdən ibarət «Naxçıvan Gəmiqaya» arxeoloji ekspedisiyası 2001-2003-cü illərdə Gəmiqayada və Naxçıvan bölgəsinin digər abidələrində səmərəli tədqiqat işləri apardı. 1500-ə yaxın qayaüstü təsvir qeydə alındı və öyrənildi, ilk dəfə olaraq Gəmiqaya ərazisində, Qaranquş yaylağında qədim maldarlara məxsus yurd yerlərində arxeoloji qazıntılar aparıldı.

Nəbi yurdu yaylağında toplanmış yerüstü materiallar içərisində İlk Tunc dövrünə aid keramika nümunələrinin aşkar edilməsi Gəmiqaya ərazisinin artıq bu dövrdə məskunlaşdığını, mövsümi yaşayış yerlərində daş tikililərin də olduğunu, ən qədim təsvirlərin də məhz həmin dövrə aid olduğunu göstərirdi. Gəmiqaya abidəsində ilk dəfə olaraq tikinti qalıqları və qəbir abidələri aşkar edilib öyrənildi. Bu yazıda əsas məqsəd Gəmiqaya qəbir abidələrinin təsviri, elmi təhlili və dövrünün müəyyən edilməsidir.

Qaranquş yaylağında «Babəkilər qəbiristanlığı» adlandırılan orta əsrlərə aid müsəlman qəbiristanlığının olması elmə məlumdur [3], lakin Gəmiqaya və ətrafında tunc dövrünə aid qəbir abidələrinin olması 2002-ci ilə qədər qeydə alınmamışdı. Arxeoloji tədqiqatlar zamanı mövsümi yaşayış yerlərini (yaylaqların) yaxınlığında kurqantipli qəbir abidələrinin olduğu aşkar edildi. Bu kurqanlardan hələlik bir neçəsi öyrənilmişdir.

1 №-li kurqanın diametri şimal-cənub istiqamətində 5,3 m, şərq-qərb istiqamətində isə 5,1 m, daş-torpaq qarışıq kurqan təpəciyinin hundürlüyü isə 0,35 m-dir. Kromlexi yoxdur. Diqqəti cəlb edən kurqanın şimal tərəfində, yanı üstdə dayanmış, hundürlüyü 1,66 m, eni 0,5 m olan bütə oxşayan daşdır. Ehtimal ki, daş ilkin vəziyyətində dikinə basdırılmış, sonradan təbii proseslər nəticəsində yanı üstdə əyilmişdir. Kurqanlar üzərində heykəl formasında daş bütlərin qoyulması geniş yayılmışdır. Analoji vəziyyətə Azərbaycan ərazisində Qobustan kurqanlarında rast gəlinmişdir. Burada 3 №-li kurqanın qərb tərəfində, örtük daşları arasında arxası kromlex daşlarına söykənmiş vəziyyətdə büt aşkar edilmişdir. Bütün hündürlüyü 1,4 m olub, əhəng tərkibli Abşeron daşından hazırlanmışdır.

Kurqan təpəciyinin altında müxtəlif ölçülü daşlar nizamsız şəkildə tökülmüşdü. Qəbrin kamerası aşkar edilmədi. Kurqanın şərq tərəfində, yer səthindən 30 sm dərinlikdə ağzı aşağı çevrilmiş vəziyyətdə boz rəngli tuf daşından hazırlanmış kasa tipli qab aşkar edildi. 50 sm dərinlikdə üzərində işlənmə izləri olmayan iki ədəd dəvəgözü daşı parçası, 75 sm dərinlikdə isə Son Tunc-İlk Dəmir dövrünə aid gil qab fraqmentləri tapıldı. Kurqanın qərb tərəfində 60 sm dərinlikdə dairəvi formada, diametri 50 sm olan ocaq aşkar edildi. Ocağın içərisində kül qatının qalınlığı 15 sm idi.

Ümumiyyətlə, 1№-li kurqanda qəbir kamerası və ya skelet qalıqları aşkar edilmədi. Kurqan adlandırdığımız bu abidəni kult xarakterli tikili olduğunu da ehtimal etmək olar.

2№-li kurqan 1№-li kurqanın yaxınlığında yerləşir. Kurqanın üstü kromlex səviyyəsində salamat qalmışdır. Kromlexin diametri şərq-qərb istiqamətində 9 m, şimal-cənub istiqamətində isə 7,5 m-dir, divar formasında işlənmişdir, şimal tərəfdə eni 1 m, qalan yerlərdə isə 40-60 sm-dir. Qəbir kromlexin təqribən ortasında yerləşir. Qəbrin kamerası 100x80x50 sm ölçülü daşlarla işlənmiş, üstü 20-30 sm qalınlığında sal daşlarla örtülmüş və üzərinə müxtəlif həcmli daşlar təpə şəklində tökülmüşdür. Kameranın şimal tərəfi qarətçilər tərəfindən dağıdılmışdır. Bu dromoslu sərdabə tipli qəbirdir. Qəbrin uzunluğu 1,7 m, eni 1,4 m, hündürlüyü 0,9 m-dir. Dromosun uzunluğu 1,3 m, eni isə 0,9 m-dir. Qəbrin ətrafı və içərisi təmizlənərkən orta əsrlərə aid şirli və şirsiz keramika nümunələri tapılırdı. Kameranın içərisi 130-140 sm dərinlikdə təmizləndi, lakin insan skeleti və onun qalıqlarına rast gəlinmədi. Qəbrin döşəməsi səviyyəsində qara gilli, yaxşı cilalanmış üş ədəd piyalə tipli qabın fraqmentləri, bir ədəd nazik tunc məftildən hazırlanmış, qövsvari qatlanmış vəziyyətdə qolbağın bir hissəsi və dəvəgözü daşından hazırlanmış bir ədəd ox ucu aşkar edildi. Keramika nümunələrindən biri dabanlı oturacağa malik kasa tipli qaba aiddir. Hər iki üzündən yaxşı cilalanmış bu qablar e.ə. III minilliyin sonu üçün xarakterikdir. Qeyd edək ki, dəvəgözü daşından hazırlanmış ox ucu da elə həmin vaxtdan insanların məişətinə daxil olmuşdur. Cənubi Qafqaz abidələrində Orta və Son Tunc dövrünə aid belə ox ucları çox tapılmışdır.

2№-li kurqanın qəbri quruluşuna görə Plovdağın orta tunc dövrü kurqanaltı sərdabələrinin və Astara rayonundakı 2№-li

Telmankənd kurqanının qəbri ilə oxşardır. Telman-kənd kurqanını tədqiq edən arxeoloq F.R.Mahmudov arxeoloji materialların müqayisəli təhlilinə əsasən onun e.ə. III minilliyin ortalarına aid olması nəticəsinə gəlmişdir [5, s. 19].

Yuxarıda qeyd olunanları nəzərə alaraq və arxeoloji materialların müqayisəli təhlilinə əsaslanaraq Nəbi yurdu kurqanını e.ə. III minilliyin son rübünə – Orta Tunc dövrünün başlanğıcına aid etmək mümkündür.

Gəmiqayada öyrənilən bir neçə qəbir buranı özünə yaylaq etmiş qədim maldar tayfaların dəfn adəti haqqında tam təsəvvür yaratmasa da, bu haqda müəyyən fikir yürütməyə imkan verir. İlk növbədə buradakı qəbirlərdə insan skeletinə rast gəlinməməsi diqqəti cəlb edir. Naxçıvan bölgəsində skeletsiz qəbirlər İlk Tunc dövründən məlumdur. Belə ki, 2002-ci ildə Şərur rayonu ərazisində yerləşən Qarabulaq abidəsində e.ə. III minilliyin ortalarına aid bir neçə kurqan tədqiq edilmiş, qəbir avadanlıqlarının yerində olmasına baxmayaraq, bu kurqanların heç birində nə insan skeletinə, nə də onun qalıqlarına rast gəlinməmişdi. Eyni vəziyyət həmin ildə tədqiq etdiyimiz Son Tunc dövrünə aid Çapacaq kurqanında və İlk Dəmir dövrünə aid Sədərək qalasının nekropolundakı daş qutu qəbrində də müşahidə olunmuşdur.

Naxçıvan ərazisində Son Tunc və İlk Dəmir dövrü qəbirlərində skeletin olmamasına kütləvi halda Şahtaxtı nekropolunda rast gəlinmişdir. Burada qazılmış 34 daş qutu qəbrin heç birində insan dəfninin izlərinə belə rast gəlinməmişdir [7, s. 49]. Ümumiyyətlə, Azərbaycanın digər bölgələrindəki həmdövr abidələrdə də təktək və ya qrup halında skeletsiz qəbirlərə təsadüf olunmuşdur.

1888-1891-ci illərdə V.Belkin Gədəbəydə qazdığı Son Tunc və İlk Dəmir dövrünə aid qəbirlərdən də bir neçəsində skelet, bəzilərində isə nə skelet, nə də avadanlıq aşkar edilməmişdir [4, s. 48-164]. A.A.İvanovskinin 1895-ci ildə Gədəbəydə qazdığı 80 saylı Dəmqolu kurqanında da skelet aşkar edilməmişdir [9, s. 146].

V.Belk qəbir örtük daşlarının yerində olmasına və kameranın içərisinin toxunulmadığına əsaslanaraq boş qəbirlərin vaxtilə qarət olunması fikrini rədd edir. Onun irəli sürdüyü birinci fərziyyəyə görə, boş qəbirlər müəyyən şəxslər tərəfindən hazırlanaraq satılırmış. Onların boş qalması isə alqı-satqının müyyən səbəblər üzündən baş tutmaması olmuşdur. İkinci fərziyyəyə görə isə boş

qəbirlər gəlmələrə aid imiş, müəyyən vaxtdan sonra onları doğmaları çıxarıb aparmış və qəbirlər boş qalmışdır [4, s. 164].

A.A.İvanovskinin fikrincə, boş qəbirlər əvvəlcədən ehtiyatda olmuş, lakin sonradan əhalinin başqa yerə köçməsi və ya onlar üçün nəzərdə tutulmuş adamların başqa qəbirlərdə dəfn olunması ilə əlaqədar bu qəbirlər istifadəsiz qalmışdır [9, s. 168]. Xaçbulaq yaylağındakı daş qutu qəbirləri tədqiq edən H.Kəsəmənli A.A.İvanovskinin bu fikrini inkişaf etdirərək yazır ki, qəbirlərin boş qalmasının səbəbi ərazidə yaşayan maldarların başqa otlaqlara və ya qışlağa köçməsi olmuşdur [10, s. 85].

Q.Ağayev yuxarıda deyilənlərlə qismən razılaşsa da, bu fikirlərin Şahtaxtı nekropoluna şamil olunmasını qeyri-mümkün hesab etmişdir. Çünki Şahtaxtı nekropolunda bu adət kütləvi xarakter daşıyır və burada skeletli qəbrə rast gəlinməmişdir. Onun fikrincə, bu qəbirlər qürbətdə həlak olmuş və ya əsir aparılmış qəbilə üzvlərinin şərəfinə qurulmuşdur [6, s. 50].

Qəbirlərdə insan skeletinə və ya avadanlığa rast gəlinməməsi haqda yuxarıda deyilən fikirlərlə razilaşmaq olduqca çətindir. Fikrimizcə, müəyyən bölgələrdə, konkret tarixi dövrlərdə ölülərin qəbrə qoyulmaması düşünülmüş, məqsədyönlü şəkildə icra edilən bir dəfn adəti olmuşdur. Bu adətin bütünlüklə nekropolda (Şahtaxtı) və ya onun bir yarısında (Qarabağlar) yayılması da fikrimizi təsdiq edir. Qəbirlərə qoyulmayan ölülərin taleyi məsələsi isə (qəbirdən kənarda yandırılma, vəhşi heyvanlara yem etmə və s.) hələlik tam aydınlaşdırılmamışdır. Çox güman ki, bir sıra yerlərdə (Şərur, Sədərək) ölülər xüsusi qurğularda – krematorilərldə yandırılmışdır. Gəmiqayadakı 1№-li kurqanda rast gəldiyimiz külə gəldikdə isə bunun dəfn zamanı yandırılmış matəm tonqalının qalıqları olduğunu ehtimal etmək olar. Xocalıda tədqiq edilmiş, Son Tunc və İlk Dəmir dövrünə aid 18№-lı kurqanda da buna oxşar matəm tonqalının qalıqları aşkar edilmişdi [2, s. 87].

Kurqan qəbirlərinə başqa avadanlıqla yanaşı işlənməmiş dəvəgözü daşı parçalarının qoyulması Tunc dövründə mövcud olmuş daşa inamla bağlıdır. Qarabağdakı Son Tunc və İlk Dəmir dövrünə aid Bəyimsarov kurqanında aşkar edilmiş dəvəgözü daşı parçalarını da tədqiqatçılar daşa inam adəti ilə əlaqələndirirlər [6, s. 124].

Beləliklə, Gəmiqayadakı qəbir abidələrinin tədqiqi, onların Naxçıvanın dağətəyi və aran zonalarının həmdövr abidələri ilə müqayisəli təhlili bu abidələrin Naxçıvanın Tunc dövrü maldar tayfalarına məxsus olmasını bir daha sübut etməklə bərabər, bu bölgənin qədim əhalisinin dəfn adətləri və dini inamları haqda müəyyən bilgilər əldə etməyə imkan verir.

ƏDƏBİYYAT

1. Azərbaycan folklor antologiyası I c. Naxçıvan folkloru, Bakı, 1993.
2. Cəfərov H.F. Azərbaycan e.ə. IV minilliyin axırı-I minilliyin əvvəllərində. Bakı, 2000.
3. Əliyev V. Gəmiqaya abidələri. Bakı, 1993.
4. Hegel B., Ştrommenger Y. Qalakənd. Bakı, 1999.
5. Mahmudov F.R. Astara rayonundakı İlk Tunc dövrü kurqanları haqqında / AMM. X c., Bakı, 1987.
6. Агаев Г. Шахтахты в эпоху поздней бронзы и раннего железа. Баку-Москва, 2002.
7. Алиев В.Г. Культура эпохи Средней бронзы Азербайджана. Баку: Элм, 1991.
8. Алиев В. Гемигая – сокровищница тайн. Газ. «Вышка», 1968, 28 сентября, № 228.
9. Ивановский А.А. По Закавказью / МАК. Т. VI, 1911.
10. Кесаманлы Г.П. Археологические памятники эпохи бронзы и раннего железа Дашкесанского района. Баку, 1970.

GÜLNARƏ QƏNBƏROVA
Naxçıvan Dövlət Universiteti

ORTA ƏSR AZƏRBAYCAN MEMARLIQ VƏ XALÇA BƏZƏYİNDƏ GƏMİQAYA TƏSVİRLƏRİNİN İZLƏRİ

Qayaüstü təsvirlərin-petroqliflərin qeydə alındığı Gəmiqaya abidəsi Azərbaycanın ən qədim dövr incəsənətinin, mənəvi və maddi mədəniyyətinin bariz nümunəsidir.

Gəmiqaya Naxçıvan MR-in Ordubad rayonu ərazisində, Nəsirvaz kəndindən şimali-şərqdə, indiki Ermənistan sərhəddində yerləşir. Gəmiqaya kiçik Qafqazın ən hündür zirvəsi olan Qapıcıq dağının (3907 m) xalq arasında daha çox işlənən əfsanəvi adıdır. Həmin əfsanəyə görə, Ümumdünya daşqını zamanı Nuh öz gəmisi ilə məhz bu dağın zirvəsində dayanmışdır və guya Nuhun gəmisi bu günə qədər həmin zirvədə daşlaşıb qalmışdır [1, s. 3]. Buna görə də yerli əhali qədim zamanlardan bu dağı Gəmiqaya adlandırmışdır.

Gəmiqaya qayaüstü təsvirləri Qaranquş zirvəsinin cənub və qərb yamaclarındakı Nəbiyurdu, Camışölən və Qaranquş yaylaqlarındadır. Qayaların əksəriyyəti qədim zamanlarda təbii geoloji proseslər nəticəsində parçalanaraq Gəmiqayanın cənub və cənub-qərb yamaclarındakı Qaranquş yaylağı ərazisinə səpələnmişdir. Bazaltcinsli qayaların üzərinə həkk olunmuş müxtəlif mövzulu bu təsvirlər qazma, sürtmə, döymə üsulu ilə rəsm edilmişlər.

Elmi araşdırmalar göstərir ki, Gəmiqaya təsvirlərinin əksəriyyəti tunc dövründə – e.ə. IV minilliyin II yarısı-II minillikdə həkk olunmuşdur [1, s. 4]. Bu dövr naxışların piktoqrafik dövrüdür; yəni onların hələ real varlıqların təsviri formasında olduğu, məzmunlu şəkildə nəql edildiyi bir mərhələdir.


Bu piktoqrafik yazı əsl mənada yazı olmayıb, məzmunu işarələr və rəsimlərlə verilmişdir [2, s. 11].

Piktoqrafik dövrünün təsvirləri bəzi hallarda ənənəvi olaraq dövrümüzə qədər gəlib çıxmış sujetli xalçalarda, memarlıq bəzəklərində özünü göstərmişdir. Müəyyən sujetlərlə əlaqələndirilmiş bu piktoqrafik surətlər qədim dini obrazların, totemlərin bədii surətləri formasındadır [3, s. 79].

Piktoqrafik işarələrin, simvolik anlam daşıyan təsvirlərin naxışlara çevrilməsi prosesi yeni eranın ilk əsrlərindən başlayaraq orta əsrlərdə də davam etmişdir. İslam ideologiyasının təsviri sənəti (heykəltəraşlıq) qadağan edib naxışlara üstünlük verməsi bu prosesi xeyli sürətləndirmiş oldu.

Bu dövrdə təsvir və simvolların rəsmləri dini-ideoloji dəyişikliklərlə əlaqədar olaraq təhrifə uğrayır, sxematikləşir, anlaşılmaz həndəsi şəkil alıb, indi gördüyümüz mücərrədformalı naxışlara çevrilir. Bu dövrlərin bədii kompozisiya cəhətləri orta əsrlərə qədər gəlib çatmış, naxış kompozisiyalarının yaranması və kamilləşməsində iştirak etmişdir. Onlardan ritm, simmetriya, antisimmetriya, sonlu xətti kompozisiyalar, sonsuz, qapalı dairəvi kompozisiyalar, naxışlarla yerlik (fon) arasında qarşılıqlı münasibət, naxışların siluet formasında verilməsi və s. göstərmək olar.

Qayaüstü təsvirlər arasında ən çox heyvan və insan təsvirləri, həndəsi fiqurlardan; dairə, içərisində (+) üstəgəl işarəsi olan dairə, kvadrat, üçbucaq, çərxifələk, xaç təsvirləri işlənmişdir (şəkil 1).




Şəkil 1. Gəmiqaya qayaüstü həndəsi təsvirlər


İlkin mərhələdə, Gəmiqaya qayaüstü təsvirlərində həkk edilmiş sadə həndəsi formalar, işarələr, heyvan, insan motivləri və bu tipli təsvirlər sonralar memarlıq və xalça üzərində salınmış naxışların ilkin mərhələsini yaratmışdır. Burada bir-birindən fərqlənən motivlər memarlıq və xalça bəzəklərində vahid naxış kompozisiyasının ritmik surətdə təkrar edilən elementləri kimi baxılır. Odur ki, indi biz bu qaya təsvirlərini naxış kimi qəbul edirik. Çünki müasir heyvan və insan naxışlarına xas olan hərəkətlilik, dinamika kimi

xüsusiyyətlər bu əsərlərdə öz əksini tapmışdır. Fərqli cəhətləri real olduğu kimi verilsə də, memarlıq və xalça naxışlarında stilizə olunmuş formada işlənirdi.


Gəmiqaya qayaüstü təsvirlərinin orta əsr Azərbaycan memarlıq və xalça bəzəklərində öz əksini tapmış bir neçə nümunələri ilə tanış olaq:

- Orta əsrlərdə memarlıq abidələri və xalçalar üzərində salınmış naxışların əsasını sadə formada işlənmiş kvadrat, dairə, üçbucaq kimi həndəsi naxışlar təşkil edir (şəkil 2). Bu naxışların köməyi ilə Xərrəqan türbələrinin, Qırmızı günbəz, Ələvilər türbəsi (şəkil 2), Göy günbəz türbələrinin, Yusif Küseyir oğlu və Mömünə Xatın türbəsinin cinağı və girih naxışları qurulmuşdur. Türbələrin eksteryerlərini bəzəyən bu naxışlar sadə formadan mürəkkəb formaya qədər bir mərhələ keçmişdir. Bu naxışlar nəinki kərpic naxışların, həmçinin kaşı və gəcdən işlənmiş, boya ilə çəkilmiş bitkisəl və dıgər naxışların da əsasını təşkil edir.





1





2

Şəkil 2. 1 – Orta əsr abidə və xalça bəzəyində həndəsi naxışların qurulma sxemi
2 – Ələvilər türbəsinin interyer bəzəyi

Orta əsr Azərbaycanda toxunmuş xovsuz və xovlu xalçaların, xalça məmulatların arasahə, medalyon və yelən naxışlarının əsasında da bu naxışlar dayanır. Sadə həndəsi naxışların memarlıq və xalça bəzəklərində bu qədər geniş işlənməsi bir anlamla bağlı olmuşdur.

Qədim Şərq mədəniyyətini dərindən öyrənmiş İvan Yefremov yazdığı romanda göstərir ki, bərabərtərəfli üçbucaq böyük ilahə İştarın hökmdarlıq nişanı olmuşdur [4, s. 58]. Dairə dünyanın, üçbucaq İlahinin, kvadrat ilahi kamillik, müdriklik, insan həyatının dörd ünsürü kimi işlənmişdir [5, s. 9]. İslamiyyətdə isə dairə tanrının, üçbucaq peyğəmbərlik, kvadrat insanın rəmzi kimi ifadə olunur [6, s. 48].






Şəkil 3. Gəmiqaya qayaüstü təsvirlərdə bərabərtərəfli üçbucaq rəsmi

Gəmiqaya qayaüstü təsvirlərdə isə üz-üzə çəkilmiş bərabərtərəfli üçbucaq keçi rəsmi kimi göstərilib. Öndəki üçbucağın daxili üç ədəd kvadrat hissələrə, bir ədəd isə bərabərtərəfli üçbucağa bölünmüşdür (şəkil 3). Arxadakı bərabərtərəfli üçbucağın daxilinə (+) işarəsi qoyulmuşdur. Digər təsvirdə insan, başı üzərində bərabərtərəfli üçbucaq, ondan yuxarıda sonsuzluq işarəsi cızılmışdır (şəkil 3). Onun qarşı tərəfində böyük insan və başı üzərində keçi təsvir edilmişdir. Bəzi təsvirlərdə isə bərabərtərəfli üçbucaq sonsuzluq işarəsi ilə birlikdə göstərilib. Yuxarıdakılardan və təsvirdən belə nəticəyə gəlmək olar ki, bərabərtərəfli üçbucağın və sonsuzluq işarəsinin insanın başı üzərində təsviri insanın sonsuzluğa qədər hökmdar və ya ilahə olmasına, keçinin bədənində təsvir edilməsi onun müqəddəs olmasına, məhsuldarlıq, artımla bağlı ibtidai dini təsvirləri əks etdirir, onun bədənin üz-üzə çəkilmiş bərabərtərəfli üçbucaq formasına bənzədilməsi əksliklər anlayışına gedib çıxır. (+) üstəgəl işarəsi ulu başlanğıcda hərəkət edən oduxaçı həm şəkilcə, həm də məzmunca əks etdirib [7, s. 106]. Bərabərtərəfli xaç (+) türk mədəniyyətinin də simvolu olmuşdur. Həmişə türk bayraqlarında bu simvolika öz əksini tapıb. Bu məbədlər, qəbiristanlıqda baş daşları, xalçalar üzərində təsvir edilib. İslamiyyət dövrü Marağada Qırmızı günbəz (şəkil 4), Həmədanda Ələvilər günbəzi, Qəzvində Xərrəqan türbələrinin, Naxçıvanda Mömінə Xatun türbəsinin, yaşayış evlərinin eyvan şəbəkələri üzərində və s. memarlıq bəzəkləri arasında özünə yer alır. (+) üstəgəl

işarəsi Ulu Tanrının himayəsi və qorunmağına işarədir. Müxtəlif tərəfli (+) Tenqirinin simvolu idi [8, s. 85].



Şəkil 4. Qırmızı günbəz türbəsi və eyvan şəbəkəsi üzərində (+) üstəgəl rəsmi

Gəmiqaya qayaüstü təsvirləri arasında bir sıra rəsmlər də vardır ki, sonrakı mərhələdə türklər arasında «özək /aləm və ya özək/aləm/qoçbuynuzu» (aləmin özəyi, işığı, qoç-müqəddəs heyvan) adlanır ki, bu naxış da Orta əsr memarlıq və xalça bəzəklərində «Palmet» naxışı kimi adlandırılmışdır (şəkil 5).




Şəkil 5. Gəmiqaya qayaüstü təsvirlərdə özək-aləm rəsmi

Pazırık kurqanlarından tapılmış pendir tulumu üzərində, Tacikistan qadın başlıqlarında, Türküstan və Qazaq – Kapqal böl-

gəsində, Konyada-Cəlaləddin Karatay türbəsi kaşıları üzərində, Tatarıstan, Qırğızıstan və Qazaq geyimləri üzərində və Azərbaycanda Mömінə Xatın türbəsinin həndəsi naxışları arasında, mehrabların alınlığında və mərkəzində, məscidlərin interyer və eksteryer bəzəkləri arasında, Qarabağlar və Bərdə türbələrinin giriş baştağları yelənləri üzərində, Şirvanşahlar sarayı-Türbənin giriş baştağı yelənləri üzərində, İsfahan və Qəzvində Səfəvilərin köşk interyerləri üzərində, XVIII əsr yaşayış evlərinin eyvan şəbəkələri arasında və s., xalçaların arasahə və yelənləri üzərində, namazlıq xalçaların tağ alınlığında izləyirik. Burada «Palmet» işıq, cənnətin işığı mənasında işlənmişdir. E.Ettinghausen islam sənətində palmet, xurma və ya palmadan stilizə bir motiv olaraq ələ alır və Qurandakı xurma ağaclı cənnət referensiyasına baxaraq, motivdə cənnəti göstərən işarələr olmaqla və memarlıqda işlənilən işarələrin bir anlamla bağlı olduğunu irəli sürür [9, s. 141-153].

Gəmiqaya təsvirləri arasında özünə yer alan rəsmlərdən biri də «Həyat ağacı» təsvirləridir. Qayaüstü təsvirlər arasında çəkilmiş ağac təsviri insan obrazına bənzəyir. Aşağıda dairə ilə başlayan təsvir (dairə iki hissəyə bölünür) yuxarı doğru qalxdıqca üç budağa ayrılır və sonluqda dairələrlə tamamlanır. Sağ dairə içərisində (+) üstəgəl işarəsi qoyulub. (+) üstəgəl odu, müsbəti, sağı göstərir, digər dairə solu. Ağacın gövdəsinin dairəvi verilməsi, dünyanın, dairənin iki yerə bölünməsi əksliklər anlayışına görə onlardan biri yaxşılığın, digəri pisliyin əlamətidir, biri sağı, digəri solu təmsil edir. Lakin kök vahiddir (şəkil 6).



Şəkil 6. Gəmiqaya qayaüstü təsvirlərdə «Həyat ağacı» rəsmi


Digər Həyat ağacı dairə içərisində verilmiş (+) üstəgəl işarəsindən və onun içərisindən çıxan gövdədən ibarətdir. Gövdə yuxarı doğru qalxdıqca üç budağa bölünür. Ağacın sağ və sol budaqları da iki budağa ayrılır, mərkəzi, yuxarı doğru baxan budaq isə üç

budağa ayrılır. Yuxarıda qeyd etdik ki, dairə dünyanın, (+) üstəgəl odun işarəsidir. Ağacın aşağı budaqları biri sağı, digəri isə solu ifadə edir. Onların başlarının iki budağa bölünməsi dual təşkilat quruluşunun qanunlarına, əksliklər anlayışına görə, əcdad-soy-kök, kök vahid, bir və ekiz qardaşdırlar. Onlardan biri yaxşılığın, digəri pisliyin əlamətidir. Yuxarı budağın üç hissəyə ayrılması qədim türk inamında olan üç fəza kosmoqonik düşüncəsi ilə uyğun gəlir. Həmin düşüncəyə görə, dünya modeli yuxarı (göy), orta (yer) və aşağı (yeraltı) bölümdən ibarətdir [10, s. 495]. Göründüyü kimi, İslamiyyət dövrü qülləvari türbə tipləri bu modeli ifadəli şəkildə təkrar edir. Kənardakı budaqlar əksliklərin, ortadakı Dünya ağacının bölgəsidir. Dünya ağacının gövdəsi daxilində dünyanın, həyatın və onun ən yüksək məqsədi əbədilik, ölümsüzlük gizlənibdir [11, s. 398]. Ağacın ətrafında keçi təsviri işlənmişdir. Keçi-artım, bolluqla bağlı ibtidai dini təsəvvürləri əks etdirir.

Ağac təsvirləri İslamiyyətdən öncə və İslamiyyət dövründə tikilmiş memarlıq abidələri və xalçaları üzərində ən çox işlənən motivlərdəndir. Əbədi həyat substansiyasının daşıyıcıları həyat ağacının özü və onun barları alma, nar və əbədi həyatın digər simvollarıdır. Bəzi arxaik memarlıq abidələrində həyat ağacı qadın başlanğıcı, qadın obrazı kimi göstərilir [11, s. 399]. Bəzi memarlıq və xalça bəzəklərində isə ağac təsvirlərinin gövdəsində keçi, şir, it, maral və s. heyvan təsvirləri işlənib.

XI əsr abidəsi Xərrəqan türbəsinin daxili divarında tağçalar arasındakı səthlərdə «Həyat ağacı» çəkilmişdir. Simvolik ağac təsviri cənnət simvolu olan nar ilə tamamlanır. Ağacın ucu göyü təmsil edən xətlərə söykənmişdir. Əski inamlarda «Həyat ağacı» göy ilə yeri bir-birinə bağlayır. Ağacın hər iki tərəfində isə iki quş təsvir edilmişdir (şəkil 7).

Türk araşdırıcısı G.Üneyin fikrincə, «türbə, qəbir daşlarında tikilən «Həyat ağacı», quş kompozisiyaları ölü ruhların o biri dünyaya keçişini canlandırır». Əski Asiya inamında isə kainat «həyat ağacı», yer, göy və planetlərlə təmsil edilirdi [12, s. 86]. Məzarlıqlarda tapılan ağac, sığın və quş təsvirləri cənnət mənzərələrini anladırdı. Gəmiqaya qayaüstü təsvirdə «sonsuzluğu, ölümsüzlüyü, əbədiliyi» [13, s. 52] göstərmək üçün piktoqram şəklində işlədilən həyat ağacı bu gün də Azərbaycanın bir çox yerlərində eyni mənada işlənir.



Şəkil 7. Xərrəqan türbəsi interyerində və Möminə xatın türbəsi eksteryerində «Həyat ağacı» rəsmi

«Həyat ağacı» təsvirləri XII əsr abidəsi Möminə xatın türbəsinin səthlərində verilmiş tağçaiçi sütunları üzərində də təsvir edilmişdir (şəkil 7). Memar burada həyat ağacını yağış damcısına, tumurcuğa bənzətmişdir. Yerli türk etnik mühiti yağışı (yağış suyunu) qadın obrazında təsəvvür edir [14, s. 51]. Tumurcuq isə əski türk qəbilə birləşmələrinin, xalqlarının mifoloji-dini, kosmoqonik təfəkkürü ilə bağlı olub, «Həyat ağacının» rəmzidir. Tumurcuqların aşağısından çıxan şivlər bu təsvirin ağac bölgəsi olduğuna inanmağa əsas verir.

Ağac təsvirləri XVI-XVIII əsr Azərbaycan abidə bəzəkləri arasında da ən çox işlənən motivlərdir. Səfəvi dövrü abidə bəzəklərində ağac təsvirləri güldan təsvirləri ilə əvəz olunsa da, məna eynidir. Ağac təsvirlərinin müxtəlif formaları Şəki xanlarının sarayı interyerlərini bəzəyir. Çinar, nar ağacları abidənin interyerində simvolik anlam daşımaqla, gözəlliyə də xidmət edir.

Ağac təsvirləri xalçalar üzərində də tez-tez işlənən motivlərdəndir. Ən çox namazlıq – «Mehrablı», «Ağaclı», «Vaq-Vaq»ı, «Ovçuluq» sujetli və miniatür tipli kompozisiyalarda öz əksini tapmışdır (şəkil 8).




Şəkil 8. Xalça üzərində ağac təsviri

Gəmiqaya qayaüstü təsvirləri arasında ov səhnəsi – əlində ox, yay tutan ovçu və heyvan təsvirləri işlənib. Şəkildə heyvanın başı üzərində fələyin çərxi və onun dövranı-hərəkəti göstərilir (şəkil 9). Çərxin qurtaracaqları ikibudaqlıdır. Orta əsrlərdə bu rəsmlərə qəbirüstü abidələrdə – Ələvilər (şəkil 10) və Qırmızı günbəz (XII əsr), Naxçıvanda Şeyx Xorasan türbəsinin (XIV əsr) eksteryer bəzəkləri arasında izləyirik. Bu təsvir xalça naxışları arasında da özünə yer alır. Çərxin ən yuxarı zirvəsə «həyat»dır, ən aşağısı isə «ölüm»dür. Türklərin ulu babaları ölümlə razılaşmırdılar.



Şəkil 9. Gəmiqaya qayaüstü təsvirlərdə «çərxifələk» rəsm


Onlar həyatı davam etdirmək, həyatın yaşarı olması, həyatın sonsuzluğu düşüncəsinə tərəfdar çıxdıqlarına görə çərxin hərəkətini, dövranını əbədiləşdirirdilər. Çərxin aşağı nöqtəsində ölüm başlanğıcı ilə yaşamaq başlanğıcı qarşı-qar



Şəkil 10. Ələvilər türbəsi üzərində çərxi-fələk rəsmi

şıya durmuşdur. Hər ikisinin başlanğıcı birdir – həyatdır, təbiətdir. Bu təsvirlərdə də əksliklər baxışı öz əksini tapmışdır [15, s. 362].

Gəmiqaya qayaüstü təsvirləri arasında çoxlu sayda insan və heyvan təsvirləri də özünə yer alır. Əfsanəvi və real formada işlənmiş bu təsvirlərin hər biri bir anlamla bağlı olaraq təsvir edilmişdir (şəkil 3; şəkil 11).




Şəkil 11. Gəmiqaya qayaüstü təsvirlərində insan rəsmi

Əlində ox, yay tutmuş insan, onun qarşı tərəfində başına şişuclu papaq (yanlarında nöqtə) qoymuş insan və heyvan təsvir edilmişdir. Ovçunun başı üzərində isə buruq formasında ilan təsviri cızılmışdır. Bəzi təsvirlərdə isə keçi və digər heyvanların başı üzərində simmetrik dalğalı xətlər çəkilmişdir. Digər rəsmlərdə də ilan və əqrəb və ya zolaqlı xətlərə rast gəlirik (şəkil 12; şəkil 13).

Dalğalı xətlər sonrakı mərhələlərdə də Azərbaycanın naxış incəsənətində xüsusi yer tutmaqla «Bulud» adlanır [16, s. 83]. Bulud naxışları Azərbaycanın dekorativ incəsənətində və əski dövrlərdə də üç formada işlənmişdir: sadə, mürəkkəb və sujetli. Sadə formalar dalğalı xətlərlə, mürəkkəb formalar qıfıl, vaq-vaqı, bəzən heyvan formasında, fantastik formalar insan, şir, ilan, əjdaha


(şəkil 14) formasında işlənirdi. Su insan həyatı üçün lazımi mənbə olduğundan əski insanlar onu bəzən balıq, quş formasında da təsvir edirdilər. Onlar göydə buludların hərəkətini «mərhəmətli əjdahaya», «yerin Allahına» bənzədirdilər, çünki o onlara su və yağış verirdi [18, s. 84]. Həmçinin əjdaha su, məhsuldarlıq rəmzi kimi də işlənmişdir.



Şəkil 12. Gəmiqaya qayaüstü təsvirlərində ov edən insan rəsmi

Gəmiqaya qayaüstü təsvirlərində ilanın ov edən insanın başı üzərində verilməsi onun birinci və mərhəmətli olmasına işarədir. Digər təsvirlərdə də ov səhnələrinə rast gəlirik, bunlarda əski insanların həyatında ovçuluğun mühüm yer tutduğuna əyani sübutdur.

İlan, əqrəb təsvirləri: ilan suyun, əqrəb odun [5, s. 18] rəmzi kimi verilmişdir. Əski insan Odla Suyun sehrli bir qüvvə ilə qovuşduğunu görür, onun ikili xasiyyətini anlamaqla, öz fikrini gələcək insanlara heyvan obrazları vasitəsilə çatdırmağa çalışır.




Şəkil 13. Gəmiqaya qayaüstü təsvirlərində əqrəb, ilan, əjdaha rəsmi




Şəkil 14. Xalça üzərində əjdaha, ilan rəsmi

Digər heyvanların başı üzərində verilmiş dalğalı xətlər də bu heyvanların müqəddəs olmasına işarədir. Buruq və dalğalı xətlər sonrakı mərhələlərdə şiv, spiral, islimi [16, s. 87] formalarını alaraq, memarlıq və xalça naxışlarının əsasını təşkil etmişdir (şəkil 15).



Şəkil 15. Memarlıq və xalça bəzəyində şiv, buruq naxışları

Gəmiqaya qayaüstü təsvirlərində biz real əjdaha, keçi, maral, öküz və s. təsvirlər ilə rastlaşırıq ki, bu təsvirlər də piktoqrafik rəsmlərin simvolik formaya çevrildiyi dövrü əhatə edir (şəkil 16).



Şəkil 16. Gəmiqaya qayaüstü təsvirlərində real heyvan rəcmləri

İslamiyyətin qanunlarının kəskin olduğu dövrlərdə belə heyvan obrazları memarlıq abidə interyerlərində öz əksini tapır. XI əsrdə tikilmiş I Xərrəqan türbəsinin interyer medalyonları üzərində təsvir edilmiş qoşa tovuzquşu və əjdaha rəsmi işlənmişdir. Heyvan təsvirlərinin sonrakı davamını Ağdamın Xaçın türbətli (1314) türbəsinin giriş qapısı və pəncərə alınlıqlarında maral, şir, dovşan, XIV əsr abidəsi Olcaytu türbəsinin interyerində əjdaha təsviri, Bayıl daşları üzərində yazı naxışları ilə birlikdə şir, dəvə, at, quş təsvirləri vasitəsilə izləyirik.

Təbrizdə miniatür məktəbinin inkişafı heyvan və insan obrazlarının, onlardan qurulmuş kompozisiyaların yaranmasını daha da sürətləndirdi. Miniatür rəssamları bir sıra ölkələrin motivlərini mənimsəməklə Azərbaycanın dekorativ sənətinin orijinallığını pozmamışlar. Yerli rəssamlar, bu özəllikləri təkrar izləyərək, yerli üslub və formalarla birləşdirir, memarlıq və xalça bəzəyində

«Ovçuluq», «Bulud», «Vaq-vaq»ı, «Əjdahanın simurq quşu, anka ilə döyüşü» kimi yeni kompozisiyalar ortaya çıxarmışlar.

Səfəvilər dövründə tikilmiş elə bir abidə kompleksi tapmaq olmaz ki, orada heyvan və insan təsvirləri işlənməmiş olsun. XVIII əsr yaşayış evlərinin də daxili divarına çəkilmiş miniatür təsvirlərdə «Ovçuluq» və ya «Şikargah» kimi kompozısiyalar əski əcdadlarımızın qayalar üzərinə cızdıqları ov səhnələrinin mürəkkəbləşmiş formalarıdır (şəkil 16; şəkil 17).



Şəkil 16. Təbriz yaşayış evi interyerində «Ovçuluq» kompozisiyası



Şəkil 17. Xalça üzərində «Ovçuluq» kompozisiyası

ƏDƏBİYYAT

1. Müseyibli N. Gəmiqaya rəsmləri. Bakı: XXI YNE, 2002, 47 s.
2. Baxşəliyev V. Gəmiqaya təsvirlərinin poetikası. Bakı: Elm, 2002, 87 s.
3. Rzayev N. Naxışlarımızın mənşəyi və inkişaf mərhələsi // Qobustan, 1987, № 2, s. 79-81.
4. Rzayev N. Əcdadların izi ilə. Bakı: Poliqrafiya birliyi, 1992, 102 s.
5. Капалинский В. Словарь символов. М.: Янтар Сказ, 2003, 263 с.
6. Əsgəri P. Architecture Zancan. Tehran, 2005, 452 s.
7. Fərzəli Ə. Dədə Qorqud yurdu. Bakı: Azərnəşr, 1989, 90 s.
8. Аджи М. Европа, тюрки, великая Степь. М.: Мысль, 1998, 334 с.
9. Selçuk M. Selçuklu Palmet Motiflerinin Tipolojisi. Anadolu, 1984, 198 s.
10. Мифы народов мира. Энциклопедия. Т. I, М.: Б.Э. олимп, 2000, 671 с.
11. Мифы народов мира. Энциклопедия. Т. II, М.: Б.Э. олимп, 2000, 719 с.
12. Qiyasi C. Nizami dövrü memarlıq abidələri. Bakı: İşıq, 1991, 258 s.
13. Gülensoy T. Orhundan Anadoluya türk damğaları. İstanbul, 1989, 179 s.
14. Ödel B. Türk mifolojisi. Ankara, 1989, 51 s.
15. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989, 496 s.
16. Керимов Л. Азербайджанский ковер. Т. III, Баку: Гянджлик, 1983, 241 с.

MƏHSƏTİ İSMAYIL
AMEA Naxçıvan Bölməsi

GƏMİQAYA TƏSVİRLƏRİNDƏ DÜNYA TUFANI İLƏ BAĞLI MİFOLOJİ SÜJETLƏR

Hər bir etnos sahib olduğu mədəniyyəti, dünyagörüşü, həyat tərzini özünəxas milli elementlərdə qoruyub saxlayır. Xalqımızın təbiət və cəmiyyət haqqında zəngin düşüncəsi şifahi xalq ədəbiyyatında əhatəli şəkildə əks olunmuşdur. İstər torpağın dərin, alt qatlarında gizli qalmış tariximiz, istərsə də daş üzərindəki sənət nümunələrimiz, həm sözlə, həm də sözlə icra olunan ayin və mərasimlərlə, folklorun müxtəlif janrları vasitəsilə gələcək nəsillərə özünəməxsus milli-mənəvi ağırlıqla ötürülmüşdür. Folklordakı süjetlər qaya təsvirlərində də ifadə olunmuşdur. Bu əvəzsiz sənət abidələri – qaya təsvirləri xalq yaddaşının aydın ifadəsidir. Folklordakı mifoloji obrazlar müxtəlif şəkildə dəyərləndirilsə də, onların semantik məzmununun açılmasını bitmiş hesab etmək olmaz. Gəmiqaya özü bütövlükdə təbii abidə, iqlimin sərtliyində yaradılmış sənət nümunələri isə bir möcüzədir. Bu möcüzələrdən folklor tariximizə də yol açılır. Qədim insanların çəkdiyi sənət nümunələri insanların düşüncəsindəki fikirlərin ümumiləşdirilmiş ifadəsidir. Bəs hərflərlə yazılmayan söz dastanını necə oxumalı? Bütöv təsvirlər hansı sözü, hansı mənanı ifadə edir? V.Baxşəliyevin tədqiqatları bu suallara bir növ cavab verir. O, Gəmiqaya abidələrinin tədqiqində folkloru təsvirlərin əsas tədqiqat obyekti kimi götürmüş, qayaüstü rəsmlərin semantik məzmununu qədim mərasim və ayinlərlə, insanların mifoloji düşüncəsi ilə əlaqələndirmişdir. Ovsunla bağlı təsvirlər, ovçuluq mifləri ilə bağlı təsvir, əlində ilan tutan insanın təsviri (ovsun), həyat ağacı və keçi təsvirləri buna misal ola bilər [4, s. 151, rəsm 14, 15, 21, 22]. Göründüyü kimi, rəsmlərdə xalq inanclarında hələ də yaşamaqda olan bir çox mərasimlərin və ayinlərin təsviri verilmişdir. Folklor nümunələrinin əksəriyyətində ağac, ilan, keçi, ümumiyyətlə, heyvan və bitki mifoloji məzmun ifadə edilir, mifoloji obrazlar müqəddəsləşdirilir. Gəmiqaya təsvirlərində yer alan əsas obrazlardan biri də ilan və quş obrazı, yaxud ilan-quş qarşıdurmasıdır. İlan-quş qarşıdurması əfsanələrimizdə də

öz əksini tapmışdır. «Qaranquş» əfsanəsi ilan, qaranquş və mığmığa arasında olan dostluğun rəmzi xarakterini göstərməklə ilan və quş qarşıdurmasını əks etdirmişdir. Quş və ilan obrazlarının qarşılıqlı mübarizəsi Gəmiqaya rəsmində olduğu kimi, «Nuhun tufanı» [2, s. 66] əfsanəsində də ifadə olunmuşdur.

Tədqiqatlara əsasən demək olar ki, Azərbaycan folklorunda heyvanlar ikili xarakterdə təsvir edilmişdir. Bir-birinin əksi olan bu xarakterlər zamanla formalaşan inamların, mifoloji düşüncənin təzahürüdür. «Mifologiyanı ibtidai cəmiyyətin fəlsəfə tarixi» adlandıran Ağayar Şükürov ibtidai insanların istehsal fəaliyyətlərinin artması ilə totemistik təsəvvürlərinin yaranıb möhkəmləndiyi fikrini irəli sürür [14, s. 46]. Azərbaycan türklərinin inamlar sistemində hər bir heyvanın öz yeri var. Bəşəri düşüncəyə xas olan bu inamlara görə isə Finikiya ilahəsi Aştart inək simasında, indus allahı Hanuman meymun obrazında, Şumer allahı Eya insan-balıq, qədim yunan dinindəki ovçuluq ilahəsi Artemida xallı maral, qorxunc görkəmi olan köpək Kərbər cəhənnəmin girişinin mühafizəçisi kimi təsvir olunur. Yunanlılara görə, Zevs insanlara öküz və yaxud qartal, eləcə də qu quşu simasında görünürdü. Meksika Günəş allahı Teskatlikopaka ayıbaşlı, kaliforniyalı Kayot hinduları isə əcdadlarını canavar obrazında görürmüşlər. Sibir xalqları – Ob xantları, Ural mansiləri, Narım selkuplarının mifik təsəvvürlərinə görə insanların mənşələri ayı, dovşan, qaz, durna, balıq və qurbağaya bağlıdır [14, s. 47]. Heyvanların əksəriyyətinin yer aldığı bu sistemə mifoloji düşüncə hakimdir.

Skandinaviya mifologiyasında Dünya okeanının dibində oturmuş qorxulu ilan Allahları hədələyir [14, s. 86]. Dünya mifologiyasında ilan obrazı müxtəlif məzmun ifadə etmişdir. İlan və quş obrazlarının qarşılıqlı mübarizə əzmində təsviri ümumtürk mifoloji baxışlarından qaynaqlanır. Qədim Çin qaynaqlarında yazılır ki, Göytürk vəziri Tonyukukun soyundan olan uyğur vəziri Bilgə Bukanın atası ağac dibində yatmış imiş. Bir quş ağacın budağına qonaraq oxumağa başlayır. Adam səsdən narahat olub qalxır. Quş üç dəfə aşağı enərək adamı caynaqlayır. O hirslənib, quşu tutur. Bu vaxtı ağacın üzərindən zəhərli bir ilanın aşağı endiyini görür. Quşu ötürür və ilandan canını xilas edir. O zamandan öz nəslinə bu quşu öldürməmələrini, ona ehtiram göstərmələrini vəsiyyət edir. B.Ögəl Uyğur sözünün çincə işarələrlə Hui-ho şəklində

yazıldığını, bu işarənin də quş anlamına gəldiyini, quş əfsanəsinin Uyğurların etnik adlarında da ifadə olunduğu məlumatını verir [10, s. 86]. Eyni bir mübarizə motivi əski türk qaynaqlarında ifadə olunmaqdadır.

İlan yalnız Azərbaycan mifologiyası üçün deyil, həmçinin dünya mifologiyasında da xarakterik obrazıdır. Məşhur filosof Plotin (III əsr) ölərkən onun yaxın dostu çarpayının altında ilan görür. İlan tez divarın yarığında gizlənərək yox olur. Filosof əminliklə ilanı Plotinin ruhu sayır [14, s. 48]. Animizm, yəni ruhlara etiqad mərhələsində ruhlar insanlarla daim qarşılıqlı ünsiyyətdə olan mifoloji varlıqlar hesab edilmişdir [14, s. 48, 49]. Folklor mətnlərində ilanlarla bağlı inamlar xüsusi maraq doğurur. İlanların bir yerə yığışıb «ocaq bağlaması» bolluq, bərəkət kimi yozulur. Çox yaşlı ilanların dönüb qız olacağı inamı da əski mifoloji təsəvvürdə ilana müsbət baxışa işarədir. Insanlar ilanların da böyük müharibələr etdiyinə inanır bu haqda əfsanələr söyləmişlər. «İlandağ» əfsanəsində deyilir ki, iki ilanlar padşahı varmış. Bunlardan biri Naxçıvanın Əlincəçay vadisində İlandağda, biri İranın Diri dağındaymış, İrandakı ilanlar padşahı dünya malına şirnikib müharibəyə başlayır. Araz çayını güclü qoşunla keçib, İlandağa hücüm edir. Qanlı vuruşma olur. İlanların qanı o qədər axır ki, Əlincə çayıyla Araz çayına qarışıb, suları qırmızı rəngə boyayır. Yeddi gün, yeddi gecə davam edən döyüşdən İlandağdakı ilanlar qalib çıxıb, düşməni qovur. Əfsanəyə görə, döyüşdə tökülən qanların qızartısı İlandağın qayalarında, təpələrində qalır. Culfa rayonunda apardığımız toplamalar zamanı informatorlar ilanların yürüşü, Arazın o tayından bu tayına ilan sürülərinin keçdiyi haqda məlumat verirdilər. Plutarx yazır ki, «Abbas çayının yanındakı son vuruşdan sonra Pompey İrkani ölkəsinə daxil olmaq və Xəzər dənizinə çatmaq üçün irəlilədi. Lakin öz planından əl çəkərək geri qayıtmalı oldu. Üç günə yaxın bir müddətdə gördüyü külli miqdarda ilanlara görə o, fikrindən daşındı» [5, s. 65]. Ordubadın Gənzə kəndində İmanov Əhrəman Şəfi oğlu məlumat verdi ki, guya vaxtilə babaları Gənzə kəndini ilan ovsunçuları tərəfindən ovsunlatmış, bu səbəblə də ilanlar onların kəndinə yaxın düşmürlər. Kənd camaatı inanır ki, ovsunlanmış ilanlar həyətlərə, əkin yerlərinə belə daxil olmurlar. Şahbuzdan topladığımız nümunələrə görə, ilanlar padşahlarının əmri olmadan, adamı sanca bilməz [6,

s. 79]. İlanların don dəyişdirməsi, yəni qız donunda görünməsi, seyid ocaqlarında zərərsizliyi [6, s. 10, 12], ev-ocaq ilanlarının xeyir nişanəsi sayılması, adamların duz-çörəklə ilanı qarşılayıb düşmənçilikdən uzaq tutması, yuxuda ilan görmənin yol kimi yozulması və s. nümunələr ilan obrazının insanların mifoloji baxışında müsbət olduğunu göstərir. İkinci, əks baxış tam təzadlıdır. İlanın şeytana yardımı, I – cənnətə aparması, II – şeytanın Adəmlə Həvvaya pislik edib cənnətdən qovdurması, insan və ona dost olanlarla ilanların düşmənçiliyi ilanın mifologiyada həm də mənfi obrazda olduğunu göstərir [6, s. 37]. Altay yaradılış dastanındakı ilan obrazı topladığımız nümunələrlə üst-üstə düşür. Dastanda qadağan olunmuş meyvəni ilk dəfə ilan dadır, çünki ilan dərin yuxuda olanda şeytan səssizcə onun içinə girir [10, s. 456].

Əfsanəyə görə, ilan, qaranquş, bir də mığmığa dost olurlar. Bir gün ilan qaranquşla mığmığaya deyir ki, görün, hansı canlının qanı şirindir? Mığmığa gəlir, istəyir insan desin, «i» deyən kimi, qaranquş onun dilini qopardır. İlana: «Heç belə dostluq olar?» – deyir, – «istəyirdi ilan desin». Əslində isə qaranquş insanları xilas etmək istəyir [1, s. 71].

İlan «Nuh tufanı» əfsanəsinin də əhəmiyyətli obrazıdır. «Nuh tufanı» əfsanəsində ilan gəmini batmaqdan xilas edir. Əfsanəyə görə, Nuh (ə) ilana dünyanın ən şirin nemətini vəd edir. Qaranquş isə təmənnasız xeyirxahlıqla insanlığı xilas edir. Müxtəlif təsvirlərdə və folklor nümunələrində heyvanlar arasındakı müsbət və mənfi münasibət ifadə olunmuşdur. İlanların döyüş qabiliyyəti onun zəhəridir. Əski insanın təsəvvürünə görə, ilan bəd ruhludu. Mifologiyada bir çox quşlar, konkret olaraq qaranquş zərərsizdir. Hətta o öz yuvasını da zəhmət çəkərək tikir. «Nuh tufanı» əfsanəsində qaranquş xeyirxah ruhludur.

İlanlar haqqında deyilir ki, behiştin Tavız Mələk adlı qapıçısı şeytanı içəri buraxdığına görə Allah onun qanadlarını qırıb, yerə göndərir. Guya ilanlar onun nəslindəndir [1, s. 138]. Əfsanəyə görə, ilanlar həm də yeraltı dünyanı təmsil edir. Mifoloji ilan obrazı bir çox dünya xalqlarının qədim yaradılışla bağlı əsatirlərində ifadə olunmuşdur. Çin mifologiyasında ilk yaradan ana Nyuyva-torpaq Tanrısı – yarıqadın-yarılan kimi təsvir olunur. Qədim yazılarda deyilir: «Nyuyva insanbaşlı, ilanbədənli qədim ilahə və şahbanudur. Bir gün ərzində o, yetmiş dəfə cildini dəyişmişdir» [9, s.

230]. Xalq inamına görə, ilan ölməzlik suyunu içdiyinə görə hər il qabığını dəyişib cavanlaşır. Qədim Şumer yazılarında Bilqamısın xalq üçün əldə etdiyi əbədi həyat bitkisini ilan oğurlayıb, ölməzlik qazanır. İnsan başlı ilan obrazı Elam əsatirlərində də vardır [9, s. 380]. V.Baxşəliyev apardığı elmi araşdırmalar əsasında belə nəticəyə gəlmişdir ki, Gəmiqayada dinamik hərəkət vəziyyətində, ayrılıqda, insan və heyvan təsvirləri ilə verilən ilan obrazının semantik mənası da müxtəlifdir [4, s. 98, 99]. Demək, folklorun bütün janrlarında müxtəlif semantik məzmun ifadə edən ilan obrazı, ifadə etdiyi mənaya uyğun şəkildə qayaüstü təsvirlərdə verilmişdir. Folklor nümunələrinin araşdırılmasına əsasən deyə bilərik ki, ilanın mənfi, yaxud müsbət obrazda verilməsi onun kosmik dünya modelində tutduğu mövqe və oynadığı rolla bağlıdır. O həm ölüm gətiricidir, həm də xeyir və bərəkətin sahibidir.

Ümumiyyətlə, əski inanclar sistemində quşları semantik məzmununa görə xarakterizə etmək olar. Quşlar ilkin mifoloji anlayışda qanadları, uçmaq qabiliyyətləri ilə dərk olunur. İnsanların uça bilmək marağı qanadlı heyvanlara, yəni quşlara dair xeyli əfsanələrin yaranmasına səbəb olmuşdur. Prototürklərin baxışlarında quşlar olduqca müxtəlif obrazlarda çıxış edir. Azərbaycan xalqının şifahi ədəbi nümunələrində – nağıllarda, əfsanələrdə, bayatılarda, inanclarda bəzi quşlar xeyirxahlığı əks etdirir. Azərbaycan əfsanələrində quşa dönmək, qanadlanıb uçmaq mifoloji baxışda ilkin başlanğıca qayıtma kimi də yozula bilər.

Qədim bir Abakan nağılında Tanrı yaratdığı adama qaranquşun gətirdiyi ruhu üfləyərək can verir [15, s. 330]. Tanrı çaxmaqdaşını çalmaq üçün qaranquşu Erlik xanın yanına göndərir. Yolda ağcaqanadla rastlaşır. Ondan «Hara gedirsən?» – deyə soruşur. Ağcaqanad «Mən yer üzündəki canlıların qanını əmməyə gedirəm» – deyə cavab verir. Qaranquş «Səni kim göndərdi?» – deyə soruşur. O, Erlik xanın göndərdiyini, ən şirin qanın isə insan qanı olduğunu deyir. Qaranquş «Elə isə dilini çıxart, baxım» – demiş və onun dilini qopartmış. Ağcaqanad Erlik xanın hüzurunda bir şey söyləməyincə Erlik xan məsələni duymuş qaranquşun arxasınca qaçsa da, onu yaxalaya bilməmiş, sadəcə quyruğunun ortasından qoparıbmış [7, s. 332]. Bəhs etdiyimiz əfsanənin oxşar variantı Qadir Qədirzadə tərəfindən 1983-cü ildə Dərələyəz bölgəsindəki yurddaşlarımızın dilindən qeydə almışdır. Ilan insan-

lardan atəşi oğurlayır. Bütün quşlar yığışır, atəşin yerini öyrənməyi qaranquşa həvalə edirlər. Qaranquş uzun müddət uçduqdan sonra qayaların arasından işığın gəldiyini görür. Nəhəng bir ilan odun ətrafına dolanaraq yatmışdı. Qaranquş şığıyıb, odu götürür. Ilan uzaqlaşmaq istəyən qaranquşun quyruğundan qoparır, lakin tuta bilmir. Beləliklə, qaranquş haçaquyruq qalır. Götürdüyü od ağzını yandırdığından qaranquşun ağzı qırmızıdır [8, s. 135]. Naxçıvandan toplanmış «Qaranquş» əfsanəsinə görə, ilan, qaranquş və ağcaqanad dost olur. İlan qaranquşla mığmığanı şirin qanı olan canlını tapmaq üçün göndərir. Qaranquş mığmığadan həqiqəti öyrənəndə insanları qorumaq üçün mığmığanın dilini qopardır [2, s. 92]. Eyni motiv «Nuh tufanı» əfsanəsində də var. Nuh gəmini xilas edənə nə istəsə verəcəyini vəd edir. İlan siçanın deşdiyi gəmini quyruğu ilə qapadıb xilas edir. Sonra isə bu yaxşılığının əvəzində dünyanın ən şirin nemətini istəyir. Nuh mozalana ən şirin şeyin nə olduğunu öyrənməyi tapşırır. Qaranquş mozalandan insan qanının şirin olduğunu eşitcək, hiylə işlədib, onun dilini qopardır. Mozalan dili olmadığından heç nə deyə bilmir. Burada da ilan qaranquşun hiyləsini anlayır və onun yaxalamaq istərkən quyruğunu qopardır [2, s. 68, 69]. Müxtəlif yerlərdən toplanan eyni motivli nümunələr qayaüstü rəsmdə ilanla quşun mübarizəsi şəklində ifadə edilmişdir. Ümumi mənada xeyirxah quşlar zərərsiz varlıqlar sayıldığına görə onlara baxış müsbətdir. Fikrimizcə, qayaüstü təsvirlərdə quşun yeraltı dünyanı və bəd niyyətlərin təmsilçisi ilanla mübarizə şəklində verilməsi bu fikri ifadə etmişdir.

Xeyirxah quşlara yönəlik müsbət mifoloji baxış insanın uçmaq kimi daxili tələbatını da ifadə etməkdədir. Bir çox əfsanələrin əsas mövzusunun quşa çevrilmə motivi ilə bağlı olması da bununla bağlıdır. Bir Altay Yaradılış dastanında insanoğlu Tanrı Ülgenin əmri ilə suyun lap dərinliyinə dalaraq torpaq gətirir və Tanrı dünyanı yaradır. B.Ögəl G.N.Potaninə istinadən məlumat verir ki, bəzi Altay söyləmələrində insanı qaranquş əvəz edir [10, s. 466]. Yenisey yaradılış dastanında isə öncələri böyük çalxanan bir dəniz, bir böyük şaman və dənizin üzərində uçan su quşları vardı. Şaman, quşlar dincəlsin deyə, yer yaratmaq istəyir. Balıqcıl quşu

Gəmiqayada ilan-quş mübarizəsi

iki dəfə suya dalır, nəhayət, üçüncüdə dimdiyində bir parça palçıq gətirir. Şaman quşların dincəlməsi üçün ada yaradır [10, s. 466, 467]. Türk mifologiyasında dərvişlərin quş donuna girməsi, şaman paltarlarının isə quşa bənzədilməsi ilə qarşılaşırıq. Əski dövrlərdə quş lələkləri yaxşı əlamət kimi dəyərləndirilmişdir. «Urq bitik»də

deyilir: «Gənc ququ quşunun quyruğunun lələkləri ilə bəzənmiş gəlin xoşbəxt olar. Bilin...bu yaxşıdır» [12, s. 228]. Naxçıvanda Güney Qışlaq kəndində rast gəldiyimiz gəlin üçün tikilmiş gərdəkbaşı xeyli rənglənmiş quş lələkləri ilə bəzədilmişdir. Estetik zövq oxşamaqla yanaşı rəngarəng lələklər gələcək xoş gün mənasında da yorumlanır.

Altay türkləri ağackakan quşunu Tanrı ilə insanlar arasında elçi kimi görmüşlər [10, s. 29, 30]. Hətta onlara görə şamanların bəziləri qartal və ya kərkəs quşu olub uçarmışlar. Şamanın dona girdiyi heyvan Hubilqan adlanır. Bu söz monqol dilində «dəyişmək» mənasını ifadə edir [10, s. 48]. Göründüyü kimi, pəri qızlarının don dəyişdirməsi, yaxud insanların quşa çevrilməsi əski mifoloji baxışları əks etdirir. M.Seyidov «Qızıl döyüşçü»nün papağında dağ, Dünya ağacı və ağacın başına qonmuş quşun mifoloji keyfiyyətlərə malik olduğunu və onun Tanrılarla əlaqəli düşünülərək verildiyini söyləyir [13, s. 41]. Papağın üzərində dörd böyük qanad, iki kiçik qanad müqəddəs Tanrıya çatmağın əlaməti olmaqla yanaşı ilkin yaradılış şəkilləri ilə bütövlük təşkil etmiş olur. Özbəkistanın Əfrasiyab şəhərindən tapılmış tapıntıdakı qurd təsvirində də qurd qanadlı verilir. Insan təsəvvüründəki müqəddəs qurdun qanadlı təsviri də Göy Tanrının elçi nişanəsi kimi düşünülmüşdür.

Quşa çevrilmə motivi türk xalqları arasında geniş yayılmışdır. Qazax əfsanəsində xanın qızı çobanlarına aşiq olur və ona qoşulub qaçır. Xan qəzəblənib, qızını qaranquşa, oğlanı da daşa döndərir [15, s. 302]. Türkmən əfsanəsində kasıb, həm də yetim bir oğlan varlı adama mehtərlik edir. İlxıdan iki at itir. Oğlan qorxudan dua edərək quşa çevrilir [15, s. 391]. Türkiyədə toplanmış bir əfsanəyə görə, anaları evdə olmayanda iki bacı yağ küpünü aşırır və qorxudan dua edərək quş olmağı diləyirlər. Hər iki bacı qumru quşuna dönür [15, s. 295]. Vandan toplanmış əfsanə isə Şahbuz bölgəsindən topladığımız əfsanənin eynidir. Ögey anasının işgəncələrindən bezən qız quş olmağı diləyincə başında daraqla birlikdə «bupbi» quşuna dönür [15, s. 299]. Ərzincandan toplanmış əfsanədə isə ögey anasının işgəncələrinə dayana bilməyən uşaq dua edərək «bebbup» quşuna dönür [15, s. 299]. Uyğur əfsanəsində Yer Tanrısı ilə Göy Tanrısı arasında müharibə olur. Yer Tanrısı torpağı düşmən əlindən qurtarmaq üçün oğlunu dağ qartalına döndərir [15,s.300]. Ərzurumdan toplanmış əfsanədə Murad adlı gənc

pəri qızlarını gördüyündən qızlar quş şəklinə girib uçub gedirlər [15, s. 302]. Qaqauz əfsanəsində anası ölən uşaq dua edib Allahdan quş olmağı istəyir və quşa çevrilir [15, s. 307]. Özbəklərin «Ananın quş olması» əfsanəsində də üç oğlu olan qadın xəstə yatağında oğlanlarından su istəyir. Amma oğulları analarına su vermir. Buna kədərlənən ana quşa dönür [15, s. 307]. Qırğızların «Ququ» əfsanəsində üç oğlu olan ana xəstələnir. Uşaqlar analarına su vermir. Ana qəzəblənir, ququ quşu olub, göyə uçur [15, s. 298]. Cəzalandırma, utanma, qorxu, zülmə uğrayanların qurtuluş yolu kimi götürülən quşa çevrilmə motivi ümumtürk düşüncəsindəki ilkin yardılışa qayıtma və bütün mövcud varlıqların, canlı-cansız hər nə varsa iç-içə olduğunu bir-biri ilə qarşılıqlı şəkil dəyişdiyini ifadə etməkdədir. Bu müxtəlif şəkil dəyişdirmələr fonunda kəskinləşən münasibətlər səngiyir, fərqli bir mühit yaranır. Gəlin onu başıaçıq görmüş qaynatasının qarşısına çıxa bilmir və quşa çevrilir. Yəni sistemin qadağalarından kənara çıxmaq, uzaqlaşmaq tam formalaşmış etnik ənənlərə sahib toplumlar üçün yaddır.

N.Alıyev qeydə aldığı Gəmiqaya təsvirlərinin birində (şəkil 5) daş üzərinə həkk edilmiş 8 şərti və simvolik işarələrlə verilmiş kompozisiyanın mərkəzində çəkilmiş rəsmi gəmi adlandırır. Kompozisiyanın əsas süjeti: başı quş fiquru formasında gəmi və məğlub vəziyyətdə olan əjdaha təsvir edilmişdir. Müəllifin qənaətincə, təsvir bütövlükdə əfsanəni əhatə etməkdədir. Belə ki, şəkli yazıda təsvir olunan qaranquşlar, Qaranquş yaylağının istiqamətində verilməklə Nuhun gəmisi haqqında söylənən əfsanəni əhatə edir [3, s. 43, 44, 45]. Göründüyü kimi, əfsanədəki mövzu obrazlılığı təsvirdə də ifadə olunmuşdur. Əjdaha – su stixiyasının təmsilçisi, quş başı ilə təsvir edilmiş gəmi, bir tərəfdə də uçuş anında verilən qaranquş mübarizənin qalibi fonunda görünməkdədir. M.Seyidov oğuzların yeddibaşlı əjdahanı – ilanı – «yelbuka» adlandırdıqlarını və əjdaha haqqındakı mifik görüşlərin çox qədim qəbilə birləşmələrinin mifik baxışları olduğunu, «yelbuka»nın demonik varlıq mənasında ifadə edildiyini qeyd edir [11, s. 391]. Fikrimizcə, bütün təsvirlərin və işarələrin semantik məzmununun açılması vacibdir. Müxtəlif bölgələrdən Azərbaycanın güney-quzey tərəflərindən aşkar olunan maddi-mədəniyyət nümunələri, Qobustan, Gəmiqaya təsvirləri xalqımızın mifoloji düşüncələrinin ifadəsidir. Urmiya ətrafında tapılmış qədəhlərdən birinin üzərində ikibaşlı ilan və üçbaşlı əjdaha

rəsmləri təsvir olunmuşdur. Aydındır ki, bu rəsmlər əski mifologiyanın ifadəsidir [9, s. 387]. E.ə. III minilliyə aid Elam bədii yaradıcılığında mifoloji obrazların ifadəsində başı və pəncələri yırtıcı quş, bədəni qanadlı şir şəklində verilən qartala rast gəlinir [9, s. 382].

Gəmiqaya təsvirlərində obrazlılıq, kompozisiyalarda süjet ardıcıllığı mövcddur. İlkin yaradılış miflərində, dastanlarda, əfsanələrdə adı çəkilən mifik varlıqlar, qeyri-adi qüvvələr ikinci sivilizasiyanın başlanğıcında əsas obrazlar olmuşdur. Sadaladığımız bir çox nümunələr formalaşan etnosların düşüncəsini, dünya və zaman anlayışlarını ifadə edir. Beləliklə, mifoloji dünyagörüş onun aid olduğu xalqın mənəvi mədəniyyətini əks etdirməkdədir. Dünya tufanı bir çox xalqların əsatirlərində verilmişdir. Tufana dair obrazlar, personajlar isə təbiətin möcüzəsi sayılan Gəmiqayada piktoqrafik işarələrlə ilkin yazı adlandıra biləcəyimiz işarələrdə ifadə olunmuşdur. Gəmiqaya təsvirlərindəki ilan və quş qarşıdurmasının əfsanə, nağıl və inanclarımızdakı mifoloji obrazlarla müqayisəli araşdırılması Gəmiqaya rəsmlərinin ümumtürk düşüncə tərzini əks etdirdiyini bir daha təsdiq edir. Söz yaddaşı daşlara, daşların yaddaşı, yurd anlayışı sözlərə köçürülmüş, türk düşüncə tərzi etibarlı mənbə olaraq maddimədəniyyət abidələrində və folklorumuzda qorunub saxlanmışdır.

ƏDƏBİYYAT

1. Azərbaycan mifoloji mətnləri. Bakı: Elm, 1988.
2. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru. Bakı: Sabah, 1994.
3. Alıyev N. Müqəddəs peyğəmbər gəmisi // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, № 1, 2005.
4. Baxşəliyev V. Gəmiqaya təsvirləri. Bakı: Elm, 2003.
5. Düma A. Qafqaz səfəri. Bakı: Yazıçı, 1985.
6. Xalq yaddaşının izləri. Bakı: Elm, 2005.
7. Katanov N.F. Izbrannыe naucnыe trudы. Teksты xakasskoqo folklora и etnoqrafии. Ankara, 2000.
8. Kadirzade K.I. Adetler, ınançlar ve türklerin soy kütüğü meselesi. Ankara: Başer matbaası, 2005, 144 s.
9. Nağıyev C. Qədim Şərq ədəbiyyatı tarix. Bakı: Asiya, 2004.

10. Ögəl B. Türk mitolojisi. I c., Ankara: TTKB, 2003.
11. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989.
12. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı: Yazıçı, 1983.
13. Seyidov M.Qızıl döyüşçünün taleyi. Bakı: Gənclik, 1984.
14. Şükürov A. Kulturologiya. Bakı: Elm, 1998.
15. Türk dünyası efsanelerinde değişme motifi / Hazırlayan Metin Ergun. I c., Ankara, 1997.

SƏBUHİ İBRAHİMOV
AMEA Naxçıvan Bölməsi

DÜNYA TUFANININ MİFOLOGİYASI HAQQINDA

Dünya tufanı haqqıda rəvayətlər barədə, demək olar, çox yazılarda rast gəlinir. İstər səmavi kitablara (Quranda, İncil və Tövratda), istərsə başqa dinlərin mifologiyasına nəzər salanda bu böyük əfsanəvi tufan haqqında müxtəlif versiyalar irəli sürülür. Ciddi nəzər saldıqda isə dünya xalqlarının əksər mifologiyasında ümumdünya daşqınları haqda göstəricilərin şahidi olursan. Bu total fəlakətin səbəbi haqqında onların hamısında belə bir motivasiya var: Allah (və ya İlahi qüvvə) insanlara qəzəblənir, onların qeyri-insani keyfiyyətlərinə cəza əvəzi olaraq fəlakətlər və daşqınlar etdirir. Bir sözlə, daşqına səbəb olaraq təbii bir motiv göstərilmir, hamısında daşqın cəza olaraq götürülür. Qəzəbin səbəbi bəzən fərqli olur: pis davranışlar, ədalətsizliyin hökm sürməsi, Allaha qarşı hər hansı bir üsyan, istər insanlara qarşı, istər heyvanlara qarşı vəhşi ölüm halları və s.

Əsatirlərin çoxunda bir sıra adamların daşqın haqda öncədən xəbərdar edilməsindən də danışılır. Bunlar cəzaya layiq olmayan şəxslərdir. Qəzəbi doğuranların yol verdiyi hərəkətlərdə iştirakçı olmayan, tamamilə əks düşüncədə olan və davranış sahibi olanlar məhsi salamat qalırlar. Bütün hallarda bu şəxslərin çox az olduğu deyilir. Sağ qalacaq insanlar öncədən xəbərdar edilir və xilas üçün müxtəlif tədbirlər görürlər: kimisi gəmi düzəldir, kimisi uca dağa dırmaşır, kimisi də hündür ağaca çıxmaqla qurtulur: xilaskarağac daşqın vaxtı suyun səviyyəsi qalxdıqca böyüyür, uzanır və nəticədə onları xilas edir.

Bəzi xalqların mifologiyasında xilas ancaq ada vasitəsi ilə olduğu fikri irəli sürülür. Hətta bəzi insanlarda bu xilas vasitəsinin tısbağa çanağı, böyük balqabaq, kokos qozunun qabığı variantları da mövcuddur. Xilas olunanlar bir çox hallarda özləri ilə heyvanlardan, zəruri bitkilərin toxumlarından götürürlər. Daşqının müddəti, əsasən, sakral rəqəmlərlə ifadə olunur: yeddi gün, qırx gün, yetmiş gün və s. Daşqının çəkilməsi haqda məlumat isə, adətən, quş vasitəsi ilə olur. Uçurulan quş, nəhayət, xoş xəbər gətirir və adamlar gəmidən, ağacdan və tısbağa çanağından düşürlər. Yeni həyat başlayır və bu yeni həyat əvvəlkidən daha inamlı və imanlı olur. Şər azalır.

Dünya tufanı haqqında mifologiya Bibliyadan qaynaqlanıb müxtəlif variantlarda təkrarlanması versiyası haqda çox deyilsə də, bu, özünü o qədər də doğrultmur. Çünki böyük torpaqla son əsrlərə qədər əlaqəsi olmayan Amerika sakinləri arasında da belə miflər mövcuddur. Onların Bibliya əfsanələrindən qaynaqlanmayıb, müstəqil olduğu təsbit edilib. Sakit okeanın şimal-qərb sahillərində yaşayan hindulara görə, tufandan öncə Ali Ruh insanlara və heyvanlara qəzəblənibmiş. O, yaxşı adamın ailəsinə xilas imkanı vermələ başqalarını məhv etmək qərarına gəlir. Tufan başlayanda Ali Ruh yaxşı adama əmr edir ki, buluda ox atsın. Ox buluda batandan sonra ikinci oxu da birincinin arxasınca sancsın. Bu yolla oxlar bir-birinin ucuna calanır, yaxşı adamın ailəsi və yaxşı heyvanlar buludun üstünə çıxıb xilas olurlar. Bunu görən pislər də oxla göy üzünə dırmaşmağa başlayırlar. Amma ilk ox buluddan çıxır və onların hamısı yıxılıb məhv olur.

Akkad mifologiyasında da daşqın-tufan haqda miflər mövcuddur. Bu miflərin qədim babil (e.ə. ikinci minilliyin ortaları), yeni asur və yeni babil versiyaları mövcuddur. Bu mifə görə, insan yaranandan bir müddət sonra Enlil onların dünya həyatına çox uymalarından, hayküylərindən qəzəblənir və adamları məhv etmək üçün taun xəstəliyi göndərir. Ardınca quraqlıq baş verir. Enlil bundan sonra torpağa şoran göndərir ki, insanlar ölüb məhv olsunlar. Amma hər dəfə adamlar Enkinin köməyi ilə fəlakətdən sovuşurlar. Zəruri mühitin yaranması nəticəsində onlar yenidən çoxalmağa başlayırlar. Bu dəfə Enlil qəzəblənib, tufanlı daşqın göndərir. Tufanlı daşqın yeddi gün, yeddi gecə davam edir. Nəticədə bəşəriyyət məhv olur, təkcə Atraxasis qalır. Ona Enki kömək edir. Onun məsləhəti ilə Atraxasis gəmi düzəldir və ona "Həyatı qoruyan gəmi" adı verir. Atraxasis bu gəmiyə öz ailəsini, sənətkarları, taxıl və otyeyən heyvanları doldurur, nəticədə sağ qalırlar.

Hindlilərin "Daşqın" adlı mifinə görə, tufan xəbərini Manuya bir balıq verir. Məşhur "Qızıl balıq" süjetinin hind variantının qısa məzmunu belə bəyan edilir: Günlərin biri səhərsəhər Manuya dəstəmaz almaq üçün su hazır edirlər. O dəstəmaz alanda qəflətən əlinə bir balıq düşür. Balıq dilə gələrək ona deyir:

- Məni öldürmə, saxla və böyüt, nə zamansa səni mən dardan xilas edərəm.

- Sən məni hansı çətinlikdən xilas edəcəksən?

- Daşqın olar, bütün canlı və cansız nə varsa yer üzündə hamısın məhv edər. O gün həmin bəladan səni xilas edərəm.

- Səni mən necə böyüdə billəm?

- Nə qədər ki, biz balacayıq, hər tərəfdən təhlükə gözlənilir. Balıq balığı yeyir. Ona görə əvvəlcə məni suyu olan bir kuzəyə qoy. O mənə dar olanda çuxur qazıb, su ilə doldur və məni orada saxla. Orada mənə darlıq etdisə, dənizə ötürərsən. Daha dənizdə mənə heç bir təhlükə ola bilməz.

Balıq çox sürətlə boy atır və nəhəng bir balığa çevrilir. Bir gün o, dilə gələrək Manuya deyir:

- Filan ildə tufan, daşqın olacaq. O bəladan xilas olmaq üçün özünə bir böyük gəmi düzəlt və məni gözlə. Səni o bəladan xilas edərəm.

Balığın dediyi vaxtda Manu gəmini düzəldib hazır edir və gözləyir. Tufan başlayanda gəmiyə minib hazır olur. Bu zaman həmin balıq gəlir. Manu gəmisinin kəndirini balığın quyruğuna bağlayır və balıq onu Şimal səmtinin dağlarına gətirir. Sonra daşqın yavaş-yavaş çəkilməyə başlayır və Manu aşağı enir. O vaxtdan Şimal dağı "Manoravasarpana" – "Manunun endiyi" adlanır. Daşqın isə hər şeyi məhv edir və Manu dünyada tək qalır..." (4).

Nuh adı Bibliyada "sakitləşdirici" mənasında işlədilir. Yəhudilik və xristianlıqda bu peyğəmbər böyük dünya tufanı zamanı xilas olan mömin, gəmi düzəldən, yaxşı insanları, heyvan və quşları xilas edən bir şəxs kimi qələmə alınır.

Yenə Bibliyaya görə, Nuh öz oğulları Sam, Ham və Yafəslə tufandan sonrakı bəşəriyyətin babasıdır. Tufanın baş verməsi ilə bağlı insanların azğınlaşması, Allah yolundan uzaqlaşması, şərə tapınması səbəbi göstərilir. Bu azğınlaşanların içində yalnız bir nəfər Yəhvanın bərəkətinə nail olur. Bu Nuh peyğəmbərdir. O, Adəmin doqquzuncu silsiləsindən olan törəməsi, Yenoxun nəticəsi kimi göstərilir.

Bibliya rəvayətlərində Nuh peyğəmbərin də öz ulu babaları kimi, çox ömürlü olduğu bildirilir. Birinci uşaqları dünyaya gələndə onun 500 yaşı olduğu qeyd edilir və tufan zamanı isə 600 yaşı. Azğınlaşmış insanların tufan yolu ilə məhv edilməsi qərarı qətiləşəndən sonra Yəhva mömin, təmiz insan olan Nuha tufanqabağı xəbərdarlıq edir və gəmi düzəltməyi məsləhət görür. Bibliyaya görə, ona gəminin quruluşu, materialları, düzəltmə texnologiyası və s. haqqında məlumat və təlimat verilir. Nuhun və oğullarının məşhur gəmisinin dörd ya-

ruslu olduğu haqda fikirlər geniş yayılıb. Sonrakı rəvayətlər görə, üç yaruslu olan gəminin birinci mərtəbəsində heyvanlar, ikinci mərtəbəsində insanlar, üçüncü mərtəbəsində isə quşlar yerləşdirilmişdir. "Bibliyaya görə, bir versiyada heyvanların hərəsindən bir cüt götürülür" (5, s. 6-19). "Başqa bir yerdə isə yeddi cüt təmiz, bir cüt isə natəmizindən götürüldüyü deyilir" (5, s. 2-3). Axırda gəmiyə Nuhun özü, arvadı, oğulları və oğullarının arvadları daxil olurlar. Gəmidə cəmisi səkkiz nəfər olurlar. Qırx gün və qırx gecə davamlı yağış yağır. Uca dağlar belə su altında qalaraq itirlər, bütün canlılar həlak olur. Yüz əlli gündən sonra su çəkilməyə başlayır. Gəmi isə Ağrı dağının üstünə enir. Əvvəlcə Nuh peyğəmbər gəminin pəncərəsindən bir qarğanı havaya buraxır. Qarğa bir müddət uçur, amma qonmağa yer tapa bilmir və yenidən gəmiyə qayıdır. Sonra Nuh göyərçin uçurur. O da əvvəlcə yer tapmır qonmağa. Yeddi gün keçəndən sonra göyərçin dimdiyində zeytun yarpağı gətirir. Yenə uçur və yeddi gündən sonra göyərçin geri qayıtmır. Bu, artıq yerin quruması kimi qəbul olunur. 365 gündən sonra insanlar və heyvanlar gəmidən yerə enirlər. Nuh Yəhvaya qurban kəsir. Yəhudilikdə bu, ilk qurban sayılır. Yəhva bir də yer üzündə tufan olmaması üçün insanın insan qanı tökməyəcəyi haqda vəd alır. Bundan sonra bir də tufan olmayacağına şəhadət (şahid olmaq) kimi göy qurşağı çıxır.

Nuh peyğəmbər Quranda insanları təkallahlığa dəvət edən ülüləzm peyğəmbərlərdən ilkidir. Onun adı müqəddəs Qurani-Kərimdə qırx dəfə təkrar olaraq çəkilir. Nuh qovminin tapındığı bütlərin adları Quranda çəkilir: Vedd, Suva, Yağus, Yeuk, Nəsr (1, Nuh surəsi, ayə 23).

Dünya tufanının əmələgəlmə səbəbləri də elə bu böyük günah sayılan (Allaha şərik qoşmaq) kimi olur. Nuh onlara Allaha şərik qoşmaqdan əl çəkməyi və tövhid dininin əqidəsinə qoşulmağı təbliğ edir. Onun ilk təbliği Quranda belə təsvir edilir: "And olsun ki, Nuhu peyğəmbər kimi öz qövmünə göndərdik. O da varıb: "Ey qövmüm! Allaha qulluq edin, Ondan başqa heç bir ilahınız yoxdur. Gerçəkdən mən sizə böyük bir günün əzabının gəlməsindən qorxuram" – dedi. Qövmündən olub irəlidə gedənlər: "Şübhəsiz, biz səni açıq bir sapqınlıq içində görürük" – dedilər. Nuh: "Ey qövmüm, məndə heç bir sapqınlıq yoxdur, mən Aləmlərin Rəbbi tərəfindən göndərilən bir peyğəmbərəm" – dedi – «Sizə Rəbbimin əmrlərini çatdırıram, sizə öyüd verirəm və mən Allahdan gələn

vəhy öyüd ilə sizin bilmədiklərinizi bilirəm. O qorxunc aqibəti bildirmək üçün, qorunmağınız üçün və bəlkə də, rəhmətə qovuşdurulmağınız üşün Rəbbinizin rəhməti olaraq sizə bir xəbərdarlığın gəlməsinə inanmır və çaşırsınız?" – dedi (1, Əraf surəsi, ayə 59-63).

Nəhayət, böyük tufan olmaq qərarı qətiləşir və Nuha gəmini düzəltmək əmr edilir. Doğru yoldan azmışlar indi də ona lağ etməyə başlayırlar: "Deyəsən, peyğəmbərlikdən bir şey çıxmadı, indi dülgərliyə keçdin?". Qurani-Kərimə görə, böyük tufandan qurtaranlar yalnız Nuhun soyundan olanlardır. "Bu dünyada ancaq onun nəsli qaldı" (1, Saffat surəsi, ayə 77). Nuhun arvadı, oğulları Sam, Ham və Yafəs və arvadları gəmiyə minir, Kənan (Nuhun dördüncü oğlu) isə suda qərq olur.

Dünya tufanın ən öndə və maraqlı xüsusiyyətlərindən biri də Naxçıvanda "Gəmiqaya" abidəsidir ki, tarixi çox-çox qədimlərə gedib çıxır. "Əfsanəyə görə, hələ o zaman Nuh Peyğəmbər (ə) öz qarısı və oğlanları ilə birlikdə müqəddəs gəmisində üzərkən əvvəlcə Gəmiqayada dayanıb. Peyğəmbər məskən salmaq üçün ətraf ərazidə münasib yerin olub-olmaması ilə maraqlanıb. "Belə bir yer var", – deyə qaranquş xəbər gətirib. Nuh Peyğəmbərin (ə) Naxçıvanda məskən salmasından sonra burada insan nəsli yenidən təkamül taparaq bütün dünyaya yayılıb" (6, s. 46).

Orta əsr tarixçiləri Samı ərəblərin və farsların, Hamı zəncilər və həbəşlərin, Yafəsi türklər, uzaq şərq xalqları, bərbərlər, çinlilər və mavəraünnəhrlilərin ulu babası olaraq qəbul edirdilər. "Çun Oğuz Qaraxanın oğlu, Dib Bakuyun oğlu, Əbülcəxanın oğlu, Yafəsin oğlu, o da Nuh əleyhissalamın oğlu ki, bu vasitə ilə o tək nəslə bağlanır" (3, s. 331).

Folklorumuzda Nuh peyğəmbərlə bağlı müəyyən məlumatlar var. Ələyəz dağı haqqında olan əfsanədə bu dağın adının etimologiyası belə izah edilir: "Dünyanı su alanda Nuh peyğəmbər gəmisi ilə gəzib dolaşırmış. Nəhayət, gəlib Ələyəz dağına çatır. Dağın bir hissəsi suyun üzündəymiş. Nuh onu məskən salacağı yer zənn edir və gəmisini buraya yaxınlaşdırmaq istəyir. Bu zaman dağdan səs gəlir: "Hələ gəz". Və Nuh peyğəmbər də enəcəyi dağı axtarmağa başlayır".

Başqa bir inanca görə, pis qadınların bir qismi Nuh peyğəmbərin itinin, başqa bir qismi isə eşşəyinin nəslindəndir. Əfsanəyə görə, "Nuh peyğəmbər gəmisini düzəldəndə bir usta çağırır. Ona deyir ki, gəl, gəmimi düzəlt, qızımı sənə verərəm. Usta işə

başlayır. Nuh görür ki, iş ləng gedir. Başqa iki usta da çağırır. Amma bircə qızı varmış. Ustalar gəmini hazır edib qurtarır. Nuh işi necə yola vermək barədə fikirli-fikirli gəzəndə görür ki, iti və eşşəyi dönüb qız oldular. Onların hərəsini ustaların birinə verir. Bir müddətdən sonra qızları görməyə gedir. Ustanın birinin yanına gedib soruşur. "Qızım necədir?". Qızın əri deyir: "Yaxşıdır, amma tək bir pis cəhəti var ki, eşşək kimi eşitmir, qulaqardına vurur". Nuh başa düşür ki, bu, eşşəkdir. O birinin yanına yollanır. Onun da əri gileylənir ki, söz deyəndə it kimi çəmkirir. Nuh anlayır ki, bu da itdir. Üçüncünün yanına gedir. Ər arvadından tam razı qaldığını bildirir və Nuh bilir ki, bu, doğma, həqiqi qızıdır".

Həmçinin maraqlı burasıdır ki, "Kitabi-Dədə Qorqud" dastanlarının müqəddiməsində bu əfsanə ilə bağlı səsləşən hissələr var. "Gəldin o ki, necə desən bayağıdır. Əri evdə olanda çöldən bayırdan evinə bir abırlı qonaq gəlsə, əri desə ki, dur, çörək gətir, yeyək, qonaq da yesin. Desə, bişmiş daimi deyil, yemək lazımdır, arvad deyər: "Neyləyim, bu yıxılacaq evdə un yox, ələk yox. Dəvə də dəyirmandan gəlmədi... Nə gəlirsə, mənim sağrıma gəlsin" deyə əlini yanına vurar, üzünü o tərəfə, sağrısını ərinə döndərər. Min söylərsən, birisini eşitməz, ərin sözünü qulağına almaz. O, Nuh peyğəmbərin eşşəyi nəslindəndir...".

Nuh peyğəmbərin Naxçıvan – Azərbaycan xalqının inanc sistemində ayrıca bir əvəzedilməz yeri var ki, o da Qurani-Kərimə olan inamıdır.

ƏDƏBİYYAT

1. Qurani-Kərim. Bünyadov Z., Məmmədəliyev V. Bakı, 1992, 714 s.
2. Bünyadov Z. Azərbaycan Atabəyləri dövləti, Bakı, Yazıçı, 1983, 266 s.
3. Fazlullax Raşidaddin. Dcami at-tavarix, t. I, çastğ I. M., 1965, 400 s.
4. Brahman.
5. Varlıq, elmi ədəbi ictimai jurnal, № 7, 2005.
6. Kəlam, elmi ədəbi ictimai jurnal, № 2, sentyabr, 2002.
7. Kitabi-Dədə Qorqud. Azərbaycan ədəbiyyatı inciləri. Bakı, 1987, s. 320.

III. DÜNYA TUFANI VƏ NAXÇIVAN ABİDƏLƏRİ

GÖVHƏR BAXŞƏLİYEVA
Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu

ORTA ƏSRLƏR ƏRƏB MƏNBƏLƏRİNDƏ NAXÇIVAN HAQQINDA MƏLUMATLAR

Azərbaycanın qədim diyarı Naxçıvan insan sivilizasiyasının ilk beşiklərindən olmuşdur. Gəmiqaya rəsmləri, Əshabi-Kəhf və Kilit mağaraları buna əyani sübutdur. Bu mənada bu günlərdə Naxçıvan şəhərində «Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan» mövzusunda keçirilən beynəlxalq simpozium böyük əhəmiyyət kəsb edir. Nuhun adıyla bağlı bu diyarda bir sıra toponimlərin (Nəbi yurdu, Nuhdaban və s.) yer alması, qədim dövrlərdən insanların Nuhun məzarı kimi ziyarət etdikləri Nuh türbəsi, əhali arasında Nuh peyğəmbərin Naxçıvanla bağlılığı haqda müxtəlif rəvayətlərin nəsildən-nəsilə ötürülməsi bu yerlərin həqiqətən də Nuh peyğəmbər, onun nəsli və Dünya tufanı ilə əlaqələri haqda bizi düşünməyə sövq edir və bu istiqamətdə araşdırmaların daha da intensivləşməsini zəruri edir.

Hər bir azərbaycanlı üçün əziz olan qədim Naxçıvan torpağının orta əsrlər dövrü də olduqca zəngin olmuşdur. Şərqin məşhur elmi, mədəni, iqtisadi və ticari mərkəzlərindən olan Naxçıvan haqqında orta əsrlər ərəb-fars mənbələrində (Bəlazuri, İbn əl-Fəqih, İbn Xordadbeh, Qudama ibn Cə`fər, əl-Müqəddəsi, əl-İstəxri, əl-Biruni, Yaqut əl-Həməvi, F.Rə-şidəddin, Həmdullah Qəzvini, Əbdürrəşid Bakuvi, Həsən Rumlu və b.) Naxçıvan haqda müəyyən məlumatlar verilir.

Məruzəmdə mən ərəb mənbələrindəki məlumatların bəziləri ilə Sizləri tanış etmək istərdim.

Əl-Bəlazuri (820-892) «Kitəb futuhi-l-buldən» («Ölkələrin fəthi») əsərində yazır:

«Şimşat, Qaliqala, Xilat, Arciş, Bəcuneys – IV Ərminiyyə[12], **Busfurracan** kurası (vilayəti), Dəbil, Sirac Tayr, Bəğ-ravənd – III Ərminiyyə, Curzan – II Ərminiyyə, Sisəcan və Arran isə - I Ərminiyyə adlanırdı.

Başqalarının dediyinə görə isə, IV Ərminiyyə ancaq elə Şimşatdan ibarət idi. Qaliqala, Xilat, Arcış, Bəcineys – III Ərminiyyə, Sirac-Tayr, Bağravənd, Dəbil, **Busfurracan** – II Ərminiyyə, Sisəcan, Arran, Tiflis – I Ərminiyyə adlanırdı.

Ənuşirəvan Ərminiyyənin bizanslıların əlində olan bütün vilayətlərini tutdu və Dəbil şəhərini bərpa edərək, möhkəmlətdi. O, **Busfurracan** vilayətində **Nəşəva** şəhərini saldırdı (Busfurracan – Arranın əyalətlərindən biridir, əsas şəhəri Nəşəvadır)» [1, s. 505].

Əl-Bəlazurinin digər məlumatına görə Naxçıvan xəlifə Osman ibn Affanın (644-656) dövründə ərəblər tərəfindən istila olunub. Həbib ibn Maslama (sərkərdə) Naxçıvanı işğal etdikdən sonra onun sakinləri ilə sülh müqaviləsi bağladı və onlara aşağıdakı fərmanı verdi: «Rəhman və Rəhim Allahın adı ilə! Bu fərman Həbib ibn Maslama tərəfindən Naşava (Naxçıvan) şəhərinin hazırda burda olan və olmayan sakinlərinə verilir ki, mən sizin toxunulmağınıza, əmlakınıza və şəhərinizin divarlarına təminat verirəm. Siz təhlükəsizlikdəsiniz və biz bu müqaviləyə əməl edəcəyik, nə qədər ki siz ona əməl edəcəksiniz, cizyə və xərac verəcəksiniz. Buna zamin Allahdır – zaminlərin ən etibarlısı» [1, s. 203].

**Əhməd ibn Vadih əl-Yə`qubi** (öl. 897) «Tə`rix» əsərində yazır:

«Xəzərlər bütün Ərminiyyə ölkəsini zəbt edənlərdəndir. Onların üzərində hökmdar vardır ki, ona «xaqan» deyirlər. Onun ər-Ran, Curzan, **əl-Bəsfurcan** (Naxçıvan), əs-Sisacan üzərində Yəzid Balaş adlı canişini vardı. IV Ərminiyyə adlanan bu vilayəti farsların padşahı Qubad fəth edir və Bab əl-Lanadək 1000 fərsəx uzanaraq 360 şəhəri əhatə edən bu əyalət Ənuşirəvana keçir» [2, s. 178-179].

Coğrafiyaşünas səyyah **İbn Rusta** (X əsrin əvvəli) «Ki-tab əl-ə`laq ən-nəfisə» («Nəfis daşqaşlar kitabı») əsərində yazır:

---

[12] I, II, III, IV Ərmiyyə – ərəblərin Cənubi Qafqazda işğal etdikləri yerlərə verdikləri vahid inzibati ad. Bu və daha sonrakı iqtibaslardan qöründüyü ki-mi, mənbələrdə verilən Ərminiyyə toponimi heç də erməni dövləti, yaxud er-mənilər yaşadıqları məkan anlamını vermir.

«Beşinci iqlim məşriqdə yəcuclar ölkəsindən başlanır, sonra şimala, Xorasana doğru uzanır. Ticarət şəhərlərindən burada Navikət, İsbicab, əş-Şaş, Turarbənd, Xuvarəzm, Azərbaycan və Ərminiyyə vilayətləri, Bərdə, **Nəşavə**, Sisəcan, Arzan, Xilat vardır. [Bu iqlimə] Rum ölkəsindən – Xərşənə, Qurra, ər-Rumiyyə əlkəbira da [daxildir]

İranşəhrin hissələri:

Azərbaycan mahallarından: Ərdəbil, Mərənd, Bacarvan, Varsan, əl-Marağa.

Ərminiyyənin mahallarından: Arran, Curzan, **Nəşavə**, Xilat, Dəbil, Sirac, Suğdəbil, Bacuneys, Arcış, Sisəcan, əl-Bab əl-Əbvav şəhəri» [3, s. 43].

**Qudama ibn Cə`fər** (?-922-948) «Kitab əl-xərac va san`ət əl-kitabə» («Xərac və katiblik sənəti haqqında kitab») əsərində yazır:

«Mərənddən əl-Cara 4 fərsəx, əl-Cardan Xuveyyə 6 fərsəxdir; bu yolla Ərminiyyəyə getmək istəyirsənsə, Mərənddən vadidəki əs-Səri adlı yerə 10 fərsəx, vadidən **Nəşavəyə** 10 fərsəx, **Nəşavədən** Dəbilə 20 fərsəx getməlisən» [3, s. 46].

Əbu İshaq İbrahim ibn Məhəmməd əl-Farisi əl-İstəxri (öl. 957) «Kitab məsəlik əl-məməlik» («Məmləkətlərin yolları kitabı») əsərində yazır:

«Marağadan Dəbilə yol: Marağadan Urmiyaya 30 fərsəx, Urmiyadan Sələmasa 14 fərsəx, Sələmasdan Xuveyyə 7 fərsəx, Xuveydən **Nəşavəyə** 3 gün, **Nəşavədən** Dəbilə 4 mərhələ» [3, s. 92].

Ibn Hovqəl (öl. 977) «Kitəb əl-məsəlik va-l-məməlik» («Yollar və məmləkətlər kitabı») əsərində belə məlumat verir:

«Əl-Marağadan Dəbilə yol Urmiya, Sələması keçməklə Xuveyyədək 53 fərsəx, Xuveydən **Nəşavəyə** 5 gün, **Nəşavədən** Dəbilə 4 mərhələ» [3, s. 116].

Əl-Müqəddəsi (təqr. 946-1000) «Əhsən ət-təqasim fi mə`rifət əl-əqalim» («İqlimlərin öyrənilməsi üçün ən yaxşı bölgü») əsərində yazır:

«Dəbildən çıxsan, **Nəşavəyə** 4 mərhələ, sonra Xuveyyə 3 gün, sonra Sələmasa 2 mərhələ, sonra Urmiyaya 1 mərhələ, sonra Xərraqana 2 mərhələ, sonra Marağaya elə o qədər, sonra Ərdəbilə 40 fərsəxdir» [3, s. 136].

Əl-İdrisi (1100-1165) «Nuzhət əl-muştaq fi-htirak əl-əfaq» («Ölkələri gəzməkdən yorulmuşun əyləncəsi») əsərində yazır:

«Ərminiyyə – daxili və xarici Ərminiyyədən ibarətdir. Dəbil, **ən-Nəşavə**, Qaliqala, Ahar, Varzaqan və bunların ta-beliyində olanlar daxili Ərminiyyəyə aiddir. Bərkəri, Xilat, Arciş, Şitan, əd-Davran xarici Ərminiyyəyə aiddir» [3, s. 151].

Yaqut əl-Həməvi (1179-1229) «Mu`cəm əl-buldən» («Ölkələrin lüğəti») əsərində yazır:

«**Basfurcan** – Arranda baş şəhəri **ən-Nəşavə** olan kura, Ənuşirvan Bab əl-Əbvabı tikdirdiyi zaman buranın da əsasını qoymuşdur» [4, I c., s. 423]. Daha sonra: «**Naxcuvan** – bəziləri isə Nakcuvan deyir. Bu şəhərdən götürülən nisbə «nəşavi» – düzgün düzəlməyib. [Naxcuvan] başqa bir yerdə qeyd etdiyi-miz kimi, Azərbaycanın hüdudunda şəhərdir» [4, V c., s. 276].

«**Nəşavə** – bunun nisbəsi «nəşəvi»dir. Azərbaycanda böyük şəhərdir. Bəziləri isə deyirlər ki, Arrandır. O, Ərminiyyə ilə sərhəddir. Sadə xalq arasında Naxcuvan və ya Nakcuvan kimi tanınır. Əl-Bəlazuri deyib: ən-Nəşavə Basfurcan vilayətinin baş şəhəridir. O, Həbib ibn `Affanın dövründə fəth edilmişdir. [Həbib] onun əhalisi ilə, Dəbil sakinləri ilə olduğu kimi, cizyə və xərac verməyi öhdələrinə götürmək şərtilə sülh müqaviləsi bağlamışdı» [4, V c., 286].

«**Basfurcan** – Arranda vilayətdir. Paytaxtı Nəşavadır, Nakçavan da deyirlər» [4, V c., s. 626].

«**Naxçavan** – Azərbaycanda şəhərdir, bəziləri isə deyirlər ki, o Arrandadır» [4, IV c., s. 784].

Həmdullah Qəzvini (1280-1349) «Nuzhat əl-kulub» («Ürəklər məlhəmi») əsərində Naxçıvanla bərabər Ordubad şəhəri və Azad adlı yaşayış məntəqəsi haqqında da məlumat verir:

«**Naxçıvan** dördüncü iqlimə aiddir. Onun uzunluq dairəsi 80° 51′, en dairəsi isə 33° 40′ dır. Şəhəri Bəhrəm Çubin salmışdır. Bu «nəkşi-cahan» adlanan gözəl yerdir.

Onun binalarının çoxu bişmiş kərpicdən tikilib. Ordakı tarlalar dənlilər, pambıq, üzüm və biraz da meyvə məhsulu verirlər. Əhalisi ağdərili, şafii məzhəbinə etiqad edirlər. Yaxınlıqda bir neçə möhtəşəm qala ucalır, onların arasında Əl-əncik (Əlincə) xarabaları də var. Vergilər 113 min dinar təşkil edir...

Ordubad – bağlar içində üzən əyalət şəhəridir. Burada gözəl üzüm, dənli bitkilər və pambıq yetişir. Su Kaban (Kafan) dağından gəlir, artığı isə Araz çayına axır.

Azad – çox da böyük olmayan şəhərdir, bol dənlilər, pambıq və üzüm məhsulları ilə şöhrət tapıb. Buranın çaxırı məşhurdur. Suyu Kaban dağından alırlar, artığı isə Araz çayına tökülür. İnsanlar ağdılar, xasiyyətləri bir qədər kobuddur. Vergilər 113 min dinar təşkil edir» [6, s. 51].

Digər orta əsr alimi **Əbdürrəşid əl-Bakuvinin** (XIV-XV əsrlər) «Kitab təlxis əl-əsər və `əcaib əl-məlik əl-kahhar» («Əsərlər» haqqında kitabın xülasəsi və qadir hökmdarın möcüzələri») əsərində yazılıb:

«**Nakçuvan** – uzunluq dairəsi 81° 15′, en dairəsi 33° 40′ – Azərbaycanda gözəl şəhərdir, divarları və kuhəndizi var. O düzəngah arasında hündürlükdə, Araz çayı görünən yerdə inşa edilib. Çoxlu bağları, meşələri var, meyvə və dənli bitkilərlə zəngindir. Havası təmiz, suyu şirindir. Orada məşhur binalar, mədrəsə və xanəgah var. Sakinləri bədii oyma, xörəklərin hazırlanması və əlxələnd ağacından müxtəlif əşya və qab-qacaq düzəltməkdə mahirdirlər, onların hamısı müxtəlif ölkələrə çıxarılır» [7, s. 99].

Məmlüklar dövrünün son böyük ensiklopediyasının müəllifi sayılan **əl-Qəlqəşəndinin** (1355-1418) «Sübh əl-ə`şa fi sina`ət əl-inşə» əsərində yazılıb:

«**Nəşuva** – onun adını İbn Səid Nəqcavan qoymuşdur... Yeddi iqlimin beşincisində, 73° 30′ uzunluq dairəsinin və 39° en dairəsinin kəsişdiyi yerdədir. İbn Səid deyir: «O, Şərqi Arranın şəhərlərindən biridir». Əs-Səm`aniyə görə, Ər-miniyyə və Azərbaycan arasında yerləşən bir şəhərdir. İbn Səid deyir: «O, əl-Kurr çayının şimal sahilindədir». «Əl-Ənsab»da deyilənə görə, Təbrizlə onun arası 6 fərsəxdir. İbn Səid qeyd edir ki: «Tatarlar onu dağıdıb, bütün əhalisini də qətlə yetirmişlər» [5, IV c., s. 362].

Sədrəddin əl-Hüseyni ərəbcə qələmə almış «Zubdat ət-təvarix [fi] əxbər əl-umara və-l-muluk əs-səlcukiyyə» («Səlcuq əmir və hökmdarlar haqda xəbərlər verən salnamələrin qaymaqları») əsərində göstərir ki, Cahan Pəhləvanın qızı Cəlaliyyə sonradan Naxçıvanın hakimi olub [8, II c., s. 83].

İbn əl-Fuvati adlı ərəb müəllifi özünün «Təlxis məcmə` al-ədəb fi mu`sam əl-əlkab» («Ləqəblər lüğətində ədəb məclisi haqqında xülasə») əsərində Naxçıvanda yaşayan məşhur həkim Fəxr əd-Din ən-Naxçıvani haqda məlumatlar verir [9, IV c., s. 95].

Əbu Bəkr ibn əz-Zəki adlı müəllif «Raudət əl-kuttab və hədiqət əl-əlbab» («Katiblərin çəməni və qəlblərin bağçası») əsərində məşhur naxçıvanlı həkim Əkmələddin ən-Naxçıvani haqda məlumat verir, onun böyük sufi şair və mütəfəkkir Mövlanə Cəlaləddin Ruminin dostu və həkimi olduğunu bildirir, «aqillərin ağası, dünya həkimlərinin rəisi» adlandırır [10, s. 118].

Düşünürəm ki, bu istiqamətdə araşdırmalar mütləq davam etdirilməlidir. Günümüzəcən elmə məlum olmayan, elmi tədqiqata cəlb edilməyən bir çox qədim ərəb əlyazmaları öz tədqiqatçılarını gözləyir. Inanıram ki, bu iş müntəzəm və sistemli şəkildə aparılsa, mütləq müsbət nəticə verəcək və biz vətənimizin uzaq keçmişi, onun müxtəlif bölgələri, o cümlədən qədim Naxçıvan haqda yeni-yeni maraqlı məlumatlar əldə edəcəyik.

ƏDƏBİYYAT

1. Əbu-l-'Abbas Əhməd ibn Yəhya ibn Cabir əl-Bəlazuri. Kitəb futuhi-l-buldən. Qahirə, 1956.
2. Əhməd ibn Əbu Yaqub ibn Cəfər əl-Yaqubi. Tərix. Beyrut, 1959.
3. Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı, 1974.
4. Yaqut əl-Həməvi. Mü`cəm əl-buldən. I-V c., Beyrut, 1977.
5. Şihəb əd-din Əbu-l-Abbas Əhməd ibn Əli əl-Qəlqəşəndi. Sübh əl-ə`sa fi sinaat əl-inşa. I-XIV c., Misir, 1913-1920.
6. Yaqut əl-Həməvi. Mü`cəm əl-buldən (Azərbaycan haqqında məlumatlar). Həmdullah Qəzvini. Nuzhət əl-kulub (Azərbaycana dair materiallar) / Ərəb dilindən tərcümə edənlər – Z.M.Bünyadov və P.K.Cuze. Bakı, 1983.
7. Abd ər-Raşid əl-Bakuvi. Kitab talxis əl-əsər və `əcaib əl-məlik əl-kahhar / Tərcümə və şərhlər Z.M.Bünyadovundur. M., 1971.
8. Bünyadov Z.M. Seçilmiş əsərləri: 3 cilddə. Bakı, 1999 (rus dilində).
9. İbn əl-Fuvati. Təlxis madcma` əl-ədəb fi mu`dcam əl-əl-kab. I-IV c., Dəməşq, 1962-1965, s. 95.
10. Əbu Bəkr ibn əz-Zəki. Raudət əl-kuttab və həqiqət əl-əlbab. Ankara, 1972.

ADİL BAĞIROV
AMEA Naxçıvan Bölməsi

NAXÇIVANDA NUHLA BAĞLI YER-YURD ADLARININ TARİXİ-ETİMOLOJİ TƏHLİLİ

Azərbaycanın qədim inzibati və mədəniyyət mərkəzlərindən biri olan Naxçıvanın hər daşında, hər qayasında xalqımızın şərəfli tarixi, zamanın müxtəlif dövrlərinə aid zəngin maddi-mədəniyyət abidələri, daş kitabələrdə milli adlarımız, təfəkkür dünyamız, düşüncə tərzimiz yaşayır. Bu ərazi ən qədim yaşayış məskənlərindən biridir. Bunu ərazidə aparılan arxeoloji qazıntılar, tapılan maddi-mədəniyyət abidələri, təbiətin sirrini özündə qoruyub saxlayan kurqanlar, məbədlər, möhtəşəm qalalar, yeraltı mağaralar, dağlar, dərələr, daşlara həkk olunmuş rəsmlər, qədim yazı nümunələri, Gəmiqaya abidələri, Nuh peyğəmbərin qəbri və s. kimi xalqımızın özünəməxsus mədəniyyətini əks etdirən minlərlə abidələr sübut edir. Bu abidələr içərisində toponimlərin xüsusi rolu və çəkisi vardır. Toponimlər Azərbaycan tarixinin ən qədim dövrlərinin şahidi, xalqın danışan dili, onun daşlara, qayalara hopmuş təfəkkür dünyası və milli-mənəvi abidələridir. Bu abidələrin çoxu əsrlər boyu torpağın altında, təbiətin qoynunda qalmış, öz sirrini insanlardan gizli saxlamışdır. Odur ki, xalqımızın keçmişindən soraq verən, onun tarixini, varlığını təsdiqləyən toponimləri toplayıb linqvistik cəhətdən tədqiq etmək xalqımızın tarixi, dili, coğrafiyası, etnik tərkibi, mədəniyyəti ilə bağlı çox qiymətli faktları aşkar edir, bir çox qaranlıq və sirli mətləbləri açır. Naxçıvan toponimlərinin öyrənilməsi xalqımız üçün taleyüklü məsələdir və hər şeydən əvvəl siyasi və mənəvi cəhətdən çox vacibdir. Qədim sərhədlərimizin müəyyənləşdirilməsi, torpaqlarımıza qarşı ərazi iddiasında olub dünyaya hay-həşir salan erməni millətçilərinə kəsərli cavab verilməsi üçün dilimizin toponimlər sisteminin öyrənilməsi təxirəsalınmaz vəzifəmizdir.

Naxçıvan toponimləri xalqımızın tarixi ilə bağlı yaranmış, milli mənəviyyatı ilə yoğurulmuş, azərbaycançılıq, türkçülük damğası ilə möhürlənmiş, leksik-semantik və qrammatik xüsusiyyətləri ilə seçilən milli onomastik vahidlərdir. Bu onomastik vahidlərin leksik tərkibində qədim türk tayfa və tayfa birləşmələri, tayfa, nə-

sil, tirə başçılarının adları, ərazinin relyef quruluşu, hidronimik və zoonimik leksikası, flora və faunasını əks etdirən adlar xüsusi yer tutur.

Naxçıvan ərazisindəki toponimlərin bir qisminin leksik tərkibi həzrət Nuh peyğəmbərin adı ilə bağlıdır. Bu bağlılığı «Dünya tufanı» zamanı Nuh peyğəmbərin ilk dəfə Naxçıvan ərazisində quruya çıxması, gəminin qalıqlarının bu ərazidə olması, Nuh peyğəmbərin «Köhnəqala» adlanan ərazidə dəfn olunması, Naxçıvan adının *Nuhçıxan* şəklində mənalandırılması, ərazinin Nuhun vətəni hesab edilməsi kimi faktlar təsdiqləyir, eləcə də peşəkar rəssam Bəhruz Kəngərlinin «Nuhun türbəsi» adlı əsərlərini naturadan çəkməsi, ərazidə Nuhla bağlı: *Nuh Nəbidən xəbər verir, Nuh əyyamından qalıbdır, Nuhdan qalma məsəldir, Nuh Nəbini taxtda görüb, Süleymanı qundaqda* kimi atalar sözü və məsəllərin, yer-yurd adlarının zənginliyi də bu fikrə dəstək olur.

Hələ də insanlar üçün qaranlıq qalan Nuh tufanı və Naxçıvan probleminin həlli sona yetməyib. Bu məsələyə inananlar da var, inanmayanlar da. Ancaq bu haqda müxtəlif konsepsiyalar olmasına baxmayaraq, Dünya tufanının əhatə etdiyi bütün coğrafi areallardan fərqli olaraq Naxçıvanda Nuhun adı ilə bağlı toponimlər çoxluq təşkil edir. Ərazidə Nuhun adını yaşadan, onun adı ilə səsləşən: *Gəmiqaya, Nuhçıxan, Nuhdabanı, Nügədih, Nürgüt, Nəbi yurdu, Nəhəcir kəndi, Nəhəcir dağı, Əlincə dağı, Ağrı dağı, İnan dağı, Kəmki dağı, Dava daşı, Peyğəmbər ayağı, Üçqardaş təpəsi, Qaranquş yaylağı* və s. kimi etnonim, antroponim, toponim, hidronim və digər onomastik vahidlər mövcuddur ki, bu adların da hər birinin əmələgəlmə, yaranma yolu, leksik-semantik cəhətdən zəngin dil xüsusiyyətləri vardır.

Naxçıvan toponimi tarixin özü qədər qədimdir. Bu ad eradan əvvəl bina olunan tarixi bir şəhərin, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan böyük bir ərazinin, eyniadlı muxtar respublikanın adıdır. Mənbələrin verdiyi məlumata görə, bu ad haqqında ilkin məlumat yəhudi alimi İosif Flaviyə (e.ə. I əsr) və yunan coğrafiyaşünası Klavdi Ptolemeyə (eramızın II əsri) məxsusdur. K.Ptolemeyin «Coğrafiya» adlı əsərində şəhərin adı *Naksuana* şəklində qeyd olunmuş və coğrafi mövqeyi göstərilmişdir [25, II c. s. 62]. Naxçıvan şəhərinin təşəkkül tarixi, adının əmələ gəlmə, yaranma mənbəyi və mənşəyi əsrlər boyu bir çox tədqiqatçı, dilçi,

tarixçi və coğrafiyaşünasların, səyyah və diplomatların diqqətini cəlb etmiş, xalq ehtimalları, rəvayətlərlə yanaşı, yunan, latın, ərəb, fars, Azərbaycan, gürcü, rus, erməni, fransız dillərinə aid mənbələrdə bir-birini məntiqlə tamamlayan, yaxud təkzib edən fikir və mülahizələr yaranmış, adın çoxsaylı etimoloji yozumu və versiyaları meydana çıxmış, müxtəlif mənbələrdə bu ad *Naxç, Nəxcuan, Nəşəva, Nəşəvi, Nəqşicahan, Nəqcuan, Naxcuvan, Qələyi, Nəxşivan, Nəxşuan, Naxuç, Nəxcir, Akçivan, Nacəvan, Naxçıvan* və s. kimi variantlarda yazılmışdır [3, s. 29; 9; 13, s. 310; 16, s. 140; 22, s. 28; 21, s. 27-30].

Naxçıvan sözünün Nuh peyğımbərin adı ilə bağlı olması fikri bir çox tarixi qaynaq və mənbələrdə, qədim və orta əsrlərdə Naxçıvana gəlmiş səyyahların yol qeydlərində, müxtəlif tədqiqatçıların əsərlərində öz əksini tapmışdır. Məsələn, Naxçıvanda olmuş fransız coğrafiyaşünas səyyahları Jak Şarden, Frederik Dübua de Monpere Naxçıvanın Nuhun yurdu olduğunu, bu adın mənşəyinin Nuh peyğəmbərin adı əsasında yarandığını yazmışlar [31]. Eyni fikir XIX əsrdə rus tədqiqatçıları V.Qriqoryev və İ.Şopenin tədqiqat əsərləri, rus dilində yazılmış ensiklopediyalarda da öz ifadəsini tapmışdır. Yazı müəllifləri Naxçıvanı Nuhun gəmisinin dayandığı ilk məntəqə hesab etmiş, ancaq məsələyə qatı ermənipərəst mövqedən yanaşmışlar [20, s. 66; 32, s. 318; 10, s. 705]. 1881-ci ildə nəşrə başlayan «Qafqazın ərazi və tayfalarının təsviri məcmuəsi»ndə (SMOMPK) Naxçıvan şəhər uçilişşinin inspektoru K.Nikitin də «Naxçıvan şəhəri və Naxçıvan mahalı» adlı məqaləsində özündən əvvəlki müəlliflərdən geri qalmır. O, erməni tarixçisi Çamçyana istinadən (Çamçyan da Georgi adlı müəllifə əsaslanıb) Naxçıvan sözünü ermənimənşəli ad hesab edir, Nuh, onun bacısı və digər ailə üzvlərinin Naxçıvanda, arvadının (Neemzara və ya Noemraqa) isə Mərənddə dəfn olunduğunu yazır və Mərənd sözünü «Mayrand» – «ana buradadır» mənasında açıqlayır [26, s. 109-113]. 1926-1927-ci illərdə Azərbaycan Arxeologiya Komitəsinin xətti ilə Naxçıvanda tədqiqat aparmış V.M.Sısoyev də Nuhun qəbrinin Naxçıvanda olması haqqında məlumat vermişdir [27, s. 97-105]. Elə bunun nəticəsidir ki, Naxçıvan adının *Nuhçıxan* versiyası dilimizə aid bir çox mənbədə də öz ifadəsini tapır. Tədqiqatçılarımız bu adın mənşəyini «Dünya tufanı» ilə əlaqələndirərək sözün: *Nuhçıxan, Nuhtaban, Nahçıxan,*

Naxçığan, Navçığan, Noyçıxan, Navçıxan, Navcığan, Naxçıvan şəkillərində formalaşması ehtimalını irəli sürürlər [4, s. 98; 5, s. 103; 14; 24, s. 33]. «Bu el mülahizəsinə görə «Naxçıvan» sözü üç hissədən – «Nax» (Nuh), türk dillərində isim düzəldən «çı» şəkilçisindən və yer, məkan bildirən «van» toponimik formantından ibarət olub, «Naxçuvan» – «Nuhçuların (Nuh tərəfdarlarının) məskəni», «Nuhun diyarı» deməkdir [25, II c., s. 62]. Naxçıvan və Nuh probleminə dair bir neçə məqalə ilə çıxış edən Q.Qədirzadə «Nuh peyğəmbər, Dünya tufanı və Naxçıvan» adlı kitabında bu məsələyə yeni elmi prizmadan yanaşmış, Nuh peyğəmbəri əfsanəvi şəxs kimi deyil, müqəddəs Tövrat və Quranda adı çəkilən bir peyğəmbər kimi təqdim etmiş, Dünya tufanı və Naxçıvan coğrafi arealında Nuh peyğəmbərin tutduğu mövqeyi açıqlamışdır [18].

Naxçıvan coğrafi arealında Nuhla bağlı toponimlərdən biri **Gəmiqaya** dağ adıdır. Gəmiqaya xalqımızın daş pasportu, maddi və mənəvi mədəniyyətimizin təbii tarix muzeyidir. Bu dağda Dəmir və Tunc dövrlərinə aid yaşayış yerləri, petroqlif, heroqlif və piktoqramlar, arxeoloji qazıntılar zamanı tapılan maddi-mədəniyyət abidələri, daşlar üzərindəki günəş, ay, ulduz, araba, qaranquş, keçi, öküz, maral, bəbir, canavar, at, it, ilan şəkilləri burada yaşayan insanların kosmik dünyagörüşü, fəlsəfi düşüncə tərzi, ovçuluq mədəniyyəti, təsərrüfat həyatı, peşə və məşğuliyyətindən soraq verən ilk daş kitabələridir. Bu kitabələrin öyrənilməsində tədqiqatçı alimlərimizdən V.Əliyev, V.Baxşəliyev, Q.Qədirzadə, A.Seyidov, Ə.Fərzəli, H.Səfərov və başqalarının gördükləri işlər xüsusi əhəmiyyət kəsb edir [11; 7; 18; 28; 12; 30]. A.Seyidovun «Gəmiqaya (toponimlər, qədim köç yolları)» adlı kitabı Gəmiqayanın toponimik mənzərəsini elmi əsaslarla əks etdirir. Kitabda Naxçıvan və Zəngəzur ərazisinin 170-dən artıq yer adı (toponim) və qədim köç yol adları tədqiqat obyekti seçilmişdir ki, bu adlar da xalqımızın formalaşma tarixi, etnik tərkibi, ad mədəniyyəti haqqında soraq verən çox qiymətli materiallardır [28]. Ancaq adı çəkilən müəlliflərin tədqiqat obyektinə daxil olmadığından toponimlərin linqvistik xüsusiyyətləri ilə bağlı araşdırmalar aparılmamışdır. Bunu nəzərə alaraq Naxçıvan ərazisində Nuh peyğəmbərin adı ilə bağlı yer-yurd adlarını tarixi-etimoloji cəhətdən təhlil etməyi qarşıya məqsəd qoymuşuq. Əvvəlcə Gəmiqaya adı haqqında.

Gəmiqaya *gəmi* və *qaya* sözlərinin biri-birinə yanaşması nəticəsində yaranmış milli adlarımızdan biridir. Min illərdir ki, bu ad dilimizdə işlənir və adın mənşəyinin Nuh peyğəmbərin adı ilə bağlı yarandığı ehtimal olunur. Xalq etimologiyasından fərqli olaraq Ə.Hüseyni belə nəticəyə gəlir ki, «Gəmiqayanın ilkin adı *Alqaraq* olub. Tələffüz nəticəsində *q* hərfi *x* elementi ilə dəyişib, *Alqaraq* şəklinə düşmüşdür. Azərbaycanda *Alqaraq* adlı iki dağ var. Bunlardan biri Gəncədə, digəri isə Naxçıvanda – Ordubad ərazisindədir. Alqaraq dilimizdə sıra ilə *al* və *qar* köklərindən – «uca və nəhəng» mənası daşıyan sözlərdən əmələ gəlmişdir. Yəni «uca, nəhəng dağ». Bu həqiqətən də belədir. Hər iki dağ uca və nəhəngdir. Maraqlıdır ki, dağların hər ikisi püskürmə nəticəsində uçub, sonralar yeni ad almışlar. Gəncədə Kəpəz, Naxçıvanda Gəmiqaya olmuşlar» [15].

Bizim fikrimizcə, Gəmiqayaya bu ad dağın təbii mövqeyinə, relyef quruluşuna, görünüşcə gəmiyə oxşadığına görə verilmişdir ki, bu ad da xalq etimologiyası ilə səsləşir. Deyilənə görə, Ümumdünya tufanı zamanı Nuhun gəmisi bu dağa toxunub dayanmış, zaman keçdikcə gəmi daşlaşıb qayalaşmış və nəhəng bir dağa çevrilmişdir. Odur ki, Naxçıvanın su ilə heç bir əlaqəsi olmayan yüksək dağ zirvəsinə gəmi ilə bağlı adın verilməsi xalq arasında ümumi fikir yaradır ki, bu dağ Nuhun gəmisinin daşlaşmış, qayalaşmış gövdəsidir. Dağ görünüşünə görə gəmiyə oxşadığı üçün ona *Gəmiqaya* adı verilmişdir. Bu ad elmi mənbələrdə də qorunub saxlanılmışdır.

Gəmiqaya və ətraf əraziləri tarixi və təbii coğrafi zənginliyinə görə fərqlənir. Burada tarixi leksikologiyamız və coğrafi obyektə ad vermə ənənələrimiz özünü yaşadır. Odur ki, Gəmiqayada hər daşın, qayanın, gölün, suyun, yerin öz adı, öz mövqeyi, üzərindəki rəsmlərə, heroqlif və piktoqramlara görə öz yaranma tarixi vardır. Bu adları leksik-semantik cəhətdən aşağıdakı şəkildə qruplaşdıra bilərik:

a) Şəxs adı ilə bağlı olanlar: *Nəbi yurdu, Ağalar yurdu, Seyid yurdu, Süleyman yurdu, Əzim yurdu, Bədəl demisi, Novruz güneyi, Qəhrəman çuxuru, Murad ağılı.*

b) Tayfa adı ilə bağlı olanlar: *Saqqarsu dağı, Saqqarsu çayı, Kəngərli düzü, Qaraçı yurdu, Xəzər yurdu.*

c) Müasir və keçmiş kənd adları: *Nəsirvaz, Nuhdabanı, Nügədih (Nühgədik), Nürgüt, Tivi, Ağdərə, Parağaçay, Bist, Ələhi, Xurs, Urmus.*

ç) Dağ, daş, qaya adları: *Qapıcıq zirvəsi, Qazangöl dağı, Dəmirli dağ, Ələngəz dağı, Kəmki dağı, Ballı qaya, Dava daşı, Gölün daş, Çadırdaş, Daşbaşı.*

d) Dərə, təpə və sahə adları: *Yağlı dərə, Sallı dərə, Qayırma dərəsi, Ayı dərəsi, Qaranlıq dərə, Sarı dərə, Dəhnə dərə, Çeşmə başı, Pətək qoyulan, Subay çınqılı, Şamlar, Şorlar, Xəzər yurdu, Gözcük, Pez yurdu, Novlar, Soltanlar, Babacıq, Aşağı baca, Orta baca, Yuxarı baca, Topallı, Nefitli, Hasarlar, Çürüklü, Silgəz, Təndirli, Boğaz yurd, Nav yeri.*

e) Su mənbələri ilə bağlı olanlar: *Zərnəbad çayı, Əyriçay, Bazar çay, Şırlan çayı, Göllər, Göygöl, Qazangöl, Dəli bulaq, Lala çeşməsi, İsti çeşmə, Soyuq çeşmə, Yeddi çeşmə, Şahbulaq, Xan bulağı, Narzan bulağı, Arxac bulağı.*

ə) Heyvan və quş adları ilə bağlı olanlar: *Qaranquş yaylağı, Çaqqallar yurdu, Eşşək meydanı, Qartal oturan, Keçi qalası.*

f) Bitki adı ilə bağlı olanlar: *Çimənnər (lər), Çuxur çimən, Şıppırlı, Dik gözə, Meşə.*

g) Forması və relyef quruluşuna görə verilən adlar: *Böyük qara qaya, Kiçik qara qaya, Yumru daş, Dəlik daş, Gen yurd.*

ğ) Baş vermiş hadisə ilə əlaqədar verilən adlar: *Camışölən, Əliölən, Qanlı zəmi.*

h) Rəvayət və əfsanələrlə bağlı olanlar: *Nuh yurdu, Gəmiqaya, Gülüm-gülüm xarabalıqları, Qızgəlin çuxuru.*

x) Rəng bildirən sifətlər əsasında yaranan adlar: *Qara qaya, Qara sal, Sarı daş.*

ı) Pir və ocaq adları: *Bibqətəl piri, Qara pir.*

Bu adlar tarixin yaddaşı, dilimizin onomastik leksikasının qədim nümunələridir. Bu nümunələrin bir çoxunun leksik tərkibində xalqımızın etnik tərkibinə işıq saçan dil elementləri çoxdur. Məsələn, C.Cəfərov «qədim salur və əfşar tayfa damğalarının Gəmiqaya işarələri sistemində gözə dəydiyini» yazır [9, s. 54]. Bu tayfa adları eradan əvvəlki minilliklərə aid olmuş, müxtəlif fonetik transformasiyalara uğrayaraq zəmanəmizə qədər gəlib çatmışdır. Belə tayfa damğalarının Gəmiqayadakı izləri oğuz qəbilələrinin

tarixi kökü, yayılma arealı, məşğuliyyət sahələri haqda da təsəvvürü genişləndirir.

Naxçıvan ərazisində Nuhun adını yaşadan toponimlərdən biri də **Qapıcıq** adıdır. Qapıcıq Qafqazın ən yüksək zirvəsi hesab olunur. Bu dağ adının mənşəyi ilə bağlı həm xalq arasında, həm də elmi ədəbiyyatda müxtəlif fikirlər vardır. Xalq etimologiyasına görə, tufandan sonra gəmidən yer üzünə açılan ilk qapı belə adlandırılıb. Ə.Hüseyninin fikrincə, Qapıcıq adı *qabcıq* sözündən götürülüb: «Gəmiqaya»nın zirvələrindən birinə *Qapıcıq* deyilir. Çoxuna elə gəlir ki, guya bura qapıya bənzədiyinə görə belə adlanır. Əslində isə, *qabcıq* qədim dilimizdə *gəmi-qayıq* deməkdir. Bu ad da şübhəsiz həmin hadisə ilə (yəni Nuh tufanı ilə – A.B.) əlaqədar meydana gəlmişdir» [15]. Ə.Hüseynidən fərqli olaraq N.Məmmədov *Qapıcıq* sözünü «dar dərə keçidi» mənasında açıqlayır: «Qədim türk dillərinə mənsub *cigi* «dar dərə» sözü Alacigi dağının (Qazax rayonunda dağ, hündürlüyü 696 metr) adında əks olunmuşdur. Qeyd etmək lazımdır ki, bu termin hələlik yeganə olaraq təhrif olunmuş formada *Qapıcıq* Zəngəzur silsiləsinin ən yüksək zirvəsidir, qədim türk dillərindəki *qapı* – «keçid» sözündən ibarətdirsə (dağın ətəyində aşırım vardır) və həm də kiçiltmə bildirməməlidir. Fikrimizcə, bu oronimdə də məhz *cik* sözü başqa mənanı ifadə edir. Deməli, *Qapıcıq* zirvəsi adının mənası «dar dərə keçidi» deməkdir» [23, s. 25]. Fikrimizcə, N.Məmmədovun qeyd etdiyi *Alacigi* dağının adında əks olunan *cigi* terminin *Qapıcıq* adı ilə heç bir əlaqəsi yoxdur. Odur ki, hələlik elmi təhlilini tapmayan bu adı ehtimal şəklində Nuhun gəmisindən yer üzünə açılan qapı mənasında açıqlamaq mümkündür.

Nəbi yurdu. Ən qədim toponimlərdən biridir. Nəsirvazla Gəmiqaya arasında yerləşən bu coğrafi obyektin adı Nuh peyğəmbərin əsas adlarından biri olan *Nuh Nəbi* adı ilə bağlı yaranmışdır. Rəvayətə görə, Nuh Nəbi yer üzünə çıxdığı zaman bu ərazidə yurd-yuva saldığı, ərazidə məskunlaşdığı üçün buraya *Nəbi yurdu* adı verilmişdir.

Nuhdabanı. Gəmiqaya dağ zirvəsinin ətəklərində yerləşən, adı rəvayət və əfsanələrdə çəkilən qədim kənd adıdır. *Nuh* və *daban* komponentlərindən ibarət olan toponimin hər iki hissəsi Nuhun adı ilə bağlıdır. Əfsanəyə görə, Nuh peyğəmbər gəmidən yer üzünə çıxarkən ilk dəfə dabanını torpağa basmış və həmin yerdə yurd

salmağı məsləhət görmüşdür. Elə buna görə də həmin yerə *Nuhdaban* adı verilmişdir. Daban sözü dilimizdə həm «dağın, qayanın dabanı», «dağ və qaya ayağının aşağı hissəsi», «dağın dibinə yaxın yer» anlamında işlənir. Demək, belə güman etmək olar ki, Nuhdaban adı «Nuhun düşdüyü zirvənin aşağı hissəsi, dağın dibinə yaxın yer, dağ aşırımı» mənalarında işlənir ki, bu da ərazinin relyef quruluşu, Gəmiqayanın yüksək zirvədə yerləşməsi ilə uyğun gəlir.

Nügədih. Gəmiqaya ərazisində qədim yaşayış məskəni və dağ aşırımının adıdır. Adın ilkin variantı *Nuhgədik* olmuş və canlı danışıq dilində fonetik dəyişməyə uğrayaraq *Nügə-dih* şəklinə düşmüşdür. Nuhgədik adının birinci komponenti Nuh peyğəmbərin adı ilə bağlıdır, *gədik* sözü isə *dağ aşırımı* mənasında işlənir. Demək, Nuh peyğəmbərin adı ilə bağlı yaranan bu toponim «Nuhun gədiyi», «Nuhun yaşadığı dağ aşırımı» mənasındadır.

Nürgüt. Ordubad rayonunda kənd və böyük bir ərazinin adıdır. Bu ad mənbələrdə *Dərənürgüt* adı ilə qeydə alınmış [17, s. 149, 180] və sonralar *Nürgüt* şəklində işlənmişdir. Tədqiqatçıların fikrincə, bu ad monqolmənşəli *nohur* və *xut* – «düşərgə», «dayanacaq» sözlərinin birləşməsi yolu ilə yaranıb [8, s. 97]. Digər fikrə görə isə bu ad *Nouqut* sözünün təhrif olunmuş variantıdır. Toponim fars dilindəki *nou* (təzə, yeni) və *qut* (kənd, şəhər, qala) sözlərindən ibarət olub «yeni kənd», yaxud «təzə qala» mənasındadır [2, s. 390]. Fikrimizcə, Nürgüt adının mənşəyini monqol və digər dillərə aid sözlərlə açıqlamaq doğru deyil, cünki adın birinci komponenti olan *nür* sözü Nuh sözünün fonetik dəyişikliyə uğramış forması, ikinci komponenti isə «kənd», «qala», «istehkam» mənasında işlənən *qut* sözündən ibarətdir. Bütövlükdə Nürgüt sözü «Nuha məxsus qala, istehkam, yaşayış yeri» mənasında işlənir.

Dava daşı. Gəmiqayada yerləşir, e.ə. burada yaşayan insanlar dava (döyüş) zamanı bu daşdan müdafiə məqsədilə istifadə etdikləri üçün obyektə belə ad verilmişdir. Bu haqda danışan V.Əliyev yazır ki, «Nəbi yurdu ərazisində təbii «qalaistehkam»da Gilançay vadisinin aşağı axını boyunca yaşamış maldar tayfalar Tunc və ilk Dəmir dövründə (e.ə. IV-I minilliklərdə) yay fəslində Qaranquş yaylağında mövsümi məskunlaşıb, təsərrüfat işləri ilə məşğul olmuş və təhlükədən xilas olmaq üçün qayalar arasında

əlverişli strateji mövqeyə malik olan yerlərdən qalaça kimi istifadə etmişlər. Maraqlıdır ki, Nəsirvaz, Tivi, Bist, Xurs, Biləv, Parağa kəndlərinin əhalisi arasında bu qədim istehkamlar «Dava daşı» - yəni dava, döyüş, vuruş yeri, müdafiə qalaları adlandırılır» [11, s. 12].

Nəhəcir dağı. Culfa rayonu ərazisində püskürmə nəticəsində yaranmış sıldırım qayalardan ibarət bu dağ adı *Nəhəcir* kənd adına *dağ* topoformantının artırılması yolu ilə yaranmışdır. Nəhəcir respublikamızda ən qədim toponimlərdən biridir. Bu adın mənşəyinə toxunan N.Məmmədov yazır ki, Nəhəcir toponiminin Nuhəcir olması, qənaətimizcə, daha inandırıcıdır. Uzun illər ərzində Nuhəcir sözü ahəng qanununa uyğunlaşaraq qalın «u» saitinin incə «ə» saitinə keçməsi nəticəsində Nəhəcirə çevrilmişdir [24, s. 27]. Bu fikirdən fərqli olaraq Nəhəcir toponiminin *Nuh* şəxs adı və fars dilindəki *cir* (yamac, maili yer) sözlərindən ibarət olub «Nuhun yamacı» mənasında işləndiyini daha inandırıcı sayırıq [6, s. 172].

Əlincə dağı. Culfa rayonu ərazisində sıldırım qayalardan ibarət möhtəşəm dağ adıdır. Eyniadlı qala da bu dağın üzərində yerləşir. Bu qala neçə-neçə müharibələrin şahidi olmuş, Eldənizlər, Elxanilər, Cəlairilər dövründə möhtəşəm istehkama çevrilmiş, illər uzunu monqollarla mübarizə aparmış, zamanın feodal çəkişmələri nəticəsində dağılmış və adı əsrlər boyu tarixin səhifələrindən düşməmişdir.

Dilimizdə Əlincə adının mənşəyinə birmənalı şəkildə yanaşılmır. Xalq etimologiyasına görə, dağın adı «əlini çək» sözündən yaranıb. Digər mülahizələrə görə isə dağın (həm də qalanın) adı *Alancıq* («meydança», «kiçik meydan», alan – qədim türk dilində «düzənlik», «meydan») sözündəndir. M.Seyidovun fikrincə, ilkin forması «erinq//erınq» olan bu söz sonra *Erincaq//Erincək* şəklinə düşmüş və «möhkəm, qüvvətli, dövlətli hakimiyyəti olan yer» mənası bildirmişdir [29, s. 88]. A.Axundov Əlincə adını monqolların yürüşlərində iştirak edən, əslən türk tayfası olan *əlcihinlərlə* əlaqələndirərək yazır ki, Əlincə toponiminin metateza (səslərin yerdəyişməsi) və eliziya (səs düşümü) fonetik hadisələri nəticəsində əlcihin (elcihin) etnonimindən törəməsi tamamilə mümkündür [1, s. 34-35].

Apardığımız araşdırmalara əsaslanıb belə qənaətə gəlirik ki, tufandan sonra ərazidəki *Gəmiqaya, Alancıq, Nuhdabanı, Nuhəcir, Nuhçiban* kimi yer-yurd adları Nuh peyğəmbər və onun yaxın adamlarının, o cümlədən Əlincə adı da Nuh peyğəmbərin nəticəsi *Alınca xanın* adı ilə bağlı yaranmışdır. Əksər mənbələrdə dağ və qala adının *Alancıq* şəklində işlədilməsi də bu fikrə dəstək olur. Deməli, belə nəticəyə gəlmək olar ki, Alınca xan hakimiyyəti illərində yüksək dağ zirvəsində inşa etdiyi qala onun adı ilə adlandırılmış və zaman keçdikcə Alınca adı Əlincə şəklinə düşmüşdür.

Peyğəmbər ayağı qayası. Culfa rayonunun Kırna kəndi ərazisində qaya adıdır. Q.Qədirzadənin yazdığına görə, bu ad Nuh peyğəmbərin adı ilə bağlı yaranmışdır. Rəvayətə görə Nuh peyğəmbər buradakı qaya üzərində hərəkət etmiş, ayağını qoyduğu yerdə yerimək asanlaşsın deyə qaya yumşalmış, onun ayaq izləri orada qalmışdır. Elə bu səbəbdən də əraziyə *Peyğəmbər ayağı* adı verilmişdir [19].

Üçqardaş təpəsi. Culfa rayonunun Kırna kəndi ərazisində təpə adıdır. Xalq arasında müqəddəs sayılan bu ərazi həm də *Dəlik daş* və *Papaqlı daş* adları ilə tanınır. Q.Qədirzadənin yazdığına görə, bu oronim Nuh peyğəmbərin *Ham, Sam* və *Yafəs* adlı oğlanlarının adı ilə bağlı yaranmışdır [19].

Gəmiqaya ərazisindəki toponimlərin bir qisminin etimologiyası hələ də tam dəqiqləşdirilməyib, bu sahədə xeyli iş görmək lazımdır. Adların bir qisminin mənşəyi isə xalq arasında yaşayan müxtəlif rəvayət və əfsanələrlə bağlıdır. Bu baxımdan ərazidəki *Ağrı dağ («ağır dağdır»), Kəmki dağ («bu dağ o dağlardan kəm ki deyil»), İnan dağ («inan ki, dağdır»), Qaranquş yaylağı, Gülüm-gülüm dağı, Qızgəlin çuxuru* və s. kimi oronimlərin mənşəyinin Nuhun adı ilə bağlı açıqlanması da maraq doğurur.

Qaranquş yaylağı. Gəmiqayadakı qayaüstü rəsmlər, piktoqrafik yazılar, qədim tayfa damğaları və digər abidələr bu yaylaqda yerləşir. Qaranquş yaylağının adı zootoponim səciyyəli ad olub, Nuh tufanının adı ilə bağlı yaranmışdır. Yer üzünü su basacağını əvvəlcədən bilən Nuh peyğəmbər səfərə çıxanda quşların və heyvanların hərəsindən bir cüt götürür. O, bir müddət suyun üzündə qaldıqdan sonra gəmidəki quşları havaya buraxır ki, sahili müəyyənləşdirə bilsin. Ancaq quşların heç biri sahili tapa bilmir, səmada qanad vurub, gəmiyə qayıdırlar. Növbə qaranquşa çatır. Qa-

ranquş gəmidən xeyli uzaqlaşır və sahili tapıb, geriyə qayıdır. O, gəmi üzərində qanad vurub, sahilə tərəf qayıdır, gəmi də qaranquşun arxasınca üzür. Nəhayət, sahil görünür, gəmi qayaya toxunub dayanır. Nuh və onun adamları sahilə çıxır və ətrafın gözəl yaylaq olduğunu görüb, burada məskən salırlar. Elə həmin vaxtdan da həmin yer *Qaranquş yaylağı* adlanır.

Bütün bu faktlar sübut edir ki, Nuh peyğəmbərin düşdüyü məkan, yaşadığı yurd və dəfn olunduğu yer Naxçıvandır. **Naxçıvan – Nuhçıxandır.**

ƏDƏBİYYAT

1. Axundov A. Torpağın köksündə tarixin izləri. Bakı: Gənclik, 1983.
2. Azərbaycan toponimləri: Ensiklopedik lüğət. Bakı: Azərbaycan ensiklopediyası, 1999.
3. Allahyarov K. Naxçıvan sözünün mənşəyi və mənası // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, 2002, № 9, s. 27-30.
4. Babayev S. Əfsanələr diyarı. Bakı: Elm, 2001.
5. Bağırov A. Naxçıvan toponimlərinin linqvistik xüsusiyyətləri. Bakı: Elm, 2002.
6. Bağırov A. Naxçıvanın oykonimləri. Bakı: Nurlan, 2007.
7. Baxşəliyev V. Gəmiqaya təsvirləri. Bakı, 2003.
8. Budaqov B., Qeybullayev Q. Naxçıvan diyarının yer yaddaşı. zakı: Nafta Press, 1998.
9. Cəfərov C. Milli etnik yaddaşın izi ilə. Bakı: Səda, 2005.
10. Энциклопедический словарь. Т. XL, С.-Петербург: Ф.А.Брокгауз, И.А.Ефрон, 1897.
11. Əliyev V. Gəmiqaya. Bakı, 2005.
12. Fərzəli Ə. Gəmiqaya – Qobustan əlifbası. Bakı, 2003.
13. Hacıyev İ., Rzayev F. Bir daha Naxçıvan sözünün etimologiyası haqqında // Tarix və onun problemləri, Bakı, 2007, № 2, s. 303-311.
14. Həbibbəyli İ. Nuhçıxan-Naxçıvan. «Şərq qapısı» qəz., 2009, 15 aprel.
15. Hüseyni Ə. Xalqımızın mənlik heykəli. «Sovet Naxçıvanı» qəz., 1986, 30 yanvar.

16. Hüseynzadə L. Nəxcir əfsanəsi // Naxçıvan Dövlət Universitetinin Elmi xəbərləri, 1999, № 5, s. 139-140.
17. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996.
18. Qədirzadə Q. Nuh peyğəmbər, Dünya tufanı və Naxçıvan. Naxçıvan, 2008.
19. Qədirzadə Q. Naxçıvanda Nuh (ə.s.) və Dünya Tufanı ilə bağlı yeni araşdırmalar. «Şərq qapısı» qəz., 2009, 14 yanvar.
20. Григорьев В. Статистическое описание Нахичеванской провинции. С.-Петербург, 1833.
21. Quliyev Ə. Naxçıvan sözünün mənşəyi haqqında // Naxçıvan, 2000, № 2, s. 27-30.
22. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı, 1977.
23. Məmmədov N. Azərbaycanın yer adları. Bakı, 1993.
24. Məmmədov N. Vətən dərdi. Bakı, 2005.
25. Naxçıvan ensiklopediyası: 2 cilddə. Naxçıvan, 2005.
26. Никитин К.Н. Город Нахичевань и Нахичеванский уезд / Сборник материалов для описания местностей и племен Кавказа. Вып. II, Тифлис, 1882, с. 109-113.
27. Сысоев В.М. Нахичевань на Араксе и древности Нах. ССР (Отчет о поздке летом 1926 г.); Нахичеванский Край – Нах. ССР (Отчет о поздке летом 1927 г.) / Изв. Азкомстариса. Вып. 4, Баку, 1929, с. 87-215.
28. Seyidov A. Gəmiqaya (toponimlər, qədim köç yolları). Bakı, 2003.
29. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı, 1989.
30. Səfərov H. Gəmiqaya və çevrəsindəki yer adları // AMEA-nın Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1, s. 108-112.
31. Zaman Ş. Naxçıvan Fransız mənbələrində. «Azərbaycan müəllimi» qəz., 1999, 13-19 may.
32. Шопен И.Н. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. С.-Петербург, 1852.

NAİL TAN
Mədəniyyət və Turizm Nazirliyi

NUH TUFANININ DÜNYA MƏTBƏX MƏDƏNİYYƏTİNƏ TÖHFƏSİ OLAN BİR ŞİRNİYYAT: AŞURƏ

Aşure, Türk mutfağının en seçkin özel gün, ziyafet yiyeceklerinin, tatlılarının başında gelir. "Aşr", Arapça on demektir. Hicrî Takvim'de Muharrem ayının onuncu günü "âşûrâ" adını almıştır. Kelime, Türkçeye "aşure" olarak yerleşmiştir. Bu gün, Müslüman ve Yahudiler oruç tutarlardı. Ramazan orucu farz olunca, Alevîler dışındaki Müslümanlar âşûrâ orucundan vaz geçmişlerdir.[1]

Âşûrâ gününden başlayarak Muharrem ayı boyunca "aşure/aşır aşı" denilen bir tatlı çorba pişirilip konu komşuya, akrabalara ve yoksullara dağıtılır. Bu sebeple, Türkiye'de Muharrem ayına "aşure ayı" da denir. Kalorisi yüksek; protein, vitamin ve mineral yönünden de besin değeri zengin bir tatlıdır. Alevî-Sünnî bütün Müslümanların kutsal saydığı, bereket-şifa getirdiğine inanılan bir yemektir.

Aşureyi kutsal kılan, onu besin değeri yanında çok zengin bir inanç halkasıyla kuşatan, Muharremin 10. günüyle ilgili mitolojik ve dinî ögeleri şöyle sıralayabiliriz:[2]

a. Hz. Âdem ile Havva anamızın ilk tanıştığı, Hz. Âdem'in tövbesinin kabul edildiği, Allah'ın Âdem ve Havva'yı affettiği, ilk aşurenin pişirildiği gün,

b. Hz. İbrahim'in ateşten kurtulduğu gün, oğlu Hz. İsmail'in doğduğu gün,

c. Hz. İsa ve Musa'nın doğduğu gün, Hz. İsa'nın semaya yükseldiği gün,

ç. Nuh Tufanı'ndan sonra Nuh'un gemisinin Cudi/Ağrı Dağı'na oturduğu veya gemiden insan ve hayvanların karaya ilk ayak bastıkları gün. Gemide kalan son yiyecekler (kırk çeşit olduğu rivayeti var), bir kazana doldurulup "selamet çorbası" pişirilmiştir ki bu çorbaya sonraları aşure denmiştir.[3] Başka bir rivayete göre de, Nuh'un gemisi 21 Mart Nevruz'da karaya oturmuştur.[4] Muharremin onu, Hz. Nuh'tan itibaren bütün Sâmî dinlerde ve Cahiliyye Devri Araplarında Hz. İbrahim'den itibaren oruç tutulan bir gündür.

d. Hz. Musa kavminin, Yahudilerin, Firavun'un zulmünden kurtuldukları, Hz. Musa'nın denizi yararak Firavun ve ordusunu sulara gömdüğü gün,
e. Hz. Süleyman'a mülkün verildiği, Hz. Davud'un tövbesinin kabul edildiği gün,
f. Hz. Yunus'un balığın karnından kurtulduğu gün,
g. Hz. Yusuf'un kardeşlerinin attığı kuyudan çıkarıldığı, Hz. Yakup'un görmeyen gözlerinin açılıp oğlu Yusuf'la buluştuğu gün,
ğ. Hz. Eyyub'un hastalığından kurtulup şifaya kavuştuğu gün,
h. Hz. Muhammed'e geçmiş ve gelecek bütün günahlarının affedildiğine dair Allah tarafından teminat verildiği gün,
ı. Hz. Muhammed'in torunu Hz. Hüseyin'in Kerbela'da şehit edildiği (10 Muharrem 61/1 Ekim 680), bu sebeple matem orucunun tutulduğu gün.

Aşure Tatlısı

Adını, Muharrem ayının onuncu gününden alan bu kutsal tatlı, bir yemek olmanın yanı sıra bereket ve şifa kaynağı olarak da çok sevilmiştir. Ana malzemesinin kaynatılmış buğday olmasına bakarak, P. Mary Işın bu tatlının tarihini İlk Çağ'a kadar indirmiş, bütün dünyada yaygın olduğunu, Yahudi ve Hristiyanlarca da pişirildiğini iddia etmiştir.[5] Biz bu görüşe katılmıyoruz. Evet, kaynatılmış buğdaydan yapılan yemekler bütün dünyada yaygındır. Türkiye'de de birçok yemek kaynatılmış buğdaydan yapılır ama bunlar, adını Muharrem ayının onuncu gününden alan, Nuh Tufanı ile mitolojik bir değer kazanmış, Kerbela Olayı ile kutsallığını artırmış bir tatlı çorba değildir. Dünya üzerinde, aşureye en yakın yiyecek, Çin'in Şanghay bölgesinde yılbaşı yemeği olarak yenen; pirinç, kırmızı fasulye, nişasta, şeker ve çeşitli kuru yemişlerle hazırlanan "ba bao zou" adlı tatlıdır.[6] Ermenilerin Hz. İsa'nın doğumunu kutlamak için 25 Aralık-6 Ocak tarihleri arasında pişirdikleri "anuş" adlı tatlı çorba da Müslümanların aşuresine çok benzer.[7]

Kutsal aşure günü ve aşure tatlısı dolayısıyla Türk mutfak kültüründe zengin bir gelenek halkası oluşmuştur. Alevî-Sünnî bütün Müslümanlar Muharrem'in onuncu gününden başlayarak ay sonuna kadar mutlaka aşure pişirip dağıtmaya özen gösterirler. Günümüzde de bu gelenek bütün canlılığıyla sürdürülmektedir. Büyük yiyecek ma-

ğazalarında, Muharrem ayı başında aşure malzemesi paketleri hazırlanıp pazarlanmaktadır.

Aşurenin içindeki malzeme, pişiren ailenin maddi gücüne göre şekillenir. Yoksul ailelerde malzeme yedi çeşide iner, suyu bollaşır, şekeri azalır. Aşurenin içine en az yedi çeşit malzeme konulması şarttır. Onuncu gün anlamı dolayısıyla on çeşit malzeme koyanlar daha çoktur. Alevî ailelerde 12 İmam'a saygı için on iki çeşit malzeme koyanlar da görülmektedir. Zengin ailelerde ve Osmanlı Sarayı'nda malzemenin 15'e çıktığı da yazılmıştır. Nezihe Araz, Osmanlı sofralarındaki aşurenin kırk çeşit malzemeden oluştuğunu, bunların okunarak, ilahilerle kazana konulduğunu belirtmektedir.[8] Biz bu görüşe katılmıyoruz. Nevruz'da pişirilen mesir macunuyla karıştırıldığını sanıyoruz. Bu açıklamadan sonra aşure malzemesinden söz edebiliriz artık.

Halkın pişirdiği aşure içinde en çok kullanılan malzeme şunlardır: Dövme buğday, fasulye, nohut, şeker, çekirdeksiz üzüm, incir, kayısı, badem, ceviz, fındık. Pişmiş aşurenin üzeri, nar taneleri veya ceviz, fındık, fıstıkla süslenir. İçine gülsuyu, nişasta katanlar da vardır. Şekerin olmadığı dönemlerde bal ve pekmez tatlandırırcı görevini yapıyordu. Bazı illerimizde, kurban etinden bir parça et veya kuyruk yağı saklanıp aşureye katılır. Erzurum, Ardahan gibi bazı doğu illerimizde de tatlı olmayan tuzlu, soğanlı, hatta etli aşure pişirildiği de görülmektedir.[9]

Mutfak uzmanı Sevinç Yücecan'ın tarifini verdiği yurdumuzdaki en yaygın aşure türündeki malzemeler şunlardır: Dövme (aşurelik) buğday, kuru fasulye, nohut, pirinç, şeker, su, kuru kayısı, kuru incir, çekirdeksiz kuru üzüm, ceviz (dövülmemiş), portakal, nar, gülsuyu.[10]

Aşure, Muharrem ayı dışında hem saray hem de halk mutfağında bir ziyafet yemeğiydi.

Topkapı Sarayı mutfağında iki türlü aşure pişirilmekteydi. Süzme ve süzme olmayan aşure. Süzme aşure, buğday iyice pıştikten sonra taneleri süzülüp sadece helmesi kullanılarak hazırlanıyordu. Padişaha, kibarlara mahsus bir aşure çeşidiydi bu.[11] Sütlü aşure çeşidi de eski metinlerde, günlüklerde yer almıştır.[12] 19. yüzyılda "Frenk arpası" ithaliyle birlikte sütlü "Frenk arpası aşuresi" diye bir çeşidi daha çıktı ve yemek kitaplarına girdiği görüldü.[13]

16. yüzyılın ikinci çeyreği ile 17. yüzyılda sarayda pişirilen aşurenin malzemesi şunlardı: Dövme buğday, pirinç, şeker, börülce, bakla, nohut, fındık, badem, ceviz, hurma, kuş üzümü, razakı üzüm, elma ve yumurta.[14]

1870 yılında Sultan Abdülaziz'in annesi Pertevniyal Valide Sultan'ın pişirttirip dağıttığı süzme aşurenin içinde şu on dokuz çeşit malzeme bulunmaktaydı: Buğday, şeker, misk, razakı üzüm, çekirdeksiz üzüm, çam fıstığı, Sakız baklası, Mısır hurması, börülce, yerli kırması çam fıstığı, nohut, kavrulmuş fındık, badem, kuru fasulye, kuş üzümü, nişasta, pirinç unu, gülsuyu, sibiryağı (tereyağ).[15]

Osmanlı Sarayı'nda aşure dağıtımına, yenmesine has "aşurelik" denilen porselen ve madenî (genellikle gümüş) sürahi şeklindeki kaplar, kâseler kullanılıyordu. Halk ise toprak testi ve lengerlerde, yakın dönemde de cam-porselen kâselerde aşure dağıtımını benimsemiştir.

Aşureyle İlgili Gelenekler, İnançlar

•Türkiye'deki Alevî-Bektaşîler Muharrem ayının ilk on gününde matem orucu tutarlar. Su içmez, et yemez, gülmez, tıraş olmaz, yıkanmaz, çamaşır değiştirmez, aynaya bakmaz, hiçbir şey koklamaz, çalgı çalmaz, şarkı/türkü söylemez, dans etmez, tütün içmez, cinsel ilişkiye girmez ve böcekler dahil hiçbir canlıyı öldürmezler. 12 İmam'a saygı için 12 gün oruç tutanlar da vardır. Yine Muharrem orucu sırasında yeni bir giyecek giyilmez, yeni bir işe başlanmaz. Yas dönemi sonunda aşure törenleri başlar. Aşure günü, yani 10 Muharrem'de ise oruç tutmanın yanı sıra ellere kına yakma, gözlere sürme çekme, sadaka verme, kurban kesme, aşure pişirip dağıtma, zincirlerle dövünüp kendine işkence yapma gibi geleneklere geçilir. Kimi Alevî ailelerde, aşure 11. gün pişirilip oruç 12. gün aşureyle açılır.[16]

•Eskiden, Osmanlı döneminde Alevî-Bektaşî tekkelerinde aşurenin pişirilmesine 9 Muharrem gecesi başlanırdı. Hacı-bektaş Dergâhı'ndaki dev kazan bu iş için kullanılırdı. Her aile, maddi gücüne göre, Dergâh'a aşure malzemesinden bir bölümünü getirirdi. Ayrı ayrı küçük kazanlarda pişirilen buğday, fasulye, nohut, bakla, üzüm, incir daha sonra fındık, ceviz, fıstık ilavesiyle büyük kazana konulup kaynatılırdı. Bu kaynatma işlemi sırasında canlar sık sık "Ya Hüseyin!" diye bağırlardı. Aşure pişince, mersiyeler okunur, Dede Efendi gülbenk çekerdi. Dede Efendi, pişen aşureyi kepçeyle üç defa karıştırdıktan sonra aşçıya; "Şehitlerin ruhları için aşı canlara taksim eyle!"

derdi. Sonra sofralar kurulup aşure iştahla yenirdi. Kazandaki artan aşure, ufak testiler içinde canlara dağıtılır, her can bir testi aşure alırdı.[17]

•Osmanlı döneminde konak ve evlerde Muharrem ayında ölülerin ruhu için aşure pişirilip dağıtılıyordu. Aşure kazanının başında Yâsin ve Mülk sûreleri okunmaktaydı. Kazanın üzerine kapatılan tepsi kaldırılır, herkes altındaki buhar suyunu uğurludur diyerek gözlerine sürerdi. Bir tabağa alınan ilk aşure, dışarı gönderilmez, bereket getirsin diye evde alıkonurdu. Testi ve kâselere doldurulan aşure, iki kâse bir tepsiye konularak, bir beyaz örtüyle bağlanıp eşrafa, akrabalara ve konu komşuya gönderilirdi. Getiren adama bahşiş verilir, kaplar mutlaka yıkanıp geri verilirdi.[18]

•Eski İstanbul yaşayışında Muharrem öncesi dilenciler kapı kapı dolaşarak mersiyeler (Kerbela mersiyeleri) okur, aşure pişirmek için buğday, pirinç, fasulye, nohut, şeker, kuru üzüm vs. toplardı. Goygoyculuk denen bu âdet Cumhuriyet döneminde ortadan kalkmıştır.[19]

•Osmanlı döneminde hayırseverler, aşureleri akraba ve komşular yanında fakirlere, medrese öğrencilerine ve konak kapısına gelen herkese dağıtırlardı. Hatta, aşure dağıtımı için Mısır Valisi Çelebi Abdurrahman Paşa bir vakıf bile kurmuştu.[20] Fatih'e ait Eyüp Sultan Vakfiyesine göre, Berat Kandili dolayısıyla ve Ramazan gecelerinde aşure pişirilip halka, yoksullara dağıtılmaktaydı.[21] Osmanlı döneminde aşure satan sokak satıcıları da vardı.

•Aşurenin içine Alevî ve Bektaşîler 10 Muharrem'den dolayı on, 12 İmam saygısı dolayısıyla da on iki çeşit malzeme koymaya özen gösterirler.[22]

•İstanbul Tophane'deki Kâdirî Tekkesi'nde Muharrem ve Sefer'de iki defa aşure pişirilmekteydi: "Muharrem Aşuresi" Kerbela şehitlerini anmak, "Sefer Aşuresi" de Hz. İmamı Zeynelâbidin'in Kerbela'dan sağ kurtulması, böylece peygamber neslinin devamının sağlanmasını kutlama amacıyla hazırlanmaktaydı. Tekke yaşantısında aşure pişirilmesi bir çeşit ibadet sayılmaktaydı. Aşure içine konan her malzeme bir aşamayı temsil ediyordu. Çiğ olarak kazana girenler pişer, olgunlaşır, durulur ve teslimiyet hâline gelirdi. Onun için her zerresi bir Fatiha kabul edilir, yere düşürülmez, ziyan edilmezdi. Bir şifa yemeğiydi. İlaç gibi itibar görmekte, evlerde daha çok hastalara

yedirilmekteydi. Söz konusu tekkede günümüzde de pişirilen aşureye on iki çeşit malzeme konulmaktadır: Su, şeker, yağ, buğday, pirinç ve pirinç unu, az tuz, çekirdeksiz üzüm, fasulye, nohut, nişasta, süt, ararot. Tekke aşuresinin üstüne konan malzemeye "çeyiz" denir. Aşure kaplarının üzeri, on bir çeşitten oluşan şu çeyiz konularak süslenir: 12 İmam, 12 Pîran'ı temsilen 12 parça kaymak, rendelenmiş Hindistan cevizi, nar taneleri, kuş üzümü, kahverengi kuru üzüm, fındık, ceviz, fıstık, Şam fıstığı, badem, kabuklu fıstık. Bu on bir malzeme, on bir İhlâs'ı işaret eder.[23]

•Mevlevîlerde aşure geleneği 15. yüzyılda başlamıştır.[24] Ancak, 10 Muharrem'de değil, Yusuf Sineçâk'ın ölüm gününde pişirilmiştir.

•Osmanlı Sarayı'nda Muharremin onuncu günü mutlaka aşure pişerdi. Bu aşure, saraydaki porselen/madenî testilerle gönderilir, bütün Osmanlı Hânedan mensuplarına dağıtılırdı. Tekkelerden saraya aşure geldiği gibi saraydan da tekkelere giderdi. Paşalar, büyük aileler, tüllere sarılmış değerli testilere doldurdukları aşureyi saraya gönderirlerdi. Boşaltılan testilere, sarayda pişirilen aşure doldurulur ve geri gönderilirdi. Bu bir gelenekti. Ayrıca, Yıldız Hamidiye Camisi'nin avlusunda büyük kazanlarda pişirilen aşure de yoksullara dağıtılırdı.[25]

•1910 yılı civarında yazılmış bir anı kitabına göre; Muharrem ayının onuncu gününde başlamak üzere ay sonuna kadar, İstanbul'un bütün evlerinde iki kâse de olsa aşure pişirmek uğur ve bereket sayılırdı. Ev sahibi, aşureye ilk kaşığı daldırdığında, kaşığına bakla isabet ederse, bu baklayı, "Bereket getirir." diye yemez, siler ve para kesesine koyardı. Bir yıl kesede saklanan bakla, yeni aşure pişirildiğinde toprağa gömülürdü.[26]

•Aşurenin bolluk, bereket getirdiği inancı Müslümanlar arasında yaygındır. Sivas'ta Muharrem ayına "Aşure Ayı" da denir. Pişirilen aşureden bir miktarını oturulan evin etrafına serperler. Evlenecek kızı olanların mutlaka aşure pişirmesini önerirler. Aşure pişirmeyenler ise, Muharremin onunda mutlaka "kesme çorbası" pişirip bir miktarını evin etrafına dökerler. Aksi hâlde, evin tıstan böceği (karafatma) ile dolacağına inanılır.[27]

•Türkiye'nin genelinde Alevî-Sünnî ayrımı yapılmaksızın her aile Muharrem ayının 10-11'inde mutlaka aşure pişirmeye gayret eder. Pişirilen aşurenin en az yedi aileye dağıtılmasına özen gösterilir. Kurban kesenlerin mutlaka aşure pişirmesi gerektiğine inanılır. Bazı

yörelerde (Zonguldak-Devrek gibi) kurban etinden bir parça saklanıp aşureye katılır.[28]

•Uşak'ta Muharrem ayında "üç tencere daveti" yapılmakta, davetlilere üç tencerede pişirilen çorba, et, pilav ikram edildikten sonra üzerine aşure yenilmektedir.[29]

•Denizli'de aşureyle birlikte keşkek yemeği de pişirilip ikisi birden komşulara dağıtılır.[30]

•Bolu, Trabzon, Konya illerinde Hıdrellez'de yenen geleneksel yemeklerden biri de aşuredir.[31]

•Trakya'da gerdeğin ertesi gün oğlan evinde verilen "güvey yemeği"nde mutlaka aşure bulunur.[32]

Edebiyata Yansımaları

Aşureyle ilgili yemek destanlarında pek çok dörtlük vardır. Birkaç örnek:[33]

On kazan aşure olursa ya Hû
O nazlı aş için çekerim arzu
Kavun karpuz şöyle dursun bâdehu
Boyu on beş karış, bin hıyar isterem
Âşık Siyahî

Aşure kutsaldır, çeşit bohçası
Makarna pırasa onun salçası
Meşhur bizim elin kelle paçası
İçtikçe mideyi yakması hoştur
Âşık Halil Karabulut

Lor peynir, ağız nerenin
Balda aranan çarenin
Muharremde aşurenin
Tadı damağımda kaldı
Âşık Kamber Nar

Kabak yemeğiyse Peygamber aşı
Aşure çorbası bunun kardaşı
Kuzu kızartması hepsinin başı
Sanma vazifesi bir soframızın
Âşık Feymanî

Aşure de gelsin bal ile yağdan
Şeker ile kaymak sol ile sağdan
Kuzu dolması da çıksın aradan
Biri de fırında büryan olsun

Âşık Yağcı Dede

Meyveli aşure aşı
Gelse de görün cünbüşü
Al gönül, yemeyle başı
Ya Hacı Bektaş-ı Velî

Korkusuz Abdal

18. yüzyıl halk şairlerinden Zileli Seyyid Derviş'in *Aşure İlahisi* şöyledir:[34]

Edelim niyazı mümin kardaşlar
Ol mübarek aşure günleri
Bizimle bile olan haldaşlar
Ol mübarek aşure günleri

Alimlerin meclisine varalım
Günahlarımıza tövbe kılalım
Sâlihlerin hâllerini soralım
Ol mübarek aşure günleri

Kişi hâlin sormak güzelden güzel
Bir hayıra Mevla'm çok sevap yazar
Sadaka verenler cennete girer
Ol mübarek aşure günleri

Fakirlere taam yedirelim
Hakk katında çok çok sevap bulalım
Yetimlerin hatırların alalım
Ol mübarek aşure günleri
Seyyid Derviş eydür, bir nesnem yoktur
Hakk'ın kullarına ihsanı çoktur
Günah defterinde günahım çoktur
Ol mübarek aşure günleri

Deyim sözlüklerine girmese bile dilimizde "aşureye çevirmek/döndürmek" gibi bir deyim de vardır. İçindeki malzeme çeşitliliği sebebiyle bir işi aşureye çevirmek / döndürmek / benzetmek deyimi ortaya çıkmıştır. İşi karıştırmak, içinden çıkılmaz bir hâle getirmek anlamında kullanılır. Ayrıca; atasözü ve deyim sözlüklerine girmiş şu söz varlıklarımız da vardır:

Atasözleri: Aşure yemeye giden kaşığını belinde/yanında taşır. Aşure baklasını kesede bereket taşır.

Deyimler: Aşure budalası. Aşure gibi karmakarışık. Süzme aşure duruşlu.

Yazımızı bir Nasreddin Hoca fıkrasıyla bitirmek istiyoruz:[35]

Nasreddin Hoca aşureyi çok seviyormuş. Bir Ramazan akşamı iftar davetinde tıka basa aşure yiyip sonunda rahatsızlanmış. Büyük bir korkuya düşen çevresindekiler onu sedire yatırıp dönemin hekimini eve çağırmışlar. Hekim, Hoca'yı iyice muayene etmiş, reçeteye bir hap yazarak bir bardak suyla içmesini tavsiye etmiş.

Bunu işiten Hoca, yatağından doğrulup:

-Hekim oğlum, midemde bir bardak su alacak yer olsa, gene aşure yerim, demiş.

KAYNAKÇA

1. Yavuz, Yusuf Şevki; *TDV İslam Ansiklopedisi*, Âşûrâ maddesi, C. 4, s. 24-26.
2. Yavuz; agk., s. 24-25.
   Araz, Nezihe; "Osmanlı Mutfağı", *Hünkârbeğendi*, Ankara 2000, s. 17-18, Kültür Bakanlığı yayını.
   Hançerlioğlu, Orhan; *İslam İnançları Sözlüğü*, İstanbul 2000, s. 21-22. Remzi Kitabevi yayını. Yücecan, Sevinç; "Aşure", *V. Milletlerarası yemek Kongresi*, Ankara 1999, s. 321. AKM yayını.
   Yalçın, Soner; "Türk Aşuresinden Ermeni Anuşuna", *Hürriyet*, 21.12.2008, s. 30.
3. Baysal, Ayşe vd; *Türk Mutfağından Örnekler*, Ankara 1993, s. 327.
   Yücecan, agm., s. 321.
4. Çay, Abdulhalûk M.; *Türk Ergenekon Bayramı Nevruz*, Ankara 1999, s. 21-22.

5. Işın, Priscilla Mary; *Gülbeşeker-Türk Tatlıları Tarihi*, İstanbul 2008, s. 258-262. YKY.
6. Işın; age., s. 260.
7. Soner; agk., s. 30.
8. Araz; agm., s. 17.
9. Işın; age., s. 271.
10. Yücecan; agm., s. 323.
11. Abdülaziz Bey; *Osmanlı Âdet, Merasim ve Tabirleri*, (bs. hzl. Kâzım Arı-san-Duygu Arısan Günay), İstanbul 1995, s. 246.
12. Gökyay, Orhan Şaik; "Sohbetname", *Tarih ve Toplum*, C. 3, S. 14, 2/1985, s. 56-64.
13. Ayşe Fahriye; *Ev Kadını*, İstanbul 1882, s. 229.
14. Bilgin, Ârif; "Osmanlı Sarayında Beslenme Alışkanlıkları (15-17. Yüz-yıl)", *Yemek Kitabı*, (hzl. M. Sabri Koz), İstanbul 2002, s. 59, Kitabevi yayını.
15. Orgun, Zarif; "Osmanlı Sarayında Yemek Yeme Âdâbı", *Türk Mutfağı Sempozyumu Bildirileri*, Ankara 1982, s. 149, MİFAD yayını.
16. And, Metin; "İslam Folklorunda Muharrem ve Tâziye", *Türk Folkloru Araştırmaları Yıllığı 1976*, Ankara 1977, s. 1-4, MİFAD yayını.
17. Samancıgil, Kemâl; *Bektaşîlik Tarihi*, İstanbul 1945, s. 89-90.
18. Abdülaziz Bey; age., s. 246.
19. Pakalın, M. Zeki; *Osmanlı Tarih Deyim ve Terimleri Sözlüğü*, İstanbul 1946, s. 101.
20. Işın; age., s. 266.
21. Ünver, A. Süheyl; *Fatih Devri Yemekleri*, İstanbul 1952, s. 3.
22. İşli, H. Necdet; "Kâdîrîhanede Aşûre", *Yemek Kitabı*, s. 719-732. Işın; age., s. 270.
23. İşli; agm., s. 727.
24. Algar, Ayla Esen; "Bektaşîlikte Yemeğin Yeri", *II. Milletlerarası Yemek Kongresi*, Ankara 1989, s. 22-23.
25. Osmanoğlu, Ayşe; *Babam Sultan Abdulhamid*, İstanbul 1984, s. 105-106.
26. Abdülaziz Bey; age., s. 246.
27. Üçer, Müjgân; "Sivas'ta Özel Gün Yemek ve Yiyecekleri", *Türk Mutfak Kültürü Üzerine Araştırmalar, 1993*, s. 76-77.

28. Nahya, Zümrüt; "Özel Gün Yemekleri", *Türk Mutfağı Sempozyumu Bildirileri*, Ankara 1981, s. 189-191.
29. Nahya; agm., s. 191.
30. Halıcı, Nevin; *Ege Bölgesi* Yemekleri, Ankara 1981, s. 182, Konya Kültür ve Turizm Vakfı yayını Nahya; agm., s. 191.
31. Toygar, Kâmil; "Türkiye'de Hıdrellez Çerçevesinde Oluşan Mutfak Kül-türü", *III. Milletlerarası Yemek Kongresi*, Ankara 1991, s. 67-75
32. Nahya; agm., s. 191.
33. Çınar, Ali Abbas; *Halil İbrahim Sofrası*, İstanbul 2005, s. 37-145.
34. Öztelli, Cahit; *Zileli Şairler,* Samsun 1944, s. 49.
35. Aydın, Mehmet; *Bayat ve Afyonkarahisar Çevresi Söylenceleri*, Ankara 2005, s. 69, Ürün Yayınları.

HACIFƏXRƏDDİN SƏFƏRLİ
AMEA Naxçıvan Bölməsi

NAXÇIVAN ŞƏHƏRİNDƏKİ NUH TÜRBƏSİNİN İNŞA TARİXİNƏ DAİR

Orta əsr qaynaqları, bir sıra səyyahların yol qeydləri təsdiq edir ki, Yaxın Şərqin qədim elm, təhsil və mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan diyarı qədim və orta əsrlər zamanı yaradılmış maddi-mədəniyyət nümunələri ilə çox zəngin olmuşdur. Ərazidə indiyədək salamat vəziyyətdə gəlib çatan, həmçinin bəzi abidələrin dağılmış vəziyyətdə qalan qalıqlarının və orta əsr qaynaqlarının da təsdiq etdiyi kimi bu nümunələr içərisində memarlıq abidələri xüsusi yer tutmuşdur. Bir qismi zaman keçdikcə təbii və s. qüvvələrin təsirindən məhv olaraq sıradan çıxmış bu abidələrin bir hissəsi də sovet hakimiyyəti illərində ateizm ideologiyasına uyğun olaraq planlı şəkildə tədricən dağıdılmışdır. Belə nümunələrdən biri də Naxçıvan şəhərində əhali arasında Nuh peyğəmbərin qəbri və məzarüstü türbəsi kimi tanınan abidədir.

Naxçıvan şəhərinin cənubunda yerləşən və hansı dövrə aid olması dəqiq bilinməyən, ancaq yerli əhalinin – müsəlman türklərin böyük hörmət və ehtiram bəslədiyi və ziyarət etdiyi, yeraltı və yerüstü hissədən ibarət olan türbənin sərdab hissəsində yerləşən bu məzar Naxçıvanda Sovet hakimiyyəti qurulanadək bölgənin məşhur ziyarətgahlarından biri idi. Ancaq Sovet hakimiyyəti illərində Azərbaycanın digər məşhur inam yerləri kimi, bu müqəddəs yer – qəbir də xalqa zorla unutdurulmuş, üzərindəki türbə özülünədək dağıdılmışdır. Bu səbəbdən də tək-tək yaşlı adamlar istisna olmaqla, əhalinin əksəriyyətinin bu abidə haqqında məlumatı yox idi və onun yerini heç kim bilmirdi.

Ona görə də maddi-mədəniyyət nümunələrimizə, milli-mənəvi dəyərlərimizə ehtiramla yanaşan və bu sahədə qayğısını əsirgəməyən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə 2005-ci ildə türbənin yeri tapılıb müəyyənləşdirilmişdir. Bundan sonra AMEA Naxçıvan Bölməsinin əməkdaşları bu ərazidə arxeoloji tədqiqat işləri aparmış, türbənin ətrafı təmizlənmiş, bünövrəsi tamamilə aşkara çıxarılmışdır. Xöşbəxtlikdən, türbə dağıdılarkən onun özülünü – səkküzgüşəli bünövrəsinin təxminən

20 sm hündürlükdə salamat bir hissəsi qalmışdır. Türbənin bünövrəsi aşkar olunduqdan və arxeoloji tədqiqat işləri başa çatdırıldıqdan sonra Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbov 28 iyun 2006-cı il tarixdə «Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında» sərəncam imzalamışdır. Sərəncamdan irəli gələn tələblərə uyğun olaraq Naxçıvan MR Nazirlər Kabineti yanında Elmi Bərpa İdarəsi burada bərpa və abadlıq işlərinə başlamışdır. Artıq orada bərpa işləri başa çatdırılmışdır.

Vaxtilə abidənin üzərində onun təyinatı, sifarişçisi, inşa tarixi, memarı və s. haqqında dəyərli məlumat verə biləcək kitabələr olmuşdur. Ancaq zaman keçdikcə təbii qüvvələrin (isti, soyuq, yağış, qar, külək) təsirindən, yaxud da sovet hakimiyyəti illərində məhvedilməsi səbəbindən, bu kitabələrin heç biri indiyədək qalmadığından onun inşa tarixi haqqında dəqiq və əsaslı fikir söyləmək mümkün deyildir.

1934-cü ildə iki aydan artıq Naxçıvanda ezamiyyətdə olan rus şərqşünası K.N.Smirnov arxiv materiallarına əsaslanaraq Nuhun qəbrinin 4900 il yaşı olduğunu qeyd etsə də, qəbrin üstündəki türbə haqqında heç bir məlumat verməmişdir [7, s. 99].

Bir sıra maddi-mədəniyyət abidələrimizlə bərabər bədnam qonşularımızın erməni mədəniyyəti nümunəsi kimi qələmə verməyə çalışdıqları (onlar bu abidəni özlərinə məxsus kilsə adlandırırlar) türbə ətrafında arxeoloji tədqiqatlar, bərpa və abadlıq işləri zamanı torpağın altından bir sıra maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Bu nümunələrə, o cümlədən aşkar olunan azsaylı epiqrafik materiallara əsasən dövrü haqqında tədqiqatçılar arasında müxtəlif fikirlər olan abidənin inşa tarixi barədə müəyyən fikirlər söyləmək mümkündür.

Arxeoloji tədqiqatlar zamanı abidə ətrafında aşkar edilən türbəyə aid ornament qalıqları Naxçıvan memarlıq məktəbinə məxsus abidələr, xüsusilə bu məktəbin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvani yadigarları olan Yusif Küseyir oğlu (1162-ci il) və Mömünə xatın (1186-cı il) türbələrinin ornamentləri ilə çox oxşardırlar. Tapıntılar göstərir ki, Nuh türbəsinin yanlarının üzlənməsində, Naxçıvanın XII əsr abidələrində olduğu kimi, üzləmə bloklarından istifadə olunmuşdur. Bu bloklar gəc məhlulu və bişmiş kərpiclə hazırlanmışdır.

XIII əsrdə fars dilində yazılmış «Əcaib əd-Dünya» əsərinin naməlum müəllifi Naxçıvan şəhərindəki binaların tikinti materialından danışarkən yazır ki, «bütün binalar kər-picdən və gəcdən tikilmişdir». Seysmik zona olan Naxçıvanda orta əsrlərdə memarlıq abidələrinin inşasında özünün plastikliyi, sukeçirməsi, suyadavamlılığı, möhkəmliyi ilə seçilən gəcdən geniş istifadə olunurdu. Sənətkarlar gəcə bir sıra əlavə maddələr, xüsusilə əhəng qataraq onun keyfiyyətini daha da yüksəldirdilər. Bu tikinti texnologiyasına biz Nuh türbəsinin inşasında da rast gəlirik. Qazıntılar zamanı aşkar olunan tikinti materialları təsdiq edir ki, türbə kvadrat formalı bişmiş kərpiclərlə və gəc məhlulu ilə inşa olunmuşdur. Bu kərpic tipi və tikinti texnikası Azərbaycanın X-XII əsr memarlıq abidələri üçün xarakterikdir. Burada nisbətən salamat qalan üzləmə blokları da qeyd olunan qayda üzrə bişmiş kərpic və gəc məhlulu ilə hazırlanmışdır. Ona görə də bərpa edilən türbənin yanlarının üzlənməsində abidənin ətrafından aşkar edilən həmin bloklar əhəmiyyətli qaynaq rolunu oynamış, türbənin bərpasında orijinallığı qorumağa çalışan bərpaçılar yeni üzləmə bloklarının və onlar üzərindəki ornamentlərin hazırlanmasında tapılan maddi mədəniyyət nümunələrini əsas götürmüşlər.

Bu ornamentlərin bir hissəsi üzərinə göy rəngli kaşı çəkilmiş kərpiclərlə hazırlanmışdır. Tərkibinə qatılan metal oksidindən asılı olaraq göy, qara, qırmızı, firuzəyi və s. rənglərdə hazırlanan kaşılardan orta əsrlərdə binaların inşasında bəzək-inşaat materialı kimi istifadə olunmuşdur. Türbədə bizədək ancaq göy rəngli kaşı nümunəsi gəlib çatdığına görə deyə bilərik ki, orada əsasən bu kaşıdan daha çox istifadə olunmuşdur. AMEA-nın müxbir üzvü Cəfər Qiyasinin fikrincə, bu cür kərpiclər Səlcuq imperiyasının başlıca memarlıq mərkəzlərində demək olar ki, eyni vaxtda – XII yüziliyin I yarısında meydana gəlmişdir. Başlanğıcda belə kərpiclər çox az, tikilinin ən vacib yerlərində naxış, ya da kitabə qurşağı şəklində işlədilirdi [4, s. 188].

Nuh türbəsindən üzləmə blokları vasitəsi ilə bizədək çatan ornamentləri Yusif Küseyir oğlu, Xaraba Gilan və Mömінə xatın türbələrinin ornamentləri ilə müqayisə edərkən aydın olur ki, bu ornamentlər, sadədən mürəkkəbə doğru inkişaf yolu keçmişdir. Belə ki, Nuh türbəsinin ornamentləri Yusif Küseyir oğlu türbəsində olduğu kimi nisbətən sadə, bəzi hallarda müəyyən qədər

inkişaf etmiş, Mömınə xatın türbəsinin ornamentləri isə daha mürəkkəb və çox mükəmməldir. Məhz bunu nəzərə alaraq memarlıq namizədi Q.Əliyev qeyd edir ki, Yusif Küseyir oğlu türbəsinin memarlıq quruluşunun inkişaf edərək Mömınə xatın türbəsinin mürəkkəb quruluşuna keçməsi və burada ən yüksək səviyyəyə çatması qanununa uyğun olaraq ornamentlərin quruluşları da müvafiq surətdə inkişaf edir və Mömınə xatın türbəsində ən yüksək zirvəyə çatır [2, s. 63].

Bu ornamentləri təhlil edərkən görünür ki, naxışlar hazırlanarkən kərpic dekorun ən mürəkkəb, ən zəngin örnəkləri olan «girih» (düyün) adlanan xüsusi həndəsi ornamentlərdən də istifadə olunmuşdur. Tədqiqatçıların fikrincə, girih naxışlarını əmələ gətirən elementlər həndəsi formalardan (çoxbucaqlılar, yaxud ulduzlardan, ya da onların hissələrindən) ibarətdir. Ciddi riyazi qanuna tabe olan bu naxışlar bütünlüklə xətlərin bir-biri ilə bağlı ahəngdar birləşməsindən yaranır. Girih quruluşları XI-XIII yüzilliklərin Azərbaycan memarlıq bəzəyində aparıcı yer tutmuşdur [2, s. 5]. Türkmənşəli bu ornamentlərin Nuh peyğəmbərin qəbri üzərindəki türbənin bəzədilməsində geniş tətbiqi bədnam qonşularımız tərəfindən uydurulan, abidənin ermənilərə aid kilsə olması fikrini təkzib və alt-üst edir.

1834-cü ildə Azərbaycanda olan, Naxçıvan şəhərini «Nuh şəhəri» kimi xarakterizə edən fransız səyyahı Frederik Dübua de Monperenin «səkkizbucaqlı, diametri on-on iki ayaq olan» Nuh türbəsinin «işlənmə üslubu və materialı Naxçıvanın başqa abidələrinin üzərində aparılmış eyni iş üslubundadır». Bu onu göstərir ki, türbə yerli hakimlərin hakimiyyəti illərində yenidən təmir və bərpa edilmişdir» sözləri [6] bu fikri daha da möhkəmləndirir. Səyyahın verdiyi bu məlumatdan da aydın olur ki, Nuh türbəsi memarlıq-konstruktiv xüsusiyyətlərinə görə Azərbaycan memarlığının Naxçıvan məktəbinə, geniş mənada desək, Səlcuq memarlığının qüllələvari türbələr qrupuna məxsus abidə olmuşdur və onun erməni memarlığı ilə heç bir əlaqəsi yoxdur.

Qeyd olunduğu kimi, arxeoloji qazıntılar zamanı türbənin ətrafından bir neçə ədəd epiqrafik materialın qalıqları – kitabə fraqmentləri – tapılmışdır. Tapıntılar içərisində nisbətən salamat və yaxşı vəziyyətdə qalmış, üzərinə basma üsulu ilə «Allah» kəlməsi həkk edilmiş əhəng materialı da aşkar olunmuşdur [1]. Yusif

Kuseyir oğlu türbəsində belə bir fraqmentə rast gəlinməsə də, Mömınə xatın türbəsinin ornament bəzəyinə əsasən demək olar ki, bu epiqrafik motiv ümumislam mədəniyyəti tərkibində özünə məxsus yer tutan Naxçıvan memarlıq abidələri üçün xarakterik haldır. Mömınə xatın türbəsinin üzərində bu üsulla çoxlu sayda kitabə – «Allah» kəlməsi həkk edilmiş və abidənin həndəsi bəzəyi ilə üzvi surətdə əlaqələndirilmiş, onun tərkib hissəsinə, əsas ünsürünə çevrilmişdir.

Türbənin ətrafında aşkar olunan digər kitabə qalıqlarının əksəriyyəti gəc məhlulu və bişmiş kərpiclə kufi xətti ilə hazırlanmış kitabə fraqmentlərindən ibarətdir. Əldə edilən bu materiallar təsdiq edir ki, Nuh türbəsinin kitabələri də Naxçıvan memarlıq məktəbinə məxsus XII əsr abidələrində olduğu kimi, bişmiş kərpic və gəc məhlulu ilə yerinə yetirilmişdir. Bu kitabə fraqmentləri çox kiçik, əsasən bir və ya iki hərfdən ibarət olduqları üçün onların oxunması mümkün deyildir. Yalnız bir ədəd kitabə qalığında gəlib çatan hərflərə əsasən orada «bənna» (?) sözünün yazılması müəyyən edilmişdir.

Vaxtilə türbənin üstündə olan bu kitabə fraqmentləri şübhəsiz ki, bütöv halda ilk növbədə abidənin təyinatı, sifarişçisi, inşa tarixi, memarı və s. haqqında müfəssəl məlumat vermək məqsədi ilə yazılmaqla bərabər, həm də ornamental bəzək funksiyasını yerinə yetirmişdir. Belə ki, abidənin memarı ərəb əlifbasının kufi xəttinin imkanlarından məharətlə istifadə edərək onları həndəsi ornamentlərlə bacarıqla uyğunlaşdırmış, hərflər arası boşluqları ornamentlərlə, ornamentlər arası boşluqları isə hərflərlə doldduraraq gözəl bəzək ünsürləri yaratmışdır. Ona görə də Azərbaycan memarlığının ilk inkişaf dövründə kufi xəttindən istifadə edilməsi binaların dekorunda üstün yer tutan həndəsi ornamentin inkişafı ilə sıx əlaqədar olmuşdur [5, s. 108]. Çünki bu xətt növü memarlıqda tətbiq olunarkən düz cizgilərdən geniş istifadə olunur, hərflər həndəsi düzgünlüklə yazılırdı və həndəsi ornamentlərlə uyğunlaşdırılırdı.

Türbəyə aid kitabə fraqmentləri ilə Yusif Küseyir oğlu və Mömınə xatın türbəsinin kitabələrinin ətraflı müqayisəsinə əsasən deyə bilərik ki, Əcəmi barmaqlarının məhsulu olan abidələr, xüsusilə Mömınə xatın türbəsinin üzərindəki kitabələr daha mükəmməldir və kufi xəttinin inkişaf etmiş mərhələsinə aiddirlər.

Ancaq Nuh türbəsindən əldə olunan kitabə fraqmentləri onlara nisbətən sadədir və kufi xəttin epiqrafikada tətbiqinin bir az əvvəlki dövrlərinə aiddir. Digər abidələrlə paleoqrafik xüsusiyyətlərinə əsasən müqayisə edərək bu kitabələri təxminən XII yüzilliyin ortalarına aid etmək olar.

Bütün bunlara, o cümlədən abidənin inşasında istifadə olunan inşaat materiallarına, yan üzlərinin bəzədilməsində tətbiq edilən ornament-naxışlara, burada işlədilən kaşı nümunələrinə və tapılan kitabə fraqmentlərinin təhlilinə əsasən belə bir qənaətə gəlmək mümkündür ki, türbə Naxçıvan memarlıq məktəbinə məxsusdur və bu məktəbin çiçəklənmə prosesi keçirdiyi, Azərbaycanın aparıcı memarlıq məktəbinə çevrildiyi XII yüzilliyin ortalarında inşa edilmişdir.

Sonda bir məqama diqqəti cəlb etmək istərdik. Yaxşı məlumdur ki, Nuh peyğəmbərin gəmisinin harada quruya oturduğunu aydınlaşdırmaq məqsədi ilə bir sıra alimlər dünyanın müxtəlif yerlərində olan yüksəkliklərdə gəminin qalıqlarını axtarırlar. Aradan uzun müddət keçməsinə baxmayaraq, bu cəhdlər indiyədək heç bir nəticə vermədiyi kimi, fikrimizcə, bundan sonra da bu sahədə əsaslı uğur əldə olunmayacaqdır. Ancaq bölgəmizdə Nuh peyğəmbərlə bağlı folklor nümunələrinin, toponimik vahidlərin (yaxın və uzaq ölkələrin heç birində Naxçıvanda olduğu qədər Nuh peyğəmbərlə əlaqədar əfsanə, rəvayət, toponimik nümunə yoxdur) və s. geniş yayılması tufanın cərəyan etdiyi mərkəzi ərazilərdən birinin və Nuh peyğəmbərin gəmisinin quruya çıxdığı yerin məhz Naxçıvan ərazisi olduğu fikri üzərində təkid etməyə əsas verir. Bir sıra əcnəbi alimlər də bu fikri təsdiq edirlər. Bu cəhətdən bir müddət Naxçıvanda Beynəlxalq ADRA Təşkilatının nümayəndəsi kimi fəaliyyət göstərmiş ABŞ-nin Norvest Universitetinin professoru Marti Martincito Fillips və xanımı Qabrielonun ölkələrinə qayıtdıqdan sonra Naxçıvanın tarixi, mədəniyyəti və ziyarətgahları haqqında nəşr etdirdikləri maraqlı məqalə diqqəti xüsusi ilə cəlb edir. Məqalədə onlar Nuh peyğəmbər və Naxçıvan məsələsindən bəhs edərək yazırlar: «Nuh fəlsəfəsinə, Nuh baxışına görə dünyada yer və göyün qovuşduğu yalnız bir yer var və bu yer məhz Naxçıvandır. Əgər belə olmasaydı, Nuh peyğəmbər dünya mədəniyyətinə və dünyanın tarix yaddaşına Nuh möhürünü Naxçıvanda yox, digər bir bölgədə vurmuş olardı.

Bu keçən dövr ərzində Nuhun Naxçıvanla bağlı bir çox təkzibolunmaz faktları elm aləminə məlum olsa da, onun tarixi və mədəniyyət xəzinəsinin ən dərin qatları tam öyrənilməmişdir. Bu gün Naxçıvan tarixini, mədəniyyətini, arxeologiyasını öyrənməklə Nuh irsinin zənginliklərini aşkarlamaq olar. Baxmayaraq ki, dünyanın bir sıra yerlərində Nuh izinə düşənlər və ya bu təşəbbüsdə olanlar var, lakin ən inandırıcı, elmi baxımdan ən obyektiv tədqiqat nəticələri Naxçıvanla bağlıdır. Belə ki, istənilən naxçıvanlı, istənilən ucqar kəndin sadə bir adamı Nuhla bağlı bir çox əhvalatlar deyər və saysız-hesabsız yer adlarının Nuhun şərəfinə aid olduğunu əsaslandıra bilər. Əgər belə bir sorğu digər Nuh axtaranlar ölkəsində aparılsa, şübhəsiz ki, heç bir xalq versiyası üzə çıxmayacaq» [3].

Fikrimizcə, bitərəf əcnəbi alimlərinin çox sərrast şəkildə ifadə olunmuş bu fikirləri Nuh peyğəmbər və Dünya tufanının hansı ərazi ilə daha çox əlaqəli olduğunu sübut etmək cəhətdən çox sanballı qaynaqlardan biridir.

ƏDƏBİYYAT

1. Baxşəliyev V. Naxçıvanda Nuhla bağlı əfsanələr. «Şərq qapısı» qəz., 2005, 08 dekabr.
2. Əliyev Q. Memar Əcəmi Naxçıvani yaradıcılığında ahəngdarlıq. Bakı: Şərq-Qərb, 2007, 160 s.
3. Qabrielo və Martincito Filips. Allah yurdu Naxçıvan. «Şərq qapısı» qəz., 2008, 28 may.
4. Qiyasi C. Nizami dövrü memarlıq abidələri. Bakı: İşıq, 1991, 264 s.
5. Məmmədzadə K. Azərbaycanda inşaat sənəti. Bakı: Elm, 1978, 210 s.
6. Zaman Ş. Naxçıvan fransız mənbələrində. «Azərbaycan müəllimi» qəz., 1999, 13-19 may, s. 5.
7. Смирнов К.Н. Материалы по истории и этнографии Нахичеванского края. Баку: Озан, 1999, 159 с.

TURGUT ÖCAL
Iğdır Üniversiteti

NUH TUFANI
NAXÇIVAN (GƏMİQAYA) VƏ AĞRI DAĞI

Nahçivan, önemli siyasetçileri, fikir adamları, sanatkarları, akademisyenleriyle, üniversitesi, tıp fakültesi, müzik akademisi, tiyatrosu, müzeleriyle iftihar edilir bir türk yurdudur. Nahçivan Özerk Cumhuriyeti Türkiye ile sınır teşkil eden Aras Nehri üzerinde kurulmuş "Ümit Köprüsü" vasıtası ile yalnız coğrafyalarımız bağlanmamış, aynı zamanda gönüllerimiz de bağlanmıştır. Ümit Köprüsü bağı ilelebettir. Zaten var olan irtibatın şekillendirmesidir. Azerbaycan Türkiyesiz, Türkiye Azerbaycansız, hele Nahçivansız hiç olamaz.

Nahçivan'ın Türkiye için çok büyük önemi vardır.

Kazım Karabekir Paşa'nın dili ile desek: "Nahçivan Şark Kapısıdır"

Atatürk'ün diliyle desek: "Nahçivan Türk Kapısıdır"

Azerbaycan'ın unutulmaz lideri Haydar Aliyev'in diliyle desek: "Nahçivan, Azerbaycan'ın çok güzel bir köşesidir. Nahçivan Azerbaycan halkının çok eski olan tarihini yansıtan mukaddes bir topraktır".

"Bura menim ana toprağımdır, men burada doğmuşam" – demiştir.

İşte Nahçivan bunun için çok önemlidir.

Nahçivan, tarihin her döneminde Azerbaycan'ın arkası olmuştur. Nahçivanlılar'da milli gurur, milli şuur hissi çok yüksektir.

Nahçivan adında Nuh adının açık görünmesi çok dikkat çekicidir. Aslında Hz. Nuh Peygamber ve Nuh Tufanı bütün semavî dinlerin üzerinde durduğu çok kadim bir olaydır. Ama dünyanın su ile kaplanması yalnız Nuh tufanıyla başlamamıştır. En eski efsanelerde bile buna rastlamaktayız. İslamiyet'ten önce, Hıristiyanlıktan önce de rastlanılan bir olaydır. Elimizdeki bütün semavî kitaplarda – Tevrat'ta, İncil'de, Kuran'da birbirini doğrulayan ve birbirine benzeyen bu hadise insanlığın ikinci atası, Hz. Nuh, gemisi, gemiye alınanlar, Tufan ve sonrası insanları hep heyecanlandırmıştır. Bütün insanlık bu peygamberle, bu coğrafyayla ve bu gemiyle ilgilenip hep kendileriyle alakalandırmağa başlamışlardır. Avrupa'da, Hollanda'da da su kanallarında

Vikinglerin gemi müzesinin yanında Nuh'un Gemi Müzesini de görebilirsiniz. Aynı müzeye CUDİ ve AĞRI Dağında da rastlarsınız. Benzeri olayı Gemigaya coğrafyasında, yani Nahçivan'da da görmek mümkündür.

Nuh Tufanı ve Nuh'un gemisiyle ilgili, Nahçivan Üniversitesi Rektörü Sn. Prof. Dr. İsa Habibbeyli'nin "Dünya Tufanı ve Nuh'un Gemisi Hakkında Yeni Elmi Versiye" adlı makalesinden istifadeyle, ünlü Türkolog Murad Acı'nın "Nuh'un Gemisi Harayacan Üzübmüş?" adlı makaleyle yeni iddialar gündeme gelmektedir. Makalenin müellifi mutlaka iddialarını ispatlayacaktır. Böylece Hz. Nuh'la Nahçivan ve Nuh'un gemisi arasındaki ilgiler daha da kesinleşecektir.

Şimdilik, Nahçivan kelimesindeki dil değişimleirni göz önünde tutacak olursak Nuh'la açık bir ilgi kurabiliriz. Nuh peygamberin adı Ağrı Dağı ile bağlıdır. Güya geminin kalıntıları Ağrı Dağı'ndadır. Efsaneye göre orada olmalıdır. Bu konuya da Ermeniler el atarak, aynı makalenin ikinci paragrafında (Murat Acı, Nuh'un Gemisi Harayacan Üzübmüş?) rivayete göre ayrı bir fragmentte ise:

"Ermeni kilisesinde mukaddes bir şey kimin korunarak saklanmaktaymış.

Bazı çılgın adamlar Nuh'un Ermeni oluşuna bile inandırılmıştır."

Önce kitab-ı mukaddes, sonra da Kur'an-ı Kerim incelenirse Nuh tufanıyla ilgili çok ibretli ve kıssadan hisse dolu ayetlerle karşılaşırız. Evvela bu şehrin adı "Nuh Sığınacağı", "Nuh cıĥan" gibi seslerle örülüdür ve bu kelimede bu fonetiği açıkça görüp duymaktayız.

Yine bu makalede toponominin 2500 yıllık geçmişinden bahsedilmiştir. Hatta geçmişte Nuhun mezarından bahisle, insanların bunu ziyaret etmelerinden haber veriliyor.

Bir başka bilgi de çok eski yunan âlimi Klavdi Pitolomey, Nahçivanı "Nuksuanı" adına doğuda "Noy" veyahut "Nuh" denilen peygamberin meskeni gibi bakılmasını hatırlatıyor.

Yine Murat Acı'nın tespit ettiği rivayete göre "Nuh" bu yerlerde kalmış, şimdiye kadar bu şehre şöhret getiren tuz madenlerini de O, ortaya çıkarmıştır. Etraftaki dağın (Nehecir) ve köyün de Nehrem adı peygamberin adını göstermektedir. Kısaca o adı taşımaktadır.

Orada Gemi Kaya adlı bir dağ vardır ki, Nuh'un gemisi ona "yan alıpmış". Kesin olan şudur ki, bu özerk Türk cumhuriyetinin adında Nuh ve coğrafyasında ise "Gemi Kaya" vardır.

Bütün Türk arkeologları ve bilim adamları Nuh'u Gemi Kaya'da aramalıdırlar. Olayın Gemi Kaya dağına yönlendirilmesi tesadüfî değildir. Bu dağ, küçük Kafkas'ta en yüksek dağdır.

En yüksek yeri 4000 metreye yakındır. İşte onun için yanlış yerde iz aramamalıyız. Aslında halk inancına esasen Nuh'un gemisi ona "yan almış imiş".

Bu kadim görüş, yani geminin yan yatması, (belki de bundan dolayı) dağda taşlar üzerinde kazılmış ve fosilleşmiş tasvirler bulunmaktadır. Bu tasvirler ve işaretler, Gemi Kaya şinastlarca okunup şifreleri çözülünce olayın kesinleşeceğine inancımız sonsuzdur.

Gemi Gayanın Nahçivan'da tabiatın büyük bir abidesi olarak durması Nahçivan'ı daha da efsunlamaktadır. Azerbaycan'ın milli lideri Merhum Haydar Aliyev, Gemikaya için: "Gemikaya, tabiatın büyük bir abidesidir. Bu abide, Azerbaycanındır. Azerbaycan'ın tarihini aksettirmektedir". Diyerek Nahçivan'ın tarihi ile, sanatıyla, yetiştirdiği aydınlarıyla, siyasileriyle nasıl bir coğrafya olduğunu haykırmıştır.

Eziz Şerif'in diliyle:

"Nahçivan, arazice küçük maneviyatça büyük bir memlekettir". Diyerek Nahçivan'ın manevi büyüklüğüne vurgu yapmıştır.

Günümüzde yani bugün Nahçivan Özerk Cumhuriyeti Ali Meclis Sedri çok muhterem Vasıf Talibov'un diliyle gerek Nahçivan, gerekse Gemigaya şöyle dile getirilmiştir:

Bu abideleri çok veciz bir ifadeyle büyük muallim Talibov: "Bu toprağa aitliğin TAŞ PASAPORTU" olarak zihinlerimize kazımıştır. Halkımızın tarihini, etnografyasını, arkeolojisinin taş pasaportu olan Gemigaya tanımı, asla unutamayacağımız bir ifadedir.

Bu ifadeyi ne kadar översek çok azdır.

Gemigaya abidelerinin incelenmesine, 1970'de merhum Umummilli Lider Haydar Aliyev'in emriyle başlanması ve özellikle Azerbaycan İlimler Akademisi âlimlerinin konuyu incelemelerini isteyen muhterem Vasıf Talibov, konuya çok önem vermesi Azerbaycan ve Nahçivan'ı ne kadar memnun etmişse, aynı şekilde başta T.C olmak üzere Türk âlemini de memnun etmiştir.

1968 ve 1990 yıllarında "Gemigaya" üzerinde büyük araştırmalar yapan Veli Eliyev, Gemigaya' da mevcut olan çok eski yerleşim sahalarındaki abide mezarlar, ibadethaneler, Kayaüstü tasvirleri, çok mükemmel biçimde kayıt altına alması, sevindirici bir olaydır. Yapılan bu çalışma ve tespitler göstermiştir ki Nahçivan, TUNÇ devri medeniyetine mensuptur. Yazarın tespitine göre, Gemigaya ve Mücavir alan arazileri de bundan 70 ila 100 bin yıl önceki İlk, Orta Çağları müdrik olmuştur.

Gemigaya ve çevresi asırlar boyunca, buralarda yaşayan halkın, inanç ve ideolojik bakışlarının mukaddesleşmiş birer parçasıdır.

Gemigaya zirvesine şamil olunan düşünce şudur ki: dünyanın ilk oluşumu düşüncesinden, en eski Şumer menşeli mifologiya, bu coğrafyada cereyan etmiştir.

Gemigaya dağında, yalnız Nahçivan'ın değil yalnız Azerbaycan halkının da değil; belki tüm insanlığın büyük geçmişi kayıtlı olarak okunup çözümlenip, tüm insanlığa yeniden sunuluşunu beklemektedir. Burada tüm çalışma yapan ve yapacak olan ilim adamlarına ve başta da Veli Eliyev olmak üzere hepsi mukaddes bir görevi yerine getirmektedirler.

Gemigaya Küçük Kafkas'ın, Zengezur silsilesinin en yüksek zirvesine halk tarafından verilmiş efsanevi bir addır. Bu ad aynı zamanda "Nuh" ve "Gemi" ile de bütünleşmiştir.

GEMİGAYA Ordubat Reyonu arazisinde olup, Şumer menşeli bir efsaneye göre çok eskiden dünyayı sular kaplamıştır. Yeryüzü tamamen sularla kaplanmış, Tanrının emriyle NUH Peygamber çocuklarıyla ve çevresiyle birlikte, gemisi yüzerek zirveye ulaşmıştır.

Zirveden sürüklenerek geçtiği için büyük bir sarsıntı olmuştur. Bu sarsıntıdan rahatsız olan Nuh demiştir ki: Kemçi (Kem) "Küçükkaya"dır. Bunun için bu yörenin halkı Nuh'tan hatıra "Kemçi" olarak adlandırmışlardır.

Kemçi adlı diğer bir dağ, Ordubat (Nahçivan) 'ın güneyinde Aras Nehrinin sağ tarafında Güney Azerbaycan'da Karadağ'dadır. Bu efsaneye göre Nuh'un Gemisi, Ağrı Dağı istikametine doğru yüzerken, başka bir dağın su altındaki görünmeyen zirvesine sürtünmüş ve Peygamber gemisi olduğundan, dağı yararak geçmiştir. Hz. NUH bu olay için: -Burası da "inan dağıdır" şimdi Elinçayın sol sahilindeki

azametli "Haçadağ" ilandağ halk arasında da İNANDAĞ veya "Elandağ" denilmektedir.

Aslında, Kayaüstü resimlere dünyanın çeşitli coğrafyalarında rastlanmaktadır. Bu çok eski san'at numunelerine, Sibirya'da, Altayda, Ural'da, Anadolu'da, Güney Azerbaycan'da ve birçok değişik ülkelerde rastlanmakta ve üzerinde incelemeler de yapılmaktadır. Hatta çeşitli yönlerden aralarında muayyen benzerliklere de rastlanmaktadır ama yine her birinin kendilerine mahsus özellikleri de vardır.

Gemigaya "petroglifleri" işlenme teknikleri (çizme-dövme ve sürtme) biçimindedirler. Kelbecer, Anadolu ve cenubi Azerbaycan-Karadağ arazilerindeki Kayaüstü tasvirleri Gemikayaya çok benzemektedirler. Bu da bize göstermektedir ki; bu coğrafyalarda etnik yönden birbirine yakın taraflar yaşamışlardır, hala da yaşamaktadırlar. Tarihi tetkikler göstermektedir ki Nahçivan coğrafyasında Tunç devrinde en sık meskûn arazilerden biri de Gilançay Vadisi olmuştur. Bu vadide tabii zenginlikler, avlaklar, sihirli mesken yerleri vardır. Buralarda şehir medeniyetinin sürvivanslarına rastlanmıştır.

Gemigaya'nın Güney, batı ve doğu yamaçlarında deniz seviyesinden (3500-3700m) yükseklikte yerleşen KaraKuş Nebi yurdu, Kızgelin çukuru, Camışölen, önemli av meskenlerindendir.

Asırlarca Nahçivanlıların iktisadi hayatında çok önemli yeri olan Gemikaya kışlak ve yaylalarının, mağaralarının, ibadetgâhlarının teshirli çehresi hala çözüm bekleyen işaret ve yazılar, bu coğrafyayı insanlığın gözünde adeta büyülemektedir. Bu yönüyle buraları enbiya yurdu "Nebi yurdu"dur.

Veli Eliyev'in 1968-2005 yılları arasında arkeolojik incelemeleri neticesinde, Gemigaya'da Nahçivan'ın en eski mimarlık duygu, düşünce ve eserlerini de görmekteyiz. İrili ufaklı yüzlerce kaya üstünde insan, keçi, ceylan, köpek, at, öküz, kuş, araba resimlerine rastlanmaktadır. Bunlar içerisinde, insan ve hayvan resimleri daha üstündür.

Bu çok eski tarihi çizgiler, Nahçivan'ın Tunç devrinde ziraat ve hayvancılıkla uğraştıklarının açık, seçik delilidir. Ayrıca bu halkın dünya ve ahiretle ilgili duygu ve düşüncelerinin izleri de vardır. İnsanların inançlarıyla ilgili çok eski kayıtlar, günümüz insanlığının en büyük meraklarından biridir. Mesela araba resimleri, bu halkın nakliyat ve ulaşımdaki seviyesini bize bildirmektedir. Gilden yapılmış boyalı kap-kacak parçacıklarını, Nebi yurdu çevresindeki kalıntıları KÜR-

ARAS medeniyetinin en üstün seviyesini bize açıkça göstermektedir. Sanat ve sanatkârlıkta ne kadar ilerlediğimizin en belirgin miyarıdır.

Gemigaya tasvirlerinde aynı zamanda güneşin de kutsiyeti açıkça işlenmiştir. Gemigaya tasvirlerinde yıldız ve ayın da ışık kaynağı oluşlarından dolayı kutsiyetini açık seçik gösteren tasvirlere rastlanmıştır. Gemigaya tasvirlerinde sıra takımyıldızların işlenmesi Nahçivan müneccimlerinin dikkatini çekmiştir. Kısacası kozmik âlemle ilgi kurulmuş olması bu günkü modern astronominin başlangıcı sayılabilir. Gemigaya'daki bazı işaretler eski Orhun-Yenisey Türk alfabesindeki işaretlere çok benzemektedir. Demek ki eski Türk kavimleri buraları yurt tutmuşlardır.

Hayretamizdir ki, Gemigaya piktografik abideleri eski Türk kavimlerinin eski Türk dili piktografik Kayaüstü tasvirleriyle çok benzerlik arz etmektedir. Gemigaya'daki Kayaüstü tasvirleri, piktografik metinleri Eski Nahçivanlılar'ın, dinî-ideoloji görüşlerinin, özellikle kâinat hakkındaki tasavvurlarının kâhinleri tarafından ifadeleşen görüşleri Gemigaya'daki taşlara resmedilmiştir.

Gemigaya Kayaüstü tasvirleri işte bunun için bu dağı kutsallaştırmış ve mukaddes yapmıştır.

Bütün bunlar bize göstermektedir ki eski insanlar bedii zevklerinden asla vazgeçmemişler, hatta sanat ve estetikte de çok enteresan ustalıklar sergilemişlerdir.

Tunç Devrinde Nahçivan coğrafyasında yaşayan halkın medeni gelişmişlik seviyesinin hayli yüksek olduğuna şahit oluyoruz.

İlkin musikinin buralarda başladığına işaretler vardır. Gemigaya'daki ve Nahçivan'ın Tunç devri boyalı kapları üzerindeki raks sahneleri Gobustan'daki kaval taşlar, halay tasvirleri (yallı şekilleri) analit ve tunç devrinde Azerbaycan'da musiki medeniyetinin ne kadar ileri olduğunun işaretidir.

Bütün bunlardan Nahçivan'ın en eski medeniyet merkezlerinden biri olduğu, Kadim Nahçivan ahalisiyle Nuh arasında çok meraklı efsaneler oluşmuştur. O kadar ki bu yörelerdeki önemli coğrafik adların Nuh Peygamber tarafından verildiğine inanılmaktadır.

Hatta, Prof. Dr. İsa Habipbeyli Nevruz'la ilgili bir sunumunda Nevruz'un farsça olmayıp, belki, "Nuhruz"dan geldiğini ifade etmişlerdi. Nevruz Bayramını böylece kavram olarak Fars tekelliğinden çıkartıp, etnik kelime şovenliğine son vermiş oluyor.

Arkeolojik olaylar gösteriyor ki Gemigaya Petroglifleri kronolojik yönden de Nahçivan'ın tunç devri medeniyetinin bütün merhalelerini ihata etmektedir.

En eski ilk şehir medeniyetinin kurucuları olan Nahçivan sanatkârları, renkleri ahenkli kullanabilmişlerdir.

Bu gün!

Culfa Reyonu'nun Nehecir, Şerur reyonunun Yaycı monokrom boyalı kap-kacak üzerindeki hayvan, kuş, insan motifleri Gamigaya'nın bir grup tasvirleriyle tıpa tıp aynilik sergilemektedir.

Bütün bunlar göstermektedir ki Gemigaya tasvirleri:

Nahçivan Aras nehri boyunca sıralanan yayla ve ovalarındaki yaşamış halkların (ahalinin) medeniyet abideleridir.

Gemigaya Tasvirleri komşu Anadolu'nun en eski, güzel sanat abideleri ile de alakalıdır.

Anadolu'nun Hakkari, Palanlı ve Beldibi (Kumbucak) beldelerindeki Neolit ve Tunç devirleri insan ve hayvan resimleri motiflerine Gemigaya, Kelbeçer, Kuzey Kafkasya'nın Kayaüstü tasvirleri ile çok benzerlikler sergilemektedir.

Yine Nahçivan, Karabağ (Güney Azerbaycan) ve Anadolu arasındaki Tunç Devri medeniyetlerinin Kayaüstü tasvirleri birbirleriyle ayniyat sergilemesi çok dikkate değer tarihi deliller olup bu kadim medeniyetin etnik mensubiyeti hakkında ilmi mahiyette bilgiler vermektedir.

Gemigaya eski (kadim) Nahçivan'ın ahalisinin bedii tefekkürünü; estetik bakışlarını; dini ve ideoloji tasavvurlarını da aydınlatmaktadır.

Bunlardan anlamaktayız ki, Nahçivan coğrafyasında yaşayan ahalinin medeni gelişmişlik düzeyi çok yüksekmiş. Çünkü çeşitli resimlerde, değişik enstrümanlarla icra olunan musiki eşliğinde muayyen rakslar icra olunmuştur.

Gemigaya adı binlerce yıl Nahçivan ahalisinin sinesinde sakladığı örf, âdet, gelenek ve göreneklerinin, folklorunun taşlara yazılmış yıllığıdır. "DAŞ SALNAMESİDİR". Bu salnameyi yıllar, asırlar silememiştir. Şimdi ise gönüllere geçmiştir. Belki dağ-taş bir gün yok olsa bile, Azerbaycan halkıyla ebedi var olacağı için, Gemigaya artık gam çekmesin. Çünkü bu tabiat müzesi artık gönüllerde de yer etmiştir.

Bu duygularla konumuzun Ağrı Dağı bölümüne de değinmek istiyorum.

AĞRI DAĞI;

İNANÇ AÇISINDAN: Dünyanın en eski Tek Tanrılı semavi dinlerinin mukaddes kitaplarında başköşede yer almıştır.

1. Tevratta: Tekvin babı başta olmak üzere onlarca bölümünde
2. İncilde: Onlarca bölümde
3. Kuranda: Olay, ayetlerde Nuh Tufanı yer almıştır. Süre bakımından Kur'anın 1/3' üne tekabül eder. Dünya nüfusunun 2/3' üne tekabül eder.

AĞRI DAĞININ ADINA GELİNCE

1-DEDE KORKUTDA: ArKuru yatan ALA-TAĞ sözü ile bu dağı anmışlardır.

2-ESKİ OĞUZLAR: ArKuru'dan kısaltılarak: "Argı-Dag" demiş.

3-ESKİ TÜRKLER: Yakut dilinde AĞR kelimesiyle AĞRIYI ifade etmişler. Kelime büyük kocaman anlamındadır.

4-SELÇUKLULAR DÖNEMİ VE TÜRKLER ANADOLUYA YERLEŞTİKTEN SONRA: Eğri-Dağ adıyla anmaya devam etmişler. Bu da zamanla AĞRI DAĞ olmuştur.

5-1290'da bu dağın yanından geçen MARKO POLO kardeşler Nuh'un Gemisinin tepesinde oturduğu dağa bölge halkının ARKDAĞ dediğini bildirirler.

ARARAT ADINA GELİNCE

1-Tevrat'ın Tekvin babında "Ararat" olarak geçmekte.

2-MÖ 9.YY' da bu bölgelerde egemenlik kuran URARTULAR, İbranicedeki URAURTA'dan türetmiş, yüksek yer, yüksek memleket anlamında kullanılmış olup, çivi yazılı metinlerde de rastlanmaktadır.

3-Ayrıca Orta-Doğulu coğrafyacıların, AĞRI DAĞINI, ARARAT adıyla tanıttıkları da biliniyor.

4-Bugün başta Amerikan olmak üzere tüm batı ülkeleri, Ağrı Dağını, ARARAT diye tanıyorlar ve Ansiklopedilerinde bu ad ile maddeleştiriyorlar.

NAHÇİVANLILAR: Nuh çıkan
ERMENİLER: Massis veya Masik
İRANLILAR: KUH-İ NUH
ARAPLAR: Cebel-ül Haris-Ceb. HÜVEYRİS

5-1524 Çaldıran Seferi Konak defterinde 1665'de yazılmış olan Katip Çelebi Cihannuma'sı, Evliya Çelebi Seyahatnamesi, AĞRI veya Kuh-i Ağrı.

AĞRI DAĞI TARİHİ

1- Yontma taş devri (paleolitik) çağdan kaldığı anlaşılan tarihi buluntular vardır.

1- Ağrı'nın kuzey etekleri Gökçeali ve Yağcı köylerinde Tunç çağından kalan Mezopotamya ile kültürel bağı saptanan araç-gereç bulunmuştur.

2- MÖ 9 YY'da URARTULAR bu bölgede kentler kurduğu açıkça bellidir. Bu hâkimiyet 300 yıl sürmüştür.

3- Sonraları: Pers, Makedonya, Roma, Bizans ve Arap halklarına yurt olmuştur. Ev sahipliği yapmıştır.

4- 10. YY'dan başlayarak TÜRK topluluklarına yurt olmuştur.

5- XI. YY. Selçuklu egemenliği

6- 13.YY Moğol akınları

7- Sonraları:

i-İlhanlılar

ii-Cezayirliler

iii-Timurlular

iv-Karakoyunlular

v-Akkoyunlular

vi-Safevilere

ev sahipliği yapmıştır

8- 1524 Yavuz, İRAN seferiyle burayı Osmanlıya kattıysa da Padişahın İstanbul'a dönmesiyle Safeviler aldı.

9- 1578 Kanuni döneminde Osmanlı aldı.

10- 1828-1854, 1877-1878, 3 kez Çarlık Rusyası işgali.

11- I.Dünya Savaşında 4 kez işgal.

12- 1917'de BREST LİTOVSK- anlaşmasıyla 1918'de Sovyet Rusya işgali kaldırıyor.

13- 13 Ekim 1921'de Kars Anlaşmasıyla kesin olarak TC ye bırakılıyor.

SEMAVİ DİNLERDE AĞRI DAĞI

Dünyanın en eski din kitabı TEVRAT'ta Tekvin babında: 155 gün süren ulu tufandan sonra Nuh Nebinin: SAM, HAM, YAFET adlı 3 oğlu ve gelinleri bütün hayvanlardan alınan birer çift dişi ve erkeğiyle

birlikte ARARAT dağının tepesine konduğu, sonra bu dağdan yeryüzüne inerek bütün insanlık ve medeniyet yeniden devam etmiştir diye uzun uzadıya anlatılmaktadır.

KUR'AN-I KERİM: 15 asırlık yüce kitabımız Kuran-ı Kerim' de ise bu olaya çok yer verilmiştir.

83. süre kendi adına olup, sadece Nuh süresi 28 ayettir. Ku-ran'da bu olaydan 34 sürede 60 ayette bahsedilmiştir. Bu da Kuranın süre bazında üçte birine; ayet bazında binde birine tekabül eder. Konuya ne kadar önem verildiğinin işaretidir. Süre %30-%1 "Ve denildi: Ey yer! Suyunu yut ve ey gök, sen de tut ve su çekildi. İş bitirilmişti. Gemi CUDİ üzerine oturdu ve haykırıldı. O zalimler topluluğu geri gelmez olsun" HUD / 52

Dünya nüfusunun 2/3 üne tekabül eden bu inanç harikası yurdumuzda hatta Iğdır' da çok yakınımızdadır.

Elimizi uzatınca ulaşabileceğimiz bir yakınlıktadır. Ama bu güne kadar hiç gidilmemiş.

KÜLTÜR VE EFSANEMİZDEKİ AĞRI DAĞI

Bir de kültür ve efsanelerimizde, yani edebiyatımızda yaşayan Ağrı Dağına bakalım.

-Yaratılış ile Ağrı gündeme gelmiştir. Çünkü Adem ile Havva'nın barındığı Cennet bağlarından İREM'in Ağrı Dağında olduğuna inanılıyor.

-Ağrı Dağı üzerine bilinip söylenen efsanelerin en eskisi 1404 baharında yazıya geçirilmiştir. Semerkant'ta Temur'un katına varan İspanyol elçisi KLAVYO, 29-30 Mayıs 1404 günlerinde Salmarin, Tuzluca/Kulp, Iğdır'dan geçip, ARARAT'a 10 fersahtan gördüklerini kaleme almıştır.

SALMARİN Şehri, tufandan sonra kuru toprak üzerine inşa olunan ilk şehirdir. Şehri kuranlar, Nuh'un oğullarıdır. Iğdır'da halk arasında yaşayan bir inanışa göre, buralardaki en ulu dağlara: Allahukber – Suphan, Elegez, ve Ağrı Dağlarının adları, Nuh Nebi tarafından konulmuştur.

Efsaneye göre Nuh Nebi, suların bütün dünyayı kapladığı sırada gemisine 3 oğlu, inananları, gelinlerini ve hayvanlardan birer çift alarak hareket eder.

İkinci dağ bir rivayette Van Gölü kuzeyindeki SIPKAN bir rivayette Sarıkamış-Mıcıngart arasındaki Süphas/Süphan dağlarıdır.

KLAVYO, Iğdır, Erhacı, Ergov konaklarından, Çilli gediği üzerinden Bayazıt Ovasına varışını ve Iğdır'daki misafirperverliği anlatmıştır.

BÜYÜK AĞRI DAĞININ YAKUP VADİSİ
YAKUP PEYGAMBERİN TÜRBESİ

-Vaktiyle oğlu Yusuf'a kavuşan Hz. Yakup, meğer içinden şöyle dermiş:

-Allah'ım! Beni Yusuf'uma kavuştur, ben de dedem Nuh'un dağı olan AĞRI' ya gidip, orada öleceğim.

-Allah, onun bu duasını kabul eder, oğlu Yusuf'a kavuşan Hz. Yakup, oğlu Yusuf'u ve Bünyamin'i yanlarına çağırıp: -Atamızın ve insanlığın ikinci atası Hz. Nuh'un diyarı Ağrı Dağına, ahdim yerine geldiği için gideceğim ve orada ölüp, orada gömüleceğim – der.
Yakup Peygamberin kervanı, Kenan' dan ayrılıp, Hz. Nuh'un ilk ayak bastığı yerin kutsallığına inanarak, AĞRI Dağın, ilerlemiş yaşına rağmen çıkar, orayı ziyaret eder, orada kalır ve orada ölür. Oraya da gömüldüğüne inanılır.

Şimdi Ağrı Dağının kucağında Karnı Yarık büyük bir YAKUP hadisi vardır. Sonraları büyük bir manastır olmuş, mensuplarınca ziyaret edilip hacı olunuyor.

20 Haziran 1840 Arkuri zelzelesiyle ve keşişleriyle birlikte 1600 kişilik Arkuri ve manastır, toprak ve taşlar altındadır.

YILANLAR VE KARTALLAR

Derler ki küçük Ağrı'nın yılanları, Büyük Ağrının kartallarının tepeye hakimiyeti.....

YAŞAR KEMAL' İN AĞRI DAĞI EFSANESİ

-1970'de yayınlanmış

-Güzelleme, koçaklama, ağıt, destan-masal, karışımı

-Ağrı Dağı dolaylarından geçer.

-Roman kahramanı Ahmet Bayazıt paşası, İSHAKPAŞA SARAYI Mahmut Hanın kızı Gülbahar'ı sever.

-Töre tabuları aşılamaz.

-Dağın öfkesiyle Ahmet Küp Gölü civarında kaybolarak efsaneleşir.

DEYİM VE ATASÖZLERİ

1. Ağrı Dağından kar bağışlamak
2. Başın Ağrı Dağı olsa dibin kılcadır

3. Nuh Nebi'den kalmak
4. Allah Dağına bahar kar, bağına bakar, bar verir.
5. Dağ ne kadar yüksek olsa yol üstünden aşar.
6. Dağın gölü, yolun kulağı var.
7. Dağlar, beylerden zengindir.
8. Dağa, aşsız, arkadaşsız çıkma
9. Dağ gibi yiğit
10. Taş kayaya rastgeldi
11. Dağ dağa kavuşmaz, insan insana kavuşur.
12. Bahası dağda, yarısı yolda….

KAYNAKÇA

1. Prof. Dr. M. Fahrettin Kırzıoğlu, Kars Tarihi, İstanbul, 1953.
2. Mücahit Özden Hun, Iğdır Sevdası, Ankara, 2002.
3. İsmet Ülker, Dağ Turizmi, İstanbul, 1992.
4. Prof. Dr. Sefereli Babayev, Nahçivan, Muhtar Respublikasının Coğrafyası, Bakü, 1999.
5. Azerbaycan Milli İlimler Akademisi Riyaset Heyeti, Nahçivan, Muhtar Respublikası, Bakü, 2001.
6. Nahçivan Abideleri Ansiklopedisi, Nahçivan, 2008.
7. Veli Eliyev, Gemikaya, Nahçivan, 1990.
8. Prof. Dr. Pertev Naili Boratav, Folklor ve Edebiyat, İstanbul, 1991.
9. Prof. Dr. Bahaeddin Ögel, Türk Mitolojisi, İstanbul, 1993.
10. Prof. Dr. Şükrü Elçin, Halk Edebiyatı Araştırmaları, Ankara, 1998.
11. Prof. Dr. İsa Habipbeyli, Azerbaycan'ın İlim ve Medeniyet Hadimi, Bakü, 2004.
12. Turgut Öcal, Ağrı Dağı Efsaneleri, Ankara, 1999.

EMİN ARİF ŞIXƏLİYEV
AMEA Naxçıvan Bölməsi

ERMƏNİLƏRİN NUH PEYĞƏMBƏRLƏ BAĞLI İDDİALARI VƏ NAXÇIVAN MƏSƏLƏSİ

Uzun illərdir ki, ermənilər ənənəvi olaraq Nuh peyğəmbərin erməni mənşəli olduğu yöndə çox əsassız iddialar önə sürərək, bu aspektdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvana qarşı ərazi iddiaları ilə çıxış etməkdədirlər. Şübhəsiz ki, bu ənənə tarixin genişmiqyaslı və hərtərəfli saxtalaşdırılmasından ibarətdir.

Məşhur filosof Erik Hobsbaum qeyd edir ki, «...narkotik alışqanlığın xam maddəsi xaşxaşdırsa, tarix də kökü qədimlərə gedib çıxan ənənəvi münasibətlərin, etnik millətçiliyin və ideologiyaların xam maddəsidir. Əgər məqsədə uyğun olan keçmiş yoxdursa, bu yenidən yaradıla bilər. Keçmiş qanuniləşdirilir və iftixar ediləcək heç bir şeyi olmayan indiki dövrə fəxr edilməsi üçün yeni bir plan təqdim edir...» [2, s. 172].

Eric Hobsbaumun dediyi bu sözlər çərçivəsində məsələyə yanaşsaq, görərik ki, həqiqətən də iftixar ediləcək heç bir şeyi olmayan ermənilər və onların «görkəmli tarixçiləri» indiki dövrə iftixar edilməsi üçün çox gülünc iddialar ortaya atmaqda, erməni tarixini e.ə. 2350-ci illərə – «Nuh tufanı»na qədər aparmaqda, bu tarixin guya Nuhun nəvəsinin nəvəsi Hay və ya Hayk ilə başlandığını önə sürməkdə, Hz. Nuhun ermənimənşəli olduğunu və onun erməni dilində danışdığını iddia etməkdədirlər [10, s. 25-26; 11, s. 30].

Bu iddiaya görə, Nuhun gəmisi Ağrı dağında lövbər salmışdır və məhz buna görə də Nuhun nəvəsinin nəvəsi Haydan törəyən ermənilərin ana vətəni Şərqi Anadoludur. Eyni zamanda Hay/Hayk 400 il yaşamış və öz ölkəsini Babilistana qədər genişləndirmişdir [5, s. 12; 6, s. 12-16; 10, s. 100-101]. Halbuki məsələyə fərqli aspektdən yanaşan erməni alimi Keğam Kerovpyan «Mifoloji erməni tarixi» adlı əsərində yazır ki, Hayk və xələfləri tarixi simalar deyil, erməni xalqıyla qaynaşan müxtəlif millətlərin adlandırmalarıdır [7, s. 86].

Belə bir vəziyyətdə, Hayk əfsanəvi şəxsiyyət olduğuna görə onun Nuhdan törəməsi də uydurmadır.

Erməni tarixçisi Mikael Vartabet Çamıçyanın 1811-ci ildə İtaliyada nəşr edilmiş «Ermənilərin tarixi» adlı kitabında *(nəql edən: Esat Uras, Tarixdə ermənilər və erməni məsələsi)* qeyd edilir: *«...Tufandan sonra Nuhun oğulları Yafəs, Sam və Ham Araratda məskunlaşaraq törəyib çoxaldılar. Sam oğlanları ilə birlikdə şimal-qərbə, Ham ilə Yafəs də oğlanları ilə birlikdə Ermənistanın müxtəlif ərazilərinə yayıldılar. Hamın övladları qərb hüdudlarında, Yafəsin oğlanları da Ararat dağı civarında məskunlaşdılar. Onların bir qismi Mesopotamiya tərəflərinə getdilər ki, Yafəsin nəvələrindən olan və ermənilərin atası olaraq qəbul edilən Hay (və ya Hayk) da onların içərisində idi. Babil qalasının inşasında iştirak edən Hayk, 130 yaşında ikən bu qalanın yıxılması səbəbiylə oğulları və nəvələri ilə birlikdə Ermənistana gəldi. Onların hamısı eyni dildə, eyni ləhcədə danışırdılar və böyük ehtimalla bu dil ermənicə idi. Yafəsdən Qomer, Qomerdən Torqom, Askenaz, Torqomdan da Hayk əmələ gəldi. Hayk ata və ya baba mənasındadır. Haykdan da millətimiz ortaya çıxdı. Yəni bir millətin atası olduğu üçün ona Hayk adı verilmişdir. Bizim tariximiz Haykdan başlayır...*

...Babildə olduğu dövrlərdə öz gözəlliyi, qıvrım saçları, kəskin baxışları, qüvvətli qolları, ox atmaqda məharəti ilə fərqlənən Hayk Babil kralı, tarixdə Nemrud deyə bilinən Pelin (və ya Belin) zülmünə qarşı çıxdı. Bütün dünyaya hakim olan Pel özünü Tanrı adlandıraraq, hər kəsin ona sitayiş etməsini əmr etdi. Məğrur Hayk isə kralın bu istəyinə qarşı gəldi. Babildə oğlu Armenak, Manavaz, Xor və bir neçə övladı anadan oldu. Sonra Hayk Pelə tabe olmamaq üçün oğlanları, qızları, nəvələri və 300 nəfərlik güclü dəstəsi ilə Ararat bölgəsinə gəldilər. O, Araratda Nuhun dilini danışan öz millətinə rast gəldi və onları öz hakimiyyəti altında birləşdirdi...» [10, s. 25-26].

Belə çıxır ki, Nuh peyğəmbər erməni imiş, erməni olduğuna görə də onun və övladlarının ayaq basdığı bütün torpaqlar ermənilərə məxsus olmalıdır. Bu məsələdə müəyyən məqamlara aydınlıq gətirməyin son dərəcə vacib olduğunu hesab edirik. Nədir bu məqamlar? Əsas məqam yəhudi ideologiyası ilə erməni ideologiyası arasında paralellik aparma siyasətidir. Yəhudi fəlsəfəsinə və onların müqəddəs kitablarına görə, guya Tanrı tərəfindən seçilmiş millət məhz İsrail oğulları, yəni yəhudilərdir və Tanrı Hz. Musanın yuxusuna girərək, *«Misir çayından (Nil çayı) ta.... böyük çay olan*

Fərata qədər kənanilər, kənizilər..... və yəbusilərin məmləkətini sənin nəslinə verirəm» demiş və Nildən Fərata qədər olan torpaqları İsrail oğullarına hədiyyə etmişdir [3, s. 7].

Eyni siyasət erməni ideologiyasının da tərkib hissəsi kimi formalaşmışdır. Dünya ictimaiyyətinə çatdırmaq istədikləri şüar budur ki, guya ermənilər Tanrı tərəfindən «seçilmiş bir millətdir» [9, s. 57] və bu səbəbdən iddia edilən torpaqlar bir zamanlar məhz Hz. Nuhun nəvəsinin nəvəsi olan Hayka vəd edilmişdir. Məhz bu baxımdan erməni ideologiyası yalnız və yalnız «Nuh peyğəmbərin erməni olması və onun nəvəsinin nəvəsi olan Hayka vəd edilən torpaqlar» iddiaları üzərində yaranıb möhkəmlənmişdir.

Ümumiyyətlə, ermənilər öz tarixlərini gördükləri kimi deyil, görmək istədikləri kimi yazmış və bunun təbliğatını aparmışlar. Öz tarixlərini daha da qədimlərə apararaq dünya mədəniyyətini, yazını, astrologiyanı, mis və dəmir mədənçiliyini özlərinin kəşf etdiyini və dünyada insan həyatının Sevan gölü sahillərindən başladığını iddia etməkdə [13] və guya xristianlığı ilk qəbul edən xalq olaraq iftixar hissi keçirməkdədirlər [12].

Digər erməni alimləri kimi, qatı millətçi fikirləri ilə tanınan Zori Balayan da «Oçaq» adlı kitabında Nuh peyğəmbərin erməni olduğunu və erməni dilində danışdığını iddia etmişdir. Buna dayanaraq o yazır: *«...Rəvayətə görə, Nuh peyğəmbər Tufandan sonra ilk gördüyü torpağa erevume* **(yəni görünür – E.Ş.)** *deyə səslənmiş və torpağın adı Erevan olaraq tarixə keçmişdir...»* [11, s. 30].

Məlum məsələdir ki, belə iddialar elm adına heç bir həqiqəti özündə əks etdirmir. Bütün bunlar mifoloji təsəvvürlərə əsaslanan əfsanəvi iddialardır. Məsələyə dini aspektdən yanaşsaq, Adəm peyğəmbər bəşəriyyətin ilk atası sayıldığı kimi, Nuh peyğəmbər də Dünya tufanı səbəbiylə bəşəriyyətin ikinci atası sayılır. Belə bir vəziyyətdə hər hansı milli mənsubiyyətdən söhbət gedə bilməz. Yox, əgər Hz. Nuh ermənilərin də iddia etdiyi kimi, ermənidirsə, o zaman ağla gələn ilk fikir budur: bəşəriyyət ermənilərdən törəmiş və bütün dillər erməni dili əsasında formalaşaraq, sonradan deformasiyaya məruz qalmışlar. Necə deyərlər, bax, budur müəmma!

Hələ 1703-cü ilin mayın 27-də mifoloji təsəvvürlərlə yaşayan erməni nümayəndələri Rusiya imperatoru I Pyotra tam ciddiliklə yazırdılar ki, dünyanın yaranması bizim ölkədən başlanmışdır.

Nuhun gəmisi Ararat dağında dayananda Nuh o gəmidən çıxmış və dünyaya aləm bu gəmidən yaranmışdır. Çarlıqların çoxu bizim ölkənin tərkibindən ayrılmışdır. Bizim dövlətimiz bütün dövlətlərdən qədimdir, bütün dövlətlərin açarı bizim əlimizdədir [1, s. 63].

Belə çıxır ki, sivilizasiyanın ilk beşiyi Ermənistan olmuşdur, dünyanın yaranması da Ermənistandan başlanmışdır. Bu bir həqiqətdir ki, hər bir millətin tarixin qaranlıq və qədim dövrləriylə əlaqəli əfsanə və dastanları vardır. Əfsanə və dastanlar mədəni və psixoloji dəyərlər şəklində qəbul edilə bilər, ancaq elmi və tarixi həqiqət olaraq önə sürülə bilməz. Məsələ burasındadır ki, ermənilərin Nuh peyğəmbərə tək başına sahib çıxmaları heç bir dastani məziyyətləri belə özündə əks etdirmir. Çünki yuxarıda da qeyd edildiyi kimi, Nuh peyğəmbər bütün bəşəriyyətin atasıdır.

Ümumiyyətlə, ermənilər öz mədəniyyətinin əsaslarını özgə torpaqlarda bina etməyə çalışmaqda, mənimsəmə və özünükiləşdirmə üsullarından geniş istifadə etməkdədirlər. Biz burada erməni tarixini təhlil etmək niyyətində deyilik. Ancaq ermənilərin Nuhun dilini danışdıqlarını, etnik mənsubiyyətlərini Nuha və guya onun nəvəsinin nəvəsi Hayka dayandıraraq bölgənin ən qədim xalqı, tarixi torpaqlara sahib olduqlarını iddia etmələri elmi obyektivlikdən olduqca uzaq görünsə də, bu iddia və rəvayətlərlə dünyanın diqqətini özlərinə çəkməyə nail ola bilmişlər.

Nuh peyğəmbər ilə bağlı rəvayətlər daha çox Naxçıvanla bağlıdır. Bu rəvayətlərdən istifadə edən ermənilər başqa yeni nəzəriyyələr də ortaya ataraq, Nuh tufanı ilə əlaqəli dini kitablarda olan məlumatların Naxçıvandakı rəvayətlə üst-üstə düşməsindən, xalq arasında gəminin müqəddəs hesab olunan Gəmiqayada dayanması fikrindən, buradakı çox qədim qayaüstü təsvirlərdən, tarixi yerlərdəki faktlardan öz xeyirlərinə istifadə etməyə cəhd göstərməkdədirlər.

Nuh peyğəmbər və Dünya tufanı məsələsi uzun illərdir ki, tədqiqatçıların diqqət mərkəzindədir. Onu da qeyd etmək lazımdır ki, bu məsələ tədqiqatçılar arasında fikir ayrılığına səbəb olmuşdur. Məsələyə sadəcə bir əfsanə, rəvayət olaraq yanaşanlar da mövcuddur. Təbii ki, elmdə belə hallara rast gəlmək mümkündür. Bizim istinad edə biləcəyimiz mənbələr Qurani-Kərim və digər dini kitablardır. Amma bununla birlikdə bu məsələ dünyanın ayrı-ayrı

xalqları arasındakı rəvayət və dastanlarda – Şumer, Assur, Babil mənbələrində, Hindistanda Satapatha, Brahmana və Mahabharata dastanlarında, Böyük Britaniya, Skandinaviya, Avstraliya, Çin və s. əfsanələrdə də öz əksini tapmışdır.

Qeyd edək ki, müqəddəs kitablarda verilən məlumatlar birbiri ilə örtüşmür. Məsələn, Bibliyada gəminin dayandığı yerin Ağrı dağı (Bibliyada Ararat) olduğu bəyan edilmişdir ***[Bibliya, Varlıq 8/4].***

Qurani-Kərimdə isə gəminin Tufandan sonra Cudidə dayandığı bildirilməkdədir. Ayədə göstərilir: *«Ey yer! Suyunu ud! Ey göy! Yağışını saxla, açıl!» – deyildi. Su çəkildi. İş bitdi. Gəmi Cudi üzərinə oturdu və: «Zalimlər məhv (Allahın mərhəmətindən uzaq) olsun!» – deyildi»* ***[Qurani-Kərim, Hud surəsi, ayə: 44].***

Bir şeyə diqqət yetirmək lazımdır ki, bəzi tədqiqatçılar gəminin dayandığı yerin Cudi dağı olduğunu qeyd etsələr də, Qurani-Kərimdə Cudi dağ olaraq deyil, yüksəklik mənasında işlədilmişdir. Çünki bu ayədə gəminin Cudi dağına deyil, Cudiyə oturduğu göstərilir. Cudi sözü ərəbcədə «yüksəklik» mənasında işlədilir.

Qərb dünyasında gəminin harada dayanması ilə bağlı məsələlər Bibliyadan qaynaqlandığından tədqiqatçılar daha çox ona istinad edirlər. Ağrı dağına ekspedisiyaların təşkil olunması ilə gəminin dayandığı yer müəyyən edilməyə çalışılsa da, heç bir nəticə əldə edilməmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, tarix elmləri doktoru Hacı Qadir Qədirzadə «Nuh peyğəmbər, Dünya tufanı və Naxçıvan» adlı monoqrafiyasında qeyd edir ki: *«...ard-arda aparılan axtarışlar heç bir nəticə vermirdi....*

....Gəmi təkcə qurudan deyil, müxtəlif təyyarələr, hətta kosmik aparatlar vasitəsi ilə səmadan da axtarılırdı. 1997-ci ildə ABŞ-nın MKİ-nin yaydığı məlumatda gəminin Ağrı dağında olmadığı rəsmən bildirildi. Amma müxtəlif dərnək və qruplar gəminin Ağrı dağı və onun ətrafında olmasında israrlı idilər. ABŞ-dakı «Nuhun gəmisi dərnəyi» belə bir elan verdi ki, kim 2000-ci ilə qədər gəmini tapsa, bir milyon dollar mükafat alacaq. Bu mükafatı kimsə ala bilmədi...» [4, s. 98-99].

Müəllif tutarlı faktlar əsasında gəminin dayandığı yerin məhz Gəmiqaya olduğunu sübut etməyə çalışmışdır [4, s. 106].

Gəminin harada dayanması ilə bağlı məsələlər dini olmaqla birlikdə siyasi xarakter də daşımaqdadır. Bu məsələni Ermənistan dövləti və erməni lobbisi dini və siyasi müstəvidə müzakirəyə çıxarmaqdadır. Yuxarıda da qeyd etdiyimiz kimi, ermənilər səmavi dinlərin müqəddəs babları və ayələri arasında göstərilən «Nuh tufanı» bəhsində yer alan Nuh Peyğəmbərin ermənimənşəli olduğuna inanmaqdadırlar. Onlara görə, Ağrı dağına çıxaraq həyatda qalmağa müvəffəq olan qövm ermənilərin atalarıdır. Bu baxımdan Ağrı dağı (onlara görə, Ararat) ermənilər üçün müqəddəslik simvoludur. Bu müqəddəslik guya Nuh peyğəmbərin ermənimənşəli olması ilə əlaqədardır. Ermənilər bu inancla özlərini «seçilmiş millət» olaraq görməkdədirlər. Təbii ki, belə şüarların da arxasında erməni kilsəsi dayanır. Məhz kilsənin təşəbbüsü ilə şüuraltında formalaşdırılan ənənəyə görə, guya Tanrı ermənilərı «seçilmiş millət» olaraq Tufanla sınağa çəkmiş, ermənilər də bu sınaqdan uğurla çıxmışlar [8, s. 42]. Nuh tufanı kimi çətin imtahan və hətta həyatda qalmaq üçün bütün çətinliklərin öhdəsindən gələ bilmə qabiliyyətlərinə və dözümlü olduqlarına olan inamları erməni kimliyinin bir parçası halına gəlmişdir. Bu baxımdan ermənilər gəminin Ağrı dağında oturması səbəbi ilə vətənlərinin Şərqi Anadolu olduğunu iddia etməkdədirlər. Gəminin Ağrı dağında deyil, Gəmiqayada dayanması ilə bağlı tədqiqatlar dərinləşdikcə, ermənilər belə bir yeni iddia ortaya atdılar ki, guya Nuh peyğəmbər erməni olduğuna görə onun ayaq basdığı bütün torpaqlar ermənilərə məxsusdur.

Ermənilərin özlərini Nuh peyğəmbərə bağlamalarından bəhs edərkən bir məsələyə xüsusilə diqqət yetirilməlidir. İddia edilir ki, ermənilər tarix boyu əzaba məruz qalmışlar. Yəni ermənilər «seçilmiş bəndələr» olduğundan imtahan edilmək istənildiyinə görə Tanrı tərəfindən fəlakət sınağına çəkilmişlər. Qurani-Kərimdə buyurulur: *«...Deyildi ki, ey Nuh! Sənə və səninlə birlikdə (gəmidə) olan camaatdan törənəcək ümmətlərə Bizdən əmin-amanlıq və bərəkətlər bəxş edilməklə gəmidən en. Gələcəkdə sizin nəsildən küfr edəcək bəzi ümmətlər də olacaq ki, bir müddət onlara dolanışıq verəcək, sonra isə onları şiddətli bir əzaba düçar edəcəyik...»* ***[Qurani-Kərim, Hud surəsi, ayə: 48].***

Belə çıxır ki, Qurani-Kərimdə buyurulan əzaba düçar edilmiş millətin özləri olduğunu ermənilər də qəbul edirlər. Belə bir

vəziyyətdə bizlərin hər hansı bir söz deməyə və ya mühakimə yürütməyə ehtiyacımız qalmır.

Şübhəsiz ki, bu kimi məsələlər sadəcə Ermənistanın deyil, qərb dövlətlərinin də siyasi maraqları daxilində aktuallaşmaqdadır ki, bunun da mahiyyətini xristian dünyasında dini və siyasi motivlərin birləşərək, pərdə arxasında gizlənən antitürk və antiislam psixologiyasında axtarmaq lazımdır.

Məhz bunun təsiridir ki, ermənilər bütün dünyanın diqqətini Naxçıvana çəkmək istəyərək elmi obyektivlik adından çıxış edən, əsl həqiqətdə isə elmə olmazın fəlakətlər gətirən alimlərin müəyyən məqsədlər daxilində gizli yollarla Naxçıvan diyarına təşrif buyuraraq, tədqiqatlar aparmalarına şərait yaratmaqdadırlar. Heç təsadüfi deyildir ki, son dövrlərdə Naxçıvandakı tarixi memarlıq abidələrinin guya ermənilərə məxsus olması, eyni zamanda xaçkarların dağıdılması məsələsi nüfuzlu beynəlxalq qurumların müzakirə obyektinə çıxarılmışdır. Şübhəsiz ki, bu cür iddialar daha əvvəllər də önə sürülürdü, ancaq günümüzdə bu təzyiq və hücumlar daha geniş xarakter almışdır.

Qeyd edilməlidir ki, bu iddiaların gündəmə gəlməsində aparıcı dövlətlərin geosiyasi, geostrateji maraqları, eyni zamanda dini təəssübkeşliyi az rol oynamamışdır. Məhz bu maraqlar və dini təəssübkeşlik ikili yanaşmanın yaranması, bu və ya digər məsələlərin böyük dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən qiymətləndirilməsində ikili standartların meydana çıxması üçün əsas olmuşdur.

ƏDƏBİYYAT

1. Abdullayev Ə., Kərimov Ş., Zahidov B. Beynəlxalq terrorizm: onunla cinayət-hüquqi və kriminoloji mübarizənin aktual problemləri. Baki: Qanun, 2006, 403 s.
2. Arif E. Erməni iddialarının siyasi mahiyyəti. Bakı: Nurlan, 2006, 186 s.
3. Armaoğlu F. Filistin meselesi ve Arap-İsrail savaşları (1948-1988). Ankara: Türkiye İş Bankası kültür yayınları, 1991, 591 s.
4. Qədirzadə H.Q. Nuh peyğəmbər, Dünya tufanı və Naxçıvan. Naxçıvan: Qızıl Dağ, 2008, 190 s.

5. Gazigiray A.A. Osmanlıdan günümüze kadar vesikalarla ermeni terörünün kaynakları. İstanbul: Gözen, 1982, 672 s.
6. Gürün K. Ermeni dosyası. Ankara: TTK, 1983, 215 s.
7. Kerovpyan K. Mitolojik ermeni tarihi. İstanbul: Aras yaınları, 2000, 109 s.
8. Laçıner S. Türkiye-Avrupa ilişkilerinde kültür ve medeniyet: tarihsel ve ideolojik kökenler // Liberal Düşünce, 1999, c. 4, № 13, s. 39-57
9. Laçıner S. Ermeni kimlik bunalımı ve güç politikalarının bir ürünü olarak ermeni sorunu // 2023 Dergisi, 2002, № 12, s. 56-61.
10. Uras E. Tarihte ermeniler ve ermeni meselesi. İstanbul: Belge, 1987, 798 s.
11. Балаян З. Очаг. Ереван: Советакак грох, 1984, 424 с.
12. Шагинян М. Важное событие истории. «Литературная газета», 1978, 13 сентября.
13. Колыбель человечества – территории исторической Армении. htpp:/ www. azg. Am/RU/200020109/120620108717, shtm.

QƏHRƏMAN AĞAYEV
Arxeologiya və Etnoqrafiya İnstitutu

NUH TUFANINDAN SONRAKI YAŞAYIŞ MƏSKƏNLƏRİ: ŞAHTAXTI

Naxçıvanın arxeoloji abidələrinin öyrənilməsi Azərbaycan tarixşünaslığına bir sıra yeni materiallar vermişdir. Belə ki, bəşər tarixinin II yaranışının əsas ocağı hesab olunan Naxçıvanın qədim sakinlərinin yaratdığı mədəniyyətin öyrənilməsi müasir dövrümüzdə də öz aktuallığı ilə seçilir.

Hələ Sovetlər dönəmindən Naxçıvanın ən qədim sivilizasiya mərkəzlərindən biri olması, burada yaranan sənətkarlıq sahələrinin, mənəvi mədəniyyətinin bir sıra aspektlərinin Avrasiya məkanına təsiri haqqında söylənən fikirlər rəsmi dairələr tərəfindən qısqanclıqla qarşılansa da, tarixi reallığı gizlətmək çətindir.

Görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyev 1996-cı ildə təşkil olunmuş «Uluslararası qaynaqlarda Naxçıvan» beynəlxalq simpoziumunda tədqiqatçılar qarşısında çox məsuliyyətli bir vəzifə qoymuşdur: «Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın tarixi ilə əlaqədar gərək çox fundamental əsərlər yaradaq. Bu əsərlərdə təkcə iddiaçılara cavab vermək yox, bütün dünyaya Azərbaycanın qədim, zəngin tarixini, mədəniyyətini göstərək».

Bu yöndən yanaşdıqda Naxçıvanın qədim tarixində özünəməxsus koloriti ilə seçilən Şahtaxtı abidələr kompleksi ön plana keçir. Əgər «Dünya tufanından» xilas olmuş Nuhun gəmisi bu torpaqda lövbər salmışdırsa, xilas olmuş insanlar ilk dəfə burada quruya ayaq basmışlarsa, onda Naxçıvan ərazisində formalaşmış mədəniyyətin Avrasiya məkanına inteqrasiyasında Şahtaxtıda məskunlaşmış tayfaların da müstəsna xidmətləri olmuşdur.

Uzun müddət aparılmış arxeoloji qazıntılar zamanı tapılmış maddi-mədəniyyət nümunələri də bunu təsdiqləyir. 1936-cı ildə arxeoloq Ə.Ələkbərov tərəfindən kəşfiyyat xarakterli işlər aparılmış Şahtaxtı abidələr kompleksində 1978-ci ildən intensiv qazıntılara başlanılmışdır. Ə.Ələkbərov, O.Həbibullayev və başqa tədqiqatçılar Son Tunc və Dəmir dövründən başlayaraq burada yaşayışın olmasını göstərsələr də, son qazıntılar zamanı sübut olun-

muşdur ki, hələ Erkən Tunc dövründən qədim tayfalar burada məskunlaşmışlar. Şahtaxtı ərazisindən tapılmış yerüstü materiallar içərisində Eneolit dövrünə aid keramika məmulatlarına rast gəlinmişdir ki, bu da ərazinin ilkin sivilizasiya mərkəzlərindən biri olmasını şərtləndirən amillərdən biridir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan arxeologiyasına göstərdiyi diqqət və qayğının nəticəsində tədqiqat işlərinə maliyyə dəstəyi artırılmışdır ki, bunun da nəticəsində tədqiqat işləri xeyli genişləndirilmiş və keyfiyyəti yüksəldilmişdir.

Qazıntılar nəticəsində müəyyən olunmuşdur ki, hələ altı min il bundan əvvəl ərazidə yaşamış tayfalar burada uzun müddət məskunlaşmış və zəngin bir irs yaratmışlar. Şahtaxtı yaşayış yerində bir-birini əvəz edən mədəni təbəqələr göstərir ki, bu yaşayış yerində qədim tayfalar kiçik yerdəyişmələr etmədən, belə 4 min ildən artıq yaşamışlar. Aparılmış tədqiqatlar göstərir ki, Şahtaxtı ərazisində ilk məskunlaşan tayfalar ilkin orta əsrlərə qədər burada oturaq həyat sürmüşlər. Eneolit dövründə məskunlaşan tayfalar burada qapalı həyat keçirmişlər. İlk Tunc dövründə isə yüksək maldarlıq və əkinçilik ənənələrini mənimsəmiş, Orta Tunc dövründə sənətkarlıq sahəsində bir təkamülə çatmış və tarix səhnəsinə çıxmışlar. Bu cür intensiv yaşayış Şahtaxtıda məskunlaşmış tayfaların müasir əhali ilə müəyyən etnogenetik əlaqələrinin olduğunu göstərir. Müasir geosiyasi vəziyyətdə, mənfur qonşularımızın Azərbaycana qarşı ərazi iddialarına cavab verərək söyləmək olar ki, Şahtaxtı ərazisində məskunlaşmış tayfalar prototürk mənşəli olmaqla yerli əhalinin sələfləridir.

Muxtar Respublikanın Kültəpə, Xaraba-Gilan və bu kimi digər abidələrinin stratoqrafiyasında da bu tendensiyaya rast gəlinməsi Naxçıvan ərazisindəki tayfaların iqtisadi, mədəni və etnik əlaqələrini öyrənmək baxımından da böyük maraq kəsb edir. Digər tərəfdən, Muxtar Respublikanın qədim yaşayış məskənlərindən tapılmış keramika nümunələri, zərgərlik məmulatları, silahlar və əmək alətləri üzərindəki ornamental təsvirlər, tipoloji və morfoloji oxşarlıqlar bu əlaqələrin yüksək səviyyədə olduğunu göstərir. Şahtaxtı keramikası üzərindəki ornamentlərin Gəmiqayadakı təsvirlərlə oxşarlıqları bu mədəniyyətin qədim ənənələrə söykən-

diyini, «Dünya daşqınından» sonra burada qədim sakinlərin məskunlaşdığını sübut edən elementlərdəndir.

Bu cür əlaqələr daha sonra cinsi xarakter daşımış, qohumluq əlaqələrinin yaranmasına gətirib çıxarmışdır. Zaman keçdikcə bu tayfalar arasında dini, siyasi, hərbi əlaqələrə gətirib çıxarmış, sonda tayfa ittifaqlarının yaranmasına səbəb olmuşdur. Tədqiqatlar göstərir ki, Şahtaxtı ərazisində məskunlaşmış tayfalar sənətkarlığın inkişafı ilə güclənmiş, bu da eramızdan əvvəl II-I minilliklərdə Şahtaxtı ərazisində şəhərsalma mədəniyyətini sürətləndirmişdir. Sonda, ərazidə yüksək nüfuza malik olan Şahtaxtı tayfaları digər tayfalarla əlaqələrini möhkəmləndirmiş və ərazi tayfa ittifaqlarından birinin mərkəzinə çevrilmişdir.

Qazıntılar nəticəsində əldə edilmiş maddi-mədəniyyət nümunələrinin oxşarlıqları Şahtaxtı ərazisində məskunlaşmış tayfaların Zaqafqaziya, Şimali Qafqaz, Ön Asiya, İran, Mesopotamiya ərazilərindəki tayfalarla da müəyyən əlaqələrə malik olduğunu göstərir. Uzun müddət tarixşünaslıqda bu mədəniyyətlərin ərazimizə miqrasiya yolu ilə yayılması haqqında fikirlər səslənsə də, bunlar elmi əhəmiyyət daşımamışdır.

Artıq yavaş-yavaş bəşəriyyətin II yaranışının əsas episentrlərindən birinin Naxçıvan olması haqqında söylənən fikirlər elmi konsepsiya şəklini almaqdadır. Belə olduğu halda, mədəniyyətin və sənətkarlığın ilk olaraq ərazimizdə formalaşmasını bir aksioma kimi qəbul edilmişdir. Artıq bu gün dünya tarixşünaslığında belə bir konsepsiya formalaşmağa başlamışdır ki, məhz Şumer mədəniyyətinin yaradıcıları Anadolu və Qafqazdan köçmüş prototürk mənşəli tayfalar olmuşlar.

Şahtaxtının yerləşdiyi ərazi də strateji cəhətdən əlverişlidir. Araz çayına yaxın olması suvarma əkinçiliyinin, çayətrafı maldarlığın və camışçılığın da inkişafına səbəb olmuşdur. Şahtaxtı yaşayış yerinin ətraf ərazinin relyefindən uca təpə üzərində salınması da təsadüfün nəticəsi olmamışdır. Qala divarları ilə əhatə olunmuş yaşayış yeri yerli tayfalara məxsus əkin və otlaq sahələrin daima nəzarətdə saxlamaq üçün bir müşahidə məntəqəsi rolunu oynamışdır.

Şahtaxtı abidələr kompleksinə daxil olan nekropol qədim tayfaların mənəvi mədəniyyətini öyrənmək baxımından da maraq doğurmuşdur. İndiyə qədər tədqiq edilmiş 45 qəbrin, demək olar

ki, hamısından maddi-mədəniyyət nümunələri tapılmış, fərqli dəfn adətləri öyrənilmişdir. Kromlexlə əhatələnmiş daş qutu qəbirlərdən tapılmış polixrom boyalı qablar ərazidə yüksək dulusçuluq məktəbinin olmasından xəbər verir. Yerli nəqqaşların yaratdığı nəbati, zoomorf, həndəsi ornamentasiyalarla yanaşı, su stixiyası ilə bağlı naxışlara da rast gəlinmişdir. Bu səbəbdən ərazidə yüksək sənətkarlıq məktəbinin formalaşması digər tayfaların maraq dairəsindən kənarda qala bilməzdi.

1979-cu ildən etibarən Şahtaxtı yaşayış yerində aparılan arxeoloji qazıntılar nəticəsində yaşayış yerinin şimal hissəsində 12,5 metr uzunluğunda, 1,85 sm enində, 95 sm hündürlüyündə aşkar edilmiş qala divarları və qala bürcü ərazidə yaşamış tayfaların arxitektura və memarlığını öyrənmək baxımından da maraqlıdır.

Şahtaxtıda qədim tayfaların yaratdığı mədəniyyət təbii fəlakət nəticəsində süqut etdiyindən yerli tayfalar kəndin şərqində yerləşən «İydəli pir» ərazisinə köçmüş, qədim tayfaların ruhuna hörmət əlaməti olaraq yaşayış yerini xatirə olaraq gələcək nəsillərə çatdırmışlar.

Sonda qeyd etmək olar ki, «Dünya daşqını»ndan sonra ərazimizdə yaranmış ilkin insan məskənlərindən biri də Şahtaxtı abidələr kompleksidir.

VAQİF MƏMMƏDOV
Naxçıvan Dövlət Universiteti

AZƏRBAYCAN KLASSİK ŞEİRİNDƏ NUH VƏ NUH TUFANI

Tarixi mənbələrdən məlum olduğu kimi, qədim Naxçıvanın yaşının Nuh peyğəmbərin zamanından da əvvəlki dövrlərə aid olduğu iddia edilir və Naxçıvan toponiminin bir mənasının da «Nuh çıxan» sözlərinin birləşməsindən yarandığı haqda fərziyyələr irəli sürülür. Zaman-zaman insanlar arasında dolaşıb əsrləri adlayan rəvayətə görə, təqribən 7500 il əvvəl baş vermiş Ümumdünya tufanı nəticəsində yer səthini su alarkən Nuh peyğəmbərin və onun ailə üzvlərinin, ona iman gətirənlərin mindiyi gəmi bir neçə gün su üzərində dolanandan sonra Naxçıvan ərazisində quruya çıxmış, Dünya daşqınından xilas olan az qisim insanlar burada məskunlaşmış və yeni nəsil buradan törəyib artmış və buna görə də ərazi «Nuhçıxan»-Naxçıvan adlanmışdır.

Bu rəvayətin elmi izahı və tarixi nöqteyi-nəzərdən əsaslandırılması baxımından istər xarici ölkə mütəxəssislərinin, istərsə də Azərbaycanın çox görkəmli tarixçi, arxeoloq, ədəbiyyatşünas, etnoqraf alimlərinin kifayət qədər sanballı elmi məqalələri nəşr olunmuş və e.ə. I əsrdə yaşamış görkəmli tarixçi İosif Flavinin, qədim yunan alimi Klavdi Ptolemeeyin, V əsrdə yaşamış alban tarixçisi Moisey Xorenskinin, orta əsr tarixçisi Stefan Orbelyaninin, XVI əsrin görkəmli ərəb alimi və coğrafiyaşünası Əl-Şərifinin, son dövr tədqiqatçıları İ.M.Sısoyevin, K.A.Nikitinin, İ.M.Dyakonovun, və digər bir çox görkəmli elm adamlarının Naxçıvanın qədim tarixi haqqında, həmçinin Naxçıvan toponiminin Nuhla bağlılığı haqqında maraqlı mülahizələri diqqəti cəlb etmişdir. Həmçinin görkəmli Azərbaycan alimlərindən R.Məmmədov, O.Əfəndiyev, A.Axundov, M.Seyidov, İ.Həbibbəyli, İ.Hacıyev, Məşədixanım Nemət, V.Əliyev, Ə.Hüseyni, L.Hüseynzadə, H.F.Səfərli, Q.Qədirzadə, V.Baxşəliyev, Ə.Qədimov, F.Rzayev və digərlərinin elmi qənaətlərinə görə Naxçıvanın nuhla bağlılığı tutarlı faktlarla təsdiqlənmiş, məşhur Dünya tufanından sonra Nuhun Naxçıvanda yaşaması və onun qəbrinin də Naxçıvanda olması sübuta yetirilmişdir. Nuhun qəbrinin Naxçıvanda olmasını, hətta qəbri öz

gözləri ilə gördüyünü XIX əsrin 80-ci illərində Naxçıvan məktəblərində işləmiş görkəmli maarifçi K.A.Nikitin özünün «Naxçıvan şəhəri və Naxçıvan mahalı» adlı yazısında [12, s. 2] qeyd etmiş, Azərbaycan realist rəssamlığının banisi Bəhruz Kəngərli naturadan Nuhun qəbri üzərindəki türbənin rəsmini yaratmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin «Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında» 28 iyun 2006-cı il tarixli sərəncamı və həmin sərəncamla əlaqədar görülmüş işlər də yuxarıda deyilənləri bir daha təsdiqləyir. Nuh və Nuh tufanı ilə əlaqədar kifayət qədər elmi dəlillər olduğunu nəzərə alıb, mövzunun klassik Azərbaycan şeirində necə əks olunması istiqamətində araşdırmalar aparmağı məqsədəuyğun hesab etdik. Azərbaycan klassik şeirinin yarandığı vaxtdan ötən min ilə yaxın zaman kəsiyində yaranmış poeziya örnəklərimizə nəzər salarkən məlum olur ki, Xaqanidən, Nizamidən üzü bu yana görkəmli Azərbaycan şairlərinin əksəriyyəti Nuh mövzusuna toxunmuş, bədii sözün qüdrəti ilə bu əfsanələşmiş tarixi hadisəyə öz real münasibətlərini bildirmişlər.

Azərbaycan klassik şeirinin ən görkəmli nümayəndələrindən olan Xaqani Şirvani özünün məşhur «Töhfətül-İraqeyn» poemasında atası Nəccar Əli haqqında danışarkən ondan aldığı tərbiyə ilə qurduğu ilham taxtını gövhərdən də qiymətli, uca tutur və həmin taxtı yalnız Nuha yadigar verməyə layiq bilir:

Təbim bəzəyərsə bu taxtı əgər,
Olmaz bir gövhər də ona bərabər.
Nuh hanı ki, ona verim yadigar,
Bu memar təbimdən, səttarə, pərgar [1, s. 25].

Dahi Azərbaycan şairi Nizami Gəncəvi «Sirlər xəzinəsi» poemasının «Zamana adamlarının həyasızlığı haqqında» adlı bölmədə Nuhla bağlı çox maraqlı bir məqama toxunur. Dini rəvayətə görə, sənəti nəccarlıq olan Nuh 50 yaşına çatanda özünü peyğəmbər elan etsə də, xalqın böyük bir hissəsi yenə də onun sözünə inanmır, onu inkar edirlər və buna görə də o özünün düzəltdiyi gəmiyə yalnız ailəsini və ən yaxın adamlarını mindirir. Nizami Gəncəvi «Sirlər xəzinəsi»ndə özünə, təzə-tər sözlərinə inanmayan insanları peyğəmbəri inkar edən «Nuh qövmi»nə bənzədir [2, s. 90]:

Mənim ruh bağı kimi
sözlərimdir təzə-tər.

Onlar Nuh qövmi kimi
çoxdan inkar edirlər...

Füzuli poeziyasında Nuh mövzusuna daha geniş yer verilir, zəmanədən şikayətlər, insana qarşı haqsızlıqlar təsvir edilməklə dünyanın gedişatının Nuh tufanından da çox-çox təlatümlü bir mahiyyət kəsb etdiyi göstərilir. Nuh tufanının təlatümlü, dalğalı dünyada kiçik bir qətrə olduğu təsvir edilir. Həmçinin şairin qənaətinə görə avara, həyatını mənasız keçirən insanlar nə qədər əl-qol atıb üzməyə çalışsalar da bu dəryanı keçə bilmir, həyat dənizinin coşub kükrəyən dalğalarında boğulurlar. Yuxarıda qeyd olunan fəlsəfi qənaəti böyük Füzuli qəsidələrinin birində belə təsvir edir:

Soyarkən kafəri hər dəm
deyərsən ki, həlal işdir.
Sözün indi nədir bəs kim,
soyursan hər müsəlmani?
Bu dünya dalğalı dəryadır,
ondan bir kiçik qətrə
Göründü Nuh dövründə,
dedilər Nuh tufanı.
Boğulmaq qorxusundan
bu dənizdə hər bir avarə
Atar əl-qol, üzər, lakin
keçə bilməz bu dəryani [3, s. 235].

Digər bir qəsidəsində Füzuli haqqında bəhs etdiyi nurani bir insanın qüdrətini sual-cavab etsən, hətta onun Nuh dövründən də xəbər verməyə qadir olduğunda görür. Deməli, müasir dövrümüzdə işlənən «Nuh əyyamı», «Nuh dövrü» ifadələri Füzuli dövründə də eyni qaydada işlənmiş, həm də Nuh dövrü Füzulinin özünün də maraq dünyasında olduğundan o həmin ifadəni şeirinə gətirmişdir:

Gər bükülmüşdür qəddi,
eyb eləməz bir pirdir.
Nuh dövründən verər bir-bir,
sual etsən, xəbər [yenə orada, s. 206].

Klassik Azərbaycan şeirində Nuh mövzusuna ən çox müraciət edən şairlərdən biri də Şah İsmayıl Xətaidir. Onun «Dəhnamə» əsərində Nuhun uzunömürlülüyündən, tufan zamanı gəminin onu xilas etməsindən, Nuhun öz amalına olan böyük inamından

bəhs edən müxtəlif beyt və misralar diqqəti gəlb edir. Ş.İ.Xətainin «Dəhnamə» əsərində verilmiş bu cür nümunələrdən aşağıdakıları göstərmək olar:

Pərvərdə olurmu cismi-biruh
Olmasa gəmisi qərq olur Nuh [4, s. 480].

***

Dəryadə sürən çü Nuh kəşti,
Pür buyi-əbir edən behişti...
Aşiq kimi sübh cuş edirsən,
Dəryaları pürnüqüş edirsən... [yenə orada, s. 446].

***

Bir təndə həzar ruhum olsa,
Hər birinə ömrü-Nuhum olsa,
Ruhumu qılam qaşuna qurban,
Cismimi qılam türabə yeksan [yenə orada, s. 482].

Azərbaycan klassik şeirində Nuh və Nuh tufanı bir növ zamanın mizan-tərəzisinə, yaxud məhək daşına çevrilərək yaxşılıq və pisliyin, ağ və qaranın, acı və şirinin, ölüm və həyatın müqayisəsi zəminində durur və həmin mövzuya müxtəlif aspektlərdən yanaşan söz ustaları həm də Nuhu bir xilaskar ilahi qüvvə, Nuh gəmisini isə həmin xilası icra edən bir missiya kimi təsvir edirlər. Həm də Nuh gəmisinə qədəm qoymaq səadətinə çatan şəxs rəmzi mənada özünü çox xoşbəxt, dünyanın bütün tufanlarından uzaq, kənar və xəbərsiz hiss edir. Saib Təbrizinin «Yoxdu mənim» rədifli qəzəlində deyildiyi kimi:

Elə yüngüldü yüküm,
Nuh məni almış gəmiyə.
Çör-çöpəm sanki, tufandan
Xəbərim yoxdu mənim.
Əymişəm qönçə kimi
Başımı öz sinəmə mən,
Saib ondan savayı
Özgə yerim yoxdu mənim [5, s. 128].

Azərbaycan klassik şeirində bir tərəfdən Nuha xilaskar kimi baxıb, ondan kömək, pənah diləyən olduğu kimi, dərd-qəm üz verəndə ağrı və iztirablarının Nuhun üzləşdiyi ağrı-acılardan az olmadığını təsvir edənlər, hicran əzabından tökdükləri göz yaşından, Nuh tufanında olduğu kimi, bütün aləmi daşqın-selab apardığını

təsvir edənlər də var. Bu iddia Q.B.Zakirin «Aparır» rədifli qəzəlində [6, s. 152] öz əksini tapır:

Mərdümi-didələrim hicr günü Nuh-asa,
O qədər əşk tökər, aləmi seylab aparır.

Dərdin çoxluğundan ah-naləsi ilə rəmzi mənada fələyi də öz halına yanmağa məcbur edən S.Ə.Şirvani də dərd-qəm əlindən ürəkdən ağlayıb tökdüyü göz yaşı ilə axırda Aləmə Nuh tufanı kimi tufan etdiyini göstərir:

Şəbi-hicran o qədər naləvi əfğan etdim,
Ta ki, çeşmi-fələki halıma giryan etdim.
O qədər ağladım ol mah qəmindən, Seyyid,
Aqibət Nuh kimi aləmə tufan etdim [7, s. 196].

Xurşidbanu Natəvanın da Nuhla bağlı fikirləri S.Ə.Şirvaninin fikirləri ilə üst-üstə düşür. Ancaq S.Ə.Şirvanidən fərqli olaraq Natəvan fələyi öz dərdinə şərik etmir, dərdini bilən bir kimsə olmadığından gileylənir, öz qanı, canı və həyatı bahasına dərdinə dərman etdiyini və göz yaşı ilə Nuh tufanı kimi tufan qopardığını bəyan edir:

Yoxdu bir kimsə məgər dərdimi bilsin, ya rəb!
Ki mən öz qanım ilə dərdimə dərman etdim.
Dərdi-hicrində gözüm yaşı tutub dünyanı,
Nuh tufanı kimi gör ki, nə tufan etdim [8, s. 22].

Dərdinin çoxluğundan gileylənən Heyran xanım da qanlı göz yaşından Nuh tufanına bənzər tufan qopduğunu təsvir edir və qarşısındakı güvəndiyi insanı Nuh-Nəbi kimi bu tufanı duymağa, onun halını bilməyə çağırır:

Dildarıma həsrət gözümün qanlı yaşından
Tufanə baxıb, halımı bil, Nuhu-nəbisən [9, s. 60].

Yaradıcılığı boyu paklıq, saflıq və müqəddəslik kimi yüksək əxlaqi keyfiyyətlər aşılayan, öz niyyəti ilə də dünyasını dəyişərkən müqəddəs bir məkanda dəfn olunan A.Bakıxanovun Nuh haqqında baxışları da öz sələflərindən və müasirlərindən fərqlənir. O, sitəmkar bir gözəlin eşqinə düşərsə, Nuh kimi daşqınla, ancaq göz yaşından yaranacaq daşqınla üzləşəcəyini düşünür və özü də həyatı boyu ismət məqamında, ismət guşəsində yaşadığını yada salır, özünü qarğıyır ki, bu məqamdan çıxsam, qanım hədəfə axsın:

Nuh kimi kuyinə düşsəm o sitəmkar gözəlin,
Qorxuram göz yaşın axır məni siylaba verər.

Qüdsi, ömründə tutub guşeyi-ismət daim,
Qanı axsın hədəfə çıxsa bu ismətdən əgər [10, s. 252].

Maraqlıdır ki, klassik Azərbaycan şeirinin ayrılmaz qolu olan aşıq şeirində də Nuh və Nuh tufanı diqqət mərkəzində olmuş, aşıq şeirimizin yaradıcıları bu mövzuya öz münasibətlərini bildirmişlər. XVIII əsr aşıq şeirimizin tanınmış nümayəndələrindən olan Xəstə Qasım «İnsan» adlı qoşmasında dünyanın faniliyindən danışaraq, Nuh kimi, İsgəndər kimi böyük şəxsiyyətlərin adını çəkərək dünyanın onlara da vəfa qılmadığını göstərməklə öz müasirlərini yaxşı əməl sahibi olmağa çağırır:

Bu dünya dediyin fanidir, fani,
Əzəl Nuh gəlmişdi, görünmür hanı?
Yola saldı İsgəndər tək xaqanı,
Bizə də əsəcək bad elə, insan [5, s. 330].

Azərbaycan aşıq sənətinin çox görkəmli nümayəndəsi Aşıq Ələsgər də qoşma-müstəzadlarının birində Nuh və Nuh tufanı haqqında çox maraqlı, elm üçün bu gün də mübahisəli olan və dəqiq elmi həllini tapmayan mülahizələr irəli sürmüşdür:

Altıda qarışdı Nuhun tufanı,
Qırx ildə sərgərdan gəzdi hər yanı.
Altı min altı yüz insan, heyvanı,
Hər kəs öz dililə eylədi fəryad,
istədi imdad.
Neçə müddət qərq oldular tufanə,
Əmr etdi, kəbutər gəzdi hər yanə.
İki yüz otuzda tapdı bir danə,
Nuh üçün fəmində gətirdi sovqat,
qıldı ibadət [11, s. 181].

Azərbaycan klassik şeirinin son dövr görkəmli nümayəndələrindən olan M.Ə.Sabirin, H.Cavidin, M.Hadinin və digər şairlərin yaradıcılığında da Nuh və Nuh tufanı ilə bağlı maraqlı mülahizələr irəli sürülmüşdür ki, bütün bunlar da bir daha sübut edir ki, hər bir tarixi hadisə həyatın güzgüsü olan ədəbiyyatda, o cümlədən poeziya sənətində öz əksini tapır.

ƏDƏBİYYAT

1. Azərbaycan ədəbiyyatı inciləri. Bakı: Yazıçı, 1988.
2. Azərbaycan klassik ədəbiyyatı kitabxanası: 20 cilddə, IV c., Bakı: Elm, 1985.
3. Azərbaycan klassik ədəbiyyatı kitabxanası: 20 cilddə, IV c., Bakı: Elm, 1986.
4. Azərbaycan klassik ədəbiyyatı kitabxanası: 20 cilddə, III c., Bakı: Elm, 1984.
5. Azərbaycan klassik ədəbiyyatı kitabxanası: 20 cilddə, VI c., Bakı: Elm, 1988.
6. Zakir Q.B. Seçilmiş əsərləri: Bakı: Azərb. Dövl. Nəşr., 1957.
7. Şirvani S.Ə. Seçilmiş əsərləri: 3 cilddə, I c., Bakı: Avrasiya press, 2005.
8. Natəvan X.B. Əsərləri. Bakı: Lider, 2004.
9. Heyran xanım. Seçilmiş əsərləri. Bakı: Lider nəşriyyat, 2004.
10. Bakıxanov A. Seçilmiş əsərləri. Bakı: Avrasiya press, 2005.
11. Aşıq Ələsgər. Əsərləri. Bakı: AEA nəşriyyatı, 1963.
12. «Şərq qapısı» qəz., 2006, 29 iyun, № 114.

QADİR ƏLİYEV
Naxçıvan Dövlət Universiteti

NUH TÜRBƏSİNİN HƏNDƏSİ NAXIŞLARININ TƏHLİLİ

İçərisində yaşadığımız minillikdə klassik ornamentlərin XI-XVI yüzilliklərə aid ən gözəl nümunələri Əfqanistan, Orta Asiya, İran, Azərbaycan və Türkiyə ərazisində rast gəlinir. Bu naxışlar harmoniya yaradan, boşluqlar dolduran ümumi naxış kompozisiyasının ritmini, ölçülülüyünü təşkil edən bir vasitədir. Orta əsr abidələrinin interyer və eksteryerlərində həndəsi naxışlardan geniş şəkildə istifadə edilmişdir.

Əldə olan materiallar göstərir ki, yazılardan həndəsi ornamentlər XII əsrdə Savə, Marağa, Naxçıvan, Qəzvin və Qəznədə, XIII əsrdə Konyada, XIV əsrdə Bərdə, İsfahan, Təbriz, XV əsrdə isə əsasən Orta Asiyada daha çox yaranmışdır. Haqqında danışdığımız dövrlərdə göstərilən ölkələrdə Səlcuqlar, Qəznəlilər, Xarəzmşahlar, Anadolu səlcuqları, Atabəylər, Elxanilər hökmranlıq edirdilər. Bu dövrlərdə memarlıq sürətlə inkişaf edir, memarlıq sahəsində görkəmli sənətkarlar yetişir. Mədəniyyət və elmin bütün sahələrinin inkişafı üçün əlverişli şərait yaranır, şəhərsalma, memarlıq və eləcə də tətbiqi və təsviri incəsənət xeyli inkişaf edir.

Bu ölkələrdə mədəniyyətin, ədəbiyyatın və incəsənətin, təbiət elmlərinin, riyaziyyatın, fəlsəfənin və ümumiyyətlə bütün elmlərin coşqun sürətlə inkişaf etdiyini nəzərə alsaq, bu dövrü İslam Şərqinin intibah dövrü adlandırmaq olar.

Məlumdur ki, kərpic dekoru Azərbaycan memarlığında özünün inkişaf zirvəsinə XII əsrdə çatmışdır. Kərpicin hazırlanma texnikası sınıqxətli həndəsi naxışlara daha uyğun idi. Ona görə bütün Səlcuq memarlıq bəzəyində olduğu kimi, Azərbaycanın XI-XIII əsrlər dövrü memarlığında da relyefli kərpic dekoru ilə yalnız düzxətli həndəsi naxışlar qurmuşlar.

Hər hansı sənət nümunəsinin kimə aid edildiyi elmi əhəmiyyət kəsb edir. Haqqında danışdığımız sənət qolunun Azərbaycan, Türk, Özbək, İran, Əfqan sənətinə xırdalanaraq öyrənilməsi yanlışdır. Bu sənət qolu vahid harmoniya Qanununa söykənərək islami xarakter daşıyır. Təsadüfi deyil ki, Orta Asiyanın ən ucqar nöqtələrindən tutmuş ta İspaniyaya qədər yuxarıda göstərdiyimiz

memarlıq nümunələrinə rast gəlmək olar. Bu da həmin dövrlərdə həmin ölkələrdə vahid İslam ideologiyasının hakim olması ilə izah edilməlidir. Ancaq İslamdan öncə qədim türk sənət növlərinin həndəsi naxış yaradıcılığına həlledici təsirini nəzərə almamaq olmaz.

Eradan əvvəl qədim türk köçəri sənət növlərinə daxil olan dekorativ və tətbiqi sənət növləri qablar, silahlar, keçələr üzərində müxtəlif naxışların olması məlumdur.

Minilliyimizdə onlar ən yüksək həllini memarlıq abidələrində tapmışdır və bu abidələr də onları günümüzə qədər gətirib çıxarmışdır.

Klassik naxışların həndəsi ornamentləri indiyə kimi yaşada bilən memarlıq abidələri: məscidlər, türbələr, karvansaralar memarlıq quruluşlarına görə sadə olan bu memarlıq incilər funksiyalarına, ənənələrinə sadiq qalmaqla, ətraf mühitə uyğun gəlməklə gözəllik həllini maksimal sadəliklə tapmışdır.

Naxış yaradıcılığının ümumi cəhəti səth müstəvilərinin naxış elementləri ilə sıx doldurulmasıdır. Nəticədə səth müstəvisinin sadəliyi naxış mürəkkəbliyi ilə aradan qaldırılır. Məlumdur ki, orta əsr naxışları üç qrupa bölünür:

1. Bitki və canlı varlıqların stilizə edilməsindən yaranan naxışlar.

2. Naxış elementi kimi semantikası bilinməyən həndəsi fiqurlardan yaranan naxışlar;

3. Ərəb qrafikasından düzəldilmiş epiqrafik ornamentlər.

Nuh türbəsinin həndəsi naxışlarının təhlili

Qalıqları dövrümüzə gəlib çatmış Nuh türbəsi araşdırıcıların diqqətini son dövrlərdə özünə cəlb edir. Hazırda bu türbə Naxçıvan şəhərinin cənub tərəfində Köhnəqala adlanan ərazidə yenidən qurulmuşdur. Bərpadan əvvəl 2006-cı ildə aşkara çıxarılan türbə divarının qalıqları içərisində bəzi naxış nümunələri tapılmışdır. Bu parça naxış nümunələrinin kompozisiyası tam olmadığı üçün onların quruluşunun açılması və qrafiki analizi müəyyən çətinlik törədir. Lakin naxış qalıqları diqqətlə tədqiq edildikdən sonra onların kompozisiyasını və formasını ala bilmişik.

Yuxarıda göstərdiyimiz üç naxış qrupundan ikisi tədqiq etdiyimiz Nuh türbəsinin qalıqlarından əldə edilmişdir:

- Naxış elementi kimi semantikası bilinməyən həndəsi fiqurlardan yaranan naxışlar və Ərəb qrafikasından düzəldilmiş həndəsi ornamentlər.

Biz naxış elementi kimi semantikası bilinməyən həndəsi fiqurlardan yaranan naxışların quruluşunun açılması ilə məşğul olacağıq.

Həndəsi naxışın quruluşunu almaq üçün onun təkrar olunan müəyyən qəfəs içərisindəki hissəsini müəyyən etməliyik.

Naxış parça nümunələrini nəzərdən keçirdikdə ilk baxışda diqqəti cəlb edən aşağıdakı formaları görürük:

1. Kompozisiyanın özəyini təşkil edən, düzgün oniki-bucaqlı formaya malik olan ulduz çoxbucaqlısı;

2. Kompozisiyanın köməkçi elementini təşkil edən düzgün səkkizbucaqlı formaya malik olan ulduz çoxbucaqlısı.

Beləliklə, həndəsi naxışın qurulma yolu – hansı mütənasiblik sistemindən istifadə edəcəyimiz prinsip aydınlaşır. Aydın olur ki, bu zaman iki mütənasiblik sistemindən istifadə etməliyik:

1. Düzgün altıbucaqlı (heksaqon) və bu mənbədən yaranan mütənasiblik sistemi; Bu zaman ikiqat düzgün altıbucaqlı sistemindən istifadə olunmalıdır.

2. Kvadrat və bu mənbədən yaranan mütənasiblik sistemi.


Araşdırma yolu aydınlaşdırıldıqdan sonra qrafik üzrə həndəsi naxışın qurulma ardıcıllığını göstərə bilərik.

- Birinci mərhələdə çevrə daxilinə düzgün altıbucaqlı çəkilir (şəkil 1A).

- İkinci mərhələdə təpələri düzgün ikiqat altıbucaqlının hər bir təpəsi üzərində olan kvadratlar sistemi çəkilir. Beləliklə, çevrə daxilində mərkəz nöqtə ətrafında 30 dərəcə bucaq qədər dönən üç ədəd kvadrat sistemi alınır (şəkil 1B).


- Üçüncü mərhələdə bu kvadratlar sistemini daxilə – mərkəz nöqtəsinə doğru iki addım yaxınlaşdırırıq. Artıq bu kiçilmiş kvadratlar sistemi ornamentin düzgün ulduz onikibucaqlı formaya malik olan mərkəz fiqurunu müəyyən edir (şəkil 1C).

- Dördüncü mərhələdə bu ulduz onikibucaqlı üzərində qurulma qanunauyğunluğu aparılaraq düzgün altıbucaqlı sistemə malik olan şüa qəfəsinin alınması göstərilib (şəkil 1D).



Şəkil 1

Beşinci mərhələdə düzgün altıbucaqlı sistemə malik olan şüa qəfəsində həndəsi ornamentin alınma qanunauyğunluğu, eyni zamanda düzgün altıbucaqlı sistem daxilində həndəsi ornamentin ümumi şəkli göstərilib ki, bu naxış kompozisiyası ilə müstəvi səthini tam örtə bilərik (şəkil 2). Məlumdur ki, müstəvini düzgün altıbucaqlı sistem üzrə tam örtmək olar.



Şəkil 2

Yuxarıda göstərdiyimiz kimi, bu quruluş düzgün altıbucaqlı, kvadrat və onların birgə kombinasiyalarından yaranan həndəsi mütənasiblik sisteminə daxildir.

Həndəsi naxış quruluşundakı harmonik qanunlar, həndəsi mütənasiblik sistemləri türbənin orta əsr tikinti və ya bərpa tarixi haqqında müəyyən fikir yürütməyə əsas verir. Bunun üçün böyük Əcəmi Naxçıvaninin XII əsrdə Naxçıvan şəhərində yaratdığı iki türbənin həndəsi ornamentləri ilə müqayisə etmək lazımdır. Burada iki fakt nəzərə alınmalıdır.

1. Nuh türbəsinin ornamentlərinin quruluşu.

Türbənin həndəsi ornamentlərinin harmonik quruluşu Yusif Küseyir oğlu türbəsinin ornamentlərinin harmonik quruluşundan daha mürəkkəb və incə, Mömінə Xatun türbəsinin həndəsi ornamentlərinin harmonik quruluşundan daha sadədir.

2. Naxış kompozisiyalarının qalıqarı içərisində tapılmış «Allah» sozü.

Məmumdur ki, Yusif Küseyir oğlu türbəsinin naxış kompozisiyalarında birbaşa «Allah» sözünə rast gəlinmir. Mömінə xatın türbəsində isə bu söz naxış kompozisiyalarının hissəsinə çevrilir. Nuh türbəsində isə «Allah» sözü tək haldadır.

Beləliklə, Nuh türbəsi Yusif Küseyir oğlu türbəsinin tikinti tarixi ilə Mömінə xatın türbəsinin tikinti tarixi arasına düşməlidir. Məlmumdur ki, Yusif Küseyir oğlu türbəsinin tikinti tarixi 1162-ci ilə, Mömінə xatın türbəsinin tikinti tarixi 1186-cı ilə təsadüf edir. Beləliklə, Nuh türbəsinin tikinti tarixi XII əsrin 70-ci illərinə aid edilə bilər.

Bu dövrdə Naxçıvan şəhərinin Atabəylər dövlətinin paytaxtı olmasını, Naxçıvan memarlıq məktəbinin intibah mərhələsində olduğunu nəzərə alaraq həmin türbənin Əcəmi Əbubəkr oğlu Naxçıvani və yaxud bu memarlıq məktəbinə mənsub başqa memar tərəfindən inşa edildiyi qənaətinə gəlmək olar.

ƏDƏBİYYAT

1. Naxçıvan abidələri. Naxçıvan, 2008.
2. Qiyasi C. Nizami dövrü memarlıq abidələri. Bakı, 1991.
3. Əliyev Q.Ə. Memar Əcəmi Naxçıvani yaradıcılığında ahəngdarlıq. Bakı, 2007.
4. Məmmədov X.S., Əmiraslanov İ.R. Naxışların yaddaşı. Bakı, 1981.
5. Шевелев И. Логика архитектурной гармонии. М., 1973.
6. El-Said, Rarman A. Ceometrical Concepts of İslamik Art. London, 1976.

NİZAMİ ALIYEV
AMEA Naxçıvan Bölməsi

ƏCƏMİ MEMARLIQ MƏKTƏBİNİN DAHA BİR YADİGARI – NAXÇIVANDA NUH TÜRBƏSİ

Əzəli və əbədi Azərbaycan torpağı olan Naxçıvan diyarı ta qədim zamanlardan bəri bəşər sivilizasiyasının beşiklərindən biri olmuş, Şərqin ticarət, sənətkarlıq, elm və mədəniyyət mərkəzi kimi şöhrət tapmışdır.

Naxçıvan ərazisində yerləşən tayfaların ilk mədəniyyət abidələri Daş dövrünə təsadüf edir. Aparılan arxeoloji qazıntılar zamanı bu dövrə aid I Kültəpə, Sədərək, Xalaç, Ərəbyengicə, Ovçulartəpəsi və digər abidələr qeydə alınmışdır [1, s. 38].

Eradan əvvəl VIII-VII əsrlərdə Naxçıvan ərazisi Şərqin qədim quldar dövlətlərindən Manna, Midiya və IV əsrdə Atropatena dövlətlərinin bir hissəsi olmuşdur. Hələ uzaq keçmişdə indiki Naxçıvan ərazisində – Naxçıvan, Ordubad, Culfa, Gilan, Azad, Astabad və s. kimi iri sənətkarlıq və ticarət mərkəzləri yaranmış, inkişaf etmişdir [2, s. 9].

Qədim yunan alimi Klavdi Ptolemey «Coğrafiya» əsərində (e.ə. II əsr) Naxçıvanı (Naksuana) Şərqdə Nuh deyilən peyğəmbərin məskəni kimi xatırladır və Zaqafqaziyanın ən iri şəhərlərindən biri olduğunu qeyd edir [3, s. 23].

Naxçıvan sözünün mənası haqqında müxtəlif fikirlər vardır. K. Ptolemeyin «Coğrafiya»sında «Naksuana», Sasani hökmdarlarının VI əsrdə zərb etdirdikləri sikkələr üzərində «Naxç», orta əsr ərəb və fars mənbələrində «Nəxcir», «Nəxcan», «Naxcuan», «Nəşəva», «Narşivan», «Nəqşicahan» şəklində işlədilmişdir.

Son zamanlar bir çox tədqiqatçılar «Naxçıvan» sözünü Nuh əfsanəsi ilə bağlayaraq, «Nuh daban» – Nuhun dabanının ilk basıldığı yer, «Nuh çıxan», yəni Nuhun ilk çıxdığı, ilk dayandığı, ilk köçdüyü yer mənasını verdiyini söyləyirlər. Xalq arasında gəzən rəvayətə görə, Nuh (ə) daşqından sonra ailəsi ilə birgə bu şəhəri qurmuş, burada yaşamış və burada vəfat etmişdir.

Naxçıvanda olmuş bir çox əcnəbi səyyahlar: Dübua de Monpere (1834), Qriqoryev (1836), Şopen (1852), Nikitin (1881), Sısoyev (1927) Nuhun və bacısının məzarlarının Naxçıvan şə-

hərində, arvadının qəbrinin isə İran İslam Respublikasının Mərənd şəhərində olduğunu qeyd etmişlər [4, s. 106].



Şəkil 1. *Nuhun qəbri 1916. S., b. 5.5 x 7. Bakı ş., R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi*

Minilliklər boyu naxçıvanlı sənətkarların yaratdıqları, bir çox nadir sənət əsərləri və dəyərli tikililər zamanın amansız dağıntılarına məruz qalaraq məhv olmuş, az bir hissəsi dövrümüzə qədər gəlib çata bilmişdir. Bu abidələrdən bəziləri, o cümlədən Yusif Küseyir oğlu, Mömünə xatın, Qarabağlar və Gülüstan türbələri nəinki Şərqin, hətta dünya memarlıq sənətinin inciləri sayılır.

Taleyi qara yazılmış belə abidələrdən biri də XX əsrin əvvəllərində ruskommunist terrorunun qurbanı olan «Nuhun türbəsi» olmuşdur. Xalq arasında «Nuhun qəbri» adı ilə məşhur olan bu türbənin ateistlər tərəfindən dağıdılmış xarabalıqları uzun müddət Naxçıvan şəhərinin cənub-şərq hissəsindəki Köhnəqala (Yezidabad) adlanan qalanın içərisində qorunub qalmışdır. Köhnəqala iki hissədən – əsas iç qala sayılan Narınqala və nisbətən sonra tikilmiş Böyükqaladan ibarətdir. «Nuhun türbəsi» Böyükqalanın şimal-qərb küncündədir.




Şəkil 2. *Nuhun qəbri. 1919. S., b. 10 x 13. Bakı ş., R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi*

«Nuhun türbəsi» haqqında ən müfəssəl məlumata Azərbaycanın ilk peşəkar rəssamı Bəhruz Kəngərlinin 1916-1921-ci illərdə naturadan çəkdiyi «Nuhun qəbri» adlı silsilə əsərlərində rast gəlirik. Böyük tarixi əhəmiyyət kəsb edən bu əsərlər altı ayrı-ayrı tablodan ibarətdir. Əsərlərin beşi Bakı şəhərindəki Azərbaycan Dövlət İncəsənət Muzeyində, biri isə Naxçıvandakı Bəhruz Kəngərli Muzeyində saxlanılır. Bu əsərlərdən dördü sulu boya, ikisi isə yağlı boya texnikası ilə işlənmişdir. Rəssam «Nuhun qəbri» adlandırdığı əsərlərin birincisini 1916-cı ilin yayında çəkmişdir (şəkil 1). Əsər akvarel texnikası ilə işlənib. Tabloda diqqəti cəlb edən əsas amillərdən biri türbənin memarlıq formasının və tikinti materiallarının dəqiqliklə təsvir edilməsidir. Əsərdə sərdabənin torpağa yaxın hissələrinin tökülmüş suvağının altından görünən hörgünün qırmızı və çəhrayı rəngdəki kərpicləri Naxçıvan memarlıq məktəbinə xas olan bişmiş kərpiclərlə eynilik təşkil edir. Sərdabənin qapı boşluğunun çatma tağı Mömünə xatın türbəsinin sərdabə qapısının giriş tağı ilə eyni üslubda tikilmişdir. Bir başqa oxşarlıq isə türbənin səkkizbucaqlı formasının Yusif Küseyir oğlu türbəsinin səkkizüzlü prizmavari həndəsi quruluşu ilə eyni olmasıdır.



Şəkil 3. *Nuhun qəbri. 1920. S. b., 10 x 15.*
Bakı ş., R. Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi

Rəssam «Nuhun türbəsi» adlı ikinci tablosunu isə üç il so-nra – 1919-cu ilin yazında yaratmışdır (şəkil 2). Əsər etüd xarakteri daşısa da, natura quruluşunun düzgünlüyü, məkanın aydın verilməsi və zaman baxımından olduqca qiymətli sayılır. Rəsmdə türbənin düzgün səkkizüzlü quruluşu bir daha bütün incəliyi ilə gözümüz önündə sərgilənir. Tablodan göründüyü kimi, türbənin 1916-cı ildəki misgin görünüşdən fərqli olaraq 1919-cu ildəki təsvirdə sərdabənin özü və girişinin hasar divarları təmir edilmiş, binanın fasadı ağardılmışdır, ətrafı baxımlı və təmizdir. Bu müqayisə onu deməyə əsas verir ki, Naxçıvanda Sovet Sosialist Respublikası qurulana–28 iyul 1920-ci ilə qədər «Nuhun türbəsi» yerli əhali tərəfindən müqəddəs bir ziyarətgah kimi minilliklər boyu qorunmuş və həmişə diqqət mərkəzində olmuşdur [5, s. 34].



Şəkil 4. *Nuhun qəbri. 1920. Y., b. ∅ 20.8.*
Bakı ş., R. Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi

Rəssam sonrakı dörd tablodan ikisini 1920-ci ildə (şəkil 3-4), son ikisini isə 1921-ci ildə çəkmişdir (şəkil 5-6). Əsərlərin dördünün də görünüşündən türbənin mərhələlərlə dağıdıldığını aydınca sezmək olur. Bu dağıntıların şahidi olan naturalist rəssam abidənin tarixi əhəmiyyətini nəzərə alaraq, onun mövcud vəziyyətini kətana köçürüb sonrakı nəsillərə çatdırmağı özünə borc bilmişdir [6, s. 204-210].



Şəkil 5. *Nuhun qəbri. 1921. S., b. 7.5 x 9.5. Bakı ş., R. Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi*

1926-1927-ci ilin yayında Azərbaycan Asar Ətiqə Mühafizə Komitəsinin (Azkomstaris) xətti ilə Naxçıvandakı tarixi və memarlıq abidələrini qeydə almaq üçün göndərilmiş komissiya üzvlərindən V.M.Sısoyev Nuhun türbəsini də ziyarət etmişdir. O, tikintinin qalıqlarını tədqiq edərək türbənin memarlıq quruluşu, planı və ölçüləri haqqında müfəssəl məlumat vermişdir. Sısoyevin qeyd etdiyinə görə, Nuh türbəsi səkkizüzlüdür. Onun diametri 7,5, tərəflərinin uzunluqları 2,5 m-dir. Sərdabənin mərkəzindəki səkkizüzlü daş sütunun perimetri isə 2 m-ə qədərdir. Ayrıca Sısoyev türbənin özül divarlarının 1 m-ə qədərinin salamat qaldığını da qeyd etmişdir.



Şəkil 6. *Nuhun qəbri. 1921. Y., b. 30 x 33.*
Naxçıvan ş., Bəhruz Kəngərli Muzeyi

K.A.Nikitin «Naxçıvan şəhəri və Naxçıvan qəzası» (Tiflis, 1882) adlı məqaləsində Nuhun türbəsini aşağıdakı kimi təsvir etmişdir: «Nuhun qəbri Naxçıvan şəhərinin Cənub tərəfində, qədim qalanın qalıqlarının yaxınlığında yerləşir. Məzarın hazırkı görkəmi VIII yüzillikdə bərpa edilmişdir. İndiki görkəmdə sərdabə yerdən qalxan, çox da böyük olmayan türbəni xatırladır. Əvvəlcə burada məbəd olmuş, sonra uçub dağıdılmışdır. Hazırkı türbə keçmiş məbədin aşağı mərtəbəsinin qalıqlarından ibarətdir. Məbədin pilləkənlərlə aşağı düşmək tələb olunan interyeri dairəvi, ortadan daş dirəklə möhkəmləndirilmiş sərdabə tipindədir. Rəvayətə görə, həmin dirəyin altında Nuhun cənazəsi yerləşir. Sərdabədə obrazların və bəzəklərin təsviri yoxdur. Sərdabənin divarları ağardılmış, səyyahların və ibadətə gələn zəvvarların adları ilə müxtəlif dillərdə yazılıb doldurulmuşdur» [7, s. 378-379].

Bizim fikrimizcə, Nikitin sərdabənin indiki görünüşünün VIII yüzillikdə bərpa edildiyini deyəndə, türbənin tikintisinin bişmiş kərpiclə aparıldığını nəzərə almamışdır. Bildiyimiz kimi, bişmiş kərpic Azərbaycanın orta əsr memarlığında özünə möhkəm yer tutmuş bir materialdır. Bütöv və parçalanmış bişmiş kərpic qalıqlarına bütün orta əsr abidələrində təsadüf edilir. Bununla belə, bişmiş kərpic istehsalının tarixi indiyə qədər məlum deyildir. Azərbaycan ərazisindən tapılmış ən qədim kərpicbişirmə kürəsi 1963-cü ildə Torpaqqalada (Beyləqan r.) aşkar edilmişdir [8, s. 164].

Mütəxəssislərin fikrincə, Torpaqqala kürəsini IX əsrdən qədimə aid etmək mümkün deyildir. Çünki kürənin hörgüsündə də orta əsr kərpiclərindən geniş şəkildə istifadə edilmişdir. Ayrıca Nuhun türbəsinin qalıqlarından aşkar olunmuş 20x20x4,5-5,0 sm və 19x19x4,5-5,0 sm ölçülərdəki bişmiş kərpiclər və gəc materialı XII əsrdə Naxçıvanda tikilmiş Yusif Küseyir oğlu və Mömünə xatın türbələrinin hörgülərində əsas material kimi istifadə edilmiş gəc materialı, kərpiclərin ölçüləri və bişirilmə texnikası ilə eynidir. Həmin türbələrin tikintisində işlədilən əsas kərpic növündən başqa, ornamental bloklarda – künclüklərdə və tavalarda işlədilən 3,5 sm qalınlıqda və müxtəlif uzunluqda olan xüsusi formalı kərpiclər Nuhun türbəsindəki ornamental bloklardakı kərpiclərdən qətiyyən fərqlənmir. Bütün bu sadaladıqlarımızdan belə nəticəyə gəlmək olur ki, Nuh türbəsi də Əcəmi memarlıq məktəbinin məhsuludur və XII əsrin ikinci yarısında Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən tikilmişdir. Türbənin Əcəmi memarlıq məktəbinə aid olmasını sübut edən əsaslardan biri də Nuhun türbəsinin sərdabəsindəki göbələkvari konstruksiyanın Xaraba Gilan və Mömünə Xatun türbələrinin sərdabəsindəki konstruktiv quruluşla eyni olmasıdır. Bu tip sərdabə quruluşu olan türbələrə əsasən Naxçıvan memarlıq abidələrində daha çox rast gəlinir. Gilan türbəsinin sərdabəsində örtüyün ortası iç məkanın mərkəzində ucalan göbələkvari – yuxarıya doğru genişlənən sütuna dayanır. Sütun da planda səkkizbucaqlıdır. Buna bənzər mərkəzi dayaq sisiteminə Şimali Azərbaycanda indiyəcən Xaraba Gilan türbəsindən sonra cəmi iki abidədə – Nuhun və Mömünə xatın türbələrinin sərdabələrində rast gəlinib. Nuhun türbəsinin sərdabə quruluşu Gilan türbəsinin sərdabə quruluşundan mürəkkəb, Mömünə xatın türbəsinin sərdabə quruluşundan isə daha sadədir. Bütün bu saydıqlarımız onu deməyə əsas verir ki, Nuhun türbəsi Gilan türbəsindən çox sonra, Mömünə xatın türbəsindən isə bir az əvvəl tikildiyini söyləyək [9, s. 90].

Nuhun türbəsinin ətrafında aparılmış qazıntılar zamanı oradan tapılmış tikinti qalıqlarından, eksteryer bloklarındakı dekorlarda kaşı bəzəklərindən çox az miqdarda istifadə olunması türbənin tikinti tarixinin müəyyənləşdirilməsində mühüm rol oynayır. Eyni zamanda Nuhun türbəsi Azərbaycan memarlıq tarixində kaşı bəzəklərindən ilk istifadə edilmiş abidə olur.

Qeyd etmək lazımdır ki, Azərbaycan memarlıq abidələrində kaşı bəzəklərindən istifadə olunma XII əsrin sonundan başlamışdır. Buna Mömінə xatın (XII əsr), Bərdə, Qarabağlar, Salmas, Xiov (XIII-XIV əsrlər) türbələrini və Təbrizin Göy məscidini (XV əsr) misal göstərmək olar.

Əgər nəzərə alsaq ki, Yusif Küseyir oğlu və Gilan türbələrinin tikintisində kaşı bəzəklərindən istifadə olunmayıb, Mömінə xatın türbəsinin tikintisində isə kaşı bəzəkləri daha çox istifadə olunub, onda bütün bu sübutlar Nuhun türbəsinin indi tapılmış qalıqlarının 1165-1185-ci illərdə Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən tikildiyini ehtimal etməyə əsas verir.

ƏDƏBİYYAT

1. Baxşəliyev V. Azərbaycan arxeologiyası. I c., Bakı: Elm, 2007, 238 s.
2. Salamzadə Ə.V., Məmmədzadə K.M. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri. Bakı: Elm, 1985, 268 s.
3. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1977, 157 s.
4. Сысоев В.М. Нахичеваский край – Нах. АССР (Отчет о поездке летом 1927 года) / Известия Азкомстариса. Вып. 4, тетрадь 2, Баку, 316 с.
5. Kərimov K. Bəhruz Kəngərli. Bakı: Az.SSR. EA nəşriyyatı, 1962, 102 s.
6. Alıyev N. «Nuhun türbəsi» Bəhruz Kəngərlinin yaradıcılığında // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, № 2, 2006, 261 s., s. 204-210.
7. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan: Bakanlar Medya, 2008, 519 s.
8. Məmmədzadə K. M. Azərbaycanda inşaat sənəti. Bakı: Elm, 1978, 210 s.
9. Qiyasi C. Nizami dövrü memarlıq abidələri. Bakı: İşıq, 1991, 257 s.











Azərbaycan MEA Naxçıvan Bölməsi
A.A.Bakıxanov adına Tarix İnstitutu
Naxçıvan Dövlət Universiteti

NUH PEYĞƏMBƏR, DÜNYA TUFANI VƏ NAXÇIVAN

(24-25 aprel 2009-cu ildə keçirilmiş beynəlxalq simpoziumun materialları)

Yığılmağa verilmiş 03.04.2010.
Çapa imzalanmış 13.04.2010.
Formatı 70X100 1/8 "Tayms" qarnituru.
Ofset çap üsulu. Həcmi 38,0 ç.v.
Sifariş № 303. Tiraj 500 nüsxə.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.